Mövlanə Seyid İmadəddin Nəsimi Əbülfəzl

İraq divanı

Bakı -1987

Tərtib edən - Qəzənfər Paşayev,
Redaktor, lüğət və şərhlər – Məmmədəli Əsgərov

NƏSİMİNİN İRAQ DİVANI

Ədəbi əlaqələr genişləndikcə bir sıra Yaxın Şərq ölkələrində Azərbaycan ədəbi dilinin inkişafında və formalaşmasında müstəsna xidmətləri olan Azərbaycan xalqının qüdrətli sənətkarı Nəsiminin yeni-yenl əlyazma nüsxələri aşkar edilir. Bu, şairin sağlığında və ölümündən sonra onun poeziyasının Şərq ölkələrində yüksək qiymətləndirildiyinə, geniş yayıldığına və böyük rəğbət qazandığına dəlalət edir. Şairin İraq Divan nüsxəsinin üzə çıxarılması dediklərimizə sübutdur.

Nəsiminin İraq Divan nüsxəsini bizə Kərkük vilayətinin Tus Xurmatu qəzasının Bəşir kəndində yaşayan, yaşı yüzü keçən, özünü Şah İsmayılın nəvə-nəticələrindən hesab edən Səyid Heydər töhfə etdi. Divanın üzü Molla Turab ibn Molla Səfil, ibn Molla Əmir tərəfindən köçürülmüşdür. Tünd qəhvəyi rəngli, qalın dəri cildli bu divan nüsxasi 286 səhifədən ibarətdir. Əlyazmanın vərəqləri iki sütunludur. Divanın səhifələrində 14-19 beyt vardır. Ölçüsü 15-21 santimetrdir. Digər nüsxəsində şairin 400-dən artıq şe'ri verilmişdir. 398 şe'r Nəsimi təxəllüsü ilə tamamlanır. Üç şe'r şairin ilk təxəllüslərindən olan Səyyid Nəsimi təxəllüsü ilə bitir. Bu divan nüsxəsində Hüseyni təxəllüsü ilə yazılmış şe'rlərə və rübailərə təsadüf edilmir. Üz qabığının iç tərəfində "Varlıya qürbət də vətəndir, yoxsula vətən də qürbətdir", -yazılmışdır. Divan Nəsiminin "İştə gör" şe'rilə başlanır və şairin həcmcə böyük bir şe'rilə tamamlanır. Son misralar belədir:

Cümlənin rizqin verdin, əzəl qism eylədin,
Kiminin yediyi ğəmdir, kiminin yağ ilə bal.
Ey Nəsimi, sən yürütdün töhvidi yer üzünə,
Yenə min əstəğfürülla, əfv qıl, ya zülcəlal.

Divan nüsxəsinin üzünün köçürülmə tarixi və kitab haqqında məlumat axırda verilmişdir:

Ruzi-şənbə bu kitab oldu tamam,
Ol Rəsulun ruhuna yüz min salam.
Kətabə hul-kitab Molla Turab,
İbn Molla Səfil, ibn Molla Əmin. 1269 (1853-Q. P.)

Divan nüsxəsi səhifələnməmiş, klassik divan quruluşunda son hərflərə müvafiq düzülmüşdür. Hər səhifədəki son söz o biri səhifədə təkrarən yazılmışdır. "Payi-səhifə" (səhifə ayağı) adlanan bu üsuldan vaxtilə geniş istifadə edilmişdir.

Bir çox ölkələrdə kitab səhifələrinin nömrələnməsinə XVI əsrdə başlansa da, Şərq ölkələrində köhnə "nömrələmə" üsulu XIX əsrin axırlarına qədər davam etdiyinə görədir ki, Nəsiminin İraq Divan nüsxəsində də bu ənənəyə riayət edilmişdir. Nüsxənin bədii tərtibatı yoxdur. Şe'rlər bir-birindən şairin təxəllüsü olan qoşa misralar və iki sətirlik boş yerlə ayrılır. Bir neçə yerdə ləkə olmasına baxmayaraq, mətn aydın və oxunaqlıdır. Divanın əvvəl və orta vərəqlərindən bir neçəsi cırılmışdır. Bu nüsxəyə şairin yalnız Azərbaycan dilində yazdığı qəzəllər və iki tiyuq daxil edilmişdir:

Ya rəb, məni sən aləmə sərtac etmə,
Həm siflələrin tirinə möhtac etmə.
Ya rəb, mənə bir gəncü qənaət ver kim,
Namərdə degil, mərdə də möhtac etmə.

Ya ilahi, kimsə heç ac olmasın,
Ac olub namərdə möhtac olmasın.
Bimürüvvət görməsin dövlət üzün,
Bihəmiyyət sahibi-tac olmasın.

Bu əvəzsiz xəzinəni İraqa üçüncü səfərim zamanı (1972-1975) iraqlı ədəbiyyatşünas Əbdüllətif Bəndəroğlu ilə əldə etdik və dili Azərbaycan dilindən fərqlənməyən, özünü türkman adlandıran Nəsimi, Füzuli xələflərinin mədəniyyət incisi olan "Yurd" qəzetində bir silsilə məqalə və yazılarla çıxış etdik.

"Ürəklərdə yaşayan şair Nəsimi" adlı məqalədə oxuyuruq: "Böyük şairimiz Nəsiminin anadan olmasının 600 illiyi münasibətilə Sovetlər Birliyində (Azərbaycanda) bu ilin əylul (sentyabr) ayında möhtəşəm şənliklər yapılacaqdır. Bu xüsusda Əbdüllətif Bəndəroğlu ilə filologiya elmləri namizədi Qəzənfər Paşayevin Nəsimi haqqında hazırladıqları kitabı avqust ayında çapdan çıxacaqdır. Kitabdan bir parçanı veririk..." (Bağdad, "Yurd" qəzeti, 16 may 1973-cü il).

Qeyd etmək lazımdır ki, hər gün Bəndəroğlunun Baş redaktor olduğu "Yurd" qəzeti redaksiyasında görüşür, şairin bu nadir Divan nüsxəsinin uzünü köçürür, əlimizdə olan kitab və materiallarla müqayisə edirdik. Bir neçə aydan sonra işi başa vurduq. Lakin işin gedişi göstərdi ki, əldə etdiyimiz əlyazma nüsxəsi haqqında qəti söz demək üçün topladığımız material kifayət deyildir. Buna görə də mən "Yurd" qəzetində "Nəsimi Divanı və biz" adlı yazı ilə çıxış etdim: "Bir neçə say öncə "Yurd" qəzetində "Nəsimi divanının İraq nüsxəsinin tapılması və həmin nüsxə əsasında Əbdüllətif Bəndəroğlu ilə bu nüsxə haqqında kitab yazacağımızı vəd etmişdik. İşimin çoxluğu üzündən və istənilən qədər material olmaması səbəbindən bu işdən mən vaz keçdim. Biz Bəndəroğlu ilə bu divan nüsxəsi haqqında fikir mübadiləsi apardıq və bu nüsxənin üzünü kiril (rus) əlifbası ilə köçürtdük. Ancaq işə başlamadıq. Hər kəs ayrıca işinə başlaya bilər. Güman edirəm ki, Əbdüllətif Bəndəroğlunun yapacağı Nəsimi kitabı İraq türkmanlarına, onların dilində yazan beyük şairin yaradıcılığını tanımaqda bir yardım olacaqdır. Bu yolda arxadaşım Əbdüllətif Bəndəroğluna müvəffəqiyyətlər diləyirəm" (Bağdad, "Yurd", 25 iyul 1973).

Sonralar Əbdüllətif Bəndəroğlu vəd etdiyi kitabı buraxdı. Lakin bu kitab həmin əlyazma nüsxəsi barədə nə tam məlumat verir, nə də bütün se'rləri əhatə edir. Qeyd etmək kifayətdir ki, Ə. Bəndəroğlu kitabına Nəsiminin İraq Divanında verilən 400-dən artıq se'rin yalnız 95-ni daxil etmişdir. Həmin se'rlərin bəzisi yarımçıq verilmiş və demək olar ki, kitabda gedən se'rlərin hamısına şairin başqa əlyazma nüsxələrində və Bakıda çap olunmuş kitablarda rast gəlinir.

Bundan başqa tədqiqatçının əlində kifayət qədər material olmaması üzündən şairin İraq Divan nüsxəsinin bir çox səhifələrində təsadüf edilən se'rlərin (məs: 3,13-14,18, 60-61, 64, 64-65, 74, 75, 81, 101, 101-102, 102, 117, 154, 155, 190-191, 201-

202, 211, 250 və s.) yalnız bu Divan nüsxəsində mövcud olduğunu söyləməsi də həqiqətdən uzaqdır. (Bax: Əbdüllətif Bən-dəroğlu. İmadəddin Nəsimi əl-Bağdadi, Araşdırma və seçilmiş şe'rləri, Bağdad, 1973). Çünki bu se'rlərə başqa əlyazma nüsxələri və kitablarda da təsadüf edilir.

Bununla belə, kitab İraqda yaşayan və azərbaycanca danışan bu xalqa Azərbaycan ədəbi dilinin və bədii fikrinin ən böyük ustadlarından biri - dahi şairimizin yaradıcılığı barədə ilk töhfə olmaq baxımından böyük qiymət kəsb edir.

Bir də ki, mərhum şairimiz Rəsul Rza demişkən: "Bu möhtəşəm ədəbi-elmi abidənin gözəl, dəqiq, maraqlı və uzunömürlü yaranmasında bir kərpic qoyanın da, yüz kərpic qoyanın da zəhməti hörmət və təqdirlə yad edilməlidir.

Nəsiminin İraq Divan nüsxəsini S. Mümtazın "Seyid İmadəddin Nəsimi", Bakı, 1926; prof. M. Quluzadənin Nəsimi. "Seçilmiş se'rləri", Bakı, 1962; akademik H. Araslının "İmadəddin Nəsimi", Bakı, 1972 və Nəsimi. "Seçilmiş əsərləri", Bakı, 1973; prof. C. Qəhrəmanovun Nəsimi. "Məndə sığar iki cahan", Bakı, 1973 və ərəb əlifbası ilə çap etdirdiyi "Nəsimi əsərlərinin elmi-təntidi mətninin üç cildliyi", Bakı, 1973 kitabları ilə müqayisə etdik. Müqayisə zamanı Nəsimi əsərlərinin elmi-tənqidi "mətninin üç çildliyi əsas götürülmüşdür.

Nəsiminin İraq Divan nüsxəini yuxarıda adı çəkilən əsərlərlə tutuşdurduqdan sonra on dörd se'rin nəsimişunaslıqda məlum olmadığını aşkar etdik. Bunlar "İştə gör", "Ondan çıxar", "Göstərir", "Yoxdur minnətim", "Bilənə", "Əlidir", "Ol", "Degilmidir" rədifli və "Yenə fəsli bahar oldu, gögərdi kuhi-səhralar",
"Nigara, pərtövi-husnün təcəlla verdi məhtabə",
"Gəl, ey sərkeş, nəsihətdən burax əqlin qulağına",
"Qılan hər nəsnəyi əmri-xudadır",
"Camalın qibləyi-əhli-səfadır",
"Ay camalın çilvəgahı rövzeyi-küldi-bərin" misraları ilə başlanan şe'rlərdir.

Bundan başqa qeyd etmək lazımdır ki, görkəmli nəsimişünas C. Qəhrəmanovun söhbət açdığı, yalnız bir əlyazmasında təsadüf edilən və buna görə də mübahisəli və qeyri-dəqiq qalan, lakin Nəsimiyə aid olması ehtimal edilən 129 se'rin 68-i şairin İraq Divan nüsxəsində verilmişdir. Bu fakt nəsimişünaslıqda güman, şübhə və ehtimalla qarşılanan 68 şe'rin məhz Nəsiminin olduğunu təsbit edir. Şairin İraq Divanında bu və ya başqa se'rlərin tərkibində gedən 50-yə qədər beytə də başqa mənbələrdə rast gəlmirik. C. Qəhrəmanovun mübahisəli se'rlər haqqındakı fikri maraq doğurur: "Nəsimi əsərlərinin tənqidi mətninin tədqiqi nəticəsində bir çox mübahisəli, tam mənasında dəqiqləşməyən şübhəli se'rlər aşkar edilmişdir. Həmin se'rlərin müəyyən hissəsinin Nəsimiyə aid olması ehtimalı çoxdur. Ancaq bircə nüsxədə verilmiş bu se'rlərdə yarımçıq beytlər, dil və üslub xətaları vardır. Başqa bir nüsxə və variantlarla müqayisə edib, şe'rin əsl mətnini dürüstləşdirmək mümkün olmadığı üçün onlar "Əlavələr"də verilmişdir. Nəsimi əsərlərinin tənqidi mətninin "Əlavələr" hissəsində verilmiş şe'rlər gələcəkdə şairin daha bir çox əlyazmaları aşkara çıxarıldıqdan sonra dürüstləşə bilər".

Bu baxımdan İraq Divan nüsxəsinin şairin ədəbi-bədii irsinin hərtərəfli öyrənilməsinə müsbət kömək edəcəyi şübhə doğurmur. Prof. C. Qəhrəmanov göstərir ki, 1932-ci ildə M. Şakir Türkiyədə "Azərbaycan yurd bilgisi" məcmuəsinin 11-12-ci nömrələrində latın əlifbası ilə Nəsimi divanlarına düşməyən bir neçə se'ri Nəsiminin

adına çap etdirmişdir. Həmin se'rlərdən biri "Yoxdur minnətim", Nəsiminin İraq Divan nusxəsində (səh. 130) aşkar edilmişdir.

Cahangir Qəhrəmanovun Azərbaycan EA Respublika Əlyazmaları institutunda mühafizə olunan yalnız bir cüngdə təsadüf etdiyi və "Əlavələr"də - şübhəli se'rlər arasında verdiyi "Olmaz" rədifli se'r (C. Qəhrəmanov göstərilən əsəri, III cild, səh. 532) də Nəsiminin İraq Divan nüsxəsində (səh. 91) mövcuddur:

Kişi kim mərifətdə kamil olmaz,
Ona nuri-inayət hasil olmaz... və s.

Nəsiminin İraq Divan nüsxəsində şairin indiyə qədər məlum olmayan "Ol" rədifli se'ri vardır (səh. 113). Se'rin səciyyəvi xüsusiyyəti ondadır ki, burada misralar üç sətirdən ibarətdir.

Gəl arifin al xəbərin mə'ni ərəndən,
Bu dünyanın çək əlini dərdi-sərindən,
Bişək güman ol, sultan cahan ol!

Nəsiminin İraq Divanını dolğunluğuna, kamilliyinə və həcminə görə M-227, /1167 şifrəsi altında Respublika Əlyazmaları institutunda saxlanılan Bakı əlyazma nüsxəsi ilə müqayisə etmək olar.

Şairin İraq Divan nüsxəsində diqqəti cəlb edən cəhətlərdən biri də əsərin üzunü köçürən katibin səliqəli işidir. Məsələ burasındadır ki, ədəbi dilimizdə işlənən bir çox söz kərküklülərin danışığında işlənməsə də, katib onları dəyişməmiş, olduğu kimi saxlamışdır. Qara hərflərlə yazılan sözlər belələrindəndir:

Könlümün məqsədi sənsən **özgə** dildar istəməz, (cəh. 81)
Təfavüt etməz anı, gər qəbul qılsa rəhim, (səh. 137-138)
Sevməyən, ey **murdari**-islam, Nəsiminin tənin (səh. 89)
Dünya çün **murdar** imiş, gəl keç, könül, **murdardən**, (səh. 184)
Bunca **şıltağı** nədəndir aşiqi-şeyda ilən, (səh. 184)
Səni sevənlərin halı, bu dörd işdən degil **xalı**, (səh. 190)
Gerçək müsəlman olmuşam (səh. 155)
Ağarmaz yüz kəzin **yusan**, əzin bəs ruyi-çun hindu (səh. 190)
Sındır qəfəsi tazə gülüstan tələb eylə (səh. 206) və s.

Maraqlıdır ki, bu Divan nüsxəində indi ədəbi dilimizin lüğət tərkibindən çıxmış, lakin bu gün belə Kərkük dialektində işlənən ulaşmaq, varmaq, yürü, kəndi qutlu, tütün, yey, irişmək və s. kimi bir çox sözə təsadüf edilir.

Şairin bu divan nüsxəsində də ibrətamiz sözlərə, kəlmələrə, atalar sözlərinə tez-tez rast gəlirik:

Çün hər nə kim əkərsən, axır biçərsən anı (166)
Söz bilənə yetər, bir söz, özgə sualə düşməsin (səh. 180)
Ey Nəsimi aqibət verər yelə,

Bivəfa ilə yeyən nanu nəmək (səh. 106).

Şair yeri gəldikcə məharətlə sinonimlərdən, antonimlərdən və s. istifadə edir:

Çün bəqasızdır cahanın mülkü malü dövləti.
Tükəndi əqlimin səbri, qərarı qalmadı canın və s

Bu bir yandan Nəsiminin xalq dilini gözəl bilməsinə dəlalət edirsə, digər tərəfdən də hələ Nəsimi dövründə Azərbaycan ədəbi dilinin böyük inkişaf yolu keçdiyini göstərir.

Şairin İraq Divanı göründüyü kimi bir çox mətləblərdən xəbər verir. Onlardan biri "türkman" termini ilə bağlıdır. Şairin başqa əlyazma nüsxələrində də tez-tez rast gəldiyimiz bu sözə İraq Divan nüsxəsində də təsadüf edilir:

Ərəbin nitqi bağlandı dilindən,
Səni kimdir deyən kim türkmansan (səh. 178)

Sonralar Şah İsmayıl Xətai də bu terminə işarə ilə yazmışdır:

Getdikcə tükənir ərəbin kuhi-məskəni,
Bağdad içində hər necə kim türkman qopar.

Şairlərimizin, tarixçilərimizin, dilçilərimizin söz açdıqları bu türkmanlar kimlərdir? Maraqlıdır ki, indinin özündə belə kərküklülər özlərini də, bizi də türkman, biz isə onları azərbaycanlı adlandırırıq. Təbiidir ki, burada bir həqiqət vardır. Bu həqiqəti dərindən duyan prof. Ə. Dəmirçizadə "Azərbaycan ədəbi tarixinə dair" kitabında yazmışdır: "O dövrlərdə türkman etnonimi indiki mənadan bir qədər fərqli işlənmiş, hətta indi Bağdad ətrafındakı azərilərin türkman adlanmaları da bu sözün əvvəlki mənası ilə əlaqədardır".

Şairin İraq Divanı nəsimişunaslıqda qaranlıq qalan, ümumi həcmi 51 vərəq olan və Ermənistan SSR Nazirlər Soveti yanında Qədim Əlyazmaları Elmi-Tədqiqat İnstitutunun ərəb yazılı abidələr fondunda 517 nömrə altında mühafizə edilən əlyazma nüsxəsinin üzünün harada köçürülməsinin aydınlaşdırılmasına da gətirib çıxarır.

Nəsimişünas C. Qəhrəmanov bu məsələ ilə əlaqədar yazmışdır: "Əlyazmanın üz qabığında həmin nüsxənin 1113 (1701)-ci ildə Təbrizdə əldə olunduğu barədə qeyd vardır. Katib Hüseyn Əli ibn Səfər Əli özünün "Hacı Qəyyumlu" çamaatından olduğunu və Tusda məskən saldığını əlyazmanın sonunda qeyd edir. Fikrimizcə, Tus şəklində yazılmış yerin adı ərəb qrafikasına əsasən "Tus" kimi deyil, Azərbaycan tələffüzünə əsasən "Tovus" (Toc) kimi oxunmalıdır. Doğrudur, "Tavus" (Tovus, Tovuz) sözü ərəb yazısına görə "Tavus" şəklində yazılmalıdır. Lakin katibin ümumi səviyyəsinə görə bu söz "Tus" şəklində də yazıla bilər". (Bax: İmadəddin Nəsimi, Birinci cild, Bakı, 1973, səh. 37-38).

Tovuzda boya-başa çatdığımdan fəxr edərdim ki, şairin Divan nüsxəsinin üzü dünyaya göz açdığım doğma yerlərdə köçürülmüş olaydı. Lakin həqiqət budur ki,

söhbət gedən əlyazma nüsxəsinin üzü İraq ərazisində yaşayan və keçmiş terminə əsasən türkman adlandırılan, azərbaycanca danışan, Nəsiminin, Füzulinin nəvə-nəticələrinin doğma diyarı Tusda (bura Tuz da, Duz da, Tus və ya Duz Xurmatu da adlanır - Q. P.) köçürülmüşdür. Tusda əldə etdiyimiz bu böyük həcmli əlyazma nüsxəsi də qəti söz deməyə imkan verir.

Matenadaranda saxlanılan və bizim fikrimizcə Tusda üzü köçürülən bu əlyazma nüsxəsində mövcud olan şe'rlərlə şairin İraq Divan nüsxə sində yer alan se'rlər arasında heç bir fərq yoxdur.

Maraqlıdır ki, İraq Divan nüsxəsində özünü göstərən əksər dini se'rlərə şairin yalnız Təbriz Universitetində mühafizə edilən Divan nüsxəsində rast gəlinir.

Demək lazımdır ki, şairin bu Divan nüsxəsində oxucuların və tədqiqatçıların marağına səbəb olacaq bir çox se'rlar, fərqli cəhətlər, həqiqəti üzə çıxarmaq üçün gözəl beytlər vardır. H. Araslının tərtib etdiyi "Nəsimi" kitabında (səh. 30) oxuyuruq:

Çaxdı sərvim aləmə, əsrarımı faş eylədi,
Halıma həmdəm olandan dünyadə sevdayi-eşq.

Şairin İraq Divanında oxuyuruq:

Çıxdı sirrim, aləmə əsrarımı faş eylədi (səh. 102)

və şairin nə demək istədiyini anlayırıq.

Bu, "Ümmanə girən eşqilə, dürdanəyə uğrar" misrası ilə başlanan şe'rə də aiddir. Şe'rin son misrası H. Araslının və C. Qəhrəmanovun tərtib etdiyi kitablarda "hənnanə təvaf eylərü mənnanəyə uğrar"dır. Məntiqi cəhətdən bu mümkün deyildir. Əslində mənnanəyə (ərinin boynuna minət qoyan varlı qadın) təvaf eyləyən, yəni mal-dövlət ələ keçirmək, varlanmaq məqsədilə arvad almaq istəyən kişilər hənnanəyə (əri ola-ola başqa kişilərə meyl göstərən qadın) uğrar olmalıdır. Bunu İraq Divan nüsxəsi bir daha təsdiq edir: Mənnanə təvaf eylarü hənnanəyə uğrar (İraq Divanı, s. 48).

Başqa bir misal: Nəsiminin "Cananı mənim sevdiyimi can bilir ancaq" və "Cananı mənim sevdiyimi can dəxi bilməz" misraları ilə başlayan iki gözəl şe'ri vardır. Hər iki şe'ri C. Qəhrəmanov "Nəsimi əsərlərinin elmi tənqidi mətni"nin üçcildliyinə daxil etmişdir. Təəssüf ki, se'rlərin üzünü köçürən katibin diqqətsizliyi nəticəsində səhvə yol verilmiş, bu isə öz növbəsində məntiqsizliyə gətirib çıxarmışdır. Hər iki se'r bu sözlərlə bitir:

Heç kimsə Nəsimi sözünü fəhm (kəşf) edə bilməz,
Bu "quş dili"dir, munı Süleyman bilür ancaq.
(II/ cild, səh. 423, III cild, cəh. 367)

Heç kimsə Nəsimi sirrini faş edə bilməz,
Bu "quş dili"dir, bunu Süleyman dəxi bilməz.
(III cild, səh. 255)

İkinci şe'rda məntiqsizlik vardır. Ola bilməz ki, Nəsimi bir yandan Süleymanın

quş dilini bildiyini təsdiqləsin, digər tərəfdən də onu inkar etsin.

Heç şübhəsiz, bu anlaşılmazlığın nəticəsidir ki, bu gözəl ş'er nə M. Quluzadənin, nə H. Araslının və nə də C. Qəhrəmanovun tərtibində indiki əlifbamızla çap olunmuş kitablarda öz əksini tapmışdır. Bəs katibin səhvi nədə olmuşdur? Şairin İraq Divan nüsxəsi bunu aydınlaşdırır:

Heç kimsə Nəsimi sözünü fəhm edə bilməz,
Bu quş dəgidir (deyildir - Q. P.) bunu Süleyman dəxi bilməz.
(İraq Divanı, səh. 85)

Göründüyü kimi katibin diqqətsizliyindən "g" hərfinin üstündəki xətt düşməklə "l" oxunmuş və beləliklə də şairin ən gözəl se'rlərindən biri geniş oxucu kütləsinə çatdırılmamışdır.

Demək olmaz ki, oxuculara təqdim edilən kitab nöqsanlardan xalidir. Hər halda təskinliyi onda tapırıq ki, işin gedişində bir çox ciddi nöqsanların üzə çıxarılmasında və islahında klassik ədəbiyyatımızın biliciləri C. Qəhrəmanov, M. Əsgərov və Ə. Hüseyni tərtibçiyə yaxından kömək etmiş, düzəlişi zəruri olan bir sıra tənqidi qeydlər söyləmişlər. İş prosesində həmin qeydlər nəzərə alınmışdır.

Kitabın sonunda şairin yaradıcılığının ilk dövrlərində qələmə aldığı dini se'rlərin ilk və son beytlərini vermişik. Oxunması çətin olan bəzi başqa şe'rlərin də yalnız ilk vo son beytlərini taqdim etmişik. Ümumiyyətlə, bütün se'rləri Divan nüsxəsində olan ardıcıllıqla vermişik. Səhifənin aşağısında se'rin İraq Divanının hansı səhifəsində olduğu göstərilmşidir. İlk və son beytlər verilən hissədə isə səhifə şe'rin əvvəlində verilmişdir.

Kitabın şərhlərini, lüğəti və şe'rlərin bəhrlərini M. Əsgərov hazırlamışdır.

Qeyd etmək lazımdır ki, nəsimişünaslıqda bu ilk təşəbbüsdür. Heç şübhəsiz, əruz vəzn qəliblərinin dürüstləşdirilməsi bədii qiraətçilər, aktyorlar və eləcə də se'rsevərlər üçün gərəkli ola bilər.

Kitaba daxil edilən şərhlərin bir çoxunun yeni olması da Nəsimi yaradıcılığını daha yaxşı mənimsəmək baxımından maraq doğurur. Kitabın redaktoru M. Əsgərov izahlarla bağlı görkəmli şərqşünas İ. S. Braginskinin maraqlı fikrini yada saldı. Tədqiqatçı haqlı olaraq qeyd edir ki, Hafiz Şirazinin se'rlərində işlənmiş bir çox söz və ifadələr öz zəmanəsində tamamilə başqa mənalarda anlaşılmışdırsa, biz bu gün onların həmin ilk rəmzi mənalarını qavramaqda çətinlik çəkirik. I. S. Braginskinin həmin fikrinə bunu da əlavə edək ki, Hafizin əsərləri heç vaxt qadağan olunmamış, şair təqibə məruz qalmamış, əsərlərinə isə hələ sağlığında cild-cild şərhlər yazılmışdır. Halbuki qaranlıq əsrlərdə daimi təqib edilən Nəsiminin əsərləri yasaq olunduğundan bu kimi şərhlərdən, izahlardan məhrum olmuşdur. Məhz buna görə də hər beytində bir dünya mə'na yatan mütəfəkkir şairimizin se'rlərinin belə geniş şərh olunması təqdirəlayiq bir hadisə kimi qiymətləndirilməlidir.

Elə lüğətin özündə də yenilik vardır. Adətən klassik ədəbiyyatla bağlı əsərlərin sonunda ərəb-fars sözlərinin lüğəti verilir. Burada isə indi arxaikləşmiş, lakin klassik ədəbiyyatımızda çox işlənən Azərbaycan və türk mənşəli sözlərə də xüsusi yer verilmişdir. Təbii ki, geniş oxucu kütləsi üçün "aydırmaq", "qutlu", "əsrük", "zəhi", "ilət", "irişmək", "kəpənək", "yarğu", "yey", "kəndi", "sayru", "külah", "sonmaq",

“tütün”, “ulaşmaq”, “uçmağ”, “bandırmağ”, “bən”, “yarın”, “yavuz”, “yelək”, “tamu”, “qənçəri”, “yegrək” və s. kimi sözlərin mənalarının lüğətdə öz əksini tapması faydalıdır.

Mənasının açılması vacib olan söz və ifadələr ya lüğətdə, ya da şərhlərdə verilmişdir.

Güman edirik ki, Nəsiminin İraq Divan nüsxəsi tədqiqatçıların diqqətini cəlb etməyə layiq qiymətli abidə kimi, böyük şairimizin ədəbi-bədii irsinin hərtərəfli öyrənilməsinə kömək edəcəkdir.

Qəzənfər Paşayev

(fA’ilAtün fA’ilAtün fA’ilAtün fA’ilün)

Yarımı ayırdı məndən çərxi-qəddar, iştə gör
Yürəgim pas oldu ğəmdən, gəl içim yar, iştə gör!

Yaxdı, yandırdı məni, yarın fərağı, neyləyim,
Taqətim, səbrim tükəndi, yanıram zar, iştə gör!

Dərdimin dərmanı sənsən, çarə kimdən istəyim,
Çarəsi səndədir anın, çarü naçar, iştə gör!

Doğradı ğəmdən fəraqin bağrımı, şol yarədən,
Yürəgim qanı gözümdən axar, ey yar, iştə gör!

Ey güli-xəndanım, axır pərdədən çıx, qönçə tək,
Kim, məni şövqündə məcruh eylədi xar, iştə gör!

Aşiqin imanı yüzündür, saçın həblülmətin,
Mən yüzünü tutmuşam, belimdə zünnar, iştə gör!

Gər “ənəlhəq” söyləməkdən darə asılsam nə qəm,
Necə Mənsurun asılmış başı bərdar, iştə gör!

Canımı, “anəstunar”ın şövqinə yandırma kim,
Olmuşam Musa kimi muştaqi-didar, iştə gör!

Arizin vərdi cinandır, bülbülün ruhil-qüdüs,
Ey bu dərdin aşiqi, açıldı gülzar, iştə gör!

Ta səni təqdiri-yəzdan eylədi məndən cüda,
Yandırır şövqün məni, ey yüzü gülnar, iştə gör!

Çün Nəsiminin vücudin nurinə yandırdı yar,
Narə düşmüşdür həsəddən bunca əğyar, iştə gör! (səh. 11)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Yarımın yüzündə gizli kədri-əsrar, iştə gör!
Nur ol nuri-ilahi, görməz əğyar, iştə gör!

Çərx hilalü bədrinə könlüm diləməz kim, baxa,
Qılmısan hərgiz gümanın etmə inkar, iştə gör!

On səkiz min aləmin həqdir vücudi, bigüman,
Münkir ani çün görəmməz, etmə iqrar, iştə gör!

Biz ki, vəhdət aləmindən çünki döndük kəsrəyə,
Qafil olma gördügün ol oddur əbsar, iştə gör!

Cənnətü hurü qüsurun şimdi keçdik, bigüman,
Kəndi lütfindən bizə göstərdi didar, iştə gör!

Gər "Ənəlhəq" dedi Mənsur, qıldı dəva, ey həkim,
Neçələr yalan dedilər, oldu bərdar, iştə gör!

Qismət etdi çün Nəsimi bir neçə mə'na ilə,
Ol səbəbdən hasil oldu nuri-ənvar, iştə gör! (səh. 12)

***

(müstəf'ilün müstəf'ilün müstəf'ilün müstəf'ilün)

Dildarə müştaq oldu can, anın camalın arzular,
Mehraba meyl qılmaz könül, yarın vüsalın arzular.

Yaxmaq gərəksən yaş ilə hər dəm gözüm misbahini.
Gər gözlərim gerçəkliyin anın xəyalın arzular.

Şəhdin hədisi həm şəkər xoş gəlməz ol müştaqə kim,
Şol ruhi-qüdsün məntiqi şirin məqalın arzular.

Aşiqlərin bazarına gör kim necə bel bağlamış,
Ol bivəfa aşiqlərin neyçün vəbalın arzular.

Yarəb, nə huri-çöhrədir, şol mahi-taban yüzlü kim,

Gördükcə anın yüzüni, günəş zəvalın arzular.

Çərxin hilalü bədrinə könlüm diləməz kim baxa,
Neyçün ki, yüzün bədrivü qaşın hilalın arzular.

Çin nafəsindən ayırdı, ənbərdən usandı könül,
Hər biri əvvəl dilbərin zülfiylə xalın arzular.

Eşqində qurban olduğun istər Nəsimi, sor nədən,
Şol mə'nidəndir, dünyada hər şey kəmalın arzular. (səh. 13)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Bir dəxi görmək camalın, könlüm, ey can, arzular,
Xəsteyi-dərdi-fərağın dərdə dərman, arzular.

Gər səni arzularam, ey canu çananım, nola,
Təşneyi-vəslin, nigara, abi-heyvan arzular.

Ey yüzi cənnət, boyu tuba, ləbi abi-həyat,
Qulluq etmək qapına huriylə qılman arzular.

Ta gülüstani-İrəm rüxsarını gördü gözüm,
Bülbüli-şeyda kimi aşiq gülüstan arzular.

Gördü tuba qəddüvi, çövkani-zülfün çalmağa,
Könlümüz şimdi yenə ol topü çövkan arzular.

Könlümüz arizu eylər vəsl, canan görməyə
Kim, yəqindur arzusi, dərvişi-sultan arzular.

Gör bu gün xəstə Nəsiminin xəyali kim, necə,
Xatiridür bəndi-zindan, şəhdi-şadan arzular.(səh. 14)

***

(məf'ulü məfA'İlü məfA'İlü fə'Ulün)

Könlümdə mənim eşqi-cəmalın əzəlidir,
Hər nəsnə kim, oldu əzəli, ləmyəzəlidir.

Nəfsini biləndir ki, yəqin rəbbini bildi,
Həqdən bu məqamata irən bil ki, vəlidir.

Hər kimsə ki, nəfsin tanıdı, rəbbini bildi,
İnkarına bel bağlama kim, qövli-Əlidir.

Ey yüzi turuş, xəll kimi zahid, meyə sun kim,
Saqi ləbinin dadlu şərabi, əsəlidir.

İdrak edəməz surətini görməyən ə'ma,
Şol mə'nidə kim hüsni-cəmalində cəlidir.

Endirmədi baş "əhsəni-təqvim"ə əzazil,
Ani buraxan lə'nətə, anın cədəlidir.

Saf olmayan altun kimi mehrinlə cahanda,
Şol yüzi qara qəlb imiş adı dəğəlidir.

Ey eşqə fəda eyləmiyən canını aşiq,
Mə'şuqdən uy vermə ki, eşqin əməlidir.

Aşiqlərinin qaninə bandırmış əlin dost,
Şol qanə kim, daim anın simin əlidir.

Çün buldu Nəsimi, əbədi ömrü saçından,
Şol dirliyi neylər ki, zamani-əcəlidir. (səh. 15)

***

(məf'ulü fA'ilAtün məf''ulü fA'ilAtün)

Ey "əlləzi-yüvəsvis", taətlərin həbadır,
Əkri yolun zəlalət, çürük sözün xətadır.

Zənnü güman içində qalmışsan, ey yəqinsiz,
Məşkuk ilən kim, aydır qılmaq əməl rəvadır?

Cümə namazı niçün şərt oldu Misrü came
Şərtin bil əvvəl andan məşrutin et səladır.

Ey bilməyən bu Misri itirmə cüm'əyi kim,
Cüm'ə bu Misr içində məqbuli-kibriyadır.

Yusif kimi əzizəm Misrin içində daim.
Həqqi bilən həmişə aləmdə müqtədadır.

Adinə surətindən endi Rəsulə cüm'ə,

Tanıq bu həq hədisə uş qövli-Mustafadır.

Adinə neçin oldu adinənin adın bil,
Bu sirri ol bilir kim, həq ilə aşinadır.

Adinədir qiyamət, ol gündədir nədamət,
Ol gündə həşr olisər, ol gündə macəradır.

Ol gündədir hesabın, həm rahətü əzabın,
Ol gündə həq qatında icmai-ənbiyadır.

Adinəyi bilənlər məğfurü nacidirlər,
Məğfur olan cahanda hadiyü pişvadır.

Ey cüm'ədən xəbərsiz, cümə gününü bil, kim
Ol gündə və'deyi-həq uçmaq ilə liqadır.

Cümə günün sifati şərhi bəyanə sığmaz,
Mənidə cümə gərçi cami-cahannümadır.

Çün cümə yovmi-dindir ərzü səmadə həqdən,
Dinin itirmiş ol ki, adinədən cüdadır.

Ol müşrikü nəcisdir çüm'əyi qılmayan kim,
Qövlivü fe'li anın təqlid ilən riyadır.

Çün höccətül-məsakin cümə günüdür, ey can.
Miskinə sor ki, miskin ayinəsi səfadır.

Came'də cüm'əyi uş hər gün qılan mənəm, bil,
Quran imamım oldu, daim yönüm həqadır.

Adinə həcci-əkbər hüccacə həqdən endi,
Ol bibəsər nə bilsin bu sirri kim, ə'madır.

Peyğəmbərin sözüdür, həm tanrının kəlamı,
Şol Əhdü şol əmamət gör kim, nə iddiadır.

İmanı yoxdur anın kim, oldu biəmanət,
Dinin itirmiş ol kim, əhdində bivəfadır.

Şol əhdü şol əmanət gər səndə varsa xoşdur,
Yoxsa, yalan imansız, həm dinsiz ol dəğadır.

Ey küfrü şirk içində sanan özünü mö'min,

İslamü şərü iman məxsusi-övliyadır.

Dəccal tə'nəsindən xovf eyləməz Nəsimi,
Neyçün ki, ruh-qüdsə ovnü müin xüdadır. (səh. 16-17)

***

(Məf'Ulü FA'ilatün məf'Ulü FA'ilatün məf'Ulü FA'ilatün məf'Uli FA'ilatün)

Mai-təhuri bil kim, həqdən bu gün nidadır,
Yovmül-məzidi gör kim, məscidi-pürsəfadır.

Həqdən həqi gəl istə, həq ilə vasil ol kim,
Həq və'də verdi çün kim, cümə günü liqadır.

Əvvəl bu nəfsini bil, ardınca rəbbini bil,
Kim, kəndi gəldi həqdən, mənbərdə Mustafadır.

Sultani-arifinin qövlüdürür inan kim,
Hər kim bu qövlü bilməz, ol cüm'ədən cidadır.

İstəyən abi-heyvan zülmata qərq olur kim,
Yarın ləbindən içmək la-ibtida bəqadır...

Həqül-yə'qini gördüm, vüslətə vasil oldum,
Cümlə murada irdim, gör kim nə xoş ətadır.

Zərqü riyası çoxdur sufi sözünə uyma,
Neyçün ki, daim işi təzvir ilə riyadır.

Misri Nəsimi buldu Qur'an imami oldu,
Cam'edə cüm'ə qıldı, məqbuli-kibriyadır. (səh. 18)

***

(məFA'İlün məFA'İlün fə'Ulün)

Könül vermə cəhanə, bivəfadır,
Könül vermək ona eyni xətadır.

Buna canu dil ilə, rəng ilə baq,
Fənadır bu cəhan, sanma bəqadır.

Bunun şəkkərləri ağudan acı,
Bunun gülmələri cümlə bukadır.

Bunun zövqü səfası həm küdurət,
Bunun rahətləri cümlə bəladır.

Qamu sərmayəsin verdi ziyinə,
Bu dünya ilə hər kim aşinadır.

Cahanın çün bəqası yox, Nəsimi,
Anı qoyub həqə dönmək rəvadır. (səh. 19)

***

(məfA'ilün məfA'ilün məfA'ilün fə'Ulün)

Cəmalın pərtövi-nuri-xudadır,
Yolunda aşiqin canı fədadır.

Ləbi-lə'lin müsəəffa şərbətindən,
Bu məcruh könlümə, eyni şəfadır.

Yaxıldım eşqinə manəndi-Məcnun,
Xəyalin eynimə Leylinümadır.

Necə Fərhad kimi könlüm alıbsan,
Ki, Şirin tək cəmalın dilrübadır.

Nəsimi tərki-can qıldı yolunda,
Dəmadəm eşq ilə işi səfadır. (səh. 20)

***

(MəFA'İlün məFA'İlün məFA'İlün məFA'İlün)

Təalallah, nə zibasan, sifatin zati-yektadır,
Qamu əşya sifatindən sənin ismin müsəmmadır.

Könülə ayü əncümdən cəmalın nuri yekrəngdir,
Qamusundan müqəddəmdir, qamusundan müəlladır.

Əzəldən məst olub gəldi cahanə, can ilə tən çün,
Kimi heyran layəqlü kimi sərməst şeydadır.

Camalın nuri, ey dilbər, nə məzhərdir ki, aləmdə,
Ki, sənsən Musiyi-Imran, vücudin Turi-Sinadır.

Dü əqlü elmü helmü xu Məhəmməd şəninə gəldi,

Pəs “Amənna”vü “Səddəq”nə anın alinə övladır.

Təcəlla nurini, şəha, yüzündə çün əyan gördüm,
Cəmi əşyada ol nuri təcəllası hüveydadır.

Boyun sidrədir, ey tuba, mən anı müntəha gördüm,
Ənasir nurə qərq olmuş, bu nə qəddü, nə baladır.

Saçın zülmati içində dəhanın abi-heyvandır,
Ki, Xızr İlyasilə İsa ləbin abində əhyadır.

Nəsimi, nəfsini tanı, sən andan sözünü söylə,
Eşidən söylüyən, görən, görünən səndə peydadır. (səh. 21)

***

(məFa'İlün məFa'İlün məFA'İlün məFA'İlün)

Əya'şahi-səidəxtər, yüzün ərşi-müəlladır,
Dodağın çeşmeyi-heyvan, ləbin cami-müsəffadır.

Cəmalın surəti-rəhman, vüsalın rövzeyi-rizvan,
Kəmalın gənci-bipayan, vücudun cani-əşyadır.

Boyun tubadır, ey huri, yüzündür aləmin nuri,
Cəmalında əyan gördü, anın ki, eyni binadır.

Qəmər dövründə, ey fitnə, son oldun xublara xatəm,
Sənin xalın xəyalından cahan pürşurü qovğadır.

Qiyamət qopdu hüsnündən məgər yovmül-hesab oldu
Bəlalərdən irağ olsun bu nə qəddü nə bəladır?!

Bu dünyanın zəru gənci görünməz, eyninə billah,
İki aləmdə məqsudim, kamalü hüsni-zibadır.

Şəha, lütfi-kərəm eylə, Nəsimi xaki-payındır,
Qəribü aşiqü şeyda, əsirü zarü tənhadır. (səh. 22)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Neylərəm mən bunda ad var, çünki dildar andadır,
Sanma kim, anda dedigim sərvi-salar andadır.

Firqətin dərdi məni torpaq edərsə, ey səba
Yarı qıl torpağım, ilət anda kim, yap andadır.

Can yanağın çöhrəsindən bir nəfəs olmaz cüda,
Qanda görsə bir güli-tər bülbüli-zar andadır.

Şol moğilçin gözlərinlə könlümü yəğmalədin,
Çün bilirsən ki, nə dürlü gizli əsrar andadır.

Dərdimi artırma, lütf et, şərbətinlə, ey həkim,
Çün məni sayrü qılan şol çeşmi-bimar andadır.

Dişlərin əksi Nəsiminin gözünə düşəli,
Bəhri-bəhreyn olduvü lö'löi-şəhvar andadır.(səh. 23)

***

(FA'ilAtün FA'ilAtün FA'ilAtün FA'ilün)

Gövhəri-dəryayi-hikmət cavidani səndədir,
Nöqteyi-mülki nübuvvətsən, bəyani səndədir.

Sureyi-tahavü yasin tək libasin qıl qəbul,
Kim, əyan ola sənə, nuri-əyani səndədir.

Kuhi-Tur oldu vücudin rəqqi mənşurilə uş,
Eylə bil həqqi ki, şimdi "lən tərani" səndədir.

Və'deyi-didari-Musa mim içində gör ki, mim,
Kövkəbi-çeşmi-cəmal oldu, cəhani səndədir.

Çün təcəlli eylədi mövlayi-darül-mülki cim,
Gəfi-Musa parə oldu, tərcümani səndədir.

Vəsləti-nuri-təcəlli çünki açdı bigüman,
Məst oldu cani Musa, uş o ani səndədir.

Ayəti-təbbət əlilə nə dəvi eylədin,
Uş hənuz oldu, "ənəlhəq"dasitani səndədir.

Ta Nəsimi aləmin şəmsilə oldu aşina,
Ayru olmaz ol günəş, çün cavidani səndədir. (səh. 24)

***

(FA'ilAtün FA'ilAtün FA'ilAtün Fa'ilün)

Lə'li-nabın çeşməsində abi-heyvan gizlidir,
Dürci-yaqutunda, ey can, dürrü mərcan gizlidir.

Ləblərin şirin, dəhanından əgərçi rəmz ilə,
Açar əsrarı, vəleykən sirri-pünhan gizlidir.

Canımın canı ğəmindir, bu səbəbdən, ey nigar,
Şad olur könlüm də daim dərdi-canan gizlidir.

Şol xədəngi ğəmzəni kim, canıma urdu gözün,
Qan gedər yürəkdən amma zəxmi-peykan gizlidir.

Ənbərin saçın yüzünü gizləsə olmaz əcəb,
Şəb niqabında həmişə mahi-taban gizlidir.

Ey təbibi-ami, əl çək çarə qılmaqdan mənə,
Aşiqin canında daim dərdi-dövran gizlidir,

Qane oldu dərdilə səndən Nəsimi, ey nigar,
Şol səbəbdən kim, sənin dərdinə dərman gizlidir. (səh. 25)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Türreyi-ənbərfəşan ömrün şəbi-yeldasıdır,
Həlqimizdə həlq tək şol zülmətin sövdasıdır.

Lə'lü yaqutu anın quti-rəvanımdır mənim,
Zikrü fikrim, şol həbibin lə'li ruhəfzasıdır.

Qoy məni qurban olum şol çeşmi-kafirkişə kim,
Mən təki hər guşədə min aşiqi şeydasıdır.

Duşda gördüm, sərvi qədd, dedim behəddi müntaha,
Bilməzəm ömrümmüdür, ya qamətin balasıdır?

Çeşmi-məstin, zülfü xalın fitnə saldı aləmə,
Ol gözəllər şahının ba hər tərəf qovğasıdır.

Ey Nəsimi, səcdə qıl, şol hüsnü bihəmtayə kim,
Aləmin çeşmü çırağı, surəti-zibasıdır. (səh. 26)

***

(FA'ilAtün FA'ilAtün FA'ilAtün FA'ilün)

Yarəb, ağzın nə səbəbdən qönçeyi-xəndanmıdır?
Ya Süleyman xatəmi, ya haqqeyi-mərcanmıdır?

Nöqteyi-mövhumdur, ya gövhəri-fərd ol ağız,
Mənbəi-ma'i-müin, ya çeşmeyi-heyvanmıdır?

Bağı-nəsrindir cəmalın, ya çəmən, ya busitan,
Ya Gülüstani-İrəm, ya rövzeyi-rizvanmıdır?

Nərgisi-cadumudur, ya fitneyi-eyni-bəla.
Ya hərami məst, ya qarətgəri-imanmıdır?

Arizindir yasəmən, ya lalə, ya bərgi-səmən,
Dəftəri-övraqi-gül, ya səfheyi-reyhanmıdır?

Ya mələksima bəşərdir, ya nigari-mahvəş,
Löbəti-cin, ya pəri, ya gövhəri-insanmıdır?

Sözmüdür nəzmi-hüseyni, ya məgər sehri-həlal.
Ya füsun, ya şe'rdir, ya Hikməti-Yunanmıdır? (səh. 27)

***

(məfA'İlün məfA'ilün məfA'İlün məfA'ilün)

Boyundur sidrəvü tuba, dodağın abi-heyvandır,
Anın mahiyyəti-zövqün nə bilsin ol ki, heyvandır.

Üzün "inna fətəhna"dır, təbarək şə'ninə münzəl,
Bu vəhci əhsəni-surət bilənlər əhli-ürfandır.

Xətin ümmül kitabidir bəyani-əhli-tövhidin,
Hürufi lövhi-məhfuzun müsəvvər şərhi-Fürqandır.

Rüxün gülzarına qarşı qızardı məğribin rəngi,
Tilaya məşriqin rəngi Nəsimi-ənbərəfşandır.

Hədisi gövhərəfşanın həqiqətdir nəhayətsiz,
Üquli-əhli-ürfanın onun hərfində heyrandır.

Nəsimi çün səni buldu, münəzzəh oldu aləmdən,

Gözündə surəti-rəhman, dilində zikri-sübhandır. (səh. 28)

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

Müənbər sünbülün, şaha, güli-sirabə pürçindir,
Məazallah, xəta qıldım, nə pürçin, nafeyi-Çindir.

Xətadır Çinə həml etmək müənbər zülfünü, billah.
Ki, hər bir qılı saçının xəracı Çinü Maçindir.

Dəhanindən xəbər verdi rəvan yürür sözün amma,
Bilinməz nəsnədən kimsə inanmaz kim, xəbər çindir.

Sən ol sultani-xubansan bu gün aləmdə, ey dilbər,
Ki, qul tək cümlə sultanlar sənə şahinü laçindir.

Müdəvvər nöqteyi-xalin gözümdən bir nəfəs getməz,
Məgər kim, şol qara bənlər gözümdə nəqşi-pürçindir.

Rüxün üzrə bənin şahanə hindudir, əcəb, yarəb,
Yalançı oğrumu, yaxud yüzün bağında gülçindir.

Gögərçin tək şikar etdi, məni, şol nərgisi-fəttan,
Yavuz gözdən irağ olsun ki, xoş türkanə laçindir.

Məhi-tabanə, ya mehrə səni bənzətmərəm, neyçün
Ki, hüsnün xirmənində Ay ilə Gün sünbüləçindir.

Gözümdə gərçi dilkeşdir, saçının işvəsi amma,
Nəsimiyi bu sövdayə buraxan şol moğolçindir. (səh. 29)

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

Cəmalın, ya rəb, ey dilbər, nə taban mahi-ənvərdir
Kim, anın aftabından iki aləm münəvvərdir!

Yüzün hərfində, ey müshəf, bəyani-"küntü kənz" olmuş,
Təaləllah, zəhi dəftər, bu dəftər qanğı dəftərdir?

Rüxün xəttilə xalindən çəri çəkmişdir, ey dilbər,
Zəhi şahzadeyi-əzəm ki, xoş uğurlu ləşkərdir.

Nə rəna sidrədir, yarəb, boyun aləmdə, ey can kim,
Kim anın qəddü balası yedi iqlimə sərvərdir.

Yedi xəttin kitabından səkiz cənnət əyan oldı,
Bu vəch ilə yəqindir ki, həm ol zati-mütəhhərdir.

Xəyalımdan degil xali xəyalin xeyli bir saət,
həmişə surətin nəqşi bərabərdir, müsəvvərdir.

Ləbin camindən ol canım, Xızır tək irdi məqsudə,
Çıxa gəldi bu zülmətdən, bu gün adı Sgəndərdir.

Bəbək tək saqlaram, daim gözümdə xali-hinduvi,
Bəbək şeylə əziz olmaz kim, ol xali-müdəvvərdir.

Nəsimi fəzli-allahı yüzün nürində gördü çün,
Təvafi-Kəbə xətm oldu, səfavü həcci-əkbərdir. (səh. 30)

***

(məf'Ulü fa'ilAtün məf'Ulü fa'İlAtün)

Məndən yüzün yaşırma kim, səcdəgahim oldur,
Seyr edərəm bu çərxi, xurşidü mahim oldur.

Hüsnün çırağı, ey can, yanə pərvanə keçdim,
Narın içində rövşən göründü, ahim oldur.

Pəhriz edərmi aşiq, ey eşqə münkir olan,
Dersən ki, tərkini qıl, ol mənim şahim oldur.

Kirpiklərinlə qaşun olmuşdur ismi-ə'zəm,
Divdən dəxi nə qorxu, çün kim, pənahim oldur.

Həq də'vidən şəhadət istərlər isə məndən,
Mən anı bulmuşam kim, mənim güvahim oldur.

Ey dünyanın rəisi, mənə həqir baqma,
Mən necə müflis olum, çün izzü cahim oldur.

Nəsimiyəm ki, düşdüm yüzün gülündən ayru,
Bülbül kimi çəməndə fəryadü ahim oldur. (səh. 31)

***

(müft'əilün məfA'ilün müft'əilün məfA'ilün)

Bəhri-fənadə fani ol, gör nə xoş həyat olur,
Abi-həyat imiş fəna, gərçi adı məmat olur.

Kə'beyi eşqim yüzünü doğru tutub piyadə var,
Təşneyi-eşqə eşq odu zəmzəmeyi-həyat olur.

Canü cahanü dinü dil olmayanın bu ərsədə,
Şah ola gərçi aləmə rövzeyi-şahi mat olur.

Çıxdı tənürdən tufan, qərq edisər cahanı gəl,
Gir gəmiyə ki, canına ol səbəbi-nəcat olur.

Qeyrə müqəyyid olma kim, hər nə ki qeyridir anın,
Gər həmə kün-fəkan isə, arifi zatəlat olur.

Əqlilə namü nəngini var, oda salü yax anı,
Arifi-zat olan qaçan mültəfiti-sifat olur.

Qıldı fəna vücudimi, eşq güm eylədi məni,
Bəllisiz oldu hər kim, ol qərqeyi-bəhri-zat olur.

Şol günəşin şüainə, zərrəcə kim ki, buldu yol,
Hər günü eyd gecəsi qədri-şəbi-bərat olur.

Fikr edərəm ki, yazayım zərrəcə eşq sirrini
Bəhr midad, ağac qələm, tasi-fələk dəvat olur.

Eşqə fənayi-mütləq ol, keç bu rəvaqi-taqidən,
Gövhəri-laməkan necə bəsteyi-şeş cəhat olur.

Hər həsənat kim, səni doğru ilətmədi həqə,
Qoyma anın adın Həsən gər həmə səyyiat olur.

Məscidü xanəgahə sən sufi tək olma qürrə kim,
Aşiqə cümlə yerü gög məbədi sovməat olur.

Zövq ilövü hüzur ilə eşqə pərəstiş eylə kim,
Qəlbi hüzursuz olanın taəti lasəlat olur.

Canü cəhanə ur qəfa aşiq isən gər, ey könül,
Aşiqə fərzü müstəcab tərki-təəllüqat olur.

Dövlətinə bu dünyanın olma müqəyyəd, ey məlik,
Anın üçün ki, dünyanın dövləti bisəbat olur.

Vəhdət içində ta əbəd oldu Nəsimi bəllisiz,
Kim ki, bu rəsmə məhv olar, zübdeyi-kainat olur. (səh. 32-33)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilAtün)

Ey nəsimi-sübhdəm, billah ki, yarım xoşmudur?
Şol həbibim, dilbərim, aləmdə varım xoşmudur?

Şol mütərra zülfi-mişkindən, səba, vergil xəbər,
Şol yüzi gül, qaməti sərvü çinarım xoşmudur?

Şol ləbi-ləlü gözü ahuyü şəhla dilfirib,
Şol saçı zülmət bəni müşki-tatarım xoşmudur?

Yel əlimdə, su gözümdə, od içimdə xak olur,
Daim onda həşr olucaq səbzəzarım xoşmudur?

Çün Nəsimi saldı özün eşqinə pərvanə tək,
Ey yüzü gülşən, sənə bu ahü zarım xoşmudur? (səh. 34)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Canımın, cana vüsalın can içində canıdır,
Canə canü, canə canü can həm canandır.

Yarəb, ey sərvi-rəvan, hüsnün nə gülşən kim, o gül,
Bülbüli-rühül-əminin bağü həm bostanıdır.

Qamətin, yarəb, nə Tubadır, nə cənnətdir yüzün,
Kim bu gün əhli-behiştin rövzeyi-rizvanıdır.

Bəxtili Xızr imiş, ol dövlətligün, fərxəndəhal,
Kim dodağın səlsəbili çeşmeyi-heyvanıdır.

Gözlərin dövründə düşdü qülqülə, aləmdə çox,
Sürsün ol dövranı kim, dövran anın dövranıdır.

Bəhri-eşqində Nəsimi gör necə qəvvasdır,

Gövhəri-yekdanə buldu, bəhri-bipayanıdır. (səh. 35)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Ta kim, ol məhbubi-dilin lə'li cami-badədir,
Rəhni-meyxanə həzaran xirqəvü səccadədir.

Əzmi-bustan eylədi, şol qaməti-şümşad şad,
Sərvi-azadeyi gör kim, qayğudan azadədir.

Adını gör kim, nə yazmış, şol təhəyyürnamədə,
Didə heyran, şol cəmalı, xəttü hüsni-adədir.

Kim ola xürşidi-taban dəviyi hüsn eyləyə,
Zərrədən kəmtər yolunda sübhü şam üftadədir.

Hər zaman bağlar xəyalın sibi qəbqəb nəqşini,
Xətti-nəqşi-hüsni-dilbər, lövhi-xatir sadədir.

İstərəm lə'li-ləbindən şərbəti mən xəstədil,
Dadımı hər kim, eşitsə deyə kim, dildadədir.

Vəslini qıldı Nəsimi arzu bu əqlilə,
Sən gədayi-binəvasan, ol şəhü şahzadədir. (səh. 36)

***

(məfA'ilün məfA'ilün fə'Ulün)

Zəhi dövlət ki, məhbubim pəridir,
Qamu zibalərin zibatəridir.

Dişi incu, gözü ahu, özü şux,
Yüzü bir dəstə gül bərgi-təridir.

Nəzərbaz olduğum indi həqiqət,
Ki, mənzurim, nigarın mənzəridir.

Cəmalın görəli mən ol pərinin,
Könül məcmui-aləmdən biridir.

Uş ol məhbub ilə həmdəm olan gün,
Əcəb qirani-mahü müştəridir.

Əgər Xızr isəmü sən abi-heyvan,
Nigara, camü lə'lin ləbləridir.

Məhəmməd Mustafa qazi olan gün,
Nəsimi dərməqami-heydəridir. (səh. 37)

***

(məfA'ilün məfA'ilün fə'Ulün)

Cəmalın sirri-qur'an mənzilidir.
Dodağın abi-heyvan mənzilidir.

Əlül-ərş istiva gördüm yüzündə
Ki, yüzün ərşi-rəhman mənzilidir.

Bihəmdüllah mənim könlümdə daim,
Xəyali-cani-canan mənzilidir.

Könüldə eylədim, cana, məqamın
Qonarsan, qon ki, mehman mənzilidir.

Saçın küfründə hər kim kafir oldu,
Yəqin bildi ki, iman mənzilidir.

Qapudan keçmə ki, xovf eylədi yel,
Çu bildigim Süleyman mənzilidir.

Gəl, ey Seyyid Nəsimi, arif ol kim,
Cahan çün əhli-ürfan mənzilidir. (səh. 38)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Ər kişinin sorma adın, izzətindən bəllidir,
Söhbəti-ürfan görənlər, xidmətindən bəllidir

Həq təala elm içində çünki "simahum" dedi,
Hər kişinin bax yüzünə, surətindən bəllidir.

Dərvişin pirini sormaq dedilər adət degil,
Arifanə yek nəzər qıl, kisvətindən bəllidir.

Dedilər kim, müddəi sən necə fəhm edəsən,
Mən dedim ki, ağzı əgrisindən bəllidir.

Hər zərin qəlbi məhəkdən bilinir bəllü bəyan,
Nətəkim bimari-eşqin illətindən bəllidir.

Ey Nəsimi, cövhəri nadan əlinə vermə kim,
Cövhəri nadan nə bilsin, qiymətindən bəllidir. (səh. 39)

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfa'İlün)

Şəha, hüsnün təcəllasi bu təndə can edilmişdir,
Bu tən içindəki canım şaha qurban edilmişdir.

Mənim torpağım əzzəldən sənin eşqinlə yoğruldu,
Ayrılmaz ta əbəd andan ətilə qan edilmişdir.

Quruldun, qaşların yayın dolanır can, yürək titrər,
Atar ğəmzələrin oxun məni nişan edilmişdir.

Nəsimi, fürqanımızdır qaşınla, kiprigin, zülfün,
Cəmalın, müshəfin hər dəm oxur, bəyan edilmişdir. (səh. 40)

***

(məf'Ulü fA'ilAtü məfA'İlü fA'ilün)

GülGün rüxün güli-səməni şərmisar edər,
Yüzün xəyalı gözlərimi laləzar edər.

Mah üzrə əbrə zülfünü dağıtma kim, məni,
Aşüftə ruzigarü pərişanü zar edər.

Əğyar əlindən ah edərəm, hər nəfəs vəli,
Cövri həmişə aşiqi-miskinə yar edər.

Zülfün nə damü, ğəmzən nə oxdur ki, gözlərin,
Aşiqlərini daim onunla şikar edər.

Zülfündə kim ki, görmədi hüsnün qiyamətin,
Bilməz saçın hesabını, ayruğ şümar edər.

Mə'nidə gərçi canıma ləbin mey içürür.

Hüsnün şərabidir ki, məni biqərar edər.

Gəlgil ki, şəm'ə nari-fərağın hərarəti,
Kar eyləməz bu rəsmə ki, canıma kar edər.

Ey Çin nigari nəqşinə heyranü məst olan,
Gəl şol nigari gör ki, nə nəqşi-nigar edər.

Ey aşiqin həyativü ömrü saçı onun,
Cansızdır ol ki, adını müşki-tatar edər.

Vəsfində hər qaçan ki, Nəsimi açar ağız,
Şəkkər dilindən axarü göhər nisar edər. (səh. 41)

***

(müftə'ilün məfA'ilün müftə'ilün məf'Ailün)

Qamətinə əlif deyən, gör nə uzun xəyal edər,
Kim ki, umar vüsalini arzuyi-məhal edər.

Şol ala gözdən, ey könül ki, saqın uş dedim sənə,
Uyxuda sanma ani kim, uyxusı yoxdır, al edər.

Zülfünü xaki-rəh kimi saldı ayağı altına,
Gör necə xəlqi-aləmin ömrünü payimal edər.

Yüzüni göstər, ey sənəm, xəlqi-cəhanə pərdəsiz,
Ta görələr ki, həq necə sun'ini bərkəmal edər.

Yüzünə, qaşına onun özümü bənzədim deyib,
Gah dönər ay, bədr olur, gah özünü hilal edər.

Mülk ilə malü, səltənət bir çöpə saymaz, ey sənəm,
Kim ki, dilər vüsalını, ya tələbi-cəmal edər.

Şərhi-qəmin Nəsiminin şol gözü, qaşü zülfə sor,
Gör necə hər biri sənə şərhü bəyani-hal edər. (səh. 42)

***

(müftə'ilün məfA'ilün müftə'ilün məfA'ilün)

Dövri qəmər məlahətin hüsnünə ixtitam edər,
Yüzünə "vahibüssüvər" xubluğu müstədam edər.

Lə’li-ləbin vüsalına canilə susadı könül,
Fikri-məhalə gör necə düşdü, xəyali xam edər.

Aşiqi-sadiqin qanın çün ləbinə həlal demiş,
Aşiqə vəslini nədən lə’li-ləbin həram edər.

Kimsə cahanda görmədi sübh ilə şam müctəme,
Gör neçə zülfü arizin vəsləti sübhü şam edər.

Fitnə gözün xumarini zahir əgər qılar isən,
Ağzına kim alır meyi, kim dəxi fikri-cam edər.

Məhr ilə Mahü Müştəri hüsnünə bəndədir, vəli,
Sərv ilə sidrə özünü qamətinə qulam edər.

Şərhi-dəhani-yarini kim ki, sorar Nəsimidən,
Bir söz ilə hekayətin müxtəsərü təmam edər. (səh. 43)

***

(müftə’ilün məfA’ilün müftə’ilün məfA’ilün)

Eşq yolunda kim ki, ol yarinə canfəşan gedər,
Əhli-yəqin bilir kim, ol cənnətə bigüman gedər.

Yar xəyalı dəmbədəm gözlərimin sərayına,
Ab kimi rəvan gəlür, yaş kimi rəvan gedər.

Qəddü xətün, hekayətin eşidəlidən, ey sənəm,
Sərv gəlir xəyalıma, çöhrədən ərğəvan gedər.

Yar ilə söhbət eyləmək, bir gəz, iki cahan dəgər,
Dövlət anın ki, yar ilə söhbəti-cavidan gedər.

Ey həvəs eyləyən kişi, eşqə, eşit bu nüktəyi,
Xubların xəyalına vermə könül ki, can gedər.

Kirpik oxilə yarəlu qıldı gözün Nəsimiyi,
Anınçün bu yarədən ləhzəbələhzə qan gedər. (səh. 44)

***

(müftə’ilün məfA’ilün müftə’ilün məfA’ilün)

Firqət içində yürəgim gör ki, nə parə-parədir,
Bağrımı gör bu qüssədən kim, necə yarə-yarədir.

Qəmdə yanan bu aşiqə lutfi-inayət eyləgil,
Ey büt, əgərçi yürəgin mərmərü səngi-xarədir.

Yarəlü eylədi məni cür'əsi ağulu ğəmin,
Yaralu qoyma yarını, dərdinə gör nə çarədir.

Mən nə təriqü vəch ilən cövrü cəfadən usanım,
Çünki həmişə yarımın cövrü cəfası yarədir.

Hüsnünə aşiq eylədi canımı narə yandırır,
Gör ki, nə fitnələr qılur, ol ki, bu hüsni-yarədir.

Nazü itabü işvəsi, yaxdı məni cəfa ilə,
Daim onunla aşiqin işi bu rəsmü karədir.

Zövrəqimi məhəbbətin bəhrinə çün buraxmışam,
Gəl çək anı kənarə kim, meyli anın kənarədir.

Ayü günü nə vəch ilə yüzünə nisbət eyləyim,
Hüsni-rüxün qatında çün Ay ilə Gün sitarədir.

Eşqi-rüxün nə nar imiş kim, görə anı, ey sənəm,
Səcdə qılır mələk kimi, səcdəsi qüdsi narədir.

Zərqü riyavü sufilik zərrəcə asi eyləməz,
Şol kişiyə ki rəğbəti ol meyi-bixümarədir.

Zülfü tozundan oldı çün canü təni Nəsiminin,
Əslinə qovuşur yenə ric'əti şol qubarədir. (səh. 45)

***

(fA'ilatün məfA'ülün fə'ilün)

Arifi-laməkan otuz ikidir,
Sahibi-cismü can otuz ikidir.

Aç könül, gözünüvü güzgüyə bax,
Ki, yəqin, bigüman otuz ikidir.

Çün üzündür kitab ayatı,
İstiva ilə san otuz ikidir.

Endi İsa, gətirdi şəkki xilaf,
Uştə sahibzəman otuz ikidir.

“Sidrətül-müntəha”nın əqsamı,
Sayır isən, həman otuz ikidir.

Sənsən ümmülkitabın əsrarı,
Bil ki, “səb’ülməsan” otuz ikidir.

Vəyhü ilhamü ya nəbivü vəli,
Verən, alan, əyan otuz ikidir.

Gör Nəsimi ki, surəti mə’ni,
Aşikarü nihan otuz ikidir. (səh. 46)

***

(fA’ilAtün fA’ilAtün fA’ilAtün fA’ilün)

Dilbəra, hüsnün xəti qur’an degildir, bəs nədir?
Surətin vəşşəmsi-rəhman degildir, bəs nədir?

Ta kamanın bədri ay gördüvü düşdü dər zəval,
Zərrə tək düzəndə sərgərdan degildir, bəs nədir?

Gər fəqih münkirdir adəm vəchinə qılmaz sücud,
Həqdən ikrah eyləyən şeytan degildir, bəs nədir?

Sirri tövhidin rümuzin bilməyən bil kim, yəqin,
Əhli dil qatında ol heyvan degildir, bəs nədir?

Ol müvəhhid kim, həqi üzündə gördü bigüman,
Əbcədin hərfi ana bürhan degildir, bəs nədir?

Ey Nəsimi, keç xamudan qıl təmənna vəslini,
Kim ki, gördü vəsl olan sultan degildir, bəs nədir? (səh. 47)

***

(müstəf ‘ilün müstəf’ilün müstəf’ilün müstəf’ilün)

Uymaz fərağından gözüm, yaşın tökür, qan axıdar,
Lə’lin qəmindən dəmbədəm yaqutü mərcan axıdar.

Yandırdı şövqün canımı, dəldi fəraqın bağrımı,
Eşqin bəlası canıma gör kim, nə tüfan axıdar.

Gəlgil unutma yarini, halın sor anın, gör anın,
Şövqündən ey dürdanə, gör, gözündən ümman axıdar.

Nuhun gəmisin istə kim, yaxlaşdı tufan olmağa
Seylabi-şövqi şeylə kim, bu çeşmi-giryan axıdar.

Düründən ey hürüliqa, müştaqa sui safi-şəfa,
Kim, şərbətindən hər nəfəs min dərdə dərman axıdar.

Ta incu surətlu dişin, gəlmiş xəyali-eynimə,
Ağzından əsdafı anın, lö'lüi-ğəltan axıdar.

Müşkin saçın çovkanına çün başımı top etmişəm,
Zülfün bəlasından yenə ol topu çovkan axıdar.

Lə'li-ləbin təfsirini söylər Nəsimi canlara.
Şol rəsm ilən kim, sanasan Xızr abi-heyvan axıdar. (səh. 48)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Fatihə, ümmülkitabın göstər ayası nədir?
Bistü həştü sivü du hərfin xulasası nədir?

Doqquz ata, yeddi ana, dörd dayədən ver xəbər,
Du çəharü pəncü şeşin saqi binası nədir?

Üç yüz altmış altı mənzil, qırx səkkiz yerdə qur'an
Ey ki, yetmiş yeddi hərfin on iki xası nədir?

Çöhrənin şövqü nədən, məhəbbətin qüllabı nə?
Aşiqü mə'şuq nə demək, eşqin əsası nədir?

Sidrəvü kövsər nədəndir, həm neh fələkin gərdişi?
On iki bürcün kəvakib cayı, mə'vası nədir?

Yeddi yer gög, yeddi dərya, yeddi ayət, yeddi xət,
Yeddi müshəf, Musaya, çün yedi bəyzası nədir?

Küllü mən əleyhafa etdi sənə rəbbin yəqin,
Ey Nəsimi, mö'münün qəlbində cirası nədir? (səh. 49)

***

(müstəf'ilün fə'Ulün müstəf'ilün fə'Ulün)

Eyşü tərəb yari-gülüzar ilə xoşdur,
Canü cəhan elə bil ki, yar ilə xoşdur.

Qanıma, bandır əlin, ey nigar, gör
Kim, necə simin əlin nigar ilə xoşdur.

Darə çıx, ey aşiq, anda söylə ənəlhəq,
Aşiq olan kişinin başı dar ilə xoşdur.

Aşiqə ol fəxr yetər ki, olmadı sufi,
Dövlət anın kim, bu iftixar ilə xoşdur.

Gərçi süzülmüş xümari-gözləri anın,
Qəmzeyi-məstanəsi xümmar ilə xoşdur.

Ta ki, gülünün vəslinə irişməyə bülbül,
Çöhrəsi anın həmişə xar ilə xoşdur.

Mövsümi güldür ki, bu gün, gəl bəri, sun cam,
Şərabi-gülfamə fəsli-bahar ilə xoşdur.

Yüzini yaşurma gəl, sən əhli-nəzərdən,
Gül gəlicək əndəlibi-zar ilə xoşdur.

Aləmi-tövhidə çün irişdi kim Nəsimi,
Nur ilə nar olduvü nur nar ilə xoşdur. (səh. 50)

***

(müftə'ilün məfA'ilün müftə'ilün məfA'ilün)

Vəslinə kim ki, irmədi, dərdü əzab içindədir,
Ləlini kim ki, sormadı, təşnə sərab içindədir.

Konlüm içində surətin can kimi qılmışam yerin,
Gövhəri "küntü kənzi" gör kim, nə xərab içindədir.

Şəmi-rüxün hərarəti cuşə gətirdi qanımı,
Gör ki, necə od imiş kim, bu kəbab içindədir.

Şəmsü qəmər əgər yüzün təbinə düşmədi, nədən,
Eşqə əsir olan kişi atəşü tab içindədir.

Zöhdə dəlalət eylərəm, eşqə həris olur könül,
Mən nə şümarə düşmüşəm, ol nə hesab içindədir.

Kim ki yüzünlə olmadı sübhi-əzəldə aşina,
Ta əbəd ol qəragünün bəxti hicab içindədir.

Qəndü nəbatü şəkkərin ləzzətini unutmuşam,
Ta ki, bəninlə ləblərin nazu itab içindədir.

Surətinin səfasına aşuqü valeh olmuşam,
Gözdən əgərçi surətin zərfi-niqab içindədir.

Düşdü cəhanə qulğulə uyqulu nərgizindən uş,
Fitnələrini gör anın sanma ki, xab içindədir.

Sirri-səqahum, ey könül, zahidə sorma sən anı,
Arifi-rəbbihum bilir kim bu şərab içindədir.

Zülfü qaşın Nəsimiyə xətti həsəndir, ey sənəm,
2Cim" ilə "nun" bu hüsn ilə qansı kitab içindədir. (səh. 51)

***

(müftə'ilün məfA'ilün müftə'ilün məfA'ilün)

Kim ki, irər vüsalına eyşi-nəim içindədir,
Vəslinə irməyən kişi bil ki, cəhim içindədir.

Zülməti-hicrü firqətin misli-cəhənnəm atəşi,
Mənzəri-ali vüslətin nuri-əzim içindədir.

Abi-həyatə irişən buldu həyati-cavidan,
Zülmət içində qalanı "əzmi-rəmim" içindədir.

Çün gedə ortadan hicab eynə mübəddəl ola elm,
Bilinə bunda kim, kimin qəlbi səlim içindədir.

Buldu səlamat ol kişi kim, tələb etdi cəhd ilə,
İstəməyən səlaməti rənci-əlim içindədir.

Surəti-xuba müddəi baxma deyib, həram edər,

Yüzüqaranı gör necə küfri-səqim içindədir.

Qıldı tələb vüsalını eşq ilə uş Nəsimi kim,
Vəslinə vasil olalı eyşi-müqim içindədir. (səh. 52)

***

(müftə'ilün məfA'ilün müftə'ilün məfA'ilün)

Dərdi-fəraqə düşdü can, ahü fəğan içindədir,
Sən bu əzabü atəşi gör ki, bu can içindədir.

Oda buraxma könlümü, çün rövşən oldu kim,
Bunca qəmü bəla ilə dərdi-nihan içindədir.

Vəsli-rüxündən özgə mən kövnü məkanə baxmazam,
Gərçi xocəstə vüslətin kövnü məkan içindədir.

Eynim içində qamətin sidrəsi məskən eylədi.
Sidrə həm anda yaraşır, abi-rəvan içindədir.

Çərxə çıxardı ahımı, canımı yandırır ğəmin,
Gör necə nar imiş ğəmin, nuri-duxan içindədir.

Yarımı məndən ayıran hacəti hasil olmasın,
Assi sanan bu işi gör, kim, nə ziyan içindədir.

Səndən əgərçi düşmüşəm ayru, səninləyəm, vəli
Ol nə bilir bu rəmzi kim, zənnü güman içindədir

Halimi sənsiz ey sənəm, bilməzisən gəl üştə gör,
Bənzimə bax, bağrımı gör ki, nə qan içindədir.

Vəsli-rüxün bahasına versəm ucuz ola hənuz,
Canü cahanü hər nə kim, iki cahan içindədir.

Silsiləsində sünbülün can vətən eylədi, könül,
İş bu səbəbdən ol dəli səhni-cinan içindədir.

Oldu Nəsimi, ey qəmər, hüsnünə fitnə, neyləsin,
Fitneyi-axirəzzaman uş bu zaman içindədir. (səh. 53)

***

(müftə'ilün məfA'ilün müftə'ilün məfA'ilün)

Zülfi-dutasi şahimin həlqəsi mah içindədir,
Şol qəmərin mənazili əbri-siyah içindədir.

Düşdü kəməndi-zülfünə əqlü rəvan quşu, vəli,
Zilli-ilahə yapışan, zilli-ilah içindədir.

Kə'beyi-eşqə varanın sidqi-niyaz olur, vəli,
Mənzilə aqibət irər kim ki, bu rah içindədir.

Canımı bir nigah ilən aldı hərami gözlərin,
Gör ki, nə dürlü fitnələr uşbu nigah içindədir.

Aləm içində bigüman, sənsən əmiri-dilbəran,
Gor ki, bu rəsmə padişah xansı sipah içindədir.

Sərvi-qəbadə, ya məhi kimsə gülahdə görmədi,
Şol boyu sərv gör neçə mahü gülah içindədir.

Surəti-xuba müddəi baxma demiş Nəsimiyə,
Yüzü qərayi gör necə küfrü günah içindədir. (səh. 54)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Yarü dilbər səndən ayru kim, dedi aləmdə var?
Qanı səndən ayru dilbər, qanı səndən özgə yar?

Çün mənə eşqin təriqidir sirati-müstəqim,
Doğrudur həqqim, təriqim, neylər əğyar anda var.

Ey gülüm, gülgün yanağın cənnətin xəndan gülü,
Gəl kim, anın həsrətindən canımı yandırdı xar.

Çıxdı məşriqdən günəş, fəth etdi eşqin rəmzini,
Pərdəsi açıldı hüsnün, dilbər oldu aşikar.

Zağ ilə bir yerdə tuti gərçi yaraşmaz, vəli,
Alamaz təqdir əlindən kimsə, ey yar, ixtiyar.

Din ilə imandurur əhdi-əmanət aşiqin,
Kimdə kim, olmaz əmanət bil kim, oldur əhli-nar.

Aşiqin me'marı həqdir, yapar anın batinin,

Ey evi həqdən yapılmış, sənsən əhli-e’tibar.

Dövləti-didarə bidar uğradı, gərçək mühibb,
Gözləri açuq gərəkdir aşiqin leylü nəhar.

Gərçi ağudur fəraqin şərbəti aşiqlərə,
Eyləməz vəslin şərabın içənə şol ağu kar.

Mə’rifət kəsb eylə, ləhvü lə’bə məşğul olma kim,
Gör nə surət göstərir hər dəm oyunçu ruzigar.

Çün bəqasızdır cahanın mülkü malü dövləti,
Dövləti-Mənsurə yapış, istə ömri-payidar.

Eşq əlindən gəl şərabi-səlsəbilü gövsər iç,
Keç bu meydən kim, çəkərsən ertə rəncindən xumar.

Gül fərağindən gəl, ey bülbül, səbur ol, ağlama,
Qış keçər, xəndan olar gülşən, gələr fəsli-bahar.

Doğru söz doğrar həsudin bağrını şol mənidən,
Münkirə oldu Nəsiminin kəlamı Zulfiqar. (səh. 55-56)

***

(fA’ilAtün fA’ilAtün fA’ilAtün fA’ilün)

Pərdə altından kim, oldu şəmsi-dövran aşikar,
Şiri-yezdandır, könül, ahusunu qıldı şikar.

Ol Əliyyi-Murtəza kim, könlümün məqsudidir,
Sirrin izhar etmək üçün uş ədəmdən oldu var.

Ol əmirülmö’münin bişək imami-cüzvü küllü,
Əhli-təhqiqə iki aləmdə oldur ixtiyar.

Əvvəlü axir Əlidir, zahirü batin Əli.
Bir günəşdir kim, yüzünə qonmadı ğəmdən ğübar.

Uş hədisi Mustafadır la fətə illa Əli,
Həm Nəbinin sözüdür, la seyfi illa Zülfüqar.

Şəhr elminə Əlivü babiha dedi rəsul,
Bəs Əli payində xak olmaq gərəkdir, xaksar.

Canü dildən mədh oxur Seyyid Nəsimi şah üçün,
Həm bu on iki imama sidq ilə məddahvar. (səh. 57)

***

(məfA'ilün məfA'ilün fə'Ulün)

Şəha, könlümdə daim bir həvəs var,
Soram şəkkər dodağından məgəs var

Sənin gülgün yanağın firqətindən,
Axar çeşmim yaşı həm çün Ərəsvar.

Qəntarında itin tək qətrəsiydim,
Qara saç boynuma taxgil mərəsvar.

Gəl ey əmri-əzizimdən, əzizim
Ki, sənsiz gecədür ömrüm əbəsvar.

Qənim olsun mənə fürqanü İncil,
Əgər könlümdə səndən özgə kəs var.

Qulağıma gəlür hər gecə ta sübh,
Rəqiblərin ünü həm çün cərəsvar.

Sənin tərkini qılmaz bu Nəsimi,
Neçə kim bu qəfəsdə bir nəfəs var. (səh. 58)

***

(məf'Ulü məfA'İlü məfA'İlü fə'Ulün)

Aləmdə bu gün səncəliyim yar, kimin var?
Gər var desən, yox deməzəm, var, kimin var?

Dildari-məcazi bulunur aşiqə min-min.
Bənzər sənə təhqiqdə dildar, kimin var?

Məhbub qəmər yüzlü, boyu sidrə ögüşdür,
Yanaqları gül, ləli-şəkərbar kimin var?

Eşqin qəminə eyləmişəm könlümü məskən,
Gör məncəliyin "məxzəni-əsrar" kimin var?

Gərçi gecəsi mətlə'i-ənvardır anın,

Zülfün kimi bir mətlə’i-ənvar kimin var?

Ey nisbət edən yüzünü gülzarilə bağə,
Yüzün tək olan gülşənü gülzar kimin var?

Əyyar kimi turrəsi məndən könül aldı,
Şol turrə kimi dilbəri-əyyar kimin var?

Ey muncuğu dürdanə deyən, gövhərini bil,
Ta kim, biləsən lö’löi-şəhvar kimin var?

Tatarə saçın tozunu tüccar ilə göndər.
Ta kim, bilələr nafeyi-tatar kimin var?

Can ilə cəhan yarə fəda qıldı Nəsimi,
Anın kimi bir yari-vəfadar kimin var? (səh. 59)

***

(məfA’ilün məfA’ilün fə’Ulün)

Qanı bir əhdü peymanı bütün yar?
Qanı bir qövli gerçək, doğru dildar?

Qanı dövranda bir qəlbi dəğəlsiz,
Qanı aləmdə bir aricə dinar?

Qanı həqqi bilən bir gerçək ər kim,
Ola doğru anın dilində göftar?

Qanı dilində iqrar eyləyən kim,
Həqə yoxdur anın dilində inkar?

Qanı şol incili ari sədəf kim,
Buluna anda bir lö’löi-şəhvar?

Qanı dünyadə yarəb, bir əmin kim
Kim, anda gizlənə bir dürlü əsrar?

Qanı Mənsurləyin bir əhli-həq kim,
Asıla əşq içində başı bər-dar?

Qanı sadiqlərin razinə məhrəm,
Qanı aşiqlərin rəncinə timar?

Qanı gerçəkləyin bir həqqə aşiq,
Qanı görmüş həqi bir əhli-didar?

Qanı qəflət şərabından bir ayıq,
Qanı əsrüklərin bəzmində hüşyar?

Qanı əhdində bir sabitqədəm kim,
Qoyam anın adın doğru vəfadar?

Yar ilən çünki bir oldu Nəsimi,
Qamu aləm, nə ğəm, gər olsa əğyar! (səh. 60)

***

(məf'Uli məfA'İlü məfa'ilü fə'Ulün)

Ümmanə girən eşq ilə dürdanəyə uğrar,
Şükranə verən canını, cananəyə uğrar.

Yanmaqdan əgər qorxar isən şəm'ə yapışma,
Şol atəşi gör kim, necə pərvanəyə uğrar.

Mənsur kimi cuşə gələr, söylər "ənəlhəq",
Ol aşiqi-sadiq ki, bu meyxanəyə uğrar.

Getməz dünü gün cami-şərabı nəzərindən,
Hər kimsə ki, şol nərgisi-məstanəyə uğrar.

Təsbih ilə səccadəyi bir cür'əyə satar,
Şol sufiyi-safi ki, bu neymanəyə uğrar.

Əfsanə satar aşiqə əfsun ilə vaiz,
Aşiq qaçan ol qissəvü əfsanəyə uğrar.

Zəncir saçın şöylə dəli qıldı məni kim,
Əqlin itirər kim ki, bu divanəyə uğrar.

Girdi hərəmi-Kəbeyi-təhqiqə Nəsimi,
Mənnanə təvaf eylərü hənnanəyə uğrar. (səh. 61)

***

(məfa'İlün məfA'İlün fə'Ulin)

Yüzün bərgi-güli-tərdir, güli-tər.

Boyun sərvü sənubərdir, sənubər.

Sənin şəm'i-cəmalindən vücudum!
Münəvvərdir, münəvvərdir, münəvvər!

Bəninlə zülfü rüxsarın həmişə,
Müənbərdir, müənbərdir, müənbər!

Mənə peyvəstə şol mehrabi-əbru,
Bərabərdir, bərabərdir, bərabər!

Həmişə zahidin xoş kim, dimağı,
Mükəddərdir, mükəddərdir, mükəddər!

Muradı aşiqin iki cahanda,
Müqəddərdir, müqəddərdir, müqəddər!

Xuraman qamətin bir çeşmeyi-çeşm,
Səmənbərdir, səmənbərdir, səmənbər!

Dimağım büyi-zülfündən dəmadəm,
Müəttərdir, müəttərdir, müəttər!

Sənin nəqşi-xəyalin can içində.
Müsəvvərdir, müsəvvərdir, müsəvvər!

Zəhi dövlət ki, vəslin gah-gahi,
Müyəssərdir, müyəssərdir, müyəssər!

Sənayedən nə sən'ətdir, Nəsimi,
Mükərrərdir, mükərrərdir, mükərrər! (səh. 62)

***

(məfA'ilün fə'ilAtün məfA'ilün fə'Ulün)

Götür niqabüvü xəlqə görün, ey şəmsü qəmər,
Görüb utana ləbindən nəbatü qəndü şəkər.

Gözünü nərgizə kimdir ki, bənzədir, yarəb,
Ol qafilü bixəbər gər kim, necə qıldı nəzər.

Əbirü ənbər utandı cəmalını görəli,
Saçın xəyalına düşdü həmçü şamü səhər.

Əzəl günündə oxudum yüzündə uş “Taha”,
Bu sirri kim, anı hiç kimsə verməmişdi xəbər.

Səni bu lütf ilə kimdir deyən ki, ey dilbər,
Bu surət ilə sənə kim dedi ki, üştə bəşər!

Əzəldə düşdü cəmalın təcəllisi Turə,
Ey Musa, anı mənə sor ki, narə yandı şəcər.

Həqi bu rəsm ilə tanı, dəxi həqiqət bil,
Ki, həq ilə yerü gög dopdoludu bəhr ilə bər.

Hur ilə insü mələk bəndə oldu cümlə sana,
Bu hüsnə aşiq olmayanın adı oldu həcər.

Qələndəri ilə təcrid fəna üçü birdir,
Nə qəm bu üçünə aləm olursa zirü zəbər.

İrişdi mö’cüzü həqqin Nəsimiyə çün kim,
Anın içün ki, ana həq dedilər əhli-nəzər. (səh. 63)

***

(fA’ilAtün fA’ilAtün fA’ilAtün fA’ilün)

Dilbəra, eşqində aləm sərbəsər qovğa çəkər,
Sanma ki, eşqin bəlasın mən qulun tənha çəkər.

Gər sənə eşqi-dərunim şəmməsin təqrir edəm,
Bazuyi-hümmət qulam bər guhü bər səhra çəkər.

Sübhi-vəslindən cəmalın aftabın gözləyib,
Gözlərim ta sübhdəm bidariyi şəbha çəkər.

Aşiqi-həqbin qılır yarın tamaşasın bu gün,
Zahidi-xudbin durubdur qüsseyi-fərda çəkər.

Ey Nəsimi, yarın əsmasın dilindən qoymagil,
Çün müsəmmayə sini xasiyyəti-əsma çəkər. (səh. 64)

***

(fA'ilAtün fA’ilAtün fA’ilAtün fA’ilün)

Təl’ətin bir gündü kim, xurşid-nur eylər əda,

Qaşların bir aydı kim mahi-hilal ondan çıxar.

Ey könül, sən sayıl ol, qılgil suali-mə'rifət,
Mə'rifət bir bəhr imiş, əhli-kəmal ondan çıxar.

Mə'dəni-lö'l dişindir, tökər ol dürrü xoşab,
Abi-kövsərdir adın, eyni zülal ondan çıxar.

Ey Nəsimi, geymə ətləs, sidq ilə gey şal sən,
Vəsleyi-dərviş budu, asudə hal ondan çıxar. (səh.65)

***

Gətir, gətir, gətir ol kaseyi ki, rəvadı,
Götür, götür, ol çəlik ki, pir nəvadı.

Verdim, verdim öz canımı ol yarə,
Öpüm, öpüm, ol şəhd ilə şəkkərdi.

Məni, məni, ol qəmzə ox ilə vurdu,
Sənin, sənin ol cadu gözün yeksərdi.

Ləbin, ləbin, ləbiniz əqiq lə'lilə mat,
Dişin, dişin, dişiniz nə bəhasız gövhərdi.

Sözün, sözün, sözünüzdən əridi qəndü nəbat,
Yüzün, yüzün.yüzünüzdən tutulan şəmsü qəmərdi.

Saçın, saçın, saçınızdan, xətayi müşki-xəta,
Qaşın, qaşın, qaşınızdan kiprigin oxlərdi.

Yəqin, yəqin, yəqindir ki, Nəsimiyə, şəksiz,
Həbib, həbib, həbib durar dilində söylərdi. (səh.66)

***

(məfA'ilün fə'ilAtün məfA'ilün fə'ilün)

Qaçan ki, sünbüli-zülfün niqabi ayə düşər,
Qəmər səhabə girər, aftabə sayə düşər.

Düşürmüş ayə saçın zillinivü kölgəsini,
Düşürmək anciləyin sayə, şol hümayə düşər.

Qaşında gör ki, eynəl-yəqin imiş gizli,

Ki, bigüman olur ol ki, gözü bu yayə düşər.

Xətadır əhsəni-təqvimi sevmək, aydır div,
Bu həqqə asiyi gör kim, necə xətayə düşər.

Əgərçi zülfünə dami-bəla demiş aqil,
Bu damə kim ki, gəlib düşmədi, bəlayə düşər.

Səba saçından utandı ki, nafeyi-Çindir,
Məgər ki, silisiləsindən səba Xətayə düşər.

Cəhan müəttər olur hər səhər ki, badi-səba
Gəlir bu həlqeyi-zülfün əbirsayə düşər.

Qaçan gədayə vüsali-səadətin düşməz,
Əgər düşərsə mənim tək ğəni gədaya düşər.

Əcəb şərab imiş, ey saqiyi-əzəl, eşqin
Ki, cuş edər içən ani nə huyi hayə düşər.

Nəsimi yarə ulaşdı, nə oldu münkirə kim,
Tutuşdu yürəgi yandı yavuz qəzayə düşər. (səh.67)

***

(məfA'İlün məfA'İlün fə'Ulün)

Apardı könlümü bir çeşmi-məşmur,
Kim ola, istəməz şol hüsnə məğrur.

Şərabi-ləlinizdən cür'ə içdi,
"Ənəlhəq" çağırır eşqində Mənsur.

Həqin əsrarını mən anda gördüm
Ki, Musa söylər idi bərsəri Tur.

Sənin eşqində, ey Leylisifətli,
Ki, Məcnun olmuşam aləmdə məşhur.

Çu İsa nöh fələk çərxinə çıxdım,
Cahanı sərtəsər gördüm, pür əz nur.

Nəsiminin cahanda yarı sənsən
Ki, sənsən cənnətü cənnətdəki hur. (səh.68)

***

(FA'ilAtün FA'ilAtün FA'ilAtün FA'ilün)

Ey xətin səb'ülməsani, ey ləbin ma'i-təhur,
Vey cəmalın pərtövindən sərbəsər aləmdə nur.

Və'deyi-yovmül-qiyamət endi həqdən arifə,
Ruzi-həşr oldu, çalındı vəhdətin günündə sur.

Xilqətin şanında münzil oldu əmri-əscuda,
Bilmədi şeytan bu rəmzi, şükrünü qıldı ğəyur.

Şübhədən arınü əhli-sacid olgil səcdəyə,
Leysə məqbulәl səlatülqəlb illa bilhüzur.

Xatiri-cəm'iyyət ol zülfi-pərişanındadır;
Şol cəhətdən olmadı xali xəyalın əz xütur.

Eynimə gəlməz cəhanın zülməti bir şəmməcə,
Çün iki aləmdə sənsən mərdümi-eynimdə nur.

Həmdilillah kim, Nəsimi buldu yarın vəslini,
Fariğülbal əz qəmi-dünyavü min həşrən-nüşur. (səh.69)

***

(müstəf'ilün müstəf'ilün müstəf'ilün müstəf'ilün)

Tabəndə yüzün tə'ləti xurşidi-taban göstərir,
Şol sidreyi-ə'layi gör sərvi-xuraman göstərir.

Hüsnün rümuzi şərh edər "inna fətəhna", ey nigar,
Kim, vəhyi-mütləq sirrini aləmdə pünhan göstərir.

Cami-ələl-ərş istiva rəhmanı həqdən buldum uş,
Ol mə'nidən həq daima mö'cüzü bürhan göstərir.

Yaxdı fəraqın uş məni, Musa kimi, sərtaqədəm,
Firqətdə yanan aşiqə gör kim nə hicran göstərir.

Lö'löi-nabin vəsfini axıtdı ğəmdən gözlərim.
Gör kim, necə hər qətrəsi dəryayi-ümman göstərir.

Ruxsarın üzrə zülfünü dağıtma nəsrin üzrə kim,

Zülfi-siyahın gör necə küfr ilə iman göstərir.

Gərçi dodağın vəsfini sordum mən anı arifə,
Lə'lin şərabın Xızra sor nə abi-heyvan göstərir.

Oldu xəyalından zəif cismi Nəsiminin, yenə
Dərmanı səndəndir, şəha, kimdir ki, dərman göstərir. (səh.70)

***

(FA'ilAtün FA'ilAtün FA'ilAtün FA'ilün)

Zey günəş kim, zərrəsindən mahi-taban göstərir,
Zey dəniz kim, qətrəsindən bəhri-ümman göstərir.

On səkiz min aləmə ayinə oldu surətin,
Çar ənasir surətində şəkli-insan göstərir.

Canü dil Beytülhərami-vəslin oldu, ey nigar,
K'əlləzi əsrayi hər dəm anda sübhan göstərir.

Cameyi-cümlə xəlayiq nüsxeyi-ümmülkitab
Olduğunçün, bu bəşər şəklində Qur'an göstərir.

Eylədi çün bu Nəsimi faş "ənəlhəq" sirrini,
Dönmədi eşqin yolundan əhdü peyman göstərir. (səh.71)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Sünbülün əbrində yüzün mahi-taban göstərir,
Kafiri islama çəkmiş, küfrə iman göstərir.

Surətindən kəşf olur çün sureyi-ümmülkitab,
Çün bu sirrin tovhidin aləmdə pünhan göstərir.

Firqətin dövranı keçdi, getdi zülmət arədən.
Çün əyan oldu ləbindən abi-heyvan göstərir.

Gər ənəlhəq sirrini faş eyləyim haqdan bu gün
Kim, məni firqətdə yaxır, dağı hicran göstərir.

Yovmi din oldu camalın ta əbəd dilbər, sənin,
Din əyan oldu həqiqətdən çu bürhan göstərir.

Dərdimin dərmanı sənsən bilmədim sordum, təbib,
Çün yəqin sənsən dəvası, dərdə dərman göstərir.

Zülfü ruxsarın Nəsimi sirrini faş eylədi,
Kim, bu əsrarın bəyanı, ərşi-rəhman göstərir. (səh.72)

***

(FA'ilAtün FA'ilAtün FA'ilAtün FA'ilün)

Vəhdətin şəmsi yüzündür, laməkani göstərir,
Zi kəmali-nəqşi-qüdrət bu nişani göstərir.

Sureyi-səb'ülməsanidir cəmalın, ey günəş,
Surəti mə'ni mənə "səb'ülməsani" göstərir.

Zilli-sanidir saçın "inna ileyhir-raceun"
Qül kəfanin aftabi xoş məani göstərir.

Hüsnünə heyran olubdur mahü xurşidi-səma,
Mahü xurşidin cəmalı bu bəyani göstərir.

Mə'dəni-lö'lö dişindir, cövhəri bilməz anı,
Cövhəri gövhər nə bilsin kim, dəhani göstərir.

Vəl-qələmdən "kafü" "nun"un katibi şəqq eylədi,
Cübbədən şəqqülqəmər gör kim, filani göstərir.

Laməkanidir vücudun, qıl təbarək, ya həbib,
Gəl məkanı gör, məkansız kün-fəkani göstərir.

Eşq meydanında gəl, də'vi nədir, ey pürhünər,
Də'viyə mə'ni gərəkdir, tərcümani göstərir.

Cənnətin mülkünə düşmüşdür Nəsimi layəzal,
Dari-üqbadə məgər ruhi-rəvani göstərir. (səh.73)

***

(FA'ilAtün FA'ilAtün FA'ilAtün FA'ilün)

Odü su, torpağü yeldən gör nə mə'ni göstərir,
Özünü pünhan edər, əmayi-mə'ni göstərir.

Dinü imani-əmanət əhdilə dörd-yeddidir,
Kamil insan olanı buyisti-məşti göstərir.

Dörd kirpigü iki qaşın, dəxi zülfün sənin,
Üç ləbindir, iki ariz iki mini göstərir.

On dörd ayət oldu bu, "səb'ülməsan" derlər ona,
Zahirü batin yüzündür, dördü yeddi göstərir.

Səmə, beyniv əynü nitqin cümlə zatilla imiş.
Hər yerə qılsan nəzər nuri-təcəlli göstərir.

Üç yüz altmış istivanda dərdi süngər dələr,
Hər birisi üç yüz altmış gənci-məxfi göstərir.

Çar ənasir, həft kəvakib, şeş cəhət, həm səd tənab,
Elmi tovhidin bəyanın, bəlkə Fəzli göstərir.

Müttəqilər bu hürufun sirrinə vaqif degil,
Hadidir onlar həmişəni şani-ərşi göstərir.

Kim ki, tovhidi-mücərrəd oldu bu eşq yoluna,
Lövhi-məhfuz oldu, könlü təhti-kürsi göstərir.

Bu həqiqət sirrinə sən vaqif olma, zahida,
Ruhi-qütsün nitqidir, həm elmi hadi göstərir.

Dürrü gövhərdir Nəsimi, sözlərin fəhm eylə, gəl,
Xeymeyi-miyad içində "küntü kənzi" göstərir. (səh.74)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Sübhdəm dildarımı gördüm, otağından gəlir,
Öylə sandım huridir, firdövs bağından gəlir.

Ya məgər nuri-ilahidir, əyan oldu, yəqin,
Ay ilə gün təl'əti gülgün yanağından gəlir.

Çeşmeyi-heyvan xəcildir, ləblərindən daima,
Abi-kövsər şərbəti şirin dodağından gəlir.

Şahə, qəddü qamətin hər sərv görsə dər çəmən,
Anlıyur, səcdə qılur, titrər, budağından gəlir.

Zülfünüz çin-çin xətadır, dəm urur müşki-xəta,
Rusiyah bilməz xəta, hər dəm dimağından gəlir.

Dilbəra, sən hüsn ilə mən’ eyləmə mən aşiqi,
Qanda kim, bir gül olur, bülbül qırağından gəlir.

Ey Nəsimi, ruhpərvər gəldi yarından sənə,
İsanın ənfasıdır, yarın buxağından gəlir. (səh.75)

***

(fA’ilAtün fA’ilAtün fA’ilAtün fA’ilün)

Sünbülün əbrində gördüm üş mahi-taban gəlir,
Saçının hər tarəsindən şö’leyi-iman gəlir.

Surətin əşkalıdır, “inna fətəhna”, ey nigar,
Kim, nüquşun ayətindən həqqə üş bürhan gəlir.

Gərçi ehsan etdiyin daim cəfadır aşiqə,
Sən vəfalısan, vəfa qıl kim, cəfa çəndan gəlir.

Zülmətin dövranı keçdi, oldu çün Xızra əyan,
Şimdi sordum ləblərindən çeşmeyi-heyvan gəlir.

Razimi faş etdi ahim, şol səbəbdən, ey nigar,
Vəslinə vəsl olmaq üçün dəgmə bir nadan gəlir.

Gül yanağın həsrətindən bülbül, ey can aşiqi,
Ah edər gül həsrətindən, bilməz ol qandan gəlir.

Əhsəni-təqvim sücud eylər bu gün, ey can, sənə,
Surətin gördü məgər kim, səcdeyi-şeytan gəlir.

“Lövhi-məhfuz” oldu qaşın, kirpigin eşq əhlinə,
Surətin lövhündə, ey can, həq dedi Fürqan gəlir.

Çün məqami-dilbər oldu, ey Nəsimi, aşikar,
Şol həyati-cavidandan sevdiyim canan gəlir. (səh.76)

***

(fA’ilAtün fA’ilAtün fA’ilAtün fA’ilün)

Güli-tərdən gəlicək arizinə ma’ tökülür,
Bağə gir, gör ki, necə laleyi-həmra tökülür.

Ənbərin sünbülünə badi-səba kim, əsicək,
Qoyma təprənməgə kim, ənbəri-sara tökülür.

Qara saçın ucunu ayağına salma, götür,
Heyf ola nafeyi-tatarə ki, hər ca tökülür.

Aləmin başına tabəndə yüzün şəm’indən,
Xaliqin rəhmətidir, nuri-təcəlla tökülür.

Necə nomid olayım, çünki gözüm əbrindən,
Qətrə-qətrə yüzümə dür kimi dərya tökülür.

Sədəfin gərçi dəhanı doludur incu ilə,
Açıcaq ləblərini lö’löi-lala tökülür.

Ləblərindən varicək Misrə xəbər, əttarın,
Qutusundan dünü gün qəndilə həlva tökülür.

Ta əbəd oldu Nəsimi ləbi-lə’lindən anın,
Gözlərindən dünü gün lə’li-müsəffa tökülür. (səh.77)

***

(fə’ilAtün fə’ilAtün fə’ilAtün fə’ilün)

Gözü ə’ma olanın nuri-təcəlla nə bilür?
Bu sözün şərhini binayə sor, ə’ma nə bilür?

Leylinin bildigini Məcnunə sor, Məcnunə,
Aqilin əqli qaçan bildi ki, Leyla nə bilür?

Mö’münin güzgüsü çün mö’min imiş, gözünü aç,
Görməyən güzgüdə ol surəti, mə’na nə bilür?

Darə çıxmaq bu fəna ərsədə Mənsurə düşər,
Bilmiyən sirri-ənəlhəqqi o də’va nə bilür?

Ey verən könlünü Çin nəqşinə, bu surətə bax
Qüdrətin nəqşi yazan nəqşəni Mani nə bilür?

Bənzədirlər dodağın xəttini reyhanə, vəli,
Bu zümürrüd gühərin qiymətin əf’a nə bilür?

Axirət halını hal əhlinə sor, ey qafil,
Bu səfərdə olanın yoldaşı dünya nə bilür?

Cənnət içində olan huriliqanın zövqün,
Cənnətin əhlinə sor, cənnəti-ə'lan nə bilür?

Ey Nəsimi, nəfəsin gərçi Məsiha dəmidir,
Mö'cüzün rəmzini Musa bilə, İsa nə bilür? (səh.78)

***

(MəFA'ilün məFA'ilün məFA'ilün məFA'ilün)

Səhərdə gülruxun, şəha, çu gülşəndə gülab oynar,
Anı görüb səfasından fələkdə aftab oynar.

Əcəb zati-mütəhhərsən, nəzirin yoxdur, ey dilbər,
Vücudin nuri-bərqindən cəmalında niqab oynar.

Görübdü ğəbğəbin eynim, gəlin, görün tamaşayi,
Ki, lə'lin hoqqə altından müəlləq durmuş ab oynar.

Quruldu şahvar məclis, çalınır cəngü ney, qanun,
Tərənnümlər qılır mütrib, ara yerdə şərab oynar.

Fərəhdən cümlə üşşağın niyazi-göglərə çıxdı,
Həsəddən zahidi-xüşkin qabağında xunab oynar.

Cahan əksinə dönmüşdür, məgər axırzaman oldu,
Qəfəsdə tutiyü qumri, çəmənlərdə ğurab oynar.

Nəsimi uş bu əhvalın xəyalında təhəyyürdür,
Kitabü nərdü şətrəncü odü yel, su, türab oynar. (səh.79)

***

(müstəf'ilün müstəf'ilün müstəf'ilün müstəf'ilün)

Məcnun kim ola aqibət şol zülfi-zəncir olisər,
Yay oldu fitnələr mənə, kirpiklərin tir olisər.

Ey şahi-xuban, qapına irdim, mənə lütf eyləgil,
Sultan inayət qılmağa hər bir gəda mir olisər.

Dedi, könül ver zülfünə, mən can fəda qıldım ona,
Sən lütfin eylə, əfv qıl, məndən çü təqsir olisər.

Bir gün gözlətdim dilbərin çapuqlığını kim necə,
Dedim, şol ayyüzlü sənəm cahanda tək bir olisər.

Düşdüm bəlayi-eşqinə, gəl, ey Nəsimi, səbr qıl,
Əl hökmlillah çarə qıl, hər nəsnə təqdir olisər. (səh.80)

***

(məFa'ilün məfa'ilün məfA'ilün məfA'ilün)

Sənin eşqindir, ey dilbər, pənahım, mürşidim, həm pir
Ki, düşdüm eşqinə, yarəb nədir çarə, nədir tədbir?!

Vücudum padşahisən, könül verdim, səni sevdim,
Sənə könül verən aşiq qaçan canın edə təqsir?

Divanədir dəli könlüm saçın zəncirinə bağla,
Mənim könlüm dəlisinə sənin zülfün teli zəncir.

Duşumda dün gecə gördüm qara zülfünü boynumda
Oyandım dedim, ey dilbər, nədir bu rəmzimə tə'bir?

Nəsimi, namusu arı əgər aşiq isən tərk et,
Aşiqlər boynuna biçmiş məlamət donunu təqdir. (səh.81)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Yanaram eşqindən, axır gözlərimdən yaşlər,
Həsrətin dərdi çıxardı cigərimdən başlər.

Tənə eylər müddəi, başıma qaxar eşqini,
Sınığa vacib degildir bunca atmaq daşlər.

Ğəmdən incəldi bu könlüm, oldu yengi ay kimi,
Gözlərimə tuş olalı şol hilali qaşlər.

Xəstə olalı könül eşqindən, ey can parəsi,
İçirəm qəm mətbəxindən dürlü-dürlü aşlər.

Zülfünə dolaşdı könlüm, bilmədi aşüftə kim,

Zülfün ucundan nə çox-çox yerə getmiş başlər,

Şö'lə yanır yürəgimdə, ey Sənəm, eşqin odu
Kim, tutuşmuş şö'ləsindən həm quru, həm yaşlər.

Taqətim taq oldu, vallah, keçdi ömrüm ah ilə,
Dərdimə dərman nədir kim, neyləyim yoldaşlər?

Olmuşam dərdi-fərağından zəif şol həddə kim,
Gətirəməzlər xəyalə nəqşimi nəqqaşlər.

Öldü eşqindən Nəsimi, iştə, dünyadən gedər,
Sən murad ilə cahanda yaşa çox-çox yaşlər. (səh.82)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Hər səhər vəqtində kim, bülbül fəğanə başlər,
Ahım artar, şoylə kim, axar gözümdən yaşlər.

Hər səhər fəryad edər biçarə bülbül dərd ilən,
Kim, onun fəryadına əfğanə gəlmiş daşlər.

Bilməzəm zülfünmüdür hər tarəsin dam eyləyən?
Ya bu cana qəsd edən gözünmüdür, ya qaşlər?

Qanda bir Leyli olursa, onda bir Məcnun olur,
Qanda bir gənc açılırsa, onda itər başlər.

Kim mənə Məcnun olur, Məcanından verir xəbər,
Ol səbəbdən kim onunla olmuşuz addaşlər.

Hər firiştə surətin yanında yüz min div olur,
Qanda bir qəllaş olursa, haqq olur qalmaşlər.

Barəkəllah, dəsti-qüdrət türfə yazmış nəqşini,
Afərin şol nəqşə kim, aciz qalır nəqqaşlər!

Tərki-can qıldı Nəsimi, keçdi bu candan dəxi,
Qanda qaldı ana-ata, qövm ilə qardaşlər. (səh.83)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Əhli-iman işlərim ol dəmdə inkar etdilər,
Şol Hüseyniyi Hələb şəhrində bərdar etdilər.

Seyyidə cövr etdilər, zülm ilə həqqi basdılar,
Əhsəni-təqvimi gör kim, necə inkar etdilər.

Qazilər çün Seyyidin qətlinə fitva verdilər,
Küfri tərk edib imanə gəlməgə ar etdilər.

Həqq mənə söylə dedi, əmr etdi, mən də söylədim,
Sözlərim dastan edib aləmdə təkrar etdilər.

Kişilər pıçaqlar ilə canıma kar etdilər,
Sağ ikən bu miskini gör necə bimar etdilər,

Soydular xəncər ilən bu canım ilə tənimi,
Yas tutub göydə mələklər, cümləsi zar etdilər.

Ey Nəsimi, vasil oldun xaliqi-rəhmana sən,
Cənnətül-mə'vanı buldun, bəki-gülzar etdilər. (səh.84)

***

(məfA'İlün məfA'İlün fə'Ulün)

Yüzünü surəti-rəhman oxurlar,
Xətini sünbüli-reyhan oxurlar.

Əlif tək cövhəri yekta boyundur,
Dodağın çeşmeyi-heyvan oxurlar.

Boyun Tuba dedilər, əhli-ürfan,
Belin incə, ləbin mərcan oxurlar.

Əzəldən çün yüzündür Misri-came,
Yüzünü cümləsi Qur'an oxurlar.

Yüzün bağında bülbül, tuti, qumri,
Həzarən dəst ilə dəstan oxurlar.

Yüzün nurinə münkir divi-məl'un,
Ona lə'nət, adın şeytan oxurlar.

Bu gülli-hüsnünüznü yad edənlər,

Yüzün şəmsü məhi-taban oxurlar.

Nə hikmətdir, əya, ey hüsni-ziba,
Səni aləmlərə sultan oxurlar.

Fəda qıl canını sən, ey Nəsimi,
Ki, bu canı şaha qurban oxurlar. (səh.85)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Qiblədir yüzün, nigara, qaşların mehrablər,
Surətin müshəf, vəli, mişkin-saçın e'rablər.

Çəhrənin əksi əzəldən dışra çıxdı pərdədən,
Düşdü anın şö'ləsindən ayü günə tablər.

Aşiqin əhvalını aşiqlərə sor kim, bu hal,
Bilməz anı eşq oduna yanmayan bixablər.

Şərh əgər qılsam cəmalın dəftərindən bir vərəq,
Hər sözüm bir fəsl olur, hər fəsl neçə bablər.

Aşiqin cigər qanından şərbəti var, ey həkim,
Qatma güllabına anın qənd ilə innablər.

Eşq odu düşdü şəm'in caninə gör kim, necə,
Həm yanar, həm gözlərindən axıdar seylablər.

Çün Nəsimi cavidani yar ilə buldu vüsal,
Qoy necə dönərsə dönsün bu yaşıl dolablər. (səh.86)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Gözlərindən çağrışırlar dadlər, bidadlər,
Tiğə düşmüş kirpigin puladlər, cəlladlər.

Dilbərin bilmişdigindən sorma əşqin halini,
Aşinə bilməz bu hali, xanda bilsün yadlər.

Kim ki, eşqin sənətini bilməgə şagird olur,
Baş verir onun üçün şagird olan ustadlər.

Dabanımdan yardılar, başdan-ayağa soydular,
Almadılar dadını bidadlər, şəddadlər.

Çün biçaq yürəgə endi, yürəgim dərd eylədi,
Ağladı cigər qamu fəryadlər, fəryadlər.

Həqqə vasilsən, Nəsimi, şəkk dəgil, iman gətir,
Binəhayət dini açdın, gör qamu əfradlər. (səh.87)

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

Səfavü zövqi-dünyayə könül, aldanma, al eylər,
Yalan söylər, səni aldar, dönər özgə xəyal eylər.

Əgər beş gündə bu dövran sənə əl versə, ey qafil,
Ki, şadlıq göstərər bir dəm, dönər yüz min məlal eylər.

Yığınca bunca əşyayi, yeri, sən bir kəmal istə,
Əcəl yeli əsər bir gün, yenə çox-çox zəval eylər.

Əgər aşiqisən tərk et, nedərsən bunca əsbabı,
Olar ki, eşqə qərq oldu, qaçan sevdayi-mal eylər.

Atının ayağü nə'li fələk fövqündə tac olmuş,
Mən anı görmüşəm, hər dəm üzün bədri-hilal eylər.

Günəş dutuldu dedilər, nəzər qıldım cəmalına,
Dağılmış yüzünə zülfü, bu el yanlış xəyal eylər.

Nəsimi xəstəyə sənsiz Süleyman mülkünü versən,
Ol anı bir çöpə saymaz, təmənnayi-cəmal eylər. (səh.88)

***

(məfA'İlün məfA'ilün fə'Ulün)

Dodağın qənd imiş, bal onda neylər?
Bu ziba xətt imiş, xal onda neylər?

Onun kim, yoxdurur gənci-nihanı,
Ya munca mülk ilə mal onda neylər?

Yedi xətt yazılır hər bir vərəqdə,
Əlifü lam, əlif, dal onda neylər?

Sufi ətləs geyər, zahid səqerlat,
Fəqirin geydiyi mal onda neylər?

Nəsimi narə düşdü yar əlindən,
Bu müşkül hal imiş, qal onda neylər? (səh.89)

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

Cəmalın əksi, ey dilbər, nəyə kim düşdü, al eylər,
Anın qövsi-qüzeh qaşı bu bədr ayı hilal eylər.

Sənin kim, cadu gözündən həzər kim qılmasa, şaha,
Ki, hər bir baxışı yüz min füsünü məkri al eylər.

Xəyalın hər gecə ta sübh gətirməz gözümə uyqu
Fərağın bağrımı ğəmdən əridir, çün hilal eylər.

Üş ol kirpiglərin zəxmi, yaş eylər bağrımı hər dəm,
Ki, bağrım qanı hər saət gözümni malamal eylər.

Bu cövrü gər sən eylərsən Nəsimiyə bu gün, cana,
Səni tərk eyləməz, neyçün çəfakar ittisal eylər. (səh.90)

***

(məf'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

Yenə fəsli-bahar oldu gögərdi kuhi-səhralər,
Çəmənlər mürğzar oldu, açıldı vərdi-həmralər.

Bəzəndi naz ilə çıxdı xuraman, keçdi seyranə,
Gözəllər, xassələr, xüblar, məlahət əhli-sultanlər.

Yazılsa dəftərə sığmaz kəmali-hüsnünün vəsfi,
Mələklər yazıçı olsa, mürəkkəb olsa dəryalər.

Məlahətdə mənim yarım nə ziba məzhəri-həqdir,
Ona heyrandurur hər dəm cahanda cümlə zibalər.

Gözəllikdə mənim yarım quti-bimüntəha olmuş

Ki, hər bir şivəsi yüz min könül şəhrini yəğmalər.

Nəsimi, işbu mövsümdən könül vaxtını xoş tutğıl,
Fənadır bu cahan, beş gün qənimətdir tamaşalər. (səh.91)

***

(fA'ilAtün məfA'ilün fə'Ulün)

Ləblərin qəndinə şəkər dedilər,
Cani-şirinə gör nələr dedilər.

Can demişlər, dodağinə hey, hey!
Bu sözü gör nə müxtəsər dedilər.

Necə dilbərsən, ey xocəstəliqa
Ki, ruxün hüsnünə qəmər dedilər.

Kiprigin oxuna, qaşın yayına,
Aşiqin canını sipər dedilər.

Dedilər kim, dəhanı yoxdur onun,
Bixəbərlər əcəb xəbər dedilər.

Əhli-mə'ni xocəstə surətinə
Mə'niyi-vahibüssüvər dedilər.

Həqdən irağ imişlər onlar kim,
Səni, ey nuri-həq, bəşər dedilər.

Ənbərəfşan saçınla arizinə,
Yasəmən üzrə müşki-tər dedilər.

Gör onun yüzünü, ilahinə bax,
Əhli-mə'ni budur, nəzər dedilər.

Şamə bənzətdilər qara saçını,
Arizin nurinə səhər dedilər.

Ey Nəsimi, mühiti-ə'zəmsən,
Gərçi əlfazinə gövhər dedilər. (səh.92)

***

(fə'ilAtün fə'ilAtün fə'ilAtün fə'ilün)

Dişlərin nəzminə dürdaneyi-gövhər dedilər,
Görücək yüzünü xəlq ayəti-əkbər dedilər.

Yazıcaq surətini müxtərei-nəqşi vücud,
Yerü gög xəlqi ona ruhi-müsəvvər dedilər.

Kirpiyindən dilədim könlümü, qaşınla gözün,
Qoymadı bizdə anı zülfi-müənbər dedilər.

Sordum ərvahə yüzün vəsfini hərfən-hərfa,
Kimsənin şərhinə gəlməz bu güli-tər dedilər.

Ləbini canlara sordum ki, nədir əsli anın,
Ruhi-qüds ilə yenə nuri-mütəhhər dedilər.

Gərçi sərfitnə saçındır bu qəmər dövründə,
Qəmərin fitnəsi ol xali-müdəvvar dedilər.

Gər desəm zülfinə mürsəl, nə əcəb, ya hadi,
Möcüzat əhlinə hadivü peyəmbər dedilər.

Gərçi zülmatə saçın daldır, fitneyi-dəlil,
Aşiqə şə'mi-rüxün nurunu rəhbər dedilər.

Rövşən oldu yeri-gög mehri-rüxün şövqündən,
Bu cəhətdən yüzünə mehri-münəvvər dedilər.

Gülə əl sunmasın ol kim, tigənindən üşənür,
Ki, bu həmra gülünün xarinə xəncər dedilər.

Dedilər, qəndü şəkər lə'linə, ya rəb, nə üçün
Gövsərin şərbətinə qənd ilə şəkgər dedilər.

Hüsnünün xəmri ləbin suyudur ol mə'nidə üş,
Səlsəbil oldu ləbin, adına gövsər dedilər.

Sənə ol gün kimi, ey fitnə, sücud eyləyənin,
Əxtəri-taleyi məs'udu müzəffər dedilər.

Ey Nəsimi, nədir ayruq diləgin həqdən kim,
Nə ki, həqdən dilədin, oldu müyəssər dedilər. (səh.93)

***

(fə'ilAtün fə'ilAtün fə'ilAtün fə'ilün)

Ləbinə əhli-nəzər çeşmeyi-heyvan dedilər,
Gərçi ucmaq hurisi, cümlə ona can dedilər.

Səni bu hüsnü cəmal ilə, bu lütf ilə görən,
Qorxdular həq deməyə, döndülər insan dedilər.

Sünbülün halı pərişan dedilər, hal əhli,
Allah, Allah nə əcəb müşgə pərişan dedilər.

Bir qılın qiymətini hər kimə sordumsa ona,
Gənci-Qarun ilə həm mülki-Süleyman dedilər.

Şol rəqib adını aşiqlərə sordum ki, nədir,
Eşidən cümlə nə kafər, nə müsəlman dedilər.

Şəkk degil kim, yüzünü görməmiş anlar ki, səni,
Hüriyə bənzədübən Yusifi-Kən'an dedilər.

Ləblərin vəslinə irmək mənə müşkül görünür,
Gərçi soranlar anı dil ilə asan dedilər.

Ağzı əsrarına əndişə qaçan vaqif olur,
Ki, üqul əhli ona nükteyi-pünhan dedilər.

Ey Nəsimi, dəmi-isa degil isə nəfəsin,
Nəfəsi doğrular ana nə üçün can dedilər? (səh.94)

***

(fA'ilAtün fə'ilAtün fə'ilAtün fə'ilün)

Yüzünə əhli-nəzər surəti-rəhman dedilər,
Oxuyanlar bu kəlamüllahı Qur'an dedilər.

Səbəxan hafizə sordum ki, qaşınla, gözünə,
Həqq ilə batili-fərq edici fürqan dedilər.

Xətt ilə arizinə xazini-cənnəti-nəim,
Xüldü firdovsi-bərin, rövzeyi-rizvan dedilər.

Ləblərin çeşməsinə Xizrü, Sgəndər, Dara,
Zəmzəmü gövsər ilə çeşmeyi-heyvan dedilər.

Ləbi-lə’lin şəkərindən bal utandı, əridi,
Səni Şirini-zaman, Xosrovi-xuban dedilər.

Dürri-dürci ləbi-dəndanına sərrafi-zəman,
Lələ yaquti-gühərbaru dürəfşan dedilər.

“Sibğətüllahivü Mən Əhsənü” həqdən yüzünə,
Arif ol, sibğeyə, həm sibğeyi-sübhan dedilər.

Müntəhi sidrə boyun qaməti şümşadi-səhi,
Ki, boyun sidrəsinə sərvi-xuraman dedilər.

Endi gögdən yüzünə lövhi-zümürrüd xət ilə,
Kim ki, bildi, bilənə Musiyi-İmran dedilər.

Yüzümün üstə saçın cəm’i pərişan kimidir,
Aşiqin könlünə məcmu’i-pərişan dedilər.

Aşiq ol, eşq ilə bil, məntiqi-eşqin halını,
Mö’minə Nuhi-nəcat, kafirə tufan dedilər.

“Əkrəmüzzeyf” əmanət dedi peyğəmbəri-həqq,
İzzət etgil bu gün ol məntiqə iman dedilər.

“Mən ərəfna” tanıyan nəfsini ol kimsənədir,
Bildi rəbbini, anın adını insan dedilər.

Səcdə qıl, məscidi bul, sacidü məscudini bil,
Kim ki, toprağa sücud etmədi, şeytan dedilər.

Möhkəmayətü dəlilü rüxü vəchül-həsənə
Kim, Nəsimi sözünə höccətü bürhan dedilər. (səh.95-96)

***

(məf’Uli fA’ilAtün məf’Ulü fA’ilAtün)

Gəlgil ki, səndən ayrü müştaqə can gərəkməz,
Müştaqə sənsiz, ey can, ikki cahan gərəkməz.

Gülzarə, sərvə könlüm meyl eyləməz anunçün
Qəddindən ayru, ey can, sərvi-rəvan gərəkməz.

Ol binişani buludum, anın nişanı oldum,
Yüzün görənə ayruq namü nişan gərəkməz.

Gördüm səni gümansız hər dilbərin yüzündə,
Həqqül-yəqin görənə zənnü güman gərəkməz.

Mişkin saçına verdim iki cahanı, canı,
Assiyə uğrayana qılca ziyan gərəkməz.

Qaşınla kirpiyin çün söyd eylədi cahani,
Səyyad olana, ayruq tirü kəman gərəkməz.

Şirin ləbin meyindən çün əsirdi Nəsimi,
Faş oldu sirri-pünhan, şərhü bəyan gərəkməz. (səh.97)

***

(məfA'İlün məfA'İlün fə'Ulün)

Mənə sənsiz cahanda can gərəkməz,
Vüsalın var ikən hicran gərəkməz.

Ləbi-lə'lin zülal abindən ayru,
Şərabi-çeşmeyi-heyvan gərəkməz.

Qəmindir könlümün təxtində sultan,
Bir iqlimə iki sultan gərəkməz.

Yetər dərdin də'va müştaqə, neyçün
Ki, dərdin bilənə dərman gərəkməz.

Gülüstanın gülü sənsiz tikəndir,
Mənə sənsiz gülü bustan gərəkməz.

Gəl, ey aşiqlərin rizvani-hüsnün
Ki, sənsiz aşiqə rizvan gərəkməz.

İki aləmdə didarından özgə,
Mənə ey, surəti-rəhman, gərəkməz.

Mənə rəhm eylə, ey dərdim dəvası
Ki, bildim dərdimə dərman gərəkməz.

Əzəldə qılmışam peyman səninlə,
Bütün peyman, sınıq peyman gərəkməz.

Mənə səbr eyləmək sənsiz, nigara,

Əgər müşkül, əgər asan gərəkməz

Vüsalın şərbətin içən mühibbə,
Fəraqın ağusu çəndan gərəkməz.

Kəsilməz çünki vəslindən Nəsimi,
Gözündən olduğun pünhan gərəkməz. (səh.98)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Sən mənə yar ol ki, könlüm bir dəxi yar istəməz,
Könlümün məqsudi sənsən, özgə dildar istəməz.

Cənnəti-ədnin gülüstani-yüzündür, şəkk degil,
Kim ki, şol gülzarı buldu, dəxi gülzar istəməz.

Ta əbəd hirman imiş həqdən nəsibi, hər kim ol,
Səndən, ey dilbər, iki aləmdə didar istəməz.

Könlümün məqsudu sənsən, hacəti həqdən budur,
Hacətindən ayrı könlüm nəsnə zinhar istəməz.

Gəl ki, sənsiz könlüm, ey canü cahanın hasili,
Kün fəkanın hasilindən oldu bizar, istəməz.

Sorma, ey dilbər, mənə kim, hacətin məndən nədir,
Çünki məşuqindən ayru aşiqi-zar istəməz.

Kim ki, zülfünün xəyalın bağladı könlündə, ol,
Rahibi-deyr oldu, ondan ayru zünnar istəməz.

Çün fəna darını ol Mənsur olubdur istəyən,
Olmayan Mənsur "Ənəlhəq", "leysə-fiddar" istəməz.

İstədi həqdən Nəsimi vəslini, buldu murad,
Maliki-didar olubdur, gəncü dinar istəməz. (səh.99)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Dilbəra, dil səndən özgə bir dəxi yar istəməz,
Çün müyəssər oldu vəslin, ğeyri-didar istəməz.

Könlümə eşqini qismət üçün əzəldən qıldı həq,
Ta əbəd eşqindən özgə nəsnə, zinhar istəməz.

Könlümün Mənsuru çün kim, zülfünü edəndi dar,
Yə'ni kim, Mənsur olan zülfündə bərdar istəməz.

Mən kəsildim masivəllahdan, bu gün, ey müddəi,
Vahid oldum yar ilə, aşiq olan var istəməz.

Bu dili-biçarədən sordum nədir dərdinəm,
Dilbərin lə'lindən ayru hiç timar istəməz.

Bu könül şəhrini hicrin çünki viran eylədi,
Gəl ki, səndən özgə dil mə'muru me'mar istəməz.

Çün ləbin abi-həyatidir, həyati-ömrümün,
Bu Nəsimi səndən ayrı leysə-fiddar istəməz. (səh.100)

***

(məf'Ulü məfA'İlü məfA'İlü fə'Ulün)

Aləmdə bu gün əhdi bütün yar ələ girməz,
Yandırdı tikan bağrımı, gülzar ələ girməz.

Naqis məhək oldu, qamunun qəlbi dəğəldir,
Bir sikkə dürüst, aricə dinar ələ girməz.

Ey xəstə könül, gör nə derəm, məndən eşit pənd,
Dildarə həris olma ki, dildar ələ girməz.

Çün ğəm yeyirəm, ğəm degil, ey aşiq, əgərçi
Qəm yürəgə kar eylədi, həmxar ələ girməz.

Ey axirətin darinə aşiq, bu fənadən,
Keç ki, bu keçər ərsədə şol dar ələ girməz.

Timarə könül verməgil ey sayru, həkim ol,
Dərmanını dərd eylə ki, timar ələ girməz.

Ey aşiq, anın zülfünə yapış ki cahanda,
Bir ancalıyın dilbəri-əyyar ələ girməz.

Səyyarə kimi seyr edərəm daim anınla,

Şol seyredici kövkəbi-səyyar ələ girməz.

Musa tək əgər aşiq isən könlün arıt kim,
Saf olmayacaq ayinə, didar ələ girməz.

Gül çöhrəsinin eşqinə pərvanə kimi yan,
Kanın kimi can yandırıcı nar ələ girməz.

Əlfazi-Nəsimi bu gün ol mö'cüzədir kim,
Bənzər ana bir lölövü şəhvar ələ girməz. (səh.101)

***

(fA'ilAtün məfA'ilün fə'Ulün)

Surətin nəqşinə xəyal irəməz,
Gözlərin alasına al irəməz.

Bu gülü gör ki, rəngü çöhrəsinə,
Nə qədər al edirsə, al irəməz.

Gərçi ayi yüzünə bənzədirəm,
Qaşların şəklinə hilal irəməz.

Qamətin şöylə mö'tədildir kim,
E'tidalinə e'tidal irəməz.

Bu nə ziba cəmal olur, yarəb,
Ki, kəmalatına kəmal irəməz.

Ey cəmil-ül-liqa, nə dilbərsən
Ki, rüxün hüsnünə cəmal irəməz.

Zülfü çün "cimü" qaşı "dal", vəli,
Zülfü qaşına cimü dal irəməz.

Necə günəşsən, ey qəmər ki, sana
Ta əbəd zərrəcə zəval irəməz.

Buldu könlüm səninlə şol vüslət,
Kim, anın vəslinə vüsal irəməz.

Ey Nəsimi, sözün müfərrəhdir,
Bu cəhətdən sənə məlal irəməz. (səh.102)

***

(məf'Ulü məfa'İlü məfA'İlü fə'Ulün)

Dərdü ğəm ilə yandı könül, yar bulunmaz,
Çox darü diyar istədi, dəyyar bulunmaz.

Yarəm deyici çoxdurur, əmma bəhəqiqət,
Fürsət gəlicək yari-vəfadar bulunmaz.

Adət budurur kim, dili dildarə verərlər,
Dil getdi əlimizdənü dildar bulunmaz.

Ancə kişilər də'viyi-islam edir, əmma
Tək aradə bir xaç ilə zünnar bulunmaz.

Hər bihünər, insafı yox, uş mənsəbi tutdu,
Sahibhünərə mənsəbü iqrar bulunmaz.

Çün çərxi-fələk cahilü nadan sevər oldu
Bəs lacərəm, uş elmə xiridar bulunmaz.

Hər baş ki var, layiqi-dəstar olur, əmma,
Min başda bir qabili-dəstar bulunmaz.

Tərrar əgər alursa qamu rəxti rəvadır,
Çün qafilədə bir kişi bidar bulunmaz.

Var dərdə təhəmmül qılu səbr eylə cəfayə,
Çün dərdə timar istədin, bisyar bulunmaz.

Zərq işi riya etdi, kasad eylədi elmi,
Elm əhlinə bir rövnəqi-bazar bulunmaz.

Var, özgəyə faş etmə, Nəsimi, sirini kimə,
Aləmdə bu gün məhrəmi-əsrar bulunmaz. (səh.103)

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

Gəl, ey dilbər, məni gör kim, necə xoş yanaram sənsiz,
Qəmindən acı hicranın su oldum, axaram sənsiz.

Xəyalin gəlmiş, ey huri, gözüm qarşısında durmuş,

Fəraqindən yanır bağrım, xəyalə baxaram sənsiz.

İki aləmdə məqsudum xəyalinə irişməkdir,
Zəmirim, niyyətim oldur, qaçan fal açaram sənsiz.

Sulu inculərin şövqü gözümdən axıdır yaşı,
Bu lö'lö mədənindən gör nə mərcan saçaram sənsiz.

Amansız firqətin hər dəm bu viran könlümün şəhrin,
Əsasi-rəsmini yıxar, necə kim yaparam sənsiz.

Gəl, ey məhbubi-ruhani ki, ğəmdən boynuma hər dəm,
Firaqin, həsrətin şövqün ipini taxaram sənsiz.

Nəsimi canını eşqin yolunda eylədi qurban,
Anın adın bu mə'nidən qan ilə yazaram sənsiz. (səh.104)

***

(müftə'ilün fA'ilün müftə'ilün fA'ilün)

Əhdə vəfa qılmadı yari-vəfadarımız,
Yar ilə gör kim, necə düşdü əcəb karımız.

Qəmzələrin sirrini canda dedim saxlayım,
Dışrə buraxdı könül pərdədən əsrarımız.

Eşqi cəmalın məni kəndüdə məhv eylədi,
Oldu əcəb üş bu gün eşq ilə bazarımız.

Eşqə əlac eyləmə, dərdinə səbr eylə, dur,
Gör ki, nə dərman qılır yari-vəfadarımız.

Kim ki, səni sevmədi, eşqinə can vermədi,
Yoxdur anın həqqinə zərrəcə iqrarımız.

Əhdə vəfa eyləgil ta deməsin müddə'i,
Qövlü qərar üstünə durmadı dildarımız.

Zahid əgər aşiqə münkir olur, ğəm degil,
Həq bizə oldu əyan, qalmadı inkarımız.

Batina kar eylədi eşqü rüxün şöylə kim,
Tənə urar altunun rənginə rüxsarımız.

Gərçi Nəsimi sözün dadını verdi, vəli
Dadə gətirdi anı ləfzi-şəkərbarımız. (səh.105)

***

(məf'Ulü fA'ilAtü məfA'İlü fA'ilün)

Ey də'vət eyləyən bizi firdövsə, eylə bil.
Cənnətdən özgə vardurur ə'la məkanımız.

Cövhərləri zühurə gətirdi çü nitqi-həq,
Gör kim, nə feyzə gəldi yenə bəhrü kanımız.

Ol kim, bizim həqiqətimizdir, xəyalımız,
Yoxdur nişanı qılğa nə bilsin nişamımız.

Sən bu Nəsiminin dilini anla, bil sözün,
Kim var bu dildən özgə bizim bir lisanımız. (səh.106)

***

(məf'Ulü məfA'İlü məfA'İlü fə'Ulün)

Canani mənim sevdigimi can dəxi bilməz.
Könlüm diləgin dünyada canan dəxi bilməz.

Bildim, tanıdım əqlilə mə'budi, yəqindir,
Şöylə bilirəm hafizi-Qur'an dəxi bilməz.

Abdallıq ilə bəglig edən arifi gör kim,
Bu səltənətin qədrini sultan dəxi bilməz.

Əqlin gəmisin qərq edə gər eşq dənizində,
Eşqin dənizin bəhrini ümman dəxi bilməz.

Sufimidir ol cami-müsəffasına məşğul,
Pünhani içər şöylə ki, şeytan dəxi bilməz.

Gəl, saqi, gətir dür əyağın dürdiləsun kim,
Budur əyağın dövrini dövran dəxi bilməz.

Heç kimsə Nəsimi sözünü fəhm edə bilməz.
Bu quş dəgidir, bunu Süleyman dəxi bilməz. (səh.107)

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

Fəraqı çəkməyən aşiq, vüsalın qədrini bilməz,
Cəmilə olmayan vasil, cəmalın qədrini bilməz.

Şəbi-əsradə qövseynin işi şəqq eylədi ayı,
Bu mö'cüzədən olan ğafil, hilalın qədrini bilməz.

Dodağın səlsəbilindən xəbərdar olmayan cansız,
Anın mahiyyəti oddur, zülalın qədrini bilməz.

Müdəvvər nöqteyi-xalın bəbək tək gözə qondardım,
Bəbəksiz qalsın ol göz kim, bu xalın qədrini bilməz.

Səni səndən dilər könlüm, nə dünyanın zərü gəncin,
Kim, ol malı sevən xasir bu malın qədrini bilməz.

Bu ləlinin fərağından həl oldum, olmuşam xəluq,
Bu zövqü bilməyən sufi, bu halın qədrini bilməz.

Nihalın e'tidalindən utanır sərv ilə Tuba,
Bu qəddi bənzədən sərvə, nihalın qədrini bilməz.

Kəlam-ullah, ey dilbər, boyun gərçi ki dal oldu,
Hər əgri baxanın eyni, bu dalın qədrini bilməz.

Xəyalindən günün hər kim yaradır özgə mənzurə,
Bu mə'nidəndir, ey canım, xəyalın qədrini bilməz.

Günəş mahi-hilalindən zəvalə hər gün uğrar, çün
Nədəndir aftabi-bizəvalın qədrini bilməz.

Nəsimi sufə dəgşirməz qəmində geydigi şalı
Kim, ol sufi səfasızdır, bu şalın qədrini bilməz. (səh.108)

***

(məf'Uli fA'ilAtü məfA'İlü fA'ilün)

Lə'lin meyi-ələst idi, cam olmadan hənuz,
Xas idi söhbətimdəki amm olmadan hənuz.

Vermişdim ana dilü, dinü əğlü canımı,
Zülfün kəməndi boynuma dam olmadan hənuz

Eşqin oda bişirmiş idi dürlü aşlarım,
Sevdası könlümün dəxi xam olmadan hənuz.

Yüzün qatında səcdeyi-nisbət qılır idim,
Andan irəli xəlqə imam olmadan hənuz.

Hüsni-rüxun kitabını xətm eyləmiş idim,
Gögdən rümuzi-vəhy tamam olmadan hənuz.

Didarını təcəllidə görmüşdü gözlərim,
Musa ilə aradə kəlam olmadan hənuz.

Ol tifl kimi canıma vəslin qida idi,
Fitrət günündə vəchi-izam olmadan hənuz.

İrmiş idi Nəsimiyə Fəzlin inayəti,
Kövnü məkanü sübh ilə şam olmadan hənuz. (səh.109)

***

(məf'Ulü fA'ilAtü məfA'Ülü fA'ilün)

Düşdüm əzəldə zülfünə dam olmadan hənuz,
İçdim ləbin şərabını cam olmadan hənuz.

Gördüm yüzüni Kə'bədə əhli səfa ilə,
Qıldım təvafi-Kə'bə həram olmadan hənuz.

Yazmış yüzündə surəyi-rəhman ələssəlam,
Ərş ilə kürsü lövhü qələm olmadan hənuz.

Gördüm yüzündə nuri-təcəllüvü şövqünü,
Ayü günəşdə nuri-qiyam olmadan hənuz.

Dürdanə dişlərini nigarın görəndə mən,
Dürri-sədəfdə nəzmi-nizam olmadan hənuz.

Vəchində yazmış idi anın otuz iki hərf,
Xətti-bəyani-hərfü kəlam olmadan hənuz.

Görmüş idi Nəsimi yüzündə nişani-həq,
Ol dəm nişani-sübh ilə şam olmadan hənuz. (səh.110)

***

(müftə'ilün məfA'ilün müftə'ilün məfA'ilün)

Kə'bə yüzündür, ey sənəm, yüzünədir sücudumuz,
Ta ki, görə bu səcdəyi, narə düşə həsudumuz.

Şə'mi-rüxün hərarəti yandırır, ay qəmər, bizi
Uşbu cəhətdən oldu kim, göylərə çıxdı dudumuz.

Canımızı buraxmışız atəşi-eşqə ud kimi,
Ta ki, səfavü zövq ilə eşqə yanə bu udumuz.

Zülf ilə qaşu kirpigin müshəfimizdir, oxuruz,
Ey dilimizdə cümlə sən, keftömüzü şənudumuz.

Zülfü rüxün şümarinə düşmüşüz üştə sayıruz,
Kim nə bilir bu üqdəyi kim, necədir üqüdumuz.

Məhbitimiz sifati çün zati-qədimi fərd imiş,
Vahidi-bizəvalədir, mərcə ilə soudumuz.

"Kaf" ilə "nun" əzəldə çün, ayinəmizdir, ey bəşər,
Qaziyi-həq qatında çün adil imiş şühudumuz.

Ma'ü mənidən, ey fəqih, əsrəyübən iki demə,
Çünki yeganədəndürür varid ilə vürüdumuz.

Qaziyə nəsnə verməzüz rüşvət üçün bu də'vidə,
Gövhəri-laməkan biziz, kim bilisər hüdudumuz?

Surəti-xəttü xalinə sacidü abid olmayan,
Millətimizdə oldurur, müşrik ilə cüvudumuz.

Düşmən üçün Nəsimiyə, olma mə'lul ğəm yemə,
Oldu əzəl günündə çün Fəzl əbəd vüdudumuz. (səh.111)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Canə sən candan nə kim, gəldi cigərlər ağrımaz,
Həq bilir bir zərrə nəştərdən damarlar ağrımaz.

Şəha, mehrindənmidir, ya aşinalıqdanmıdır,
Cismimi sər ta qədəm min kəz yararlar ağrımaz.

Zahidin bir barmağın kəssən dönər həqdən qaçar,
Gör bu gerçək aşiqi sərpa soyarlar ağrımaz.

Şişəmi çün daşə çaldım, həqqi izhar eylədim,
Gör məni kim, cövr ilə munca qurtarlar ağrımaz.

Fitvasından zahidin nahəq səni gör soydular,
Qəm dəgil səndən, şəha, görcəg nəzərlər ağrımaz.

Cəhli-nadanın qaçan meydan yerində yeri var,
Həq bilir kim, şol qədər əlin qanarlar ağrımaz.

Sevməyən, ey murdari-islam, Nəsiminin tənini,
Bunca namərdi görün bir ər qıyarlar ağrımaz. *(səh.112)*

***

(məf'Ulü məfA'İlü məfA'İlü f ə'ulün)

Həsrət yaşı hər ləhzə qılır bənzimizi saz,
Bu pərdədə kim, nəsnə bizə olmadı dəmsaz.

"Üşşaq" meyindən qıla ol işrəti-"Novruz",
Ta "Rast" gələ "Cəng"i-"Hüseyni"də sərəfraz.

Bər "Çargəhi" lütf qıla hüsnü "Büzürgi",
"Kuçik" dəhənindən bizə, ey dilbəri-"Şəhnaz"!

"Zəngulə" sifət nalə qılam zari-"Segahə",
Çün əzmi-"hicaz" eyləyə məhbubi-xoşavaz.

Ahəngi-"Sifahan" qılur ol nayi-"Əraqi",
"Rəhavi" yolunda yenə canım qıla pərvaz.

Könlümü "Hisar" eylədi bir ruyi-"Mübərqə",
Gəl, olma müxalif bizə, ey dilbəri-pürnaz.

Şurə gəlibən eşq sözünü söylə Nəsimi,
Şövqündən anın cuşə gələ Sə'diyi-Şiraz. *(səh.113)*

***

(fA'ilAtün məfA'ilün fə'Ulün)

Dinləgil bu sözü ki, candır, söz,
Aliyi-asiman məkandır söz.

Şeş cəhətdən münəzzəh anlavü bax,
Şöylə kim xaliqi-cahandır söz.

Nazilü münzəl anla kim, birdir,
Kəndi-kənduyə tərcümandır söz.

Əqli küll, ərşü kürsi, lövhü qələm,
Çar ünsürlə asimandır söz.

Zahirü batin, əvvəlü axir,
Aşikaravü həm nihandır söz.

Ey üqulü nəsəb edən isbat,
Qamuya söz varır, hamandır söz.

Kafü nundan vücudə gəldi cahan,
Əgər anlarisən, əyandır söz.

İsiyi-pak, Adəmü Əhməd,
Mehdiyi-sahibəzzəmandır söz.

Bu bəyani dilərsən anlayasan,
Kim, necəsi filan, filandır söz.

"Cavidannamə"yi gətirgil ələ,
Ta biləsən ki, nəsnə candır söz.

Aqil isən sözünü müxtəsər et,
Ey Nəsimi, çü bikərandır söz. (səh.114)

***

(məf'Ilün məf'Ilün fə'Ulün)

Kişi kim mə'rifətdə kamil olmaz,
Ona nuri inayət hasil olmaz.
Şəritdə mükəmməl olan adəm,
Təriqət aləmində qafil olmaz.
Xüdayə, verməgil cahilə dövlət,
Cahilə dövlət billahi layiq olmaz.
Xəlayiq qüssə ilən oldu ağü ah,
Qəmü qüssədən nəsnə hasil olmaz.

Hünər babında laf etmə Nəsimi.
Özün ögən kişilər aqil olmaz. (səh.115)

***

(müstəf'ilün müstəf'ilün müstəf'ilün müstəf'ilün)

Ey cənnətin xəndan gülü, acı fərağın xar imiş,
Müştaqə dirlik sənsizin, vallah ki, çox düşvar imiş.

Sənsiz gərəkməz kün-fəkan, ey surəti-rəhman mənə,
Eşq əhlinin məqsudu çün gövnü məkandan yar imiş.

Musa təcəlli nurini görmək təmanna eylədi,
Məqsudu mə'lum oldu kim, həqdən anın didar imiş.

Nəfs ilə yar ol, yarı bul, yad olma həqdən arif ol,
Şol müddəi kim, həqq ilə yar olmadı, əğyar imiş.

Mənsur "ənəlhəq" söylədi, həqdir sözü, həq söylədi,
Anın cəzası ğəm deyil, biganədən gər dar imiş.

"Qalu bəla"nin əhdini unutmazam; unutma kim,
İmanı tövhid əhlinin şol əhdü şol iqrar imiş.

Gər münkir inanmaz həqə, eyb etmə anı, fariğ ol;
Şol mə'nidən kim, münkirin daim işi inkar imiş.

Tövhidə gəlməz müşrikin qəlbivü eyni əhvəlin,
Sən ol müvəhhidlərdən ol, k'anın ülüləbsar imiş

Gülgun yanağından mana kəşf oldu, ey bədri-düca,
Gəhli-vəfanın cənnəti şol bağü şol gülzar imiş.

Hər zahidin kim, təsbihi şol zülfi-pərçin olmadı,
Zikri həvavü hərzədir, səccadəsi zünnar imiş.

Həq surətindən göz yumar zahid nədəndir bilməzəm,
Şol məkri çox şeytan kimi həqdən məgər bizar imiş

Arif qatında dünyənin miqdarı yoxdur zərrəcə,
Mizanə çək miqdarini, gör kim, nə bimiqdar imiş.

Nəzmi Nəsiminin yəqin allahi nurun şərhidür,
Ol nuru hər kim bilmədi, həqdən nəsibi nar imiş. (səh.116-117)

***

(müstəf'ilün müstəf'ilün müstəf'ilün müstəf'ilün)

Axır zamanın fitnəsi şol gözləri şəhla imiş,
Gəl, düş anın sevdasına, gör kim, nə xoş sevda imiş.

Eşqində məhv oldu cahan, hüsnündə heyran oldu can,
Ey "küntü kənz"in gövhəri, eşqin əcəb dərya imiş!

Düşdü saçın zəncirinə aşüftə könlüm neyləsin?
Zəncirə düşməkdir işi, hər qanda bir şeyda imiş.

Eşqinlə, ey can nüsxəsi, aləm bu gün qovğadədir,
Aləmdə daim hüsn ilə eşqin işi qovğa imiş.

Ey Tubayı arzulayan, şol himməti alçaq kimi,
Yarın qədin arzula kim, ol Tubadan ə'la imiş.

Təsbih ilə səccadəni ərz etmə əhli-halə kim,
"Həblül-mətin"i aşiqin şol zülfi-ənbərsa imiş.

Gəzdim vücudim şəhrini, dolu-dolu gördüm onu,
Hər qanda çün sənsən əyan, adın nədən bica imiş.

Dünyadəvü üqbadə çün həmta bulunmaz hüsnünə,
Şol vahidi gör kim, necə bimislü bihəmta imiş.

Çıxdı Nəsiminin sözü me'racə, ey xülqi-Həsən,
Gəlgil ki, "sübhan-əlləzi" əsrada xoş əsra imiş. (səh.118)

***

(müstəf'ilün müstəf'ilün müstəf'ilün müstəf'ilün)

Söylədigin cümlə yalan, qövlü qərarın yox imiş,
Çin xəbərin söyləmə, çün müşki-tatarın yox imiş.

Heç gündüz olmaz gecəsiz, heç şad olmaz qüssəsiz,
Sən necə qışsan ki, sənin tazə baharın yox imiş.

Ey könül, həqqin adısan, səndə zühur eylədi həq,
Bəhri-mühit oldu adın, həddü kənarın yox imiş.

Səndə ara, istə səni, ey gövdə sən, səndə səni,
Sən sana yar ol, yarı bul, sanma ki, yarın yox imiş.

Ey diləyin gülşəni-yar, istədigin türfə nigar,
Gər aşiqsən nə üçün əldə nigarın yox imiş.

Yarım önündə dilbərin, ma'i-müindir meyimiz,
Sən nə bilirsən bu meyi, çünki xumarın yox imiş.

Zahidi-sufidir adın, gör nə acı oldu dadın,
Ey ulu ad istəməyən, qeyrəti-arın yox imiş.

Ey büti-Maçinə tapan, Azər idin, Nəmrud ilən,
Eşqə Xəlil oldun demə, gül kimi narın yox imiş.

Buldu Nəsimi çün səni, neyçün "ənəlhəq" deməsin,
Ey bu sözə münkir olan, dövlətü darın yox imiş. (səh.119)

***

(fə'ilAtün fə'ilAtün fə'ilAtün fə'ilün)

Ləbinə əhli-nəzər can dedilər, gerçək imiş,
Ağzına, nükteyi-pünhan dedilər, gerçək imiş.

Lə'lini xətti ilə sormuşam, ərvahə anı,
Xızr ilə çeşmeyi-heyvan dedilər, gerçək imiş.

Adəmin surətinə səcdə qılanlar ki, səni
Gördülər, surəti-rəhman dedilər, gerçək imiş.

Dedilər qamətinə sidrə kəmal əhli, vəli
Xəlq onu sandı ki, yalan dedilər, gerçək imiş.

Surətin münkirinə elm ilə iman əhli,
Ona kim, div ilə şeytan dedilər, gerçək imiş.

Cənnətin əhli ki, yüzün bağın, ey cənnətü hur,
Rövzeyi-xüld ilə rizvan dedilər, gerçək imiş.

Qələmin sirrini həqdən bilən ol taifə kim,
Ənbərin xəttinə heyran dedilər, gerçək imiş.

Mö'cüzat əhli ki, yazısı ilə surətinə,
"Lövhi-məhfuz" ilə Qur'an dedilər, gerçək imiş.

Ey Nəsimi, nəzər əhli ki, vücudin evinə,
Laməkan gəncinə viran dedilər, gerçək imiş. (səh.120)

***

(məfA'İlün məfA'İlün fə'Ulün)

Hərami gözlərin yəğmayə düşmüş,
Zəhi-cadu, nə xoş sövdayə düşmüş.

Nədən düşmüş müənbər zülfünə tab,
Məgər şol vəchilən şol ayə düşmüş.

Görün şol sünbüli-hindusifət kim,
Necə xurşid ilə həmsayə düşmüş.

Ayağından saçın başın götürməz,
Cənanı gör, nə ali payə düşmüş.

Meyü şahid bu gün şəksiz haramdır
Ona kim, qisseyi-fərdayə düşmüş.

Qərar etməz könül zülfündən ayru,
Bu sərgərdan uzun sövdayə düşmüş.

Gözümdən dişlərin əksi nigara,
Görən aydır, gühər dəryayə düşmüş.

Yanaq üzrə saçın tavusa bənzər,
Ki, sənsiz cənnətül-mə'vayə düşmüş.

"Ənəlhəq" çağırır cəngü dəfü ney,
Yalançı lailahəillahə düşmüş.

Nə fəttansan ki, cümlə səndən ayru,
Cahan ucdan-uca qovğaya düşmüş.

Nə şirin nöqtədir kim, şol qələmdən,
Damub şol lə'li-ruhəfzayə düşmüş.

Nəsimi oldu qurban qaşın üçün,
Nə qurban, qaşın tək yayə düşmüş. (səh.121)

***

(məfA'İlün məfA'İlün fə'Ulün)

Gəl, ey dilbər ki, hüsnün ayə düşmüş,
Yüzün görmüş, günəş sövdayə düşmüş.

Çü buyi-zülfünüz afaqı dutdu,
Məgər ənbər saçın səhrayə düşmüş.

Mən ol zahid sözündən qorxmazam çün
Ki, imruzu anın fərdayə düşmüş.

Gözündən fitnə yayılmış cəhanə,
Anınçin bu cəhan qovğayə düşmüş.

Nə mövzun nöqtədir şirin dəhanın,
Xəbər ver kim, nədən əfvayə düşmüş.

Nə yəğmaçı moğolçindir bu, yarəb,
Gözün sövdaları yəğmayə düşmüş.

Nədən düşmüş saçın hindüsifət kim,
Yanağın laleyi-həmrayə düşmuş.

Nəsiminin gözü yarın ğəmindən;
Dolub hər qətrəsi dəryayə düşmüş. (səh.122)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Bir müvafiq söhbət oldu, guşeyi-xəlvətdə duş,
Qazı oldu cür'əgirü seyyid oldu badə nuş.

Duş ta vəxti-səhər içdik mey əz cami-səfa,
Gögdəki cümlə məlaiklər çağırdı nuş, nuş.

Həm şəriət, həm təriqət, həm həqiqət, mə'rifət,
Verdilər fitva bizə dər-mə'niyi-həlqəbeguş.

Arifin sormaz divanın ol kərimi-ləmyəzəl,
Şol səbəbdən münfəildir, sufiyi-pəşminəpuş

Bu Nəsiminin irişməz kimsə qövlü fe'linə,
Gah şeyxü abid olur, gah olur bir meyfüruş. (səh.123)

***

(fA'ilAtün fA'ilAtün fA'ilün)

Cə'di-zülfün ənbərəfşan eyləmiş,
Nafeyi-Çini pərişan eyləmiş.

Canü dil hər dəm necə top olmasın,
Çün nigarım zülfi çovkan eyləmiş.

Zülfü dağıtmış rüx üzrə ol sənəm,
Kafiri-Çin qəsdi-iman eyləmiş.

Aşiqin qanına bandırmış əlin,
Gör bu həqqi dəstan, nə dəstan eyləmiş?

Gözləri, qaşı "ənəlhəq" çağırır,
Gör bu sirri kim, nə pünhan eyləmiş.

Hüsn içində görməmiş mislin fələk,
Necə seyran ilə seyran eləmiş.

Eydi-əkbərdir Nəsimiyə bu gün,
Canını şol mahə qurban eyləmiş. (səh.124)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Nagəhan könlümə düşdi şurü şər qovğayi-eşq,
Aqili divanə qıldı, aqibət sövdayi-eşq.

Eşqə düşənlər bilürlər həm yenə eşq dərdini,
Ol aşiq aşiqmidir kim, olmadı rüsvayi-eşq.

Eşq içində dinü dildən gəl keç indi, ey könül,
Şeyxi-Sən'an kimi olgil, sən dəxi tərsayi-eşq.

Kim ki, istər dilbərinin xəlvətinə yol bula,
Can fəda qılmaq gərəkdir min gəz ol dəryayi-eşq.

Sevgilimin sevgisindən özgə gəlməz könlümə,
Sevgilimdən özgəyə qılmaz bu gün pərvayi-eşq.

Könlümün viranəsin mə’mura qıldı eşqi-yar,
Canımın xəlvətsərasın qılmışam mə’vayi-eşq.

Aşiqi-canan olubsan, ey Nəsimi, sən bu gün,
Könlümü aldurdun oldun axərin yəğmayi-eşq. (səh.125)

***

(fA’ilAtün fA’ilAtün fA’ilAtün fA’ilün)

Könlümün şəhrini çün kim, eylədi yəğmayi-eşq,
Saldı canım mülkinə şurü şəri qövğayi-eşq.

Çıxdı sirrim aləmə əsrarımı faş eylədi,
Halimə həmdəm olandan dünyadə sevdayi-eşq.

Qalmadı namusü arım xəlq içində zərrəcə,
Qoymuşam namusü arı, olmuşam şeydayi-eşq.

Nitq imiş aləmdə mövcud, eşq imiş qaimməqam,
Bizə bildirdi əzəldə, rəhbəri-mövlayi-eşq.

Sən hümayü laməkansan, kəndözündən bixəbər,
Gəlmədin ta kim, görəsən mənzili-ə’layi-eşq.

Çıx qəfəsdən, gəlgil, ey bülbül, gülüstan seyrin et,
Bas qədəm meydani-eşqə, görəsən mə’vayi-eşq.

Eşq ilə sən, ey Nəsimi, seyr edərkən kuhi-Qaf,
Sənsən ol ali məqamda şahpəri-Ənqayi-eşq. (səh.126)

***

Bahar olduvü açıldı yüzündən pərdə gülzarın,
İrişdi qönçənin dövrü, zəmanın qalmadı xarın.

Gülüstan Turi-qüds oldu, baharın nurü narindən,
Gəl, ey Musa, gör asarın şəcərdə nur ilə narın.

Fərəhdən qönçənin gülgun yanağı güldü, açıldı,
Ki, mənzuru yenə güldür çəməndə bülbüli-zarın.

Çiçəklər müxtəlif əlvan, nə mə’nidir anı bil, kim
Boyaçı bir imiş çün kim, bu ənvarın, bu əzharın.

Əbirindən çəmən gör kim, nə teyb afaqə göndərmiş
Kim, olmuş buyi-ətrindən məşami tazə əttarın.

Nə ənbərdir tutan, yarəb, şəqait məcmərindən kim,
Kim, anın ətri buyindən seçilmiş müşki-tatarın.

Gəl, ey siminbədən saqi, mana sun cami-səhbanı
Ki, gəldi rövnəqi güldən meyi-gülrəngi-xummarın.

Əgərçi sünbülü nərgis bəyani-"küntü kənz" eylər,
Qaçan "bəlhəm əzəl" bilsin işaratın bu əsrarın?

Bu gün gər aləmül-qeybin nişanın görmək istərsən,
Rəyahin uş bəyan eylər zühurun çərxi-səyyarın.

Bu musiqidən ey same' sana gər nəsnə kəşf oldu,
Məqamatın bəyan eylə, üsulun göstər ədvarın.

Əgər susən kimi əbkəm deyilsən, nitqə gəl, söylə,
Bu hərfü nöqtə tərkibi nə yerdəndir bu goftarın.

Cəhan cənnati-ədn oldu, çəmən səhnində hurilər,
Bəzənmiş hillədən bostan, gözü açılmış əşcarın.

Bu gün bazar edər gülşən səməndən, laləvü güldən;
Qənimət gör ki, beş gündür tamaşası bu bazarın.

Nəsiminin sözü gərçi dəmi-İsadır, ey münkir,
Sana kar eyləməz, neyçün ki, yoxdur Həqqə iqrarın. (səh.127)

***

(məf'Ulü fA'ilAtü məfA'İlü fA'ilün)

Gəlgil ki, nuri-didə cəmalındadır sənin,
Dövri-qəmərdə fitnə-hilalındadır sənin.

Ağzın çü "mim", zülfü qaşın "nun"ü "dal" imiş,
Könlüm Həmişə "mim" ilə "dal"ındadır sənin.

Zülmat içində çeşmi-heyvan imiş ləbin,
Xızrın həyatı abi-zülalındadır sənin.

Afaqa düşdü işveyi-hüsnün məlahəti,
Şol fitnədən ki, mərdümi-alındadır sənin.

Ta ruzi-həşr nuri-hidayətdir, ey sənəm,
Misbahi-ləmyəzəl ki, kəmalındadır sənin.

Xəttin hesabını bilən əhli-kəlamə sor,
Şol ayətin ki, nöqtəsi xalındadır sənin.

İstər Nəsimi vəslini həqdən murad ilə
Anın muradü kami vüsalındadır sənin. (səh.128)

***

(müstəf'İlün müstəf'İlün müstəf'İlün müstəf'İlün)

Yandırdı eşqin bağrımı səndən mana dərman gərək,
Gərçi yolunda aşiqin canü dili suzan gərək.

Düşdüm yenə eşq oduna, büryan yürək, giryan gözüm,
Hər kim ki, düşdü eşqinə büryanü həm giryan gərək.

Sun, saqiya, kasən rəhiq, çal, mütriba, eşq əzgüsün,
Kim, məst olan bu badədən qəltanü həm heyran gərək.

Qalü bəladə can sana qılmışdı iqrar, ey sənəm,
İmdi aramızda bizim şol əhdü şol peyman gərək.

Şövqən tərani sirrini mən söyləyəydim, neyləyim,
Məhrəm bu Turin sirrinə Musa bəni İmran gərək.

Hər kim vücudi-şəhrini gəzdivü gördü şəhnəsiz,
Yarğu anındır, ey sənəm, ol sahibi-divan gərək.

Könlüm quşu əsfəldədir, vəqt oldu pərvaz eyləyə,
Simurği-Qafə qürb olan ərş üstünə cövlan gərək.

Mən qul olanın quluyam, altun olanın puluyam,
Hər kim bu yolda quldürür aləmdə ol sultan gərək.

Görsət üzünü bir kərə, ta kim, Nəsimi can verə,
Çün eydi-əzhadır üzün, yüz can ona qurban gərək. (səh.129)

***

(məf'Ulü fA'ilAtü məfA'İlü fA'ilün)

Cana, üz istivasına şəqqül-qəmər gərək,
Ol möcüzün bəyanına xeyrül-bəşər gərək.

Musasifət təcəlliyi-didar içün sana,
Hüsn ilə qamətin kimi Turü şəcər gərək.

Əhya qılır əkərçi dəmin ölü, ey sənəm,
Xəlvətnişinə şahidü şəm'ü şəkər gərək.

Başımı top edib, şəha, meydanə girmişəm,
Meydanə girməgə yenə mərdanə ər gərək.

Hər bibəsər səni neçə yol bula, görməyə,
Uçmaqda rö'yətə dəxi əhli-nəzər gərək.

Napak olan sənin nə bilir qədrü qiymətin,
Zatında adəmin dəxi ari gühər gərək.

Qismət, Nəsimi, olmayacaq yarə kim irər,
Yarə irişməgə yenə yardan xəbər gərək. (səh.130)

***

(fA'ilAtün fA'ilAtün fA'ilün)

Hüsnünə heyrandurur hürü mələk,
Eşqinə sərgəştədir daim fələk.

Vüslətin mana müyəssər olmadı,
Nətəkim yolunda çəkdim çox əmək.

Mən qula rəhm et deyü çox gəz dedim,
Keçmədi tapın qatında bir dilək.

Həsrətindən, qəm yerisəm mən, nola,
Aşiqin daim işidir ğəm yemək.

Şol şəkərləbdən rəvamıdır, şəha,
Mən mühibbə sən acı söz söyləmək.

Gözlərimin bəhrinə ğərğ olmuşam,
Nətəkim, seyr eylərəm misli-səmək.

Ey Nəsimi, aqibət verər yelə
Bivəfa ilə yeyən nanü nəmək. (səh.131)

***

(məfA'ilün məfA'ilün məfA'ilün məfA'ilün)

Dağılmış aftab üzrə niqabi-ənbərəfşanın,
Müəttər qılmış afaqi məşami-əhli-dünyanın.

Hürufi löhü məhfuzin yazılmış ayəti-həqdən,
Anın şanında rövşəndir bəyani-əhli-ürfanın.

Xətin "umülkitab"ından açıldı elmi-rəbbanı,
Kəlamin tərcüman etdi hədisi-gövhərəfşanın.

Boyundur sidrəvü tuba, cəmalin cənnətül-məva,
Səri-kuyi cinanındır, qüsuri huri-rizvanın.

Götürdü pərdeyi-zülfün cəmalin aftabından,
Tükəndi əqlimin səbri, qərarı qalmadi canın.

Nəsimi cami-lə'lindən irişdi badeyi-eşqə,
Kim, anın çeşməsindəndir həvası abi-heyvanın. (səh.132)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Lə'məyi nuri-təcəlla aftabıdır yüzün,
Leylətül-əsra saçın zili hicabıdır yüzün.

Əhsəni-surət camalındadır ki, aləmdə kim,
Aləmül-qeybin kəlamı ittixabıdır yüzün.

Surətin "inna fətəhna"dır, rüxün "ümmülkitab",
Şol cəhətdən arizinlə iktibadıdır yüzün.

Lövhi-məhfuzidə mənzildir "Təbarək" surəsi,
Qıl "Təbarək" şanına həqdir xitabıdır yüzün.

Sədrədir sərvü gül əndamın rüxün ismayi-həqq,
Sureyi-tənzil xəttin çün kitabıdır yüzün.

Rövşən oldu dideyi-aləmdə hüsnün pərtövü,
Çün Nəsiminin çırağı aftabıdır yüzün. (səh.133)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Gərçi eynimdən, nigara, surətin pünhan degil,
Firqətindən yanaram kim, vəslilə həmsan degil.

Ey könül, nadan qatında razını faş eyləmə,
Əhli-ürfandır bu razın məhrəmi-nadan degil.

Həqsevər xubu, nə mə'nidən mən anı sevməyim?
Sevməyən şol nəsnəni kim, həq dedi, insan degil.

Cəhlini tərk eylə, ey cahil, ilahi tanı kim,
Cəhl imiş, cəhl ol mərəz kim, qabili-dərman degil.

Surətin eşqi kimin kim, qalmadı canında kar,
Şol gəzən cismindəki mənidə cindir, can degil.

Gərçi asandır, sanır can eşqini hər bibəsər
Kim ki, ol dəryayə düşdü, bildi kim, asan degil.

ArzuməND oldu yarın vəslinə könlüm, vəli,
Buyruğu təqdirə keçməz, hökmünə fərman degil.

Xızr ilən İsa, nigara, buldu lə'lindən həyat,
Ləlini kimdir deyən kim, çeşmeyi-heyvan degil.

Gərçi yeyrəkdir vəfadən səndən, ey dilbər, cəfa,
Sən vəfalısan, vəfa qıl kim, cəfa cəndan degil.

Ey könül, Darüssəlamı dünyənin şəhvətinə,
Sanma kim, şol bisəbatın ömrü cavidan degil.

Nəfsini öldürməyən gər Bijənu Söhrab isə,
Pəhləvan olmaz, adı, həm Rüstəmi-dəstan degil.

Eşq ilə meydanə möhkəm ər gərəkdir kim, girə,
Hər hünərsiz hümməti pustun yeri meydan degil.

Çün bu yolda öz canın başı ilə tərk etməyən,
Bu işi zəhdü riyadır, etdigi ərkan degil.

Tutma şeytan ür-rəcimin qövlünü, rəhmanə uy,
Kim, uyan şeytanə cindir, sanma kim, rəhman degil.

Ey deyən hər dəm mənə kim, baxma xublar yüzünə,
Aşiqin axir gözü var, ol qədər nadan degil.

Əql ilə həm canı yox, ol mə'rifətsiz cahilin,
Surətin nəqşində daim valehü heyran degil.

Gəl ki, sultan olmaq istərsən fəqir ol kim, yəqin,
Kim ki, sultan oldu, dərviş olmadı, sultan degil.

Ey Nəsimi, həq qatında çün yəqin iman imiş,
Hər şəhadət kim, yəqindən dışradır, iman degil. (səh.134-135)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Gəl bu dəmi xoş görəlim, ol keçən dəm dəm degil,
Kim bu dəm qədrini bilməz, eylə bil adəm degil.

Qafil olma dəm uzat, vermə dəmi özgə dəmə,
Ol keçən dəmdən nə hasil, çün bizə həmdəm degil.

Adəm isən dəm bu dəmdir, qoyma bu dəm fövt ola,
Hasili-ömri-cavani bil ki, cüz bi dəm degil.

Bu dəm ol dəmdir Məhəmməd seyri-me'rac eylədi,
Gəl qənimət gör bu dəmi kim, bu dəm ol dəm degil.

Yar ilən həmdəm olanlar hiç dəm urmaz özgəyə,
Talibi-yar olmayanlar dünyayə məhrəm degil.

Dünyaya arxa dutursan malü mülkü dövləti,
Bibəqa bünyadı yoxdur, ol qədər möhkəm degil.

Zahidü rə'na yügüşdür, sünbüli zünun imiş,
Adı İbrahim çoxdur, nedəyim Ədhəm degil.

Dəm keçərmi kim, Nəsimi, ol fəraqi dərd ilə,
Naləsi göglərə çıxmaz, göz yaşı Zəmzəm degil. (səh.136)

***

(məf'Ulü fA'ilAtü məfA'İlü fA'ilün)

Yarın cəfası cümlə vəfadır, cəfa degil,
Yarım cəfa qılır deyən əhli-vəfa degil.

Mə'şuqə hər nə qılsa rəvadır mühibbinə,
İlla fərağı oduna yaxmağı rəva degil.

Hər kimsənin ki, qibləsi, ey can, sən olmadın,
İrağə düşdü Kə'bədən, əhli-Səfa degil.

Qanı cahanda, ey könül, ol vəhdət əhli kim,
Yüz min bəlavü möhnət ilə mübtəla degil.

Ey sevmə əhli-hüsnü cəmalı, deyən mənə,
Görməz gözün bu vəchi, əcəb aşina degil.

Qanına aşiqin susamışdı, xəta gözün,
Fəshi-əzimət etmə ki, fikri-xəta degil.

Hicrin şərarı gərçi müfərrəhdir, ey həkim,
Aşiqlərin dəvası bu acı dəva degil.

Vəslindən ol gəda ki, irişdi muradına,
Mə'nidə bil ki, şahi-cəhandır, gəda degil.

Surətdə adam oğluvü mə'nidə div olan,
Oldur ki, həqqi tanımamış, aşina degil.

Surətə gərçi bənzişi çoxdur Nəsiminin,
Mə'nidə adı hər həcərin kimiya degil. (səh.137)

***

(məf'Ulü fA'ilAtü məfA'İlü fA'ilün)

Yarın işinə nişə könül xoş səfa degil,
Dilbər ola ki, işi anın pürcəfa degil.

Yar ol qədər ki, sənə cövr edərsə ol,
Külli vəfadır, onı ki, sanma vəfa degil.

Vallah mənə ki, sorsalar uş bu iki cahan,
Bir ləhzə yar söhbətinə ol bəha degil.

Min qətlə səcdə eyləsəm yarın qapusinə,
Minnət bu canıma ki, yəqin hiç riya degil.

Gözüm dilər ki, xaki-rəhi tozunu yuya,
Bilməz ki, su içində təyəmmüm rəva degil.

Eşqin ğəmi Nəsimiyi çün eyləsə hasar,
Cümlə ətadır aşiqə, sanma əta degil. (səh.138)

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

İtirdin cami-Cəmşidi, oyan uyxudan, ey ğafil,
Nə buldun uyxudan, göstər, nə qıldın uyxudan hasil?

Məgər həqdən ziyan gördün ki, batil qövlə yapışdın?
Çevirdin yüzünü həqdən, saqın kim, həq deyil batil!

Əzazilin sözün tutma, onun vəsvasinə uyma
Ki, iblisə uyan olmaz könül məqsudinə vasil.

Vəfasız dünyənin mehrin gedər könlündən aldanma
Ki, dünya kimsəyə hərgiz vəfa qılmaz, dedim uş bil.

Bu taqü təmtəraqı qoy ki, dövranı bu dünyanın
Keçər hər növ ilə, tut sən gərək asan, gərək müşkil.

Yalançı nəfsə uymuşsan, qucarsan dünyəni neyçün?
Məgər həqqi unutmuşsan ki, oldun dünyayə mail?

Məsihizat ikən billah, nədən div olmaq istərsən?
Məgər cinnidürür əslin, deyilsən rəhmətə qabil?

Sədəf xas olmaz incisiz, bu rəmzi anla, fəhm eylə,
Bu sirri bilməyən bil kim, nə xaric oldu, nə daxil.

Bu göftarın işaratı dərindir, əql ona irməz,
Nə bilsin olmayan Məcnun ki, Leyli kimdir, ey aqil?

Necə məf'ul faildən, necə məs'ul saildən,
Əgər danasən anı bil ki, sənsən mütləqa fail.

Əgər gözlüsən, ey gözlü, vücudun şəhrinə gir, gör,
Nə mədənsən, nə gövhərsən, nə xoş dəryasan, ey ğafil?

Vücudin şirkətin məhv et, vücudi-vahidə fərd ol

Ki, zati-fərdi-vahiddən bu məs'ul oldu, ol sail.

Nə axır sənsən ol gövhər ki, adın gizli gənc oldu?
Nədir halın kim, olmazsan özündən vaqif, ey zail?

Həva camindən içmişsən, həvəs ardına düşmüşsən,
Bu ağulu şərabı qoy kim, oldur şərbəti-qatil.

Nəsimi sirri "ma ovha kəmahi" gərçi şərh eylər,
Qaçan idrak edər anı özüni bilməyən cahil? (səh.139-140)

***

(müftə'ilün məfA'ilün müftə'ilün məfA'ilün)

Firqət içində yanıram, dərdimə eylə çarə, gəl,
Yaralu olmuşam gör uş, bağrım içində yarə, gəl,

Səbrimi ğarət eylədi, qapdı qərarımı ğəmin,
Bunca cəfayi gör ki, ğəm qıldı bu biqərarə, gəl.

Qəmdən əgərçi firqətin min çəri çəkdi üstümə,
Sən mənə bəssən, anları qoymavü min süvarə, gəl.

Düşdügüm ayru səndən uş od olu düşdü canıma,
Ey gözümün çırağı, bəs yaxma məni bu narə, gəl.

Zülfü rüxün vüsalinə susamış, ey qəmər, gözüm,
Ey qəmərin qatında yüz ay ilə gün, sitarə gəl.

Möhnət içində ğərqəyəm firqətinə ulaşalı,
Çək, sənəma, bu vərtədən zövrəqimi kənarə, gəl.

Məndən ayırma vəslini bunca ki, şad olur ədu,
Yürəgini ədulərin yarəli eylə, yarə, gəl.

Düşmüşəm ahü naləyə səndən olalı ayru mən,
Görmə rəva bu halimi, qoyma bu rəsmü karə, gəl.

Müntəzir oldu vəslinə həsrətü dərdi çox könül,
Xoş degil, anı yandırub, vədəvü intizarə, gəl.

Canım içində mehrini gizlər idim saçın kimi,
Şövqi-rüxündən, ey pəri, pərdəsi oldu parə, gəl.

Canü təni Nəsiminin sənsənü səndən özgə yox,
Ol ki, nə sənsən anı gör, var isə andan arə, gəl. (səh.141)

***

(fə'ilAtün fə'ilAtün fə'ilAtün fə'ilün)

Susadım vəsminə, ey çeşmeyi-heyvan, bərü gəl!
Yaxma hicrində məni bunca, gəl, ey can, bərü gəl!

Firqətin şəərbəti acıdır, anı içəməzəm,
Ey ləbin gül şəkəri, dərdimə dərman, bərü gəl!

Aşiqin damusu yarından irağ olduğudur,
Ey cəmalın çəməni-rövzeyi-rizvan, bərü gəl!

Ənbərin sünbüli-zülfün düşəli məndən irağ,
Qatı aşüftəyəm, ey zülfi-pərişan, bərü gəl!

Könlümün həsrəti göz yaşına qərq etdi, məni,
Bunca ağlatma məni, ey güli-xəndan, bərü gəl!

Gözümün yaşı axar, aləmi tufan götürər,
Ey pəriçöhrə, boyu sərvi-xuraman, bərü gəl!

Kipriyin şövq oxunu bağrıma, ey can, uralı,
Ürəgimdən gözümə hər dəm axar qan, bərü gəl!

Firqətin qəhri məni yaxdıvü yandırdı əzim,
Mədədin qandadır, ey rəhməti-rəhman, bərü gəl!

Aləmi tutdu bu gün hüsni-rüxun dastanı,
Afərin hüsnünə, ey fitneyi-dövran, bərü gəl!

Eyləmiş canını qurban, çün Nəsimi eşqinə,
Nə ziyan eylər ona qeyd ilə zindan, bərü gəl! (səh.142)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Firqətin yandırdı bağrım, yürəgim qan oldu gəl!
Gəl ki, didarın bu sayru canə dərman oldu, gəl!

Dünyanın nazü, nəimi, bağü bustanı mana,

Sənsiz, ey sultani-xuban, bəndü zindan oldu, gəl!

İstədi ləlin fəraqı canımı yaxmaq, vəli,
Şövqə yanmış cana vəslin abi-heyvan oldu, gəl!

Ol könül kim, daima işi sənինlə vəsl idi,
Yandı şövqündən əsiri-dərdü hicran oldu, gəl.

Qalmadı səbrü qərarım, ey həbibim, qandasan,
Könlümün mə'muri sənsən, cümlə viran oldu, gəl!

Canımın canı vüsalındır, vüsalından anı,
Ta kim, ayırdı fələk, biçarə bican oldu, gəl!

Aşiqin bağü gülüstanı yüzün gülzarıdır,
Xansı gülzarın adı gülsüz gülüstan oldu, gəl!

Cənnətin səhnində tuba valehü heyranü məst,
Qamətin cənnətdən, ey sərvim, xuraman oldu, gəl!

Mö'cüzatından yanağın, möhkəmatından saçın,
Xarü xoşaki cahanın vərdü reyhan oldu, gəl!

Bəhri-bipayanə eşqin canıma kar eylədi,
Gör nə bidad eylədi, bəhrində tufan oldu, gəl!

Ta məni təqdiri-yezdan eylədi səndən irağ,
Könlümün hali pərişan düşdi, heyran oldu, gəl!

Çün Nəsimi səndən ayru bildi kim, yoxdur vücud,
Küfrü iman, vəslü hicran, cümlə yeksan oldu, gəl (səh.143)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Firqətin dərdindən, ey can, yürəgim qan oldu, gəl!
Gözlərim yaşı cahanı tutdu, tufan oldu, gəl!

Canımın vəslinlə həqdəi ittisalı var ikən,
Dövləti-vəslindən ayru düşdü, hicran oldu, gəl!

Çəkdi müşkin zülfünü, aldı əlimdən ruzigar,
Şol səbəbdən könlümün halı pərişan oldu, gəl!

Gərçi məndən surətin qaibdir, ey sahibcəmal,
Sanma kim, gözdən cəmalın nəqşi-pünhan oldu, gəl!

Səndən ayru düşəli şərbət içirdi ağulu,
Vüslətin tiryəgi qanı, vəqti-ehsan oldu, gəl!

Firqətin şol dərd imiş canımda kim, hər kimsə kim,
Fikrinə düşdü bu dərdin, əqli heyran oldu, gəl!

Xızr əgər zülmətdə istər çeşmeyi-heyvanını,
Susamış müştaqə ləlin abi-heyvan oldu, gəl!

Gərçi xəndandır fərəhdən ağzı açılmış gülün,
Əndəlibin gözləri gör kim, nə giryan oldu, gəl!

Yar cövr etmiş Nəsimiyə, rəvadır gər ana,
Öz nigarından cüda zəncirü zindan oldu, gəl! (səh.144)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Həsrətindən yandı canım, cigərim qan oldu, gəl,
Sənsiz işim gecə-gündüz ahü əfğan oldu, gəl.

Onca kim, göz yaşı tökdüm yar sənin yollarına,
Ol yaşın hər qətrəsi dəryayi-ümman oldu, gəl.

Düşməni güldürmə, şahim, sağlığiylə gəl iriş,
Müddəilər ta deməsün qövlü yalan oldu, gəl.

Diləməz şol gözlərim sənsiz cəhana baxmağa,
Aləmin zövqü səfası mənə zindan oldu, gəl.

Gündə min gəz cövr edərdi bu Nəsimi bəndənə,
Hər nə könüldən keçərsə şuna qurban oldu, gəl. (səh.145)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Getdigindən, dilbəra, könlüm pərişan oldu, gəl!
Ölürəm hicran ğəmindən, cigərim qan oldu, gəl!

Ta ki, sən getdin, mən oldum dərdməndi-müstəmənd,

Dərdimə görklü cəmalın dərdə dərman oldu, gəl!

Qaldı çeşmimdə nəm az, bəs ki, ağlaram mən müdam,
Didəmin yaşı qurumaz, Bəhri-ümman oldu, gəl!

Yoluna baş qoymuşam zarü nizarü xəstəvar,
Ey həbibim, gəl ki, cismimdən cüda can oldu, gəl!

Firqətindən bu Nəsimi dəmbədəm eylər fəğan,
Qıl kimi cismim mənim öz dərdi-hicran oldu, gəl! (səh.146)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Yüzünü məndən nihan etmək dilərsən, etməgil!
Gözlərim yaşın rəvan etmək dilərsən, etməgil!

Bərgi-nəsrin üzrə, yarəb, saçlarını dağıdıb,
Aşiqi bixaniman etmək dilərsən, etməgil!

Canımı vəslin şərabından ayırdın, ey sənəm,
Eynimi gövhərfəşan etmək dilərsən, etməgil!

Qaşların qövsündə müjganın xədəngin gizləyib,
Ey gözü məstanə, qan etmək dilərsən, etməgil!

Qoymuşam eşqində mən gövnü məkanın varını,
Can nədir kim, qəsdi-can etmək dilərsən, etməgil!

Birqəi yüzündən açarsan məgər naməhrəmə,
Gizli əsrarı əyan etmək dilərsən, etməgil!

Hər qəzanın oxuna qıldın nişanə sən məni,
Ol nişanı binişan etmək dilərsən, etməgil!

Doğruyam eşqində ox tək kirpigin tanıq durur,
Qəddimi nişin kəman etmək dilərsən, etməgil!

Yandurursan könlümü eşqində, mə'lum oldu kim,
Ani rüsvayi-cahan etmək dilərsən, etməgil!

Çünki eşqin məskənidir könlümün kaşanəsi,
Həsrətə anı məkan etmək dilərsən, etməgil!

Çün yəqin bildi Nəsimi eşqini, oldu ğəni,
Ol yəqini sən güman etmək dilərsən, etməgil! (səh.147)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Zülfünü ənbərfəşan etmək dilərsən, etməgil!
Qarəti-din, qəsdi-can etmək dilərsən, etməgil!

Xəttü-xalın "Məntiqüt-teyr" oldu əhli-vəhdətin,
Quş dilin sən tərcüman etmək dilərsən, etməgil!

Çün ənəlhəqdən götürdü surətin mahı niqab,
Sən ənəlhəqqi nihan etmək dilərsən, etməgil!

Aşiqə çox cövr edərsən, əhdə qılmazsan vəfa,
Adını namehriban etmək dilərsən, etməgil.

Surətin gənci xəfidir, göstərirsən güzgüdə,
Aləmül-ğeybi əyan etmək dilərsən, etməgil!

Ğəmzədən misri qılıc vermişsən əsrük türkə kim,
Qanbahasız bunca qan etmək dilərsən, etməgil!

Kiprigindən canşikar oxları düzmüşsən bu gün,
Qaşların yayın kəman etmək dilərsən, etməgil!

Badə vermişsən pərişan zülfünü, dağıtma, kim,
Canları bixaniman etmək dilərsən, etməgil!

Getmək istərsən gözümdən dəmbədəm yaşım kimi,
Canımı təndən rəvan etmək dilərsən, etməgil!

"La tuhərrik" ayəti gəldi bəyanın şanına,
Ol bəyani sən bəyan etmək dilərsən, etməgil!

Ey Nəsimi, həqdən istərsən götürmək pərdəyi,
Bütpərəsti bigüman etmək dilərsən, etməgil! (səh.148)

***

(müftə'ilün məfA'ilün müftə'ilün məfA'ilün)

Məndə sığar iki cəhan, mən bu cəhanə sığmazam,

Gövhəri-laməkan mənəm, gövnü məkanə sığmazam!

Ərş ilə uş kafü nun, məndə bulundu cümlə çun,
Kəs sözünü uzatma kim, şərhə, bəyanə sığmazam!

Kövni-məkandır ayətim, zatə gedər bidayətim,
Bu nişan ilə bil məni, bil ki, nişanə sığmazam!

Kimsə gümanü zənn ilə olmadı həqq ilə biliş,
Həqqi bilən bilür ki, mən zənnü gümanə sığmazam!

Surətə baxü mə'niyi surət içində tanı kim,
Cism ilə can mənəm vəli, cism ilə canə sığmazam!

Həm sədəfəm, həm inciyəm, həşrü sirat sənciyəm,
Bunca qumaşü rəxt ilə mən bu dükanə sığmazam!

Gənci-nihan mənəm, mun uş, eyni-əyan mənəm, mən uş,
Gövhəri-kan mənəm, mən uş, bəhrəvü kanə sığmazam!

Gərçi-mühiti-əzəməm, adım adəmdir, adəməm,
Tur ilə gün-fəkan mənəm, mən bu məkanə sığmazam!

Can ilə həm cahan mənəm, dəhr ilə həm zaman mənəm,
Gör bu lətifəyi ki, mən dəhrü zəmanə sığmazam!

Şəhd ilə həm şəkər mənəm, car ilə pəncü şeş mənəm,
Surəti gör bəyan ilə, mən bu bəyanə sığmazam!

Əncum ilə fələk mənəm, vəhyilə həm mələk mənəm,
Çök dilinivü əbsəm ol, mən bu lisanə sığmazam!

Zatiləyəm sifat ilə, qədriləyəm bərat ilə,
Kül-şəkərəm nəbat ilə, püstə dəhanə sığmazam!

Narə yanan şəcər mənəm, çərxə çıxan həcər mənəm
Gör bu odun zəbanəsin, mən bu zəbanə sığmazam!

Zərrə mənəm, günəş mənəm, şəms ilə həm qəmər mənəm,
Ruhi-rəvan bağışlaram, ruhi-rəvanə sığmazam!

Gərçi bu gün Nəsimiyəm, qüreyşiyəm, haşimiyəm,
Məndən uludur ayətim, ayətə, sanə sığmazam! (səh.149-150)

***

(müstəf'ilün müstəf'ilün müstəf'ilün müstəf'ilün)

Mişkinsaçın hər tarəsin iki cəhanə verməzəm,
Lə'lin-vüsalın bir nəfəs, min dadlu canə verməzəm.

Şəhla gözün sövdaları, əhdü əmanətdir mənə,
Nur-əl-yəqinin sirrini olmaz gümanə verməzəm.

Aydır mənə, ver müddəi, yarı bu gün yarın günə,
Bir saət anın vəslini, dəhrü zəmanə verməzəm.

Zülfündə can qıldı vətən, hübbül-vətən şərti ilən,
Mən məskənül-ərvahımı, kövnü məkanə verməzəm.

Nazü nəimi dünyanın bilxatimə gər sud isə,
Külli ziyandır aşiqə, sudü ziyanə verməzəm.

Oldu kəlamindən yəqin k'anın dəhanı var imiş,
Eynəlyəqin tək rö'yətin qeybü gümanə verməzəm.

Ey bənzədən qəddin anın sərvü çinarü ər'-ərə,
Mən sədrəvü Tuba adın hər birəvanə verməzəm.

Ey incuyü dürli mətah, yaqut ilə cövhər bilər,
Mən bulduğum dürdanəyi min bəhrü kanə verməzəm.

Yarın dodağı vəsfini, ey zahid, əbsəm, sorma kim,
Nitqin Məsihü Məryəmin hər bizəbanə verməzəm.

Eşqi-məcazi aşiqə zərqü riyadən yegdürür,
Həqi bilən kimsəyi mən, heyfü ziyanə verməzəm.

Çünki Məsihanın dəmi nitqi-Nəsimidir bu gün,
Anı bəhasız sanma ki, can rayiganə verməzəm. (səh.151)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Bir bəlakeş aşiqəm, ey yar, səndən dönməzəm,
Xəncər ilə yürəgimi yar, səndən dönməzəm.

Dönməzəm cövrü cəfadan, xəstə könlüm məlhəmi,
Min cəfa qılsan mənə, dildar, səndən dönməzəm.

Kə’bədə istər idim, bütxanədə gördüm səni,
Bağladım uş belimə zünnar, səndən dönməzəm.

Müshəfi-hüsnün həqiyçün, ey dilaramım mənim,
Neçə kim, cismimdə canım var, səndən dönməzəm.

Möhnətindən, ey pəri, haşa ki, mən yüz döndərəm,
Yanıram pərvanə tək, bərnar, səndən dönməzəm.

Rindi-rüsvayi-məlamət, bərsəri-rüsvayi-eşq,
Qoymuşam bu namü nəngi, yar, səndən dönməzəm.

Ey sənəm, eşqin yolunda qamətin tək doğruyam,
Çəksələr Mənsur kimi bərdar, səndən dönməzəm.

Gündə min gəz hər rəqibin tə’nəsin nuş eylərəm,
Mən Nəsimi, ey pəri, zinhar səndən dönməzəm. (səh.152)

***

(məfA’İlün məfA’İlün məfA’İlün məfA’İlün)

Gəl, ey talib, məni gör kim, cahanın padşahiyəm,
Üzümə doğru bax, doğru fələkin şəmsü mahiyəm.

Hümayun zilliyəm bişək, cahan sayəmdədir üştə,
Mən ol dövlətli sadiqəm, səadətin külahiyəm.

Süleymanəm mən, ey arif ki, xatəm məndədir, məndə,
Mən anın hökmünə təslim Süleyman mürğü mahiyəm.

Neçə qalmışlara yarəm, neçələrə həm əğyarəm,
Nə yerdə istəsən varəm, qamu aləm pənahiyəm.

Şəriətəm, divanəm mən, gah aşkarə nihanəm mən,
Həm ol müddəi, də’vasi, həm onun mən güvahiyəm.

Nəsimi, sən demə cüzvi degilsən, mim ilə nunsan,
Vəli oldur deyən daim qamu aləm ilahiyəm. (səh.153)

***

(müstəf’ilün müstəf’ilün müstəf’ilün müstəf’ilün)

Ol qibleyi-müin mənəm ki, qibleyi-rəhmaniyəm,
Ol nitqü rəbbini mənəm ki, höccəti-bürhaniyəm.

Çün on səkkiz min aləmin cudü vücudi xud mənəm,
Cümlə cahan təndir mana, mən bu cahanın caniyəm.

Ol qabü qövseynə irən, ol surəti ziba görən,
Həm surəti-ziba mənəm, həm surəti-yəzdaniyəm.

Sən bu sərayi-fanidə istər isən eyni-bəqa,
Nəfsini əvvəl tanı kim, həqqi derisən taniyəm.

Ol "küntə kən"zi derisən, aləmdə rövşən gün kimi,
Ol gövhərə rövşən mənəm, bil ki, mən onun kaniyəm.

Ol şəkkəri-lə'li-ləbin, ol tutiyi-məsti mənəm,
Ol cənnəti-qüdsün bu gün mən bülbüli-xoşxaniyəm.

Götür vücudin zülmətin, eyvani-nurə vasil ol,
Kim, şə'ninin nuri mənəm, mən nurinin eyvaniyəm.

Ariflərə hadi mənəm, çünki hidayət nuriyəm,
Sevdasiyəm, sevdasının məşhuriyəm, heyraniyəm,

Mən ol Nəsimiyəm bu gün abi-həyatim içənə,
Xızrın bəqa ömrü mənəm kim, çeşmeyi-heyvaniyəm. (səh.154)

***

(müftə'ilün fA'ilün müftə'ilün fA'ilün)

Hüsnünə gör mən necə aşiqi-divanəyəm,
Eşqinə baş oynaram, gör necə mərdanəyəm.

Yapışıban zülfünə könlümü bənd eylərəm,
Çünki yəqin eşqinə aşiqi-yekdanəyəm.

Canü cahan, dinü dil eşqinə tərh eylədim,
Şükr edərəm kim, yüzün şəm'inə pərvanəyəm.

Lə'lin əzəl camini sondu mənə, içdim uş,
Gör məni bu mə'nidən həmdəmi-peymanəyəm.

Nərgizi məstin məni, gör ki, nə məst eylədi,
Gör ki, nə məst olmuşam, nərkisi-məstanəyəm.

Zahidin əfsanəsin söyləmə vaiz mənə,
Nəqlini ərz etmə kim, qisseyi-əfsanəyəm.

Dişlərinin əksinə düşdü Nəsimi gözü
Qətrəsi dərya tökər, gör ki, nə dürdanəyəm. (səh.155)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Bülbüləm gülşəndə mən, gülzarə yoxdur minnətim,
Dustlər, minnət xudaya, xarə yoxdur minnətim.

Yenə bən bənd olmuşam zinciri-zülfün bəndinə,
Mənsurəm, meydana gəldim, darə yoxdur minnətim,

Tanrı haqqiyçin bu gün baş əyməzəm namərdə mən,
Mən mənə tək yar olum ki, yarə yoxdur minnətim.

Cani-dildən vermişəm dil mən xəyali-xəttinə,
Çün müyəssər qıldı həq, dildarə yoxdur minnətim.

Vahid oldum yar ilə, yar iləyəm, minnət həqə,
Ey Nəsimi, zərrəcə əğyarə yoxdur minnətim. (səh.156)

***

(məfA'İlün məfA'İlün fə'Ulün)

Həbibim, izzətim, canım, cəhanım,
Rəfiqim, munisim, arami-canım.

Sənubər qədlü dildarım, təbibim,
Yetir didarinə ruhi-rəvanım.

Fəraqın dərdi çoxdur, deyə bilmən,
Əgər dersəm qalır heyran rəvanım.

Ki, can quşu uçar bir gün qəfəsdən,
Qalır firqət odunda mehribanım.

Qatımdan getməz oldu bari-hicran,
Çəkə bilməm, nedim sultani-canım.

Nəsimi çəkdi ğəm “anəstünarən”,
Özü dedi, nə qılsın bu filanım. (səh.157)

***

(məfA’İlün məfA’İlün məfA’İlün məfA’İlün)

Bütüm, rəhbanimü deyrim, səlibim, dinim, imanım,
Həbibim, rahətim, ruhum, rəfiqim, munisim, canım.

Nurumsan, zülmətim, narim, şəbimsən, rövşənim, şə’mim
Münəvvər, nurimü hurim, nəimü xüldü rizvanım.

Təbibim, şərbətim, dürdim, nəbatım, şəkkərim, qəndim,
Əlacım, məlhəmim, çarəm, Cəlunis ilə Loğmanım.

Bənəfşəm, sünbülüm, vərdim, rəyahim, zanbağım, laləm,
Əbirim, ənbərim, udim, gülüm, qönçəm, gülüstanım.

Kitabım, müshəfim, dərsim, hədisim, əbcədim, lövhüm,
Səlatim, taətim, zöhdüm, səvabım, həccü ərkanım.

Rəmimü gorumü cismim, dü eynim, fikrimü əqlim,
Əmanım, afətim, fitnəm, təbiət ünsürü qanım.

Nəsimi çün səni buldu, kəsildi cümlə varından,
Qamudan sevgilim sənsən, mənim sərvi-xuramanım. *(səh.158)*

***

(məfA’İlün məfA’İlün məfA’İlün məfA’İlün)

Nigarım, dilbərim, yarım, ənisim, munisim, canım,
Rəfiqim, həmdəmim, ömrüm, rəvanım, dərdə dərmanım.

Şahım, mahım, dilaramım, həyatım, dirliyim, ruhum,
Pənahım, məqsədim, meylim, muradım, sərvərim, canım.

Qəmər çöhrəm, pəri ruyum, zərifim, şuxumü şəngim.
Səmən buyim, güləndamım, səhi sərvi-xuramanım.

Lətifim, nazikim, xubum, həbibim, türfə məhbubum,
Hicazım, Kə’bəvü Turim, behiştim, hurü rizvanım.

Diləfruzum, vəfadarım, cigərsuzum, cəfakarım,

Xudavəndim, cahandarım, əmirim, şahü sultanım.

Gülüm, reyhanım, əşcarım, əbirim, ənbərim, udum,
Dürüm, mirvarimü kanım, əqiqim, lə'lü mərcanım.

Çırağım, şəm'imü nurum, ziyamü ulduzum, şəmsim,
Həzarım, bülbülüm, gülüm, Nəsimiyi-xoşəlhanım. *(səh.159)*

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

Üzundür məqsədim, qibləm, ləbindir abi-heyvanım,
Əya, sərvi-sərəfrazım, fəda olsun sənə canım.

Ki, sənsən dərdimə dərman, üzün Fürqan, xətin reyhan,
Fəda olsun sənə min can ki, sənsən şahü sultanım.

Ənisim, rəhbanım, yarım, gülər üzlü güləndamım,
Əbirim, ənbərim, müşkim, boyu sərvi-xuramanım.

Əzizim, sərvərim, ömrüm, hədisim, təfsirim, elmim,
Ki, lə'li yaqutum, dürrüm, şikarım, gövhərim, kanım.

Kəlamım, zikrü Qur'anım, kitabım, fikri-tövhidim,
Namazım, taətim, şükrüm, qiyamım cümlə ərkanım.

Muradım, fazilim, meylim, kəlamım, məqsədim, könlüm,
Cəvabım, məs'ələm, sözüm, dilimdə cümlə dəstanım.

Həyatım, rahətim, mehrim, nəcatım, ülfətim, zatım,
Təbibim, şərbətim, Xızrım, vücudum, taətim xanım.

Əzəldəndir mənim dərdim, sözü gerçək, üzü bədrim,
Mühibbim, sevdiyim, mehrim, siyəh zülfi-pərişanım.

Xəzinəm, gəncü kəmalım, Nəsimi, aşiqim, eşqim,
Həbibim, izzətim izzim, əzəldən kamil insanım. (səh.160)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Ey gülüm, ey sünbülüm, ey süsənim, vey ənbərim,
Ey mənim noğulumvü səbrim, ey nəbatim, şəkkərim.

Ey həbibim, ey təbibim, ey bütim, ey həmdəmim,
Ey rəfiqim, ey şəfiqim, ey ənisim, dilbərim.

Ey baharım, ey nigarım, ey şikarım, şahidim,
Ey hərifim, ey zərifim, ey şərifim, sərvərim.

Ey gülüstanım, gülüm, sərvi-gülandamım mənim,
Sağərim, şəm'im, şəbistanım, mələyikmənzərim.

Ey rəyahim rahətim, ruhi-rəvanım lütf ilə
Sərfərazım, sərkeşim, şuxü səadət əxtərim.

Ey mənim Xürşidü Mahim, ey çırağım, fanusum,
Şux çeşmim, lütfi-şahim, ey mübarək peykərim.

Eşqin aldı əqlimi, xoş könlümü yəğmalədi,
Söylə axir, ey Nəsimi, canü dildən çakərim. (səh.161)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Ey həbibim, dilbərim, ey sevgili yarım mənim,
Vey dilaramım, nigarım, bəxti-bidarım mənim.

Ey güləndamım, gülüm, vey bülbülüm gülzar ilən,
İşrətim, eyşim, tərəbim, türfə əyyarım mənim.

Rahətim, ruhum, rəvanım, can içində sənmisən,
Qüvvətim, püştüm, pənahım, sirrü əsrarım mənim.

Yusifim, Misrim, əzizim, dövlətim, başım tacı,
Şəkkərü qəndü nəbatım, türki-tatarım mənim.

Səbrim, aramım, qərarım, qiymətim, qədrim bilən,
Fikrim, əndişəm, xəyalım, varlığım, varım mənim.

Nazikim, xubum, lətifim, mehribanım, tazə gül,
Munisim, canım, rəfiqim, şol vəfadarım mənim.

Sərvərim, şahım, əminimsən hümayun kölgəlim,
Həm yenə səndən düzəlmüş uş bu bazarım mənim.

Cənnətim, hurum, nəimim, kövsərü mai-məin,

Görk içində gündən ayru hüsni-dildarım mənim.

Kə’bəvü qibləm, sücudum, qaşların mehrabıdır,
Üzümü döndərməzəm, gər asələr, darım mənim.

Bu Nəsiminin niyazi, məhrəmi sənsən bu gün,
Çün əzəldən sənə gəldi sidqü iqrarım mənim. (səh.162)

***

(fA’ilAtün fA’ilAtün fA’ilAtün fA’ilün)

Sirri-zatın gövhəriyəm mən müsəlman olmənəm,
Əhli imanəm, yəğinəm, mən müsəlman olmənəm.

Məscidi mehrabü minbəl ol mənim sinəmdədir,
Mən anın hərfin oxuram, mən müsəlman olmənəm.

Şəriətdən, təriqətdən çox kitabı oxuyun,
Ol kitabı mən bilirəm, mən müsəlman olmənəm.

Ol mənim atam, dəxi anam müsəlmandır vəli,
Bu şəriət şərti ilə mən müsəlman olmənəm.

Ey üzün Kə’bə, cəmalın rəhmətən-lilaləmin
Səndən özgə kimsənəm yox, mən müsəlman olmənəm.

Mən səni bildim, tanıdım, səcdeyi-şükr eylərəm,
Canımı qurban verdim, mən müsəlman olmənəm.

Aşikar bildim, tanıdım, küfri-iman xansıdır
Küfri verib iman aldım, mən müsəlman olmənəm.

Kə’bəni bütxanədən fərq eyliyən gəlsin bərü,
Bu sözün küfri nədir ki, mən müsəlman olmənəm.

Mən Nəsimi həqqi buldum, həqqə iqrar eylədim,
Çün müvəhhid mö’mün oldum, mən müsəlman olmənəm. (səh.163)

***

(müftə’ilün fA’ilün müftə’ilün fA’ilün)

Səndən irağ, ey sənəm, şamü səhər yanıram,
Vəslini arzularam, dəxi betər yanıram.

Eşq ilə şövqin odu canıma kar eylədi,
Gör necə tabindən, ey şəmsü-qəmər, yanıram.

Şəm'i-rüxün surəti qarşıma gəlmişdürür,
Şə'şəəsindən mənə şö'lə düşər, yanıram.

Səbr ilə aramı-dil, qapdı əlimdən qəmin,
Badi-həvadan degil, ğəmdən əgər yanıram.

Çıxdı içimdən tütün, çərxi boyadı bütün,
Gör ki, nə atəşdəyəm, gör nə qədər yanıram.

Məndən ayırdı səni gör necə çərxi-fələk,
Hər nə ki, təqdir edər, hökmi-qədər, yanıram.

Səndən irağ olduğum bağrımı qan eylədi,
Oldu gözümdən rəvan xuni-cigər, yanıram.

Yandığım ol yar üçün gizli degil, bəllidir,
Hər nə qədər kim, anın könlü dilər, yanıram.

Müddəi yanır demiş ğəmdə, Nəsimi, vəli,
Ğəmdə yanan yarı yar çünki sevər yanıram. (səh.163)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Küntə kənzin sirrini izhar edər madami-dəm,
Kim degil ol adəmi kim, yoxdur anda dami-dəm.

Nəfxeyi-İsa dəmi dəmdir, dirildir adəmi,
İstər isən ol dəmi, al dünyadən kami-kəm.

Kim ki, miratın müsəffa qıldı, ol didariçün,
Limə allahın rimuzun qıldı istifhami-həm.

Aşiqə meyxanə küncündən gəlir ilhamü vəcd,
Sufiyə məscid qucağından gəlir peyğami-qəm.

Nəhnü zərraqna günündə qismət olmuş hər kimə,
Zahidə səccadəvü təsbih, rində cami-cəm.

Ey Nəsimi, qılma də'vət zahidi sən eşqə kim,

Bu məsəl rövşəndürür, kim, olmaz imiş xami-xəm. (səh.165)

***

(məf'Ulü məfA'İlün məf'Ulü məfA'İlün)

Ey nuri-dilü didə, didarinə müştaqəm,
Vey yari-pəsəndidə, didarinə müştaqəm.

Ey mahi-pəripeykər, vey huri-mələkmənzər,
Ey lə'li-ləbi şəkkər, didarinə müştaqəm.

Ey şəmsü qəmər yüzlü, şirin dodağın duzlu,
Vey şəhdü şəkər sözlü, didarinə müştaqəm.

Ey dərdimə sən dərman, tən gövdəvü eşqin can,
Vey tazə güli-xəndan didarinə müştaqəm.

Ey rəhməti-allahi, vey hadiyi-gümrahi,
Ey xublərin şahi, didarinə müştaqam.

Ey hüsnü bədayətsiz, vey lütfü nəhayətsiz,
Vallah ki, bəğayətsiz, didarinə müştaqəm.

Ey cümlə cahan canı, aşiqlərin imanı,
Vey simü göhər kanı, didarinə müştaqəm.

Ey sahibi-təxtü tac, canlar canına möhtac,
Vey görkülü yüz me'rac, didarinə müştaqəm.

Ey buyi-baharıstan, vey huri-nigarıstan,
Ey dilbəri-sərvistan, didarinə müştaqəm.

Ey dilbəri-dildarım, sənsən əbədi yarım,
Vey yari-vəfadarım, didarinə müştaqəm.

Ey dilbəri-simintən, sən canü Nəsimi tən,
Vey sərvü gülü gülşən, didarinə müştaqəm. (səh.166)

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

Gəl, ey dilbər, ki müştaqəm, səni görmək dilər könlüm,
Ğəmindən düşdü zar, istər vüsalindən şəkər könlüm.

Qara qaşın hilalını gözümdə ta bəid etdin,
Düşübdür narə eşqindən yanar, zari qilər könlüm.

“Səqahum rəbbihum” gəldi dodağından xəbər canə,
Susamışdır, yenə sorar, ləbindən ol xəbər könlüm.

Cahanda can ilə könlüm vüsalın ixtiyar etmiş,
Zəhi görmüş həqi canım, zəhi sahibnəzər könlüm.

Nə gövhərsən sən, ey can, kim, cəhanın bəhrü kanında,
Mükərrəm qədrü qiymətli səni bildi göhər könlüm.

Səbir etmək dəvadurur, möhübbüm dərdinə naseh.
Vəli, naseh dəvasindən olur hər dəm betər könlüm,

Ğəmin narından, ey dilbər, könül qaynar, içim yanar,
Bu rənci-möhnəti gör kim, ğəm içində çəkər könlüm.

Vüsalindən məni ayru, kərəm qıl, qıyma, lütf eylə.
Ki, vəslinlə müdam olmaq dilər şamü səhər könlüm,

Gəl ey, lütfi-nəhayətsiz, məni vəslindən ayırma,
Kim, ol ömrü ki, vəslinlə keçər, ömrə sayər könlüm,

Gəl, ara könlümün için, gör ey can, kim, fərağindən,
Nə acı qüssələr yuddar, nə ağular içər könlüm.

İki aləm, mənə sənsiz gərəkməz, olmasın hərgiz,
Cəhanın hasili sənsən, onu sənsiz nedər könlüm.

Xəyalin şö’lədir yarım, gözümdən gərçi ayrılmaz,
Cəmalın pərdəsiz görmək dilər, açuq-bəsər gönlüm.

Əzəldə surəti-allap yüzün came’də gördüm çün,
İlahi surətin daim bu mə’nidən sevər könlüm.

Nəsimi yarını verməz cəhanın varına, andan
Gec, ey dəviçi ki, nadan degildir ol qədər könlüm. (səh.167-168)

***

(məfa’İlün məfa’İlün fə’Ulün)

Üzündə surəti-rəhmanı gördüm,

Qaşında “Qaf-vəl Qur’anı” gördüm.

Oxudum dərsi-hüsnün ayətini,
Yedi müshəf kimi Fürqanı gördüm.

Məhəmməd ümmətindən sən doğalı,
Səni gözəllərin sultanı gördüm.

Xəlilüllah ilə eşqin odunda,
Çü yandım, gül kimi reyhanı gördüm.

Səlamım Nuhə yetür sən mənim kim,
Anınla qərq olub tufanı gördüm.

Rəvadır Xızr ilə qalsam mana kim,
Ləbində çeşmeyi-heyvanı gördüm.

Girib dəryayi-eşqə misli-qəvvas,
Ki, lə’lü gövhərü ümmanı gördüm.

Bizim məqsudumuz didarınızdır,
Oxudum, dəftərü divanı gördüm.

Züleyxa tək bu gün dərdə giriftar,
Həzaran Yusifi-Kən’anı gördüm.

Nasimi tək bu gün Hər kim verir can,
Yəqindir gər desə cananı gördüm. (səh.169)

***

(məf’Ulü məfa’İlü məfa’İlü fə’Ulün)

Əlminnətulillah ki, bu gün yarımı buldum,
Könlümdə yəqin dilbərü dildarımı buldum.

Dəgməz mənə bir pula cahan varlığı ilə,
Neyçün ki, gözəl sikkəli dinarımı buldum.

Torpaq ikən ol Zöhrə mənə Müştəri oldu,
Dəllalə çağırgil de ki, bazarımı buldum.

Ğəmdən yanıram, ğəm nə qədər çox olur isə,
Şadlıq ilə mən, çün ğəmü qəmxarımı buldum.

Firdovsə məni də’vət edən zahidə söylə,
Şol tikənə göz dikmə ki, gülzarımı buldum.

Yusif yeridir kim, mənə qul yazıla, çünkim,
Misrində ləbi-lə’li-şəkərbarımı buldum.

Bəxtim günəşi doğduvü uyxudan oyandı,
Mə’nisi bu kim, dövləti-bidarımı buldum.

Naməhrəmə faş eyləməzəm sirri-ilahi,
Məhbubi-əmin yarı-vəfadırımı buldum.

Bağdada gəl, ey qasid, ilət şol xəbəri kim,
Şol şə’bədəçi dilbəri-əyyarımı buldum.

Ey nəqdini tərrare verən uyxulu qafil,
Şol yüziqəmər turreyi-tərrarımı buldum.

Mənsur kimi məndən əgər gəldi ənəlhəq,
Ey xacə, itab eyləmə uş darımı buldum.

Canı nedərəm, neylərəm axır bu cahanı,
Çün təfriqəsiz yarı-vəfadarımı buldum.

Gər Musa kimi yüzünə muştaq isən anın,
Gör sən də həqi söylə ki, didarımı buldum.

Verdi saçının küfrinə imanı Nəsimi,
Ey xirqə geyən, mən dəxi zünnarımı buldum. (səh.170)

***

(fəil’Atü fA’ilAtün fə’ilAtü fA’ilAtün)

Mən ol tilsimi-pünhan ki, bu gün cəhanə gəldim,
Əzəli nişansız idim, əbədi nişanə gəldim.

Bu tilismi çünki açdım, zülümata nur saçdım,
Bu neçə məqamı keçdim ki, bu cismü canə gəldim.

Oxudum bir ismiə’zəm ki, vücuda, gəldi aləm,
Qoyun adımı siz adəm ki, bu kövn-məkanə gəldim.

Qamu yerlərə bulundum, qamu sözlərə bilindim,
Qamu yerdə yar oldum, bu ulu bəyana gəldim.

Adımdı Seyid Nəsimi, nə deyərisəm Nəsimi,
Əbədi surəm Nəimi hurilə cinanə gəldim. (səh.171)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Qulluğa bel bağladım, sultani gözlər, gözlərim,
Dərdinə tuş olmuşam, dərmani gözlər, gözlərim

Gözlərim gözlər gözəllər həzrətini şahimin,
Neçəsi gözləməsin, sübhani gözlər, gözlərim.

Gördügüm ol, bildigim, ol, istədigim oldurur,
Əvvəl oldur, axir oldur, ani gözlər, gözlərim.

Mən də şahın yoluna canımı qurban etmişəm,
Eşq ilə girdim yola, meydani gözlər, gözlərim.

Cür'eyi-eşqin dilər ki, könlümə mehman ola,
Ümmətə bel bağladım, mehmani gözlər, gözlərim,

Yahu ya mənhu deyib, hər dəm təmənna eylərəm,
Rəhmətindən umaram, rəhmani gözlər, gözlərim.

Ey Nəsimi, sidq ilə yolunda xak olmaq üçün,
Can elindən gəlmişəm, canani gözlər, gözlərim. (səh.172)

***

(müftə'ilün məfA'lün müftə'ilün məfA'ilün)

Canımı yaxdı fərağın, gör ki, nə nar içindəyəm,
Güldən iraq gül kimi, möhnəti-xar içindəyəm.

Könlümü vüsləti-ləbin hicrə mübəddəl eylədi,
Gör nə meyü piyalədən rənci-xumar içindəyəm.

Zülfü rüxün şümarini şamü səhərdə saymışam,
Kim bilir ol şümarı kim, mən nə şümar içindəyəm.

Lə'lü əqiqü inciyi saçaram altun üstünə,
Gör ki, gözümdən uş neçə bəzlü nisar içindəyəm.

Ey qamu xubların şəhi, lütfü inayət eyləgil,
Dut əlimi ki, düşmüşəm, əqrəbü mar içindəyəm.

Zülfü rüxün hədisini necə unudam, ey pəri,
Çün dünü gün anınlə mən leylü nəhar içindəyəm.

Canımı ənbərin saçın seyd edəli kəməndinə,
Rumü Xətayi dutmuşam, çinü Tatar içindəyəm.

Nəqşi-nigarını üzün məndə müsəvvər eylədi,
Mən bu nigari-nəqş ilə nəqşü nigar içindəyəm.

Fəzli-ilahə canını eylə fəda, Nəsimi, sən,
Olma məlul, ğəm yemə, bəndü həsar içindəyəm. (səh.173)

***

(müftə'ilün məfA'ilün müftə'ilün məfA'ilün)

Gərçi fəraqə düşmüşəm, eyni-vüsal içindəyəm,
Gəl nəzər eylə halimə, gör ki, nə hal içindəyəm.

Vəsli-rüxün zülalinə susadım, iştə yanıram,
Gözümə baxü gör necə abi-zülal içindəyəm.

Nəqşi-xəyali-surətin sanma ki, məndən ayrıdır,
Çün bu xəyali-nəqş ilə nəqşü xəyal içindəyəm.

Xürrəm edər ümid ilə vəsli-rüxün məni, vəli,
Vəsl irişincə canıma hüznü məlal içindəyəm.

Zülf ilə qaşu kiprigin "əbcədi-cimü" "dal" imiş,
Mən bu Hüruf şəkliçün "cim" ilə "dal" içindəyəm.

Taleü bəxt yıldızın kövkəbi-nəhsə uğradı,
Ey şərəfim, səadətim, gəl ki, vəbal içindəyəm.

Vəslinə irmək istərəm, gərçi ki, eyniyəm anın,
Məndən anı kim ayura, fikrü məlal içindəyəm.

Sən mənim olduğun, şəha, düşmənə zahir olmamış,
Münkir ilə bu mə'nidən qiyl ilə qal içindəyəm.

Hüsnüvü qaşına onun verdi Nəsimi könlünü,
Mən bu səbəbdən, ey günəş, bədrü hilal içindəyəm. (səh.174)

***

(fə'ilAtün fə'ilAtün fə'ilAtün fə'ilün)

Dilbərin ləblərinə çeşmeyi-heyvan demişəm,
Mə'dəni-ruhə, əcəb, mən nə içün can demişəm.

Xəcil oldum bu səbəbdən ki, nigarın üzünə
İrəmin gülşənivü rövzeyi-rizvan demişəm.

Sənsən, ey surəti-allah ilə rəhman, məscud,
Qılmayan səcdə sana, div ilə şeytan demişəm.

Lövhi-məhfuz ilə ərş oldu yanağın sifəti,
Mən bu mə'nidən ana surəti-rəhman demişəm.

Surətin əhsənü təqvimü üzün qiblə imiş,
Bu sözə yox deyənin adını heyvan demişəm.

Surətin münkirinə kafirü mə'lun dedi həq,
Nə ki, ana dedi həq, mən iki çəndan demişəm.

Güli-xəndan deməzəm qönçəyə ayrux, nə içün
Ki, yanağın güli-xəndanına xəndan demişəm.

Sədəfin içinə kar eylədi incu əridi
Ki, ləbin cövhərinə lə'li-bədəxşan demişəm.

Demə hər tikənə sən bağü gülüstan, əbsəm,
Ki, mən ol arizi-gülgunə gülüstan demişəm.

Zülfünü nafeyi-tatarə bəha qılma ki, mən,
Qiymətin hər qılını mülki-Süleyman demişəm.

Ey Nəsimi, sana çün Fəzliilah oldu mü'in,
Məni eyb eyləmə kim, tapuna sultan demişəm. (səh.175)

***

(fə'ilAtün fə'ilAtün fə'ilAtün fə'ilün)

Dilbərin lə'linə mən hoqqeyi-mərcan demişəm,
Sor nə lütf ilə əcəb canana canan demişəm.

Kani gövhərdir anın lə’livü mən cövhəriyəm,
Cövhəri cövhərinin dürrünə qəltan demişəm.

Demişəm faş demün xəlvət içində mənü dust,
Yar ilə sirri nihan, arada pünhan demişəm.

Qılmayın səcdə anın yüzünə gər zahid isə,
Zəhdü bariz olanın adını şeytan demişəm.

Xəttü xalın nə bilür vaizi bihudəsüxən,
Mən anın şərhinə gör “Qaf” ilə Qur’an demişəm.

Bülbüli-qüds mənəm, sureyi-hüsnün güldür,
Gül yüzün gülşəninə tazə gülüstan demişəm.

Sibi-vüslət, sənama, Musiyə görsətdi cəmal,
Yüzünə şol gecədə şəm’i-şəbistan demişəm.

Mən Nəsimiyəm anın qaşü gözü kipriginə,
Hər zaman qəlbşikən, Rüstəmi-dəstan demişəm. (səh.176)

***

(müstəf’ilün müstəf’ilün müstəf’ilün müstəf’ilün)

Allahu əkbər, ey sənəm, hüsnünə heyran olmuşam,
Qövsü qüzehdi qaşların, yayinə qurban olmuşam.

Yüzündürür cənnət gülü, saçın həqiqət sünbülü,
Eşqində mən bülbül kimi, aləmdə dəstan olmuşam.

Kövnü məkandan keçmişəm, mə’ni şərabın içmişəm.
Canan yüzünü görmüşəm, sər ta qədəm can olmuşam.

Dəvi mənəm, qazi mənəm, münkir mənəm, razi mənəm,
Dağ ilə həm yazi mənəm, mən külli-dövran olmuşam.

Sufi mənəm, safi mənəm, əzmeyi-heyrani mənəm,
Kafi mənəm, şafi mənəm, dərd ilə dərman olmuşam.

Zahid mənəm, abid mənəm, asi mənəm, fasiq mənəm,
Mö’min mənəm, kafir mənəm, mən külli-insan olmuşam.

Uçmağ ilə rizvan mənəm, tamu ilə şə’ban mənəm,
Dana ilə nadan mənəm, həm inü həm an olmuşam.

Gah çıxmışam İsa kimi çərx üstündə oturmuşam,
Gah varmışam Yusif kimi, Misridə sultan olmuşam.

Sahibi-Qur'an qüdrətəm, yaquti-kani-vəhdətim,
Şirin ləbini yad edib sər ta qədəm can olmuşam. (səh.177)

***

(müstəf'ilün müstəf'ilün müstəf'ilün müstəf'ilün)

Hüsnün təala şanəhü sün'ində heyran olmuşam,
Şirin ləbini yad edib sərta qədəm can olmuşam.

Badi-səbadan sünbülün kim, ayə düşmüş sayəsi,
Aşüftə gördüm, ey sənəm, andan pərişan olmuşam.

Abi-həyatın zövqünü mən ta ki, sordum, ləblərin
İçirtdi ol meydən mənə, mən abi-heyvan olmuşam.

Simin əlin dəstan ilən ta könlümü seyd eylədi,
Hər dilə düşmüşdür adım, aləmdə dəstan olmuşam.

Sən əhsəni-təqvim idin, əqlim sənə heyran idi,
Ey canların məhbubi, gəl, gör kim, nə insan olmuşam.

Bunca Nəsimi yüzünü qiblə qılalı canına,
Ey zülfü kafir,gör necə gerçək müsəlman olmuşam. (səh.178)

***

(fA'ilAtün fA'ilAtün fa'ilAtün fA'ilün)

Könlümün viranəsində gənci pünhan bulmuşam,
Olmuşam şol mahə qurban, canü canan bulmuşam.

Küfr əgər iman degilsə, bəs niçün düşmüş ki, mən,
Küfri-zülfün həlqəsində nuri-iman bulmuşam.

Xızr əgər zülmətə irdi, istədi abi-həyat,
Mən dodaqın çeşməsində abi-heyvan bulmuşam.

Dişlərin əksi, nigara, könlümə nəqş olalı,
Gözlərim bəhrində hər dəm dürrü mərcan bulmuşam.

Rövzeyi-rizvanə də’vət qılma, ey zahid, məni,
Xaki-dərgahında mən səhni-gülüstan bulmuşam.

Ey Nəsimi, canımı şol mahə qurban eylərəm,
Gör nə göyçək şol hilali-maha qurban, bulmuşam. (səh.179)

***

(müstəf’ilün müstəf’ilün müstəf’ilün müstəf’ilün)

Gəl gör məni eşqində kim, mən necə giryan olmuşam,
Tərki-cahanı qılmışam, cismin görüb can olmuşam.

Dərdin dərunimdə mənim aləmlərə çaxdı məni,
Qabil dəlildir, dərdimə həqdir ki, dərman olmuşam.

Dövri-qəmərdə gözlərin bir kəz qıya baxdı mənə,
Zülmündən ol xunxarənin qan ilə qəltan olmuşam.

Ey bağü gülzarı yüzün çün cənnətül-mə’va imiş,
Sən rövzəsisən, mən sənin qapında rizvan olmuşam.

Ey Turi-Sina, ərzə qıl həqqin təcəllisin mənə,
Musa kimi didarına müştaqü heyran olmuşam.

Ol dəm ki, üzün görmüşəm, yüz yerdə səcdə qılmışam,
İman şəhadət etmişəm, andan müsəlman olmuşam.

Ey sayeyi-sübhan mənə, ey surəti-rəhman mənə,
Dutdum yüzüm səndən yenə, çün əhli-iman olmuşam.

Eşqinlə mövc içində mən dişlərinin əksini görüb,
Dürdanədürür gözlərim, lö’löi-mərcan olmuşam.

Könlün Nəsiminin xərab qıldınsa viran, qəm deyil,
Mən gizli gənci bulmuşam, andan ki, viran olmuşam. (səh.180)

***

(fA’ilAtün fA’ilAtün fA’ilAtün fA’ilün)

Ta yüzin gördüm, nigara, ğəmdən azad olmuşam,
Qulluğunda padşahım, hüsnünə şad olmuşam.

Gəlmişəm didara qarşı canımı qurban edəm,

Ey dodağı, cani Şirin, gör nə Fərhad olmuşam.

Ta cəmalın müshəfindən oxuram “Səb’ülməsan”,
Səb’əxanəm, hafizəm, təfsirdə ustad olmuşam.

Gəzmişəm Şamı, İraqı bir müsahib yar üçün,
Aşiqi-Misrəm, vəli, müştaqi-Bəğdad olmuşam.

Yüzünü gördü Nəsimi, çağırır avaz ilən,
Eşq ilə mən aşinayəm, əql ilə yad olmuşam. (səh.181)

***

(fa’ilAtün məfAilün fə’ilün)

Gəl bərü sofiya ki məst olalım,
Məstü camü meyi-ələst olalım.

Verəlim ixtiyarı ruh əlinə,
Necə bir nəfsə ziri-dəst olalım.

Aləmi-qüdsə edəlim pərvaz,
Nə üçün munda payibəst olalım.

Nəfsimiz bütlərini söndürəlim,
Gəliniz biz xudapərəst olalım.

Yar bizi çün şikəstə istər imiş,
Gəliniz cümləmiz şikəst olalım.

Ey Nəsimi, gözətmə cayi-büləND,
Məskənət gözləgil ki, pəst olalım. (səh.182)

***

(fA’ilAtün fA’ilAtün fA’ilAtün fA’ilün)

Surətin nəqşini yazdı dedi rəbbül-aləmin,
Hazihi-cənnati-ədni fədxulai “xalidin”.

Gözünə “vənnəcmü” yazdı, qaşına “vənnaziat”,
Alnına nəsrün minallah, görünür eynül-yəqin.

Sidreyi-tuba boyundur, sərvü həqqin həqqinə,
Üzünə “vəşşəms” gəldi, saçına “həblülmətin”.

Şə’ninə əlhəmdülillah gəldi həqdən beyyinat,
Ləblərin yadına münzil oldu min mai-məin.

Kafi-nunun hər nə kim, gəldi vücudə zübdəsi,
Sabit oldu kim, ləbindir mühbitü ruhiləmin.

“Laşək” oldu, çün sən oldun qibləgahi-aşiqan,
“Vəscüdü” əmrini həqdən bilməyənlər bəs lə’in.

Ey Nəsimi, çün eşitdi bu Ütarid nəzmini
Caməsin çak etdi oldəm oda saldı dəftərin. (səh.183)

***

(məf’Ulü fə’ilAtün məf’Ulü fa’ilAtAN fA’ilAtün)

Ey qəflətin meyindən məstü xərabü heyran,
Gər həqqi tanımışsan, qanı dəlilü bürhan.

Çün hər nə kim, əkərsən, axır biçərsən anı,
Dünyada əkmə anı kim, adı oldu üsyan.

Nəfsi xəsisə uymaq nadanların işidir,
İşin nədir gör, axır, saqın, gəl olma nadan.

Tərk eylə səyyiatı, saleh əməl qazan kim,
Anın cəzası həqdən həm lütf imiş, həm ehsan.

Əyyamını həyatın badi-həvayə vermə,
Kim, itürən həyatı, üqbadədir pəşiman.

Müflis ticarət eylər sərmayəsiz və leykin,
Sə’yi əbəsdir anın, sövdası cümlə xüsran.

Divin libasını qoy, Xızr ilə yoldaş ol kim,
Zülmətdə zahir olmaz, heyvanə abi-heyvan.

Naqis vücudə çünki, nöqsan gəlür həmişə,
Cəhd eylə kamil ol kim, irməz kəmalə nöqsan.

Dünyayi-dun ğəmindən saralma, sayru olma,
Aləmdə kimsə çün ki bulmaz bu dərdə dərman.

Hirsü həsəd sifatın məhv eylə, ayrıl andan,

Neyçün ki, ol sifətdən nacidir ayrılan can.

Həqqin rizasın istə, qüfranə qabil ol kim,
O yuca qədrü bəxtin kəsbi degildir asan.

Çün "əscədü" buyurdu Adəm, həqqi-nahaqdan,
Həqqin xitabinə uy, qıl səcdə, olma şeytan.

Əbd olma, ey Nəsimi, fani cahana çünki,
İmanu din içində sənsən əmirü sultan.

Olmasa mülki-malın andan nə ğəm, nə qüssə,
Ovladı təyyibinsən həm adəmü həm insan. (səh.184)

***

(məfA'ilün fə'ilAtün məfA'ilün fə'ilün)

Bu türfə şəm'i gör müşk axar dodağından,
Əcəb ki, münfəil olmaz qəmər yanağından.

Bənəfşə zülfünə batil təşəbbüh eylər imiş,
Səba, çıxar bu xəyalı anın dimağından.

Əgərçi sərvi-səhinin budağı bibər olur,
Görün bu sərvi ki, susən bitər budağından.

Zəmanə zülfü rüxündən bəlayə saldı məni,
Həm ol zaman ki, seçildi qarası ağından.

Ğəriqi-bəhri-ğəm etdi məni bu şivə ilən,
Gəlür, təfərrüc edər hər zaman qırağından.

Əgər ayağına düşmək məcalım olsa idi,
Dəxi götürməz idim başımı ayağından.

Zəmanə çeşmi-çırağı, Nəsimi, yarındır,
Götür çırağını yandır anın çırağından. (səh.185)

***

(məfA'İlün məfA'İlün fə'Ulün)

Cahanı tərk edib keçdim cahandan,
Cahan oldum, cahan oldum cahandan.

Əgər məhbubə istərsən ulaşmaq,
Gəlib-keçmək gərəksən kün-fəkandan.

Cahanın səhl imiş sudü ziyanı,
Qo anın assisin, qurtul ziyandan.

Əgər cinni degilsən, adəmi bil,
K'anın əsli nədəndir, söylə andan.

Gümandan bilmədi heç kimsə həqqi,
Yəqindir kim, yəqin bitməz gümandan.

Gülü bitməz tikansız dünyanın çün,
Gülü tərk eylə, keç cövri-tikandan.

Dodağı candır ol şirindəhanın,
Məgər qafildir ol şirindəhandan?

Əyan oldu üzün, ya rəb, saqınsın,
Cəmalın fitneyi-axırzamandan.

Qamudan keçmişəm, lillahi-billah,
Məgər şol türreyi-ənbərfəşandan.

"Əleyna cə'məhü pəs latəhərrik",
Günəş müstəğnidir şərhü bəyandan.

Yerü gög dolu həqqin ayətidir,
Vəli gözsüz xəbərsizdir nişandan.

Nəsiminin muradı çün sən oldun,
Nəzər qət eylədi kövnü məkandan. (səh.186)

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

Nə hüsn olur ki, yayılmış bu munca hüsniyat andan,
Nə surətdir ki, oxurlar bu ismi eyni-zat andan.

Zəhi pakizə gövhər kim, nə hüsnü xəttü xal olmuş,
Səkiz cənnət əyan oldu, bu səb'i-sünbülat andan.

Qaşın "nun" "çəl-qələm", qəddin "təbarək" əhsən, ey dilbər,

Mübarək nüsxədir vəchin oxur “vənnaziat” andan.

Üzün eydinə ta irdim, səyami-hicr məhv oldu,
Yenə əyyami-vəsl oldu, tükəndi hicriyat-andan.

Cəmalın xubluğu qəsri-fələkdən öylə ə’ladır,
Əgər bir gün güzar etsə, mələk tökər qanat andan.

Hər an sufi ki, bu hüsnə ibadət qılmadı candan,
Özünü lə’nətə bandır, namazın oda at andan.

Nəsimi, gəl sücud eylə bu vəchüllahə kim həqdir,
Anın şanında gəlmişdir, bu munca vəscüdat andan. (səh.187)

***

(fA’ilAtün fA’ilAtün fA’ilAtün fA’ilün)

Canımı yandırdı şövqün, ey nigarım qandasan?
Gözlərim nuru, iki aləmdə varım, qandasan?

Bağrımı qan eylədi, acı fərağın, gəl iriş,
Ey ləbi vüslət, şərabi-xoşgüvarım, qandasan?

Firqətin xari məni gör kim, nə məcruh eylədi,
Ey gözü nərgis, həbibi-gül’üzarım, qandasan?

Səbrimi yəğmalədi şövqün, qərarım qalmadı,
Ey mənim aramım, ey səbrü qərarım, qandasan?

Eylədi eşqin məni qalxan məlamət tirinə,
Ey gözü, qaşı yeləkli şəhriyarım, qandasan?

Ta yüzün şəm’indən iraq düşmüşəm pərvanətək,
Yanaram leylü nahar, ey nurü narım, qandasan?

Səndən ayrı könlümə yoxdur vəfalı yarü dust,
Ey cəfasız hüsni-kamil yadigarım, qandasan?

Dəldi hicranın oxu eşqində yanan bağrımı,
Surətü mə’nidə, ey çapik süvarım, qandasan?

Zülfünə vermiş əmanət həq əzəldə sirrini,
Ey əmanətdar əmini-girdigarım, qandasan?

Qatı müştaq olmuşam zülfü üzarın buyinə,
Ey yüzü gülşən, saçı müşki-tatarım, qandasan?

Badilən göndər saçın buyin mana hər sübhdəm,
Sanki yandı, keçdi həddən intizarım, qandasan?

Aşiqin cənnəti-ədini şol cəmalın vəslidir,
Ey şərabi-kövsərim, getməz xumarım, qandasan?

Yar üçün hər guşədə min div olur düşmən mana,
Bu səvadi-ə'zəmü möhkəm həsarım, qandasan?

Çün Nəsimidir bu gün əyyami-eşqin sərvəri,
Ey şəkərləb, yari-şirinruzigarım, qandasan? (səh.188)

***

(müstəf'ilün müstəf'ilün müstəf'ilün müstəf'ilün)

Yandırdı şövqün canımı, ey dərdə dərman, qandasan?
Canımda can sənsən, vəli, istər səni can, qandasan?

Vəslin şərabından məni saldın xumarın tabına,
Yandı hərarətdən içim, ey abi-heyvan, qandasan?

Ey lütfi-hüsnün kişvəri, yandım irişdir vəslinə,
Çün səndən özgə kimsədən yoxdur bu ehsan, qandasan?

Qapdı əlimdən zülfünü cövrü cəfası çox fələk,
Aşüftəyəm, Məcnun kimi zarü pərişan, qandasan?

Rə'na boyun şövqündo uş həsrətdə yanar gözlərim,
Qan ağlaşırlar sənsiz, ey sərvi-xuraman, qandasan?

Cövri-cəfası firqətin tufan gətirdi başıma,
Andan məni qurtarmağa, ey fəzli-rəhman, qandasan?

Eynimin sənsən rövşəni, könlüm dilər görmək səni,
Ey hürieyn Rizvanilə hüsnünə heyran, qandasan?

Mişkin saçın zəncirinə verdi Nəsimi könlünü,
Ayrıq nə hacətdir ana zincürü zindan, qandasan? (səh.189)

***

(məfA'İlün məfA'İlün fə'Ulün)

Gəl, ey könlümdə can, canda bədənsən,
Nə candansan, əcəb kim, canü tənsən.

Səni dil necə şərh etsin, a can, kim,
Nə bilsinlər səni kim, can, nədənsən?

Üzün çün "qülhüvəllahü əhəd"dir,
Həqiqət mö'cüzi, həqdən gələnsən.

Vücudin zati-mütləqdir, məgər, kim,
Nəyə kim baxar isəm anda sənsən.

Nə yerdənsən, səni heç kimsə bilməz,
Məgər cənnət təki hübbülvətənsən.

Ələl-ərş istivadən dəm ursan,
Bu mə'nidən ki, səndən oldu, sənsən.

Nəsimi çünki buldu xoş məlahət,
Şirindir hər sözün şirindəhənsən. (səh.190)

***

(məf'Ulü məfA'ilün fə'Ulün)

Səndən məni kimdir ayıran, sən,
Zahirdəvü batinimdə sənsən.

Həq vahidi-la-şərik ləhudur
Sənlik aradan götür ki, mənsən.

Ey aşiqi sadiq, eylə bil ki,
Mə'şuqə rəvanü sən bədənsən.

Çün zahirü batin oldu vahid.
Həm cövhəri-canü eyni tənsən.

Bil gövhərinivü cövhəri ol,
Gör nə həcəri gühərşikənsən.

Yarın ətəyin qaçırdın əldən,
Düşdün bu cəzayə gör nədən sən.

Fərhad ilə Xosrov, ey Nəsimi,
Şirin gələici şəkərdəhənsən. (səh.191)

***

(məfA'İlün məfA'İlün fə'Ulün)

Gəl, ey dilbər, iki aləmdə cansan,
Gəl, ey ruhi-rəvanım, təndə cansan?!

Fələk üstündə heyrandır, fələk mat,
Nə dəryasan, nə gövhərsən, nə kansan?

Həyati-Xızr axar daim ləbindən,
Anınçün çeşmeyi-abi-rəvansan.

Gözündən fitnə yayıldı cəhanə,
Məgər kim, fitneyi-axırzamansan!

Saçın buyi Xətavü Rumi dutdu,
Bu buy ilə məgər ənbərfəşansan?!

Cəhanın səhl imiş sudü ziyani,
Ziyansız aşiqə sən biziyansan.

Cəmalındır bu gün aləmdə, ey can,
Əyan oldu cəhan, həqdən əyansan.

Dəmadəm hüsnünə heyran olur can,
Məgər kim, sənə həyati-cavidansan!

Cəhan yandı bu gün eşqin oduna,
Yaxarsan aşiqi, atəşzəbansan.

Səba zülfün tozunu yelə verdi,
Məgər kim, sünbüli-ənbər nihansan!

Mənə sən nəqlini ərz etmə, vaiz,
Anınçün kim, yalançı qissəxansan!

Nəsimi çün səni bildi əzəldən,
Həqiqət bildi kim sən laməkansan. (səh.192)

***

(məfA'İlün məfA'İlün fə'Ulün)

Əgərçi candasan, candan nihansan,
Degilsən candan ayrı, bəlkə, cansan.

Kimi verməz nişan səndən əgərçi,
Yerü gög dopdolu cümlə-nişansan.

Necə gizlədəyim, məndən səniyçün,
Nəyə kim baxıram, anda əyansan.

Xəcil eylər rüxün hüsn ilə ayi,
Məgər sən fitneyi-axirzəmansan?

Ərəbin dili bağlandı dilindən,
Səni kimdir deyən kim, türkmansan.

Canımı tərh edib bezdim cahandan,
Səni buldum ki, can ilə cahansan.

Görən sən, görünən sənsən gözümdə,
Söz etmə, gəl, vəli, külli-lisansan.

Vəhyi-mütləqdir, ey arif, bu göftar,
Bu sözü bil ki, andan tərcümansan.

Ətəgin silk, əlin çək kün-fəkandan,
Nə axir zübdeyi-kövnü məkansan.

Nəsimi, sür, bu gün dövran sənindir,
Əcəb kim, Xosrovi-sahibzamansan. (səh.193)

***

(məfA'ilü məfA'ilü məfA'ilü fə'Ulün)

Ey ruhi-qüdüs, canıma sən canü cahansan,
Məndən səni qaib deməzəm üştə əyansan.

Mə'şuqə mənə çün sən idin, ruzi-əzəldən,
Əvvəl nə idin, ta əbəd, ey fitnə, hamansan.

Zülfün qəmərin dövrünə yüz fitnə buraxdı,
Ey dövri-qəmər fitnəsi, fəttani-zamansan.

Lə’lin bilür ləzzətini div ilə heyvan,
Sən xızra sor anı ki, nə abi-heyvansan.

Can ilə təni yaqmaq əgər istərsən uş,
Gəl yandır anı, yaqmaqa kim, gər nigaransan,

Hüsnün nə bilir qiymətini hər gözügörməz,
Sən aşiqə sor anı ki, cismində rəvansan.

Verməz səni min cənnətü min hurə Nəsimi,
Sən aşiqə həm cənnətü həm huri-cinansan. (səh.194)

***

(müftə’iln məfa’ilün müftə’ilün məfA’ilün)

Külli-məkanın gövhəri, gövhəri-kanmısan, nəsən?
Kimsə bu sirrə irmədi, gənci-nihanmısan, nəsən?

Kövnü məkanə baxmazam, çün səni buldum, ey sənəm,
İki cahan içindəsən, kövnü məkanmısan, nəsən?

Musa kimi didarını gördü əzəldə gözlərim,
Yaxma məni bu narə gəl, şəmi-zə’banmısan, nəsən?

Dəhri-zaman içində çün bulmadı kimsə bir dəxi,
Sənciləyin, bu lütf ilə dəhri-zamanmısan, nəsən?

Səndə bulundu, gövhərin mə’dəni sənsən, ey nigar,
Uş bu cahan içində sən, gənci-nihanmısan, nəsən?

Qaşların ilə kiprigin qəsd edər üştə canimə,
Bağrımı dəldi navəkin, tiri-kamanmısan, nəsən?

Boyunu sərvə, ey sənəm, nisbət edən dəlil ilə,
Uş bu qərar ilə əcəb sərvi-rəvanmısan, nəsən?

Oldu Nəsimi, ey nigar, eşqinə xəstə, ey sənəm,
Getdi xəyali kəndüdən, cisminə canmısan, nəsən? (səh.195)

***

(fA’ilAtün fA’ilAtün fA’ilAtün fA’ilün)

Şol pəridən vəsl umarsan, ey könül, divanəsən,

Şəm’ə yaxılmaq dilərsən, nə əcəb pərvanəsən?

“Küntə kənz”in gövhərindən xərc edərsən arifə,
Ey bu gəncin nəqdi, hey-hey büləcəb viranəsən?

Zülfü çövkan yar ilə düşməz nihan eşq oynamaq,
Başını top eyləgil, meydanə gir mərdanə sən.

Gər Xəlil olmaq dilərsən yar ilə gərçəkləyin,
Dilbərin yolunda şərt əvvəl budur kim, yanəsən.

Aşinayi bilməmiş sən, ey bilişdən yad olan,
Mə’rifətdən dəm urarsan, neyləyim biganəsən.

Canların cananı sənsən, ey cəhanın sərvəri,
Doğrusu pakizə cövhər, nazənin cananəsən.

Qəmzəsindən fitnələr durdu, oynadı uyxudan,
Sən bu uyxudan qaçan, ey bixəbər, oyanəsən?

Ey Süleyman məntiqindən quş dilin ögrənməyən,
Divə uymuşsan, anunçün tabei-əfsanəsən.

Gəl “ənəlhəq” sirrini meyxanəvü meydən eşit,
Ey düşən inkarə neyçün münkiri-meyxanəsən?

Ey Nəsimi, şol xumari gözləri fəttan kimi,
Daim əsrüksən, məgər kim, nərgisi-məstanəsən? (səh.196)

***

(fA’ilAtün fA’ilAtün fA’ilAtün fA’ilün)

Kəşfi-əsrarından anın yanərəm, səbr eylərəm,
Deməzəm əğyarə ta kim, kəşfi-əsrar olmasın.

Aşiqin müşkü tətari zülfi-yarın buyudur,
Narə yansın nafeyi-Çin müşkü tatar olmasın.

Bağrımı yandırdı hicran xari, ey cənnət gülü,
Bülbülün bağrında hərgiz güldən ol xar olmasın.

Canfəza vəslin meyindən firqət ayırdı məni,
Ya rəb, ol pakizə meydən kimsə huşyar olmasın.

Kim ki, bidar olmadı eşqində hər şəb ta səhər,
Ol yalançı müddəinin bəxti bidar olmasın.

Kim ki, bazar etmədi yüzünlə yüz min can ilə,
Ta əbəd vəslinə anın, hiç bazar olmasın.

Tutmuşam mehrinlə peyman, qılmışam eşqində əhd,
Mehri-eşqin ləmyəzəl, biəhdü iqrar olmasın.

Ey Nəsimi, kim ki, saf olmaz zəri-xalis kimi,
Dilbərin eşqində safi həmçü dinar olmasın. (səh.197)

***

(müftə'ilün məfA'ilün müftə'ilün məfA'ilün)

Alinə vermişəm könül, ali çox alə düşməsin,
Yanağının qızıl gülü üstünə jalə düşməsin.

Zülfi uzun qəsidədir, kəmənd irişməz ucinə,
Fikri xəta, dili qısa qiyl ilə qalə düşməsin.

Kipriginin əsiriyəm, ol alə gözlü fitnənin,
Nəqşi xəyalini görən, nəqşi-xəyalə düşməsin.

Saçı qərasinin ğəmin, ol nə bilür ki, çəkmədi,
Söz bilənə yetər bu söz, özgə sualə düşməsin.

Eşqilə çünki gəlmişəm aləmə, qoymazam anı,
Müddəi ol deyən mənə, cürmü vəbala düşməsin.

Xəlvəti-ərbəin ilə kimsə irişmədi həqə,
Zöhdü səlahə meyl edən, fikri-məhalə düşməsin.

Münkir əgərçi xubların yüzünə baxmaz ol bilir,
Bədnəzərin, yavuz gözü, hüsni-cəmalə düşməsin.

Xalı kimi od üstünə saldı məni anın saçı,
Kimsə bu rəsmi xal ilə, zülfi-cəmalə düşməsin.

Hüsndə həq anın kimi bir dəxi can yaratmadı,
Hüriyə bənzədən onu, vəhmü xəyalə düşməsin.

Düşdü kəməndi-zülfünə könlü Nəsiminin, necə
Canı bu rəsmə yanmasın, könlü bu halə düşməsin. (səh.198)

***

(məfA'İlün məfA'İlün fə'Ulün)

Şəha, könlün həmişə biğəm olsun,
Əlində daima cami-Cəm olsun.

Gülü lalə cəmalından xəcildir,
Yüzün bağı həmişə xürrəm olsun.

Sana eyşü nişatü kamrani,
Həsüdun sərbəsər ömrü kəm olsun.

Dəfü cəngü çağanə, nayü tənbur,
Düzülsün söhbəti-zilü bəm olsun.

Gətir şol badəyi kim, həmdəm olduq,
İçəlim ta ki, ol sübhi-dəm olsun.

Nəsimi xəstədil hicrindən öldü,
Qoy ol biçarəyi ta məhrəm olsun. (səh.199)

***

(məf'Ulü məfA'İlü məfA'ilü məf'Ulün)

Əvvəl ki, dila, dərəd ilə üryan olamazsan,
Axır bil anı qabili-dərman olamazsan.

Mən xaceyi-dəhrəm deyü fəxr etmə, fəqir ol,
Dərviş olamazsan, yürü, sultan olamazsan.

Heydər kimi gər Xeybəri-şirki yıxamazsan,
Bu ərsədə bil, sən Şəhi-Mərdan olamazsan.

Çün Turi vücudində təcəlli edəməzsən,
Fir'on ilə sən Musiyi-İmran olamazsan.

Gər quşlara təlimi-zə'ban etməz olursan,
Bu ins ilə cins içrə Süleyman olamazsan.

Yə'qub olub axıtmaz isən xun cigərdən,
Misrə irişib Yusifi-Kən'an olamazsan.

Gər “mən ərəfin” sirrinə irişməz olursan,
Cəhl ilə qalırsan, dəxi ürfan olamazsan.

Can elmini bu hücrədə təhsil edəməzsən,
Adəm bəki bil cisminə sən can olamazsan.

Səcdə edəməz əhsəni-təqvimə görüncə,
Həq Fəzləvü həq surəti-rəhman olamazsan.

Ey həcci, təvaf etməz üzü həccinə yarın,
Ol eydə Nəsimi kimi qurban olamazsan. (səh.200)

***

(FA’ilAtün FA’ilAtün FA’ilAtün fA’ilün)

Dünya çün murdar imiş, gəl keç, könül, mürdardən!
Gül deyil, dünya tikandır, nə umarsan xardən?

Dünyadə bir yar müvafiq kimsə hiç görmüş degil,
Fariq ol, barı, nə hasil şol vəfasız yardən.

Axirət darından istə hər nə məqsudun ki var,
Dünyanın miqdarı yoxdur, keç bu bimiqdardən.

Müddəi cövrü cəfasın həddən aşırdı, vəli,
Yar əgər yari qılarsa ğəm degil əğyardən.

Çün Nəsimi zahidin halini bildi kim, nədir,
Meydən ikrah eyləməz, ğafil degil xümmardən. (səh.201)

***

(fA’ilAtün fA’ilAtün fA’ilAtün fA’ilün)

Ey yanağından xəcil gül, laleyi-həmra ilən,
Qanımı tökdü gözün, hər ləhzə bir sövda ilən.

Könlümü al ilə aldı, indi can istər gözün,
Bunca şıltağı nədəndir, aşiqi-şeyda ilən?

Dişlərin əksi düşəli gözlərim dəryasinə,
Lə’l düşmüş gözlərimdən, lö’löi-lala ilən.

Ta əbəd sövdaya verdi, can ilə dünyavü din,

Hər ki, bazar eylədi, şol nərgisi-şəhla ilən.

Ənbərin zülfün nəsimi olalı aləmdə faş,
Oda düşdü, nafeyi-Çin ənbəri-sara ilən.

Çeşmeyi-heyvan suyundan olmadı canı diri,
Kim ki, vüslət bulmadı, şol lə'li-ruhəfza ilən.

Sərv ilə şümşadü Tuba olmasın, şimdən gerü,
Çün Nəsimi qane oldu, şol qədi-bala ilən. (səh.202)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Ey könül, şad ol yenə, məhbubi-rə'nadır gələn,
Yoluna can verdigim, mahi-dilaradır gələn.

Doldu könlüm Kə'bəsi nuri-səfa ilən yəqin,
Hüsni-Yusif, xülqi-Əhməd, nitqi-İsadır gələn.

Necə getməsin başımdan əql, könlümdən qərar,
Gözləri nərgiz, ləbi-lə'li-müsəffadır gələn.

Çəkmişəm bu şəhr içində yüz bəlaü dərdü ğəm.
Kim, körün der ki, cəfadan könlü yəğmadır gələn.

Ellər uyur gecələr, mən sübhədək ah eylərəm,
Həmdülillah kim, bu gün şol mahsimadır gələn.

Gül yanağın üzrə o "səb'ülməsan"i zülfdən,
Bilməzəm başıma ol dəmdən nə sevdadır gələn.

Der Nəsimini görənlər yollarına payimal,
Yenə şol şuridəvü sərməstü şeydadır gələn. (səh.203)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Can həmişə ol günəş rüxsarə döndərmiş yüzün,
Şeş cəhətdən şol büti-əyyarə döndərmiş yüzün.

Kə'bədən döndərdi yüzün, kim ki, gördü yüzünü,
Gör nə gerçək qibleyi-didarə döndərmiş yüzün.

Ta vücud ol kim, tökər qanımı çeşmi-məst ilə,
Gecə-gündüz nərgisi xunxarə döndərmiş yüzün.

Aşiqin yüzü həmişə dilbərə qarşı dönər,
Abidi gör kim, necə divarə döndərmiş yüzün.

İncə zülfün bəndinə könlüm ulaşmışdır, vəli,
Gahi-gah şol türreyi-tərrarə döndərmiş yüzün.

Can quşun uçuranda buldu iman hər kim ol,
Canü dildən ol pərirüxsarə döndərmiş yüzün.

Ey Nəsimi, kainatın varına gəl baxma kim,
Çünki canan daima dildarə döndərmiş yüzün. (səh.204)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Kim dilərsə görməyə təhqiqə rəhman surətin,
Gəlsün uş, görsün yəqin can ilə canan surətin.

Münkir olma bu sözə, varub kəlamüllahda gör,
"Əhsəni təqvim" ilə göstərdi rəhman surətin.

"Mən ərəfna" hökmilə öz nəfsini gər bilməsən,
Həq bilir səndən ayırmaz kimsə heyvan surətin.

"Küntə kənz" əsrari məxfi qalmasın deyib, fəqih,
Verdi uş adam libasında sənə can surətin.

Təki əmrullah qılıncı boynuna düşmək üçün,
Zahidi gör kim, uzatmışdır müsəlman surətin.

Daima çün kim, Nəsimi həq görər, "lareyb fih",
Dilbərin üzündə billah gördü yəzdan surətin. (səh.205)

***

(məf'Ulü məfA'ilün fə'Ulün)

Mən mülki-cəhan, cəhan mənəm, mən!
Mən həqqə məkan, məkan mənəm, mən!

Mən ərşilə fərşü “kafü” “nun”əm,
Mən şərhü bəyan, bəyan mənəm, mən!

Mən kövnü məkanü “kün-fəkan”əm,
Bilgil ki, nişan, nişan mənəm, mən!

Mən surəti-mə’nidə həqəm, həq,
Mən həqqi-əyan, əyan mənəm mən!

Bir gövhəri əqdəməm-əzəldən,
Ey gövhəri-kan, kan mənəm, mən!

Mən atəşi-eşqi-nuri-həqqəm,
Musayə zəban, zəban mənəm, mən!

Mən cümlə cəhanü kainatəm,
Mən dəhri-zəman, zəman mənəm, mən!

Mən ayəti-müshəfü kitabəm,
Ey nöqtə dəhan, dəhan mənəm, mən!

Mən qövs ilə həm kəmanü tirəm,
Ey tirü kəman, kəman mənəm, mən!

Cəmşidi-zəmani-aləm oldum,
Cəmşidi-zəman, zəman mənəm, mən!

Mən nəqşü xəyalü xəttü xaləm,
Mən hərfü lisan, lisan mənəm, mən!

Mən “gənci-nihan”i, “küntü kənz”əm,
Mən “gənci-nihan”, nihan mənəm, mən!

Mən zatü sifati-kün fəkanəm,
Mən ruh ilə can, can mənəm, mən!

Mən kafirə matəmü müsibət,
Mö’minə iman, iman mənəm, mən!

Mən cənnətü abi-kövsər oldum,
Ey səhni-cinan, cinan mənəm, mən!

Mən bəhri-mühitü həm giranəm,
Ey bəhri-giran, giran mənəm, mən!

Mən sirrəmü tövhidəm, hədisəm,
Həm ğeybü güman, güman mənəm, mən!

İnsanü bəşərsən, ey Nəsimi,
Həqdir ki, həman, həman mənəm, mən! (səh.206-207)

***

(fə'ilAtün fə'ilAtün fə'ilAtün fə'ilün)

Nəfəsi-əhli-dilin gövhəri-kandır bilənə,
Nitqimiz qüdrəti-həq, ruhi-rəvandır bilənə.

Şərbəti-həqdən içən aişqi-azadə olur,
Şöylə sərməst olanın küfrü imandır bilənə.

Can verüb irdi Xızır, abi-həyat çeşməsinə
Ol verür doğru xəbər, cümlə əyandır bilənə.

Qövli yalançı ilə olma müsahib, çək əlin,
Həmdəm olmaq div ilə külli-ziyandır bilənə.

Ey Nəsimi, həqqi sən tanı özündə, arif ol,
Dəxi söz söyləmə kim, bir söz həmandır bilənə. (səh.208)

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

Xoş ol kimsəyə kim, vardır həbibi, sən təki məhru,
Şəkər göftarü gülruxsarü mişkinxalü ənbərbu.

Heç olmaya sənə bənzər cahanda bir dəxi dilbər,
Səidəxtər, mələkmənzər, pəri-peykər, firiştəxu.

Zəhi sane' ki, sün'ündən yaranmış kəndü lütfündən,
Beli incə, ləbi qönçə, xəti rə'na, xuyi niku.

Gəl, ey sərrafi-qiymətgir, nəzər qıl mə'dəni-cövhər,
Zümürrüd xəttü siminbər, ləbi lə'lü dişi incu.

Qaşınla kirpigin, zülfün, yüzündə bənlərin dəxi,
Biri əyyar, biri məkkar, biri tərrar, biri cadu.

Səni sevənlərin halı, bu dörd işdən degil, xalı,

Gəhi qovğa, gəhi sövda, gəhi divan, gəhi yarğu.

Cəhanda qulların çoxdur vəlakin çün Nəsimi tək
Bəsa türkü, bəsa qıpçaq, bəsa zəngi, bəsa hindu. (səh.209)

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

Xəyali-lə'ldir yarın gözündən axıdır lə'lu,
Zülfi-şəbrəngin xəyali salıbdır könlümə qayğu.

Bəlayi-nərgisi-məstin, cəfayi-tirkeşi hicrin,
Dəlibdir bağrımı, cana, üzübdür şol kəman əbru.

Mənim bu əql, bu fikrim, cəm'i tarmar oldu
Ki, hüsnün ləşkəri səf-səf yeridi könlümə qarşu.

İtabın çəkdigim oldur, səbəb ki, dünyada yoxdur,
Sənə bənzər ləbi-xəndan, pərişan zülf, xürrəmru.

Nə ənbər danələr saçmış, nə mişkin damlər qurmuş,
Könül mürğini seyd etmiş dü zülfü xal ilə hindu.

Nəsimi bağrını hicrin qarartdı şöylə kim, hərgiz,
Ağarmaz yüz kəzin yusan əzin bəsruyi çun hindu. (səh.210)

***

(məf'Ulü məfA'İlü məfA'İlü fə'Ulün)

Ey könlüm alan qaşları yay, gözləri cadu,
Ey nərgisi məstü yüzü gül, bənləri hindu.

Ta şövqi-cəmalın gələli eynimə qarşu,
Hər ləhzə qılır həsrətilə bənzimi saru.

Gəl firqətü hicran nə qılır canıma,gör kim,
Nola qılasan lütf ilə bir dərdimə daru.

Nöh çərxi-fələgin qılıram ah ilə əzrəq,
Ol dəm ki, edəm vəslin içün dərd ilə yahu.

Şol zülfi-müsəlsəlni mənim boynuma salgil,
Ta bəndi-səlasil düşə əz gərdəni-ahu.

Tərk etdi Nəsimi yoluna canü cəhanı,
Ey qaşları yay, kiprigi ox, gözləri cadu. (səh.211)

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

Nigara, pərtövi-hüsnün təcəlla verdi məhtabə,
Xəyali-nəqşi hüsnündən düşübdür didə qərğabə.

Dodağın şərbəti oldu şəfayi-xəstədil canə,
Ki, bir ləhzə yəqin eylər şərabü qəndü innabə.

Mən ol əhdə vəfadaram, yolundan dönməzəm billah,
Əgər qəssab təki hər dəm asallar cəngi-qüllabə.

Rəqibim çoxdu, cananım, mənim qorxum olardan yox,
Məbadə məskəni-tənha düşdüm qovğayi-gəlabə.

Şəyatin əhli-vəhdətə Nəsimi qiymətin eylər,
Bu aşiq qövlə sadiqdir, inanmaz fe'li-şeytanə. (səh.212)

***

(müstəf'ilün müstəf'ilün müstəf'ilün müstəf'ilün)

Canda kim, eşq olmadı, dildə xəbər nə faidə,
Gözdə ki, görmək olmadı, nuri-xəbər nə faidə?

Bir kişi kim, əzəldə ol binəsib oldu mə'nidən,
Ayətü təfsirü kəlam, ana xəbər nə faidə?

Gövhərin üştə qiymətin sərraf olan arif bilir,
Ol ki, mübəssir olmadı, görə gühər nə faidə?

Tuti bilur bu şəkkərin ləzzətünəvü dad ilən,
Qarğa nedər bu gülşəni, zağa şəkər nə faidə?

Dərd ilə sən Nəsiminin gövhərini gəl almağıl,
Aşiq olan kişilərə eşqə sipər nə faidə? (səh.213)

***

(məfA'İlün məfA'İlün fə'Ulün)

Qılır bağrımı hicran parə-parə,
Ürək yanında büryan parə-parə.

Pərişan zülfünün bir tarəsindən
Dilü canlar firavan parə-parə.

Könül heyran sənə, ey Yusifi-can,
Züleyxa kimi dəstan parə-parə.

Bu gecə ağladım qapında çox qan
Budur bağrım bədaməm parə-parə.

İşim gəzmək məhəllən çevrəsində
Gözüm qanlu giriban parə-parə.

Bərgdə dinü imanü dilü can
Vey qılma, ya müsəlman, parə-parə.

Könül olurmu peyvəndindən ayru,
Əgər qılsan barigan parə-parə.

Demişəm surəti-rəhman yüzünə,
Əgər qaxirsə şeytan parə-parə.

Ləbi-qati, qanın içmiş Nəsimi,
Əl irsə qıl bədəndən parə-parə. (səh.214)

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

Təriqi-həqqi biləndir, verən malını yəğmayə,
Təraş olub nəməd geyən, dolaşmadı bu sevdayə.

Səfasız sufiyi gör kim, həram der dinləməz sazı,
Ki əhli-həq olan kişi, nə qəm, girsə kəlisayə.

Təkəbbür olma, ey münkir, vücudin bəhrinə qərq ol,
Həzaran mə'ni edər ki, qərq ola bu dəryayə.

Çıxıb mənbərdə, ey vaiz, yeyin gərm olma, əbsəm dur,
Dəxi məşğul idi şeytan ki, səndən zöhdü təqvayə.

Nəsimi, qəlbini pak et, cahan sevdaların tərk et,

Ki ol mövla, mən ol əbdəm ki, kimsə girməz arayə. (səh.215)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'İlün fA'ilü)

Ey məsihadəm, nədən can vermədin cansizlərə,
Ol ki, hər dəm can ilə söylərdi canan sizlərə.

Ləblərin adını mən dilxəstədən qılma diriğ,
Nola dərman eyləsən bu dərdi dərmansizlərə.

Əhli-aləm ildə bir qurban edərlər eyd üçün,
Mən sənin qurbanınam, can cümlə qurban sizlərə.

Abi-heyvan qiymətin heyvana sorma, Xızra sor,
Çünki idrak eyləməz hər dəni heyvan sizlərə.

Hüsn içində Yusifi-Kən'ana təzim etməzəm,
Çün anın dövranı keçdi, qaldı dövran sizlərə.

Barmaq ilən göstərirlər kim, yüzündür qibləgəh,
Ol şəhadətdən göründü küfri-iman sizlərə.

Çün Süleyman mülkini qoydüvü getdi dünyədən,
Qaldı andan sonra ol mülki-Süleyman sizlərə.

Lütfü ehsan vaxtıdır, şahım, mənə ehsan gərək,
Çün əzəldən qismət olmuş, lütfü ehsan sizlərə.

Xubların könlündə yoxdur aşiqə mehrü vəfa,
Xeyri qoymazmı bu gün qılmağa şeytan sizlərə.

Ey Nəsimi, xubların bir başı vardır, min dili,
Sidq ilə bel bağlama, şol əhdü peymansizlərə. (səh.216)

***

(məf'Ulü fA'ilAtün məf'Ulü fA'ilAtü fA'ilAtün)

Ey binəzirü vahid, hüsnün cəmal içində,
Yüzün qiyamət eylər, şol xəttü xal içində.

Sübhi-əzəldən hər kim buldu sənin lə vüslət,
Qaldı sənin lə şimdi eyşi-vüsal içində.

Mən məndə həqqi buldum, həqqülyəqin həq oldum,
Uyxuda qaldı münkir, nəqşü xəyal içində.

Ey aləmin həyatı, eşqin nə bəhr imiş kim,
Qərq eylədi cəhanı abi-zülal içində.

Fərdiyyətin kəmalı oldu sənə müsəlləm,
Kim, ğayətə irişdi hüsnün kəmal içində.

Yüzün şəmailindən, qaşın dəlailindən,
Qovğayi-fitnə düşdü, bədrü hilal içində.

Ey istiyən liqayi fərda günündə həqdən,
Dərd eylə, qoyma, qalma fikri-məhal içində.

Ağzınla zülfi-mişkin meşkati-nuri həqdir,
Kimsənə görmüş degil ani misal içində.

Munca ki, şərh eylədi ala gözün Nəsimi,
Eyləmədi fitnədən fitneyi-al içində. (səh.217)

***

(məf'Uulü fA'ilAtü məfA'İlü fA'ilü)

Yarın gərəkdi məhri dəxi dilpəzir ola,
Ya hüsni-xülq içində cəhanda əmir ola.

Hər kim ki, qılmaya nəzər ol hüsni-surətə,
Yoxdur bəsirət anda gər əhli-bəsir ola.

Xubluqda çün misli bulunmaz mislinə,
Aləmdə ol yeganə məgər binəzir ola.

Tovhid içində nükteyi-əsrar bulmuşam,
Sahibnəzər gərək ki, bu halə xəbir ola.

Biçarə eşqə neyləyə tədbir çarəsi,
Məşuqə şahi-aləmü aşiq fəqir ola.

Mənsur eşq yolunda Nəsimiyə Fəzli həqq,
Anın müəyyən ayəti nəmünnəsir ola. (səh.218)

***

(fA'ilAtün f'ilAtün fA'ilAtün fA'ilün)

Şol ləbişirinə, ya rəb, gər şəkər dersəm nola!
Şol günəştəl'ətli ayə, gər qəmər dersəm nola!

Adəmi növündə mislin görməmişdir nöh fələk,
Şol cəhətdən kim, sənə xeyrülbəşər dersəm nola?

Bilməyən eşqin tariqin şol xəbərsiz ğafilə,
Çün Hidayət bulmamış, gər bixəbər dersəm nola!

Şol gül üzrə dağılan ənbərsifətli sünbülə,
Ənbərü reyhan ilə, ya müşki-tər dersəm nola!

Sənsiz ey cani-cahan, bir pula dəyməz kainat,
Hiçə dəyməz nəsnəyi, gər, ol qədər dersəm nola!

Kim ki, həqqi pərdəsiz yüzündə, ey can, görmədi,
Bibəsirətdir, gər anə bibəsər dersəm nola!

Nuri-imandır cəmalın, kim ki, "səddəqna" deməz,
Kafiri-müşrikdi, anə, div əgər dersəm nola!

Zülfü rüxsarı dəhanın sureyi-Nuri-Duxan,
Mən bu mə'nidən ona şamü səhər dersəm nola?

Çünki mə'nidə Nəsimi Qaf imiş Ənqa ilən,
Şol müəlla qədrə gər ari gühər dersəm nola! (səh.219)

***

(məfA'İlün məfA'İlün fə'Ulün)

Həbiba, firqətin saldı məlalə,
Kəbab oldu cigərim, həm çu lalə.

Nəsib olmuş mənə həqdən nigarə,
Dilimdə gecə-gündüz ahu-nalə.

Qaşın mehrabinə qıldım sücudi,
Vəli, münkir olan düşdü zəlalə.

Boyun Tuba, ləbindir abi-kövsər,
Yüzün təünə urar bədrü hilalə.

Rəqibin olmasın məqsudi hasil,
Əlif tək qəddimi ol saldı dalə.

Mən ol qəvvas təki can tərkin etdim,
Sənin çöhrəndəki ol xəttü xalə.

Yer ilə gög bünyad olmazdan öndə,
Nəsimi aşiq idi ol cəmalə. (səh.220)

***

(məf'Ulü məfA'İlü məfA'İlü fə'Ulün)

Dünya duracaq yer degil, ey can səfər eylə,
Aldanma anın alına, andan həzər eylə!

Bir halə qərar eyləməz əyyam, keçər ömr,
Ey əhli-nəzər, baxma bu halə, nəzər eylə!

Payəndə degil dövləti, ey xacə, cəhanın,
Əsbabinə, aldanma, gəl ondan güzər eylə!

Dünya evinin sultanatı beş gün imiş çün,
Bünyadın qır anın, ər tək, zirü zəbər eylə!

Gər aşiq isən sidqilə şol dilbər üçün, gəl,
Can ilə cahan ortaya qoy, tərki-sər eylə!

Gər Musəyi-İmran kimi şol narə sataşmaq,
Gəl, tabişini göstərü şərhi-şəcər eylə.

Düşdü saçının zülmətinə könlüm, ilahi,
Şol hali-pərişanə bu şami, səhər eylə!

Çün hüsnünə xətm oldu bu gün dövri-məlahət,
Ey fitnələrin xatəmi, şəqqülqəmər eylə!

Şol püstədəhanın xəbərin verdi Nəsimi,
Şirinlərə şol tüngi-şəkərdən xəbər eylə! (səh.221)

***

(məf'Ulü məfA'İlü məfA'İlü fə'Ulün)

Ey xəstə könül, dərdinə dərman tələb eylə!

Gər can dilər isən yerü, canan tələb eylə!

Çün Xızr həyati-əbədi bulmaq umarsan,
Can təndə ikən çeşmeyi-heyvan tələb eylə!

Ey bülbüli-qüdsi, nə giriftari-qəfəssən,
Sındır qəfəsi, tazə gülüstan tələb eylə!

Təhqiq xəbərdir bu kim, "əl-cinsi min əl-cins"
İnsanə iriş, söhbəti-ürfan tələb eylə!

Div ilə müsahib olanın dini xətadır,
Zinhar ki, saqın adəmi-insan tələb eylə!

Gər, bəndeyi-talibsənü mətlub dilərsən,
Fərmanə boyun sun, ulu sultan tələb eylə!

Ərkansız olanlarla rəfiq olma, Nəsimi,
Yol əhlini gözzət, ədəb-ərkan tələb eylə! (səh.222)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Getməgə əzm eyləmişsən, ey dilaram, eyləmə!
Həsbətənlillah məni, bisəbrü aram eyləmə!

Daneyi-mişkin xalın çün könlümü seyd eylədi,
Bu tutulmuş seydə, şahim, zülfünü dam eyləmə!

Zülfünü bərgi-gül üzrə, ey pəri, dağıtma, gəl,
Bunca könlü yanmışın sövdasını xam eyləmə!

Ömrümün sübhü yüzündür, bəxtimin şəm'i saçın,
Getmə, ey dilbər, gözümdən sübhümü şam eyləmə!

Rindü qəllaşəm əzəldən, qoymagil zahid adım,
Laübali aşiqi aləmdə bədnam eyləmə!

Aşiqin tərk etmək istər könlüm, amma çin degil,
Ya ilahi, kimsəyi sən bisərəncam eyləmə.

Çeşmeyi-lə'lin suyundan bir qədəh sun saqiyə,
İştiyaqindən Nəsimi gözlərin cam eyləmə! (səh.223)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Bərgi-nəsrin üzrə müşkin zülfüni dam eyləmə!
Aşiqi-aşüfteyi-bisəbrü aram eyləmə!

Şol moğolçin gözlərinlə çünki aldın könlümü,
Bağrımı cövr ilə pürxun, ey dilaram, eyləmə!

Kimsə çün anın vüsalın bulmadı tamat ilə,
Əbsəm, ey xəlvətnişin, əndişeyi-xam eyləmə!

Aşiqi-sadiq duzağın quşu, ey zahid, degil,
Danə qoyma təsbihi, səccadəyi-dam eyləmə!

Zülfü rüxsaridir anın zikrimiz hər sübhü şam,
Zikrisiz hərgiz, ilahi, sübhümüz şam eyləmə!

Və'də çün verdi bizə həq səlsəbilü huri-eyn,
Qoyma əldən şahidi, tərki-meyü cam eyləmə!

Çün Nəsiminin muradı sənsən, ey arami-can,
Xəlq içində anı düşmənkamü bədnam eyləmə! (səh.224)

***

Sən mana gər yar isən, var ey könül yar istəmə,
Yarü dildar ol mana, sən yarü dildar istəmə.

Bivəfadır çün bu aləm, kimdən istərsən vəfa,
Bivəfa aləmdə sən yari-vəfadar istəmə.

Gül bulunmaz bu dikənli dünyanın bağində çün,
Əbsəm ol, bihudə gülsüz yerdə gülzar istəmə.

Mə'rifətdir xalis altun sikkəsi, fəzlü hünər,
Altunu tanı dəğəldən ari dinar istəmə.

Dünyanın miqdarı yoxdur, gər bilirsən qədrini
Qədrinə inanma anın, qədri-miqdar istəmə.

Həqqə münkirdir fəqih, inanma ol şeytanə kim,
Yoxdur ol cinxilqətin zatında iqrar, istəmə.

Ari göftar, ey könül, gərçəklərin nitqidürür,
Hər dili əgridə yoxdur ari göftar, istəmə.

Cifədir dünyavü anın talibi adı kəlab,
Olma kəlb, anın kim, oldu adı mırdar, istəm.

Şərbəti ağuludur fani cahanın, sən anın,
Şərtəbindən nuşü daru umma, zinhar, istəmə.

Dünyanın sevgisi ağır yük imiş məndən eşit,
Nəfsinə yük etmə anı, ey səbükbar, istəmə.

İstəyən murdarı kərkəsdir müdam, ey türfə quş,
Xızrtək şəhbazi ol, mırdarə mırdar istəmə.

Bir əmin məhrəm bulunmaz, ey Nəsimi, çün bu gün
Xəlqə faş etmə bu sirri, kəşfi-əsrar istəmə. (səh.225)

***

(məf'Ulü məfA'İlü məfA'İlü fə'Ulün)

Ey ruhi-qüdüs, cifeyi-mırdarə yapışma!
Gülzari-cinani qoyuban xarə yapışma!

Məhbubi-əzəl, yari-ədəb var ikən, ey yar,
Əğyar ətəgin tutmavü əğyarə yapışma!

Mənsur tək əgər istər isən mənzili-ali,
İtirmə bəqa dari, fəna dara yapışma!

Ey küpəyi incudən edən, məndən eşit pənd,
Söz dürrünü tut, lö'lö'i-şəhvarə yapışma!

Ey mə'rifətin müshəfi, ey kənz ilə müsbah,
Miftah budur məçmeyi-muxtarə yapışma!

"Qaludən" əgər aləmə iqrar ilə gəldin,
Tərk eyləmə iqrarını, inkara yapışma!

Kəsb eyləməyən axirəti, anı dəli bil,
Gər aqil isən dünyəvi-qəddarə yapışma!

Saçı qaranın zülfünə yapışdı Nəsimi,
Ey badə verən ömrünü, zünnarə yapışma! (səh.226)

***

(müstəf'ilün müstəf'ilün müstəf'ilün müstəf'ilün)

Düşmüş müənbər sünbülün xurşidi-taban üstünə,
Şol rəsmə kim ala gözün gülbərgi-xəndan üstünə!

Könlümü viran eylədim, mehrin yerin can eylədim,
Çün eşqimi şan eylədim, düşdü ğəmin can üstünə.

Rüxsarın üzrə zülfünü hər didə kim gördü dedi:
Küfri-siyəhdir, sanasan, dağıtmış iman üstünə.

Yaquti-reyhandır xəttin, ey quti-can, lə'li-ləbin,
Şol növ'ə düşmüşdür ki, Xızr ol abi-heyvan üstünə.

Dərdi-məhəbbət aşiqə dərman yetər dur, ey təbib,
Hərdəm mənə min dərd ilən artırma dərman üstünə.

Nuri-təcəlla sirrini xalında gördü gözlərim,
Gör kim, nə surət bağlamış, şol çeşmi-giryan üstünə.

Eşqində, ey arami-can, gərçi Nəsimi oldu xak,
Durmuş sənin lə ta əbəd şol əhdü peyman üstünə. (səh.227)

***

(müstəf'ilün müstəf'ilün müstəf'ilün müstəf'ilün)

Gəlgil ki, müştaq olmuşam şirin ləbin gül qəndinə,
Gəl, qəndi-misridir ləbin, qəndin ilət gülqəndinə.

Hər qanda kim, şərh eylərəm şirin dodağın qəndinə,
Ərvah uşər sinən kimi ol lə'li şəkkər xəndinə.

Mişkin saçın məndən məni kəsdivü peyvənd eylədi.
Təhsin anın təqsiminə, rəhmət anın peyvəndinə.

Şəhla gözün aldı könül, and içdi, andan yox dedi,
Olsun kəffarət canü dil gərçəklərin sovgəndinə.

Zülfü qaradır, qaşı həm sərvi-xuraman dilbərin,
Qaşlarına qurban olam, həm türreyi-dilbəndinə.

Ey eşqi inkar eyliyən, çunu, çəravü çəndə qoy,
Nişin düşərsən aşiqin çunu çəravü çəndinə.

Zülfi-kəməndindən könül qurtulmaz, ayruq eylə, bil,
Sevdasinə can bağladı, həm qoydu könül bəndinə.

Ey zahid, əbsəm ol, mənə çox tamatın ərz eyləmə,
Mən aşiq oldum girməzəm hər qissəxanın pəndinə.

Çün şəhriyarın şəhrinə bu gün Nəsimidir məlik,
Buyruq anındır, hökm anın, həm şəhrinə, həm kəndinə. (səh.228)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Mövsimi-novruz niysan aşikar oldu yenə,
Şəhrimiz şeyxi bu gün xoş badəxar oldu yenə.

Qönçədən gül baş çıxardı, saldı yüzündən niqab,
Bülbüli-şeyda xətibi-laləzar oldu yenə.

Əski dünya yengi xəl'ət geydi bu mövsimdə uş,
Çövrəsi dürlü bu gün nəqşi-nigar oldu yenə.

Badə içmək rövzədə gər sən dilərsən hur ilə,
Yar əlin dut bağçaya gir novbahar oldu yenə.

Nərgisi gör cam əlində mey sunar ariflərə,
Cümləsi sərməst olub, kəndi-xumar oldu yenə.

Sağiyə, cami gətir kim, mən uşatdım tövbəmi
Əski tə'limim mənim bietibar oldu yenə.

Sən Nəsimi razini, ey dan yeli, yarə yetir,
Onsuzun halı-pərişan, biqərar oldu yenə! (səh.229)

***

(məf'Ulü fA'ilAtü məfA'İlü fA'ilü fA'ilün)

Şol şəmi gör ki, nurinə pərvanəyəm, yenə,
Baş oynamaqda gör necə mərdanəyəm yenə.

Saqi, ləbindən əsrəmişəm şol qədəhdən üş,

Məstanə gözlərin kimi, məstanəyəm yenə.

Bəzmi-əzəldə həmnəfəsim gərçi cam idi,
Şükr eylərəm ki, həmdəmi-peymanəyəm yenə.

“Qalu bəladə” kuya xərabat idi yerim,
Şol mə’nidən mücaviri-meyxanəyəm yenə.

Əndişənin imarətini qılmışam xərab,
Şol gənci-binəhayətə viranəyəm yenə.

Ey cövhərin bəhasını, miqdarını bilən,
Əsdaf içində gör ki, nə dürdanəyəm yenə.

Ya rəb, nə sehr edər bu pərişəklü şivə kim,
Zənciri-cə’di-zilfinə divanəyəm yenə.

Ey bilmiyən bu cani-əzizin həqiqətin,
Canı bilənə sor ki, nə cananəyəm yenə.

Eşqin tək ay cəmal ilə əfsanə filməsəl,
Xəlqin dilində gör ki, nə əfsanəyəm yenə.

Yüzündə, ey sənəm, görəli zilfü xalini,
Dami-bəladə danə kimi danəyəm yenə.

Kəşf eylədi Nəsimi dəhanın rümuzini,
Miftahi-qeybə gör ki, nə dəndanəyəm yenə. (səh.230)

***

(fA’ilAtün fA’ilAtün fA’ilAtün fA’ilün)

Rəhməti gəldi, irişdi Fəzli-rəhmanın yenə,
Çiçəgi açıldı, güldü şol gülüstanın yenə.

Könlümün əhvalını gəldi, gözümdən sordu yar,
Ovni irdi dərdə yanan canə dərmanın yenə.

Gəldi ruhəfza ləbindən susamış canə səlam,
Xızra ən’amı irişdi, abi-heyvanın yenə.

Firqətin dövranı keçdi, gəldi əyyami-vüsal,
Müddəti-ömrü tükəndi, acı hicranın yenə.

Gül götürdü pərdə yüzündən, açıldı novbahar,
Rövnəqi gəldi, dirildi bağü bostanın yenə.

Zülmətindən leylətül-hicrin mənə ayruq nə ğəm,
Nuri çün düşdü mənə, şol mahi-tabanın yenə.

Əhdü peymanından, ey can, istədi can əl yumaq,
Qoymadı mehrü vəfası, əhdü-peymanın yenə.

Zülfünün çinindən oldu dilbərin buyi-vəfa,
Ənbəri yayıldı şol zülfi-pərişanın yenə.

Başıma qutlu əyağın gəldi, basdı ol nigar,
Kölgəsi düşdü mənə sərvi-xüramanın yenə.

Ey qəmər, eynin bəla yetməzmidi aləmdə kim,
Fitnə oldu xəlqə zülfi-ənbərəfşanın yenə.

Çün Nəsiminin qanına susamış yarın ləbi,
Noldu, ey münkir, sənə kim, qaynadı qanın yenə? (səh.231)

***

(müftə'ilün məfA'ilün müftə'ilün məfA'ilün)

Surəti-həqqə, ey qəmər, bədri-rüxündür ayinə
Daş ola kim ki, surətin olmaya aşiq ayinə.

Eşqi-rüxün təriqidir dari-səlamətın yolu,
Mənzilinə xaçən irər kim ki, bu yolda dayinə.

Dünyəvü mülkü malinə meylü məhəbbət eyləmə,
Çün gedəcəksən, ey məlik, axirətin sarayinə.

Hur ilə cənnətüliqa görmiyə həqdən eylə bil,
Kim ki, yüzündə görmədi həqi bu gün müayinə.

Vəsli-rüxündə, ey pəri, ta əbəd oldu möhtəcib
Kim ki, müqəyyid olmadı zülfi-girəh kəşayinə.

Fatihədir anın yüzü, nunü əlifdir ayəti,
Səllü vəsəlləmü Əli surəti-canfəzayinə.

Zülfü dütasının qəmin sor bu əsiri-eşqə kim,
Oldur əsir edən məni silsileyi-dutayinə.

Başına kim ki, düşmədi kölgəsi ənbərin sənin,
Dövlətə sadiq olmadı, uğramadı hümayinə.

Eşqinə kim ki, qılmadı baş ilə canının fəda,
Dərdinə çarə bulmadı, uğramadı dəvayinə.

Vermişəm ol qara saçın qövlü qərarına könül,
Gərçi inanmazam anın əhdinəvü vəfayinə.

Hüsnü rüxün zəkatını ayə gər eyləsən əta,
Mehri-müniri-təl'ətin gurinə, mahi bayinə.

Hüsnünə xaliqülbəşər xətmi-məlahət eylədi,
Xətmə duasıdır bu gün, xətm edirəm düayinə.

Canverici ləbindədir şərbət xəstə könlümün,
Kimdir irişdirən anı şərbətinin şəfayinə.

Lə'li-ləbin hədisini incuyə nisbət eyləyən,
Gör nə cəfalər eylədi gövhəri-canfəzayinə.

Eşqinə verməsin könül ol sənəmin Nəsimi tək
Kim ki, təhəmmül eyləməz cövrünəvü cəfayinə. (səh.232-233)

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

Gəl, ey sərkeş, nəsihətdən burax əqlin qulağına,
Gözət kim, bunca ləzzətlər verir canın dimağına.

Gəl olma zağ, üş istə, qövli-tuti ki, şəkər ola,
Eşit bülbül necə söylər qonuban gül budağına.

Qara yellar, yaşıl bağlar, əlin tutar, gözün ağlar,
Dışın yanar, için yanar, salar duzax bucağına.

Qoyub keç dünyanın varın, bu murdardan yuyun, arın,
Ki, didarın görüb yarın qonub cənnət budağına.

Bu fani dünyada baqi ki, qalmazsan, güman etmə,
Nagah bir gün əcəl yeli əsər ömrün çırağına.

İyi gəldi, yavuz getdi, nə dersən, kəndüyə netdi?

Nəzər qılmadı kimsənin qarasinəvü ağına.

Keçirdin ömrünü çil-çil, gərək ağla, gərəksə gül,
Dəxi əlin irər degil, anın Firdovsi-bağına.

Ərənlər hər yazın, qışın, yeməzlər dünya təşvişin
Ki, salmazlar könül quşun bu dünyanın duzağına.

Vücudin, mülkin, ey aqil, dilərsən yanmaya oda,
Əqil dəxlin pukarından yaşır nəfsin bıçağına.

Yolandın bir yola sən kim, uzaqdır, mənligin tərk et
Azuqsuz kişilər duymaz bu yolların uzağına.

Əməldə nəsnəsi yoxdur, fəna evdə Nəsiminin
Dili xoşdur, əli boşdur, gedər bağı-durağına. (səh.234)

***

(məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün)

Saçıbdır daneyi-xalin könüllər quşuna çinə,
Xəbər düşdü bu mə'nidən Xətavü Rum ilə Çinə.

Könül laçın idi, düşdü ki, alə ol gögərçini,
Gögərçin bayquşa düşdü, yazıqdır şimdi laçinə.

Yüzün gülzar pərçindir, qonubdur pərçinə pərçin,
Nə güldür bilməzəm, ya rəb, ki, pərçin qondu pərçinə.

Cahanda görməmiş kimsə ki, bayquş alə gögərçin
Qəzayi-asimanidir, bəla gəlmiş gögərçinə.

Xilafi-və'də gər qılsa Nəsimi ğəm degil, şayəd,
Tərəhhüm eyliyə bir gəz, yalanı dəgşürə çinə. (səh.235)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Başını top eylə gəl gir, vəhdətin meydaninə,
Ey könül, müştaqsən, gər zülfünün covkaninə.

Aşiqin qanilə oynar dilbərin simin əli,
Ey yalançı, aşiq, əbsəm, girmə canın qaninə.

Çəkməyən eşqin bəlasın, görməyən eşqin qəmin,
Dərdi dərmansızdır anın, çarə yox dərmaninə.

Canını qurban qılandır yar üçün gerçək şəhid,
Hər nəfəs min rəhmət olsun, ol şəhidin caninə.

Zülfünün sirrin nə bilsin zahid, anı sor mənə,
Gər əsir olmaq dilərsən zülfi-mişkəfşaninə.

Gəl niqabın tərfini gülgün yanağından götür,
Ta gülüstan gülməsin ayruq güli-xəndaninə.

Xubların bağında çoxdur fitnəli nərgis, vəli,
Fitnələr xətm oldu anın nərgisi-fəttaninə.

Ey uman, yarınki gün uçmağını gəl, gör ki, mən,
Satmışam anı bu gün yarın ləbü dəndaninə.

Lə'lü mərcandır dodağın, lö'löyi-tərdir dişin,
Afərin şol bəhri-kənan lö'löyi-mərcaninə.

Çərx oxudur kiprigin, qövsü-qüzəh qaşın, vəli,
Uğramaz aşiqdən ayruğ ol oxun peykaninə.

Ey Nəsimi, gər sözün mə'nisi bipayan degil,
Neyçün irməz kimsənin fikri anın payaninə. (səh.236)

***

(müftə'ilün məf'Ailün müftə'ilün məfA'ilün məfA'ilü)

Düşdü könül ala gözün ağına, həm qərasinə,
Ayruq anınla kimsənin ağına, həm qərasinə.

Gəldi fəğanə can yenə, ney kimi, suzi-dərd ilə,
Kim nə bilir bu xəstənin dərdi nədir, dəvası nə?

Türrələrin bəlalərin sor məni-mübtəlayə kim,
Sınamış ol bəlasını, can verib hər bəlasinə.

Çünki cəfasız ey könül, kimsə murada irmədi,
Cövrə təhəmmül eylə, dur, şol sənəmin cəfasınə.

Nurü ziya içindəyəm ğərqə, vəli, bu haləti,

Ol nə bilir ki, düşmüşəm, mehri-rüxün həvasinə.

Yekcəhət olğıl, ey könül, canü cəhanə ur qəfa,
Yüzünü doğru dut həqə, ur qamunun qəfasinə.

Hüsnü cəmalə baxmağa ari səfa nəzər gərək,
Düşməyə arisiz nəzər ayinənin səfasinə.

Dilbər əlində aşiqin qətli nədən ola həram,
Aşiqə çün həlal edər vəslini qan bəhasinə.

Çün bu yalançı dünyanın aqibəti fəna imiş,
Keç qamudən Nəsimi tək, baxma anın fənasinə. (səh.237)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün (fA'ilü)

Dil yazan hüsn yalandır, varmazam bazarinə,
Gerçək olmaz əgridil, inanmazam iqrarinə.

Vari möhnətdir cahanın, nə umarsan, ey könül,
Lə'nət olsun bu cahana, həm cahanın varinə.

Təxtə çıxmaq istəməz Mənsur olan, ya minbərə,
Hər ki, Mənsur oldu çıxdı şahi-eşqin darinə.

Dünyanın nazü nə'imi cifədir, yə'ni nəcis,
Ey könül, tahirsən axır sunma əl murdarinə.

Həq bilir, hər işə səbr et, qüssə yemə, fariq ol,
Vəqti yetsin bu cahanın qoy, qatılma karinə.

Çün Nəsiminin ğəmindən Fəzli-həq vaqifdürür,
Qəm degil gər kimsə olmaz müttəle' əsrarinə. (səh.238)

***

(müftə'ilün fA'ilün müftə'ilün fA'ilün)

Yandırıcı firqətin yaxdı məni narinə,
Könlüm ulaşmaq dilər yari-vəfadarinə.

Eşqə əsir eylədi canımı şol cövri çox,
Lütf ilə bir baxmadı yari-giriftarinə.

Oldu gözümdən iraq şol sənəmin surəti,
Ya rəb, irişdir məni dövləti-didarinə.

Gərçi süzülmüş gözü eylədi sayru məni,
Rəhməti anın qanı aşiqi-bimarinə?

Yürəgimi yarəli eylədi şövqün, iriş,
Yarəsinə bax bu gün, qoyma anı yarinə.

Yandırıram canımı şəm'inə pərvanə tək,
Yanar imiş yar içün vasil olan yarinə.

Mülk ilə mal, ey məlik, kimsəyə çün qalmadı,
Yox tut anı, heç say, qalma onun varinə.

Eşqinə «Qalu bəla» çün demişəm sidq ilə,
Əhdini sındırmazam durmuşam iqrarinə.

Yarə Nəsimi kimi canını qurban edən,
Məhrəm olur ta əbəd məxzəni-əsrarinə. (səh.239)

***

(məf'Ulü fA'ilAtü məfA'İlü fA'ilün (fA'ilü)

Gəlgil ki, aldı şövqi-cəmalin qərarimi,
Faş eylədi fəraqi-rüxün hali-zarimi.

Yaxdı fəraqin, ey güli-xəndan, içimdə nar,
Gəlgil ki, söndür, abi-vüsalinlə narimi.

Ya rəb, zəmanə həqqinə mən neylədim kim, ol,
Məndən cəfavü cövr ilə ayırdı yarimi?

Vəslinlə şakir olmuş ikən bəxti-sə'dilən,
Qaçırdı hasidin sözü məndən, şikarimi.

Nəqşü nigarı gör fələgin kim, nə nəqş ilə,
Nəqş eylədivü qapdı əlimdən nigarimi.

Ey Latə tapıcı, səni eyb etməzəm, nədən
Kim, görməmişsən ol sənəmi-gül'üzarimi.

Mən yarı qılmışam iki aləmdə ixtiyar,
Məndən kim, ayruq ala bilür ixtiyarimi?

Düşdüm ləbin vüsali-meyindən xumarinə,
Gəlgil həm ol şərab ilə dəf' et xumarimi.

Şövqün qışında ağlayıcı gözü yaşlıya
Vəslin bəharə döndərə gəlsə bizarimi.

Mənsuri-eşqin aqibəti dari etdi dar,
Ol darə gəl ki, ta görəsən anda darimi.

Zülfü qaşın şümarini gəl, sor Nəsimiyə,
Ta sən hesabını biləsən, mən şümarimi. (səh.241)

***

(fə'ilAtü fA'ilAtün fəilAtü fA'ilAtün fA'ilAtü)

Əcəba, bu huri yuzli məhi-bədr, ya pərimi?
Boyu sərvi-bustani, yanağı güli-tərimi?

Ləbi-lə'li canfəzası urar abi-Xizrə tə'nə,
Bu şəkər dodaqlı, yə'ni sözü şöylə şəkkərimi?

Düşərəm oduna görcək bu mələksima həbibi,
Əcəba bu Çin bütinin yüzü nəqşi-azərimi?

Aridi səba suyundan şəkəri şirin ləbinin,
Xəcil eyləyən gülabi güli-arizin dürimi?

Gecələr xəyali-gözün gətirir gözümə şəbxun,
Bu gözü cadu hərami yağı yatlu çərimi?

Bu təsəlsülilə dövrün düşirən məhi-təmamin,
Şəbi-qədr gecəsi bu iki zülfi çənbərimi?

Gözü, qaşı, zülfü, xalı bu cahanı taladılar,
Qamu şol əmiri-hüsnün sipəhivü ləşkərimi?

Tökülür sözə gəlicək dürü lö'lö ləblərindən,
Əcəb ol şəkər dəhanın dişi nəzm gövhərimi?

Saçı ilə həmdəm olmuş bu şikəstədil Nəsimi,
Gəl inanmaz isən uş gör dəmi mişkü ənbərimi. (səh.242)

***

(məf'Ulü məfA'İlü məfA'İlü fə'Ulün)

Ey badi-səba, məndən ilət yarə səlami,
Ol ğəmzələri ərbədəçi, eyni hərəmi.

Müştaqə nədir çarə, mana bildir anı kim,
Gəl fürsət ola yarə yetirmək bu pəyami.

Yandırdı məni yandırıcı firqəti anın;
Bir dəxi qanı kim, görüm ol məhi-təmami.

Zülfündənü xalindən anın düşmüşəm ayrı;
Ey həq, mana ver sən yenə ol danəvü dami!

Hüsnün gülüdür Xosrovı səyyarə ilən bu,
Ey lə'li nəcan bəndəsi, yazıqdı qulami.

Məqsudu kimin kim, iki aləmdə nə sənsən,
Məqsudunu itirdivü fəth olmadı kami.

Mə'nidə yüzü qiblədə ol arif imiş, kim,
Yüzündür anın qibləsi, eynindir imami.

Ol lövhdür, ey yüzü qəmər, gül yanağın kim,
Ruhülqüdüs ol lövhdən endirdi kəlami.

Bəzmində əzəl saqisi lə'lin mana sunmuş,
Ol badəni kim, ruhüləmindir dolu cami.

Vəslin əbədi bəxt imiş, əmma nə deyim kim,
Dövran deyil baqivü peyvəstə dəvami.

Namusa məni də'vət edir nasehü namə,
Ey xacə, nədir aşiqə namusilə nami?

Vəsfində Nəsimi sözünü ərşə çıxardı
Qansı sədəfin incisi buldu bu nizami? (səh.243)

***

(müftə'ilün məfA'ilün müftə'ilün məfA'ilün (məfA'ilü)

Şərbətin acı firqətin nuş edərəm şəkər kimi,
Canımı dutmuşam ğəmin qarşısına sipər kimi.

Yaxma məni fəraqilən, çünki mən, ey yüzi qəmər,
Xalisü müxlis olmuşam eşqi-rüxündə zər kimi.

Qurmuş çu yayını gözün, salmış məni fərağə kim,
Doğramış anın oxları, yürəgimi zəhər kimi.

Ta görələr ki, məğribin günəşi doğmuş, ey qəmər,
Türfə niqabını götür, xəlqə görün qəmər kimi.

Kim ki, mələk kimi sənə qılmadı səcdə, ey sənəm,
Ta əbəd adı div imiş münkiri-bibəsər kimi.

Gərçi hidayət eylədi Musayi narə ol şəcər,
Aşiqə hadidir yüzün, nurinə ol şəcər kimi.

Sidqü səfavü zövqilən həqqə ulaşü vasil ol,
Zənnü gümanə möhtəmil olma əgər-məgər kimi.

Səndən əzəldə, ey qəmər, aşiqə gəldi bir xəbər,
Bir dəxi səndən istərəm ancılayım xəbər kimi.

Xalü xətin Nəsimiyi oda buraxdı, yandırır,
Gör necə xoş tütər, qoxar, ud ilə müşki-tər kimi. (səh.244)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün Fa'ilün (fA'ilü)

Mərhəba, xoş gəldin, ey dildar, xoş gördüm səni,
Xoşumsan, ey bərgüzidə yar, xoş gördüm səni!

Doğrusu müştaq idim cana, bəsi didarına,
Ey gözü nərgis, yüzü gülnar, xoş gördüm səni!

Getməyə çün mah buldun, gəlməgə çün aftab
Haliya, ey gövkəbi-səyyar, xoş gördüm səni!

Müddəilər tə'n urarlar firqətindən halıma,
Bir dəxi bər kuriyi-əğyar xoş gördüm səni!

Dərdmənd olmuş idi miskim Nəsimi, sənsizin,
Ey vüsalin dərdimə timar, xoş gördüm səni! (səh.245)

***

(fə'ilAtün fə'ilAtün fə'ilAtün fə'ilün (fA'ilü)

Ləblərin şərbətinə çeşmeyi-heyvan susadı,
Sulu inculərinə təşnə kimi can susadı.

Şəkərin püsteyi-dəndanına hər kim susadı,
Sanma kim, yalnız ona püsteyi-xəndan susadı.

Ənbərin sünbülünə badi-səhərgah əsicək,
Vəslinə laleyi-sirab ilə reyhan susadı.

Ləblərin dadına, şirin şəkər oldu təşnə,
Nə şəkərdir, bu kim, ana şəkəristan susadı?

Cövrü bidad ilə tökdü cigərim qanını yar,
Şöylə bənzər ki, cigər qanına canan susadı.

Necə qəhr eyləyəsən aşiqinə rəhm eylə,
Kim, sənin rəhmətinə aşiqi-rizvan susadı.

Sayru oldum, kərəm et, aşiqini sərmağa gəl,
Ki, könül vəslinə, ey dərdimə dərman, susadı.

Sallanub naz ilə gəlgil ki, mənim didələrim,
Ayağın tozuna, ey sərvi-xuraman, susadı.

Gül kimi gülə-gülə gəl, aradan pərdə götür,
Ki, yüzün görməginə, dideyi-giryan susadı.

Dur, Nəsimi sözünü töhfə üçün bəhrə ilət
Kim, anın sözlərinə dürr ilə mərcan susadı. (səh.246)

***

(məf'Ulü məfA'İlün məf'Ulü məfA'ülün)

Ta sünbüli-gülbuyin gülbərgi-tərə düşdü,
Səd fitnə hər ucundan dövri-qəmərə düşdü.

Şol qəmzə sehamından atdın canıma bir ox,
Ol oxu ki, sən atdın, yanmış cigərə düşdü.

Kim ki, dilədi görmək didarını günəş tək,
Bisəbrü qərar oldu, hər bamü dərə düşdü.

Ənbər qoxusu tutdu yer üzünü sərtasər,
Ta türrələrin buyi badi-səhərə düşdü.

Kipriglərinin sirrin əhli-nəzərə sor kim,
Peyvəstə anın zəxmi əhli-nəzərə düşdü.

Hər dil xəbərin söylər şirin dəhənin, ya rəb,
Şol mümtəneyi-cövhər kimdən xəbərə düşdü.

Əksi-rüxin, ey dilbər, ya rəb, nə təcəlladır,
Gah nuri anın Turə, gahi şəcərə düşdü.

Tubayə nəzər qılmaq uçmaqda mənə düşməz,
Neyçün ki, mənim könlüm ol simbərə düşdü.

Ey şəm', Nəsimi tək neyçün cigərin yanar,
Sön, dəxi məgər könlün ol simüzərə düşdü? (səh.247)

***

Xəyalın dideyi-giryanə düşdü,
Dilü can hər biri bir yanə düşdü.

Məni mən' eyləyən dərban özüdür,
Ki, ahimdən dəri-dərbanə düşdü.

Əzəldən dünyədə üryan gəlibdir,
Gedəndə həm gənə üryanə düşdü.

Qənaət guşəsinə girsə dərviş,
Fərağət mülkinə sultanə düşdü.

Sufi, mən' eyləmə qismət günündə,
Sənə məscid, mənə meyxanə düşdü.

Saçın sevdasına divanə könlüm
Tavustək vardı Hindistanə düşdü.

Dü, zülfün çokanın gördü Nəsimi,
Başın top eyləyib meydanə düşdü. (səh.248)

***

(məf'Ulü məfA'İlü məfA'İlü fə'Ulü)

Dinim günəşi, dünyada imanım, əfəndi,
Aləmlər ümidi, məhi-tabanım, əfəndi.

Könlüm, gözümün nuri, vücudimdə həyatım,
Hər dəm damarımda dolanan qanım, əfəndi.

Cənnət çəmənində saluban hurü nəimi,
Gül rayihəlü sərvi-xuramanım, əfəndi.

Gülnarimü narim, çiçəgim, meyvəli bağım,
Laləm, səmənim, sünbülü reyhanım, əfəndi.

Kanım, gühərim, mə'dəni-yaquti-rəvanım,
Qiymətli olan lə'li-bədəxşanım, əfəndi.

Bağım, irəmim, rövzə ilə hurü cinanım,
Bülbüllər üçün tazə gülüstanım, əfəndi.

Eşqində Nəsimi diləmiş canını qurban,
Qurbanına qurban ola bu canım, əfəndi. (səh.249)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilü)

Ol günəş yüzlü sənəm, çün ərzi-didar eylədi,
Gördü zahid zülfünü, təsbehi zünnar eylədi.

Çünki iqrar eyləməz aşiq riyalı zahidə,
Ğəm degil sufi əgər üşşaqi inkar eylədi.

Gördü gözüm yüzüni qarşuda durmuş dəmbədəm,
Qeyrətin odu dəm urdu, canıma, kar eylədi.

Yüzüni göstər bizə, canan, ki bu miskin könül,
İştiyağından mənə bu dünyayi dar eylədi.

Saqiya, gözdən götürmə cür'əyi-cami-nəcat,
Kəndisin buldu Nəsimi məsti-xummar eylədi. (səh.250)

***

(fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün)

Firqətin dərdi, nigara, bağrımı qan eylədi,
Ruzgar oldu müxalif, vəsli hicran eylədi.

Canımı yaxdı fərağın, ta kim, ayırdı məni,
Gəl, bu cansız aşiqi gör kim, nə bican eylədi?

Bağrımın qanın gözümdən hər dəm axıdır qəmin,
Ey sənəm, eşqin məni, gör kim, nə giryan eylədi.

Dərdimin dərmanını fəzlindən allah eyliyə,
Hər dəvasız dərdə çün oldur ki, dərman eylədi.

Sirri-eşqin gənc imiş, anın yeri viranədir,
Yıxdı eşqin gönlümü, şol gənci viran eylədi.

Səndən ayru düşdügüm təqdir imiş məndən degil,
Həqdir, ey can, hər nə kim, təqdiri-yezdan eylədi.

Canını verdi Nəsimi çün saçın zəncirinə,
Neyçün anın məskənin zəncirü zindan eylədi. (səh.251)

***

(məf'Ulü fA'ilAtün məf'Ulü fə'Ulün)

Əlminnətülilləh ki, bu gün yar ələ girdi,
Könlüm diləyən dilbəri-dildar ələ girdi.

Naməhrəmə faş eyləməzəm sirrim, ilahi,
Mə'nisi bu kim, məhrəmi-əsrar ələ girdi.

Gəl lə'li-ləbin şəkkərin, ey qasid, ilət kim,
Ol lə'li-ləbi şəhdi-şəkərbar ələ girdi.

Gəl, fürsət ələ girmişikən anı qaçırma,
Əğyarı həlak eylə ki, ol yar ələ girdi.

Ey Musa, əgər yüzünə müştaq isən anın,
İtirmə təcəlla yeri, didar ələ girdi.

Mənsur kimi söylərisəm daim "ənəlhəq",
Yapışdım anın zülfünə kim, dar ələ girdi.

Ah etmə, daxi dərd ilə, ey bülbüli-aşiq,
Çün irdi bahar, gülşəni-gülzar ələ girdi.

Mat etdi saçın buyi bu gün müşki-tatarı,
Ol buyi-saçın, nafeyi-tatar ələ girdi.

Məhbubi-əmin, yari-əbəd buldu Nəsimi,
Şükr eylədi kim, yari-vəfadar ələ girdi. (səh.252)

***

(məf'Ulü fA'ilAtün məf'Ulü fA'ilAtün)

Görklü yüzin nurindən aləm münəvvər oldu,
Şirin sözün qatında şəkkər mükərrər oldu.

Dodaqların sifatın hər kim gətirdi dilə,
Şol saət ol şirin söz ağzında şəkkər oldu.

Mişkin saçın qübarı yoldaş olalı yelə,
Cənnət kimi cəhanın torpağı ənbər oldu.

Şol uyqulu gözündən qopdu bu gün qiyamət,
Ki anın fitnəsindən pürşurü pürşər oldu.

Yalançı müddəinin qəlbini at ocağa,
Aşiqdir ol kişi kim, kamil məhək zər oldu.

Torpaq olanı sanma kim, düşdü qiymətindən,
Torpaq ikən Nəsimi gör kim, nə cövhər oldu. (səh.253)

***

(məf'Ulü məfA'İlü məfA'İlü fə'Ulün)

Ta gördü günəş ay yüzünü dərbədər oldu,
Bədr ayə zəval irdivü dövri-qəmər oldu.

Şümşad qədin qıldı irəm bağrını cövlan,
Sərv ona əsir olduvü məndən betər oldu.

Ol jalə ki, düşdü güli-rüxsarınız üzrə,
Bir qətrə yağış damdı həmən lalə tər oldu.

Arifdir içən cür'əyi, ey xosrovi-xuban,
Aləm dilinə düşdüvü sahibnəzər oldu.

Çün gördü Nəsimi üzünü zülfə dolaşdı,
Getdi şəbi-hicr, ötdüvü şam, ta səhər oldu. (səh.254)

***

(məfA'İlün məfA'İlün fə'Ulün)

Mənim yarım, vəfadarım, gəl axır,
Mələk surətli dildarım, gəl axır.

Fərağın canımı yaxdı bəğayət,
Həbibim, munisim, yarım, gəl, axır.

Fərağından qatı divanə oldum,
Kərəm qıl, zülfi-zünnarım, gəl axır!

Sənin tək görmədim bir güli-xəndan,
Bənövşəm, tazə rüxsarım, gəl axır!

Qərarım qalmadı, səbrim tükəndi,
Ləbü lə'li-şəkərbarım, gəl axır!

Mənəm bülbül kimi nalanü giryan,
Üzündür bağı-gülzarım, gəl axır!

Qaşın qarşısına canım bərabər,
Mənim tirü kəmandarım, gəl axır!

Nəsimi natəvandır çün ğəmindən,
Gəl, ey yari-vəfadarım, gəl axır! (səh.255)

***

NƏSİMİNİN İRAQ DİVANİNDA OLAN MÜXTƏLİF ŞE'RLƏRİN İLK VƏ SON BEYTLƏRİ

s. 6-7 *İlk beyt*
Gözünlə kiprigin, qaşın qaradır,
Zəhi həq gör nə surətlər yaradır.
Son beyt
Nəsimi çünki həqqə vasil oldu,
Hüvəlbaqi, hüvəllahülbəqadır.

s. 8 *İlk beyt*
Yüzün ayinəyi-əhli-səfadır,
Sözün bu dərdimə hər dəm dəvadır.
Son beyt
Nəsiminin kəlamından eşit kim,
Ki canı həqq ilə həm aşinadır.

s. 8-9 *İlk beyt*
Olar kim bəndeyi-fəzli-xudadır,
Mühibbi-xanədani-Mustafadır.
Son beyt
Təvəlla qıl, əya Seyyid Nəsimi,
Təvəlla qılmayanlara bəladır.

s. 9-11 *İlk beyt*
Qılan hər nəsnəyi əmri-xudadır,
Bu rəmzi bilməyənlər uyxudadır.
Son beyt
Nəsimi, yezidə kim, lə'nətim var,
Vəli mö'minlərə canım fədadır.

s. 11 *İlk beyt*
Cəmalın qibleyi-əhli-səfadır,
Vüsalın Kə'bəvü rükni-minadır.
Son beyt
Əzəldən qul olan ali-əbayə
Nəsimi tək cahanda bir gədadır.

s. 11-12 *İlk beyt*
Gəl, ey mö'min, mənim canım Əlidir,
Nə can, kim bil ki, cananım Əlidir.
Son beyt
Nəsimiyəm Əli mədhin oxuram,
Ki, bülbüli-gülüstanım Əlidir.

s. 13-14 *İlk beyt*
Təalallah şən hüsnün sifati kim müaladır,
Ki, ərrəhman Əli ələrş istiva o mövladır.
Son beyt

Nəsiminin bu gün düşdü gözünə dişlərin əksi,
Zəhi pakizə gövhər kim, mühiti-eyni-dəryadır.

s. 14 *İlk beyt*
“Səqahüm rəbbihüm xəmri” dodağın kövsərindəndir,

Bu meydən içənin nəqli hədisin şəkkərindəndir.
Son beyt
Nəsimi masivəllahdan kəsildi, dilbəri buldu,
Nəsimi neyləsin, netsin inayət dilbərindəndir.

s. 15 *İlk beyt*
Dürri-beyzadır vücudin, həq nişanı qandadır,
Zahirü batin çü sənsən, bəs qalanı qandadır?
Son beyt
Çün Nəsimi sirri İbrahim Xəlilindən bulub,
Gör sənə vasil olubdur, cismü canı qandadır?

s. 16-17 *İlk beyt*
Ey yüzün səb'ülməsani nəzzələlfürqan budur,
Vəhyi-mütləq həq kəlami "qafü vəlqur'an" budur
Son beyt
Gəl Nəsiminin əlindən badəyi nuş eylə kim,
Layəzali işrət oldu qüssəsiz dövran budur.

s. 21-22 *İlk beyt*
Mə'anilü sözün dürri-səmindir,
Bəyanın məhbiti-ruhüləmindir.
Son beyt
Nəsiminin təhiyyatü səlamı,
Ələləhbabəhü vəl aşiqindir.

s. 22 *İlk beyt*
Canın vücudu sənsiz laşey kimi ədəmdir,
Səndən cüda dirilmək, müştaqə key ələmdir.
Son beyt
Zərqü riyadan oldu yoxsul, əgər Nəsimi,
Yarın məhəbbətindən gör kim nə möhtəşəmdir.

s. 22-23 *İlk beyt*
Saçının şəbində yüzün iki həftəlik qəmərdir,
Bu sözü bilən bilir kim, bu nəzər necə nəzərdir
Son beyt
"Ənə rəbbiküm" oduna necə yanmasın Nəsimi,
Bu "ənəlhəq"in çırağı əbədi çü yanəsərdir.

s. 23 *İlk beyt*
Bəhri-mühitə düş kim, dəryayi-ə'zəm oldur,
Adəmdən olma qafil, neyçün kim, adəm oldur.
Son beyt
Ey Kə'beyi-həqiqi, eşqin ki, zəmzəm eylər,

Kim susamış, Nəsimi, aydır ki, zəmzəm oldur.

s. 25 *İlk beyt*
Lə'lin şərabı şərbəti-gövsər degilmidir?
Üzün çırağı mehri-münəvvər degilmidir?
Son beyt
Surətdə gərçi adı bəşərdir Nəsiminin
Mə'nidə gör kim, zati-mütəhhər degilmidir?

s. 26 *İlk beyt*
Lə'lində camü badə xəmri-müsəffa degilmidir?
Xalın siyahı ənbəri-sevda degilmidir?
Son beyt
Can verdi Nəsimi çün bahireyi-vüsalinə,
Vəslindən ol çıxır təmənna degilmidir?

s. 28 *İlk beyt*
Yüzün nuri camalın məzhəridir,
Sözün datlısı abi-kövsəridir.
Son beyt
Nəsimi, "küntə kənz"in mə'dənisən,
Bu bəhrə dalmayan divü pəridir.

s. 29-30 *İlk beyt*
Şahid laşərik ilə şol sənəmin cəmalıdır,
"Leysə kəmislihi" anın mim ilə nunü dalıdır.
Son beyt
Şükr edərəm ilahimə hər nəfəs, ey Nəsimi, kim,
Əhli kəmala məntiqin rəhməti-zülcəlalıdır.

s. 30 *İlk beyt*
Mətleyi-hüsnün, ey sənəm, məzhəri-zülcəlalıdır,
Cümleyi-kainat anın pərtövünün zülalıdır.
Son beyt
Şükr edərəm ilahimə, hər nəfəs, ey Nəsimi kim,
Gör bu cəmalı latəxəf rəhməti-bizəvalıdır.

s. 31 *İlk beyt*
"Vəssəffati-səffən" kim, kipriklərin səfidir,
"Vəzzacirat zizəcran" can hicrinin qəmidir.
Son beyt
Oldu Nəsimi qurban dər rahi-eşqi-canan,
Aşiqlərə bu ehsan əz fəzli-davəridir.

s. 32 *İlk beyt*

Tabəndə yüzün tabişi-bədri-dücayə tə'n edər,
Fərxəndə zülfün kölgəsi zilli-hümayə tə'n edər.
Son beyt
Bənzətməz anın yüzünü ayə, Nəsimi, sor nədən?
Şol mə'nidən, hər kim yüzün görmüşdür ayə tə'n edər.

s. 34-35 *İlk beyt*
Şəha, çün surətin fürqanımızdır,
Ol on dörd xət bizim Qur'anımızdır.
Son beyt
Sənin çün eydi-əkbərdir cəmalın,
Nəsiminin canı qurbanımızdır.

s. 35 *İlk beyt*
Sureyi-şəms vəzzüha, cana, bu gün vəchindürür,
"Ayətülleyli-iza yəğşa" iki zülfindürür.
Son beyt
Çün Nəsimi gördü cismində Nəimi ismini,
Böylə Qur'an dedi, həqdən lövhi-məhfuzindürür.

s. 38 *İlk beyt*
Dünü gün müntəzirəm mən ki, bu pərkar nədir?
Gərdişi-çərxi-fələk, günbədi-dəvvar nədir?
Son beyt
Tərk evində sən əgər həmçu Nəsimi olasan,
Bir gün ola deyəsən, cübbəvü dəstar nədir?

s. 39-40 *İlk beyt*
Hüsnün təbarəkallah ənvari-ləmyəzəldir,
Yüzün cahan içində bimislü bibədəldir.
Son beyt
Çün aləmin Nəsimi qurtuldu kəsrətindən,
Vəhdət kimi bəqası bimüddəti-əcəldir.

s. 40-42 *İlk beyt*
"Ya" vü "sin" "mim" üçün bəşarətdir,
"Əlif"ü "lam"ü "ha" işarətdir.
Son beyt
Bir günəşdir Nəsimi kim, anın
Neçələr zərrəsinə həsrətdir.

s. 49 *İlk beyt*
Yüzün məshəfdir, ey ruhi-münəvvər,
Təali şə'neyi-allahü əkbər.
Son beyt

Nəsiminin sözü həqdir, həqi bil,
Ki həqdir hər nə kim, dilində söylər.

s. 52 *İlk beyt*
Götürdü niqabı yüzündən qəmər,
Utandı ləbindən nabatü şəkər.
Son beyt
Nəsimi kimi vahid ol yar ilən,
İkilik sifətdən ikilik bitər.

s. 52 *İlk beyt*
Ey kəlamülah, əşya, nitq həqdir sərbəsər
Kim, ani oxur "ənəllah" ayəti-nuri-şəcər.
Son beyt
Seyyidi-sadati mədhini Nəsimi söyləyər,
Tutiyi-şirinməqali nitq ilə tökdü şəkər.

s. 54 *İlk beyt*
Gözün aç, gör, ey talib, Əlidir dükkənə sərvər,
Məhəmməd mə'dənü kandır, Əlidir qiyməti gövhər.
Son beyt
Nəsiminin dilü canı Əli nurindən od alır,
Əli vali, Əli vala, Əli sərvər, Əli səfdər.

s. 55-56 *İlk beyt*
Ey saçın zilli-ilahi, vey rüxün allahü nur,
Rövzənin sərvi boyundur, "əndəha cənnətü hur".
Son beyt
Ruhi-qüdsindir Nəsiminin sözü, ey zindədil,
Gər Məsiha tək dirisən, yatma kim, çalındı sur.

s. 56-57 *İlk beyt*
Qarə saçın ki, zülmətindədi nur,
Anın adıdürür: nur, Əli nur.
Son beyt
Nəsimi sözünü qılsın tətəbbö',
Nə fəzl oldu bu əbdi-fəzli-dəstur.

s. 57 *İlk beyt*
Sənmisən, ey mahsurət, cənnətin eynində hur,
Gözlərin eyni bəladır, vəchinin alnında nur.
Son beyt
Kəmtərin oldu Nəsimi, fəzli-həqqin çakəri,
Çünki vəslə vasil oldu, eşq ilə buldu hüzur.

s. 58 *İlk beyt*
Qeybi-mütləq sirrini gərçi ki, pünhan göstərir.
Aşkara kənduzin bər vəchi-insan göstərir.
Son beyt
Vəslə vasilsən, Nəsimi, dut qənimət bu dəmi,
Gərdişi-çərxi-fələk nəgah ki, hicran göstərir.

s. 58-59 *İlk beyt*
Kim aydır kim, üzün gülnarə bənzər,
Ki, yüzün nurəvü gül narə bənzər.
Son beyt
Nəsimi "küntə kənz"in məhrəmidir,
Hədisi lö'löi-şəhvarə bənzər.

s. 62-63 *İlk beyt*
Hər yana kim, baxır isən anda sən allahı gör,
Qəncərü kim, əzm qılsan, şöylə vəchüllahı gör.
Son beyt
Elmi hikmətdən bilirsən, gəl, bərü gəl, ey həkim,
Sən Nəsimi məntiqindən dinlə Fəzlüllahı gör.

s. 63 *İlk beyt*
Saqiyi-vəhdət meyindən dilbəri-mövlayi gör,
Gəl ki, məstani-ələst ol, bu məhəl ovlayi gör.
Son beyt
Çünki gəlmişdir xitabi sənə "vəscüd vəqtərüb",
Ey Nəsimi, qıl sücudi, "əscədi-ə'la"yi gör.

s. 65 *İlk beyt*
Sirri-ilahi bilən, şol xətü xalı bilür,
Halə xəbir olmayan, qanda bu halı bilür?
Son beyt
Gərçi Nəsimi bu gün cümlə sən oldun vəli,
Kim bu sözü fəhm edər, kim bu xəyalı bilür?

s. 66-67 *İlk beyt*
Çünki bildin mö'minin qəlbində beytüllah var,
Yenə tə'zim etmədin, ol evdə kim allah var.
Son beyt
Bu Nəsimi xəstəyə cövr etmə, ey zahid, yüri,
Biədəblik eyləmə anınla, çün allah var.

s. 67 *İlk beyt*
Nurinə saldı nəzər ol xaliqi pərvərdigar,
Ayə döndü dərdim, ol heyrətdən oldu tarümar.

Son beyt
Mən Nəsimiyəm ki, mədhi-şahi-mərdan söylərəm,
Lafətə illa Əli, la seyfə illa Zülfüqar.

s. 70 *İlk beyt*
Gəl tamaşa eylə, zahid, gör bu dəm abdalilər
Mustafa qövlün dutub geysə əcəbmi şalilər.
Son beyt
Ol dəvazdəh, çardəh, mə'sumi-pakin yoluna,
Məşrəbi həq, rahi-həq, iqrari həq abdalilər.

s. 71-72 *İlk beyt*
Çün "ələsti-rəbbikum" kuş etdilər dərvişlər,
Məst olub vəhdət meyin nuş etdilər dərvişlər.
Son beyt
Ey Nəsimi, oldular mülki-bəqadə cavidan,
Çün fəna darində əl boş etdilər dərvişlər.

s. 87-88 *İlk beyt*
Can eşqə düşdü, ey könül, ya rəb, nədir tədbirimiz?
Can neyləsin, biçarə, çün həqdən budur təqdirimiz.
Son beyt
Qur'andır anın surəti, aydır Nəsimi, şək degil,
Münkir əgər yox der isə uş müshəf, uş təfsirimiz.

s. 93 *İlk beyt*
Ey cəmalın nuri-"sübhanəlləzi əsra" imiş,
"Əbdəhü leylən" tapundur, məscidi-Əqsa imiş.
Son beyt
Ey Nəsimi, çünki könlün vəhdətin dəryasıdır,
Yeddi dəniz qübbəsinə mövc uran dərya imiş.

s. 96 *İlk beyt*
Dövlətin dövranı gəldi, dərdə dərman buldum uş,
Susamış müştaqə həqdən abi-heyvan buldum uş.
Son beyt
Ey Nəsimi, dilbərin vəchi kəlamüllah imiş,
Mən onun vəchində bismillah-irrəhman buldum uş.

s. 96-97 *İlk beyt*
Çün cəmalın səfhəsində xətmi-Qur'an buldum uş,
Saçının hər tarəsində küfrü iman buldum uş.
Son beyt
Ey Nəsimi, vəchi-allahın kəlamıdır yüzün
Kim, bu vəchillah içində Fəzli-rəhman buldum uş.

s. 97 *İlk beyt*
Dəldi şol qəmzən səhami, canıma kar etdi uş,
Bunca firqət kim, mənə bir çərxi-qəddar etdi uş.
Son beyt
Sirrini faş etmə yarın, ey Nəsimi, əbsəm ol,
Neyçün ol əsrarı həq aləmdə əsrar etdi uş.

s. 97-98 *İlk beyt*
Zülfü qaşından bəyani-sirri-pünhan oldu faş,
Həq təalanın kəlamı vəchi-insan oldu faş.
Son beyt
Cümlə əşya suri-İsrafildən ol natiqdürür,
Gör Nəsiminin sözündən necə bürhan oldu faş.

s. 99 *İlk beyt*
Nə sidrədir ki, boyundan qiyamət oldu faş,
Görün qiyam ilə qəddin bu sidrənin şabaş.
Son beyt
Nəsiminin sözü çün kim, bahalı gövhərdir,
Bu növ ilən nə üçündür ki, satır anı bəlaş?

s. 99 *İlk beyt*
Ey könül, gər talib isən eyləmə ömrün tələf,
Sən də mətlubi tələb qıl, gəzməgil hər bir tərəf.
Son beyt
Ey Nəsimi, uş bu söz kim qaldı səndə yadigar,
Ta qiyamət olasıdır sənə çün fərzənd xələf.

s. 100 *İlk beyt*
İki aləmdə sənsən şahi mütləq,
Fətəhna şanına gəldi mühəqqəq.
Son beyt
Nəsimiyə əzəldən cür'ə sondur
Onunçün zülhəyat oldu mühəqqəq.

s. 101 *İlk beyt*
Ya rəb, nə səbəbdəndir olur taqətimiz taq,
Çoxdan bəridir könlümüz ol yüzünə müştaq.
Son beyt
Allah ilə ol, indi, niyaz eylə, Nəsimi,
Başəd ki, suçundan keçə, lütf eyləyə rəzzaq.

s. 103-104 *İlk beyt*
Canımı qıldı münəvvər şol yüzü mahı görün!

Qüdrətüllahdır cəmalı, qüdrətüllahı görün.
Son beyt
Dilbərin yoluna xak oldu Nəsiminin təni,
Həqdən oldur həşəmət, həşmətü cahı görün.

s. 104 *İlk beyt*
Zəhi vücudi-məzahir, zəhi ənasiri-pak,
Ki, xak olur qədəmindən kəvakibi-əflak.
Son beyt
Məqami-eşqi-Məhəmməd bu gün Nəsimidir,
Ki, ali-əhli-nəbidir ki, qıldı ol idrak.

s. 106 *İlk beyt*
Saçların istivasında şəqülqəmər gərək,
Ol mö'cüzün bəyanına xeyrülbəşər gərək.
Son beyt
Qismət Nəsimi, olmayacaq, yarə kim irər,
Yarə irişməgə yenə yardan xəbər gərək.

s. 111-112 *İlk beyt*
Hər kim rüxi-zülfündən əgər qılsa təhəmmül,
Təhqiq ilə isbat edər, oldur nə təsəlsül.
Son beyt
Məclisdə çu saqi kimi, ey dust, Nəsimi
Filhal sücud etdi, sürahi dedi qülqül.

s. 112 *İlk beyt*
Ey rüxün, rəngi-üzarın çün bəqəm qatında nil,
Ol cəmalın vəslidir fikrin, zəhi, fikri-cəmil.
Son beyt
Bu Nəsiminin sözü vəsfində mö'cüzdür bu gün,
Taifi-ruhülqüdüs tə'lim edər, ya Cəbrail.

s. 112-113 *İlk beyt*
Dilbəra, ta surətindir məzhəri-hüsni-cəmal,
Xəttü xalından əyan oldu kitabi-zülcəlal.
Son beyt
Sufi ətləsi gözətmə, ey Nəsimi, dərviş ol,
Çün fələk dərvişə əskik eyləməz bir köhnə şal.

s. 119-120 *İlk beyt*
"Küntə-kənz"in kənzivü illahi-nurin nuriyəm,
Rövzənin rizvanivü cənnati-ədnin huriyəm.
Son beyt
Ey Nəsimi, sən degilsən, cümlə oldur, cümlə ol,

Ol kim, aydır bu zəminü asimanın nuriyəm.

s. 121-123 *İlk beyt*
“Ayəti-inni-ənəllah”əm, bu narin nuriyəm,
Həm minacatü təcəlli, həm Kəlimin Turiyəm.
Son beyt
Sən degilsən söyləyən, həqdir, Nəsimi, söyləyən,
Ol kim aydır həm zəminü asimanın nuriyəm.

s. 127-128 *İlk beyt*
Mişkin saçın sevdasına mişki-Xəta derəm,
Mişki-Xəta nə nəsnədir, anı xəta derəm.
Son beyt
Ol ömr kim, vüsal ilən keçmədi seyyid
Keçmiş həvavü hərzədir, ona həva derəm.

s. 128 *İlk beyt*
Zülfünü sorsalar, şəha, sünbüli-mişki bu derəm,
Yuca boyunu göricək cəli-cəlalü hu derəm.
Son beyt
Fitnə qılalı ləblərin əksi ilə Nəsimiyə,
Gözlərimə şərab ilə gun görünürsə su derəm.

s. 129-130 *İlk beyt*
Fəzlim mənim, ey Xızrım, abi-həyatım,
Şəmsim mənim, ey bədrimü saçı zülmatım.
Son beyt
Cümlə bu nitq iylə kəlamın, ey Nəsimi,
Səyyarım, çərxi-fələgim, seyri nəşatım.

s. 134-135 *İlk beyt*
Xuda eşqidürür cismimdə canım,
Məhəmməddir vəli sidqü imanım.
Son beyt
Fəqirü müflisü seyyid Nəsimi,
Nəm olar ruhi zərd razi miyanım.

s. 135-136 *İlk beyt*
Surəti-rəhmanı buldum, surəti-rəhman mənəm!
Ruhi-mütləq həq kəlamı Qafi-vəl-Qur'an mənəm.
Son beyt
Ey Nəsimi, sən həqi bil, həqqə iqrar eyləgil,
Çün sən insan bəşərsən, həqqi din, sübhan mənəm.

s. 137-138 *İlk beyt*

Nə hüsn olur, bu nə surət, zəhi, behişti-nəim?
Nə lütf olur, bu nə mə'ni, zi rəbbi-ərşi-əzim?
Son beyt
Yolunda qoydu Nəsimi cəhan ilə canı,
Təfavüt etməz anı, gər qəbul qılsa rəhim.

s. 138 *İlk beyt*
Surətin keyfiyyətində gör nə yazmış ol qədim,
Oxuram mən onu bismillahir-rəhmanir-rəhim.
Son beyt
Rəhm qılgil sən Nəsimiyə, bu gün fəzli-xuda.
Gər xəta qıldım isə əstəğfirullahil əzim.

s. 138-139 *İlk beyt*
Ey yanağın Turi-Sina, ey xətin həyyi-qədim
Ol təcəllidə çu buldu həqqə yol Musa-gəlim.
Son beyt
Cümlə natiq oldu həqdən, ey Nəsimi, liyəmut,
Vəch imiş bağı-sərayi cavidan ərşi-əzim.

s. 139 *İlk beyt*
Ay cəmalın hüsni-surət kim, qılıbdır ol həkim,
Failimütləq dürür hər şeydə məf'ul ol rəhim.
Son beyt
Ey Nəsimi, gər nəhayət buldun isə elmə sən,
Kim sənə vəchində yazdı həq qədim.

s. 139-140 *İlk beyt*
Eşq ilə oldu müxəmmər tinətim əndər qədim,
Qüdsiyani-həzrəti-ə'la ilə oldum müqim.
Son beyt
Ey Nəsimi, çünki könlün məxzəni-əsrardır,
Qeyri əgər könlünə girsə, qoymagil qılgil çu nim.

s. 140-141 *İlk beyt*
Saqiya, mahi-siyam oldu tamam,
Gəl bərü, son sağəri-mey vəssəlam.
Son beyt
Gəl Nəsiminin kəlamın gör bu gün,
Kim, anın goftarıdır xeyrülən'am.

s. 143-144 *İlk beyt*
Mən ol sadiq qulam kim cəfəriyəm,
Həqiqət söylərəm həq heydəriyəm.
Son beyt

Nəsimiyəm cahanda nə qəmim var,
Güzidə nüsxənin sərdəftəriyəm.

s. 144-145 *İlk beyt*
Vücudin şəhrinə girdim, dolu nuri-xuda gördüm,
Mən ol nurin təcəllisin Məhəmməd Mustafa gördüm.
Son beyt
Nəsimi bəxşişi həqdən təmənna iltimas eylər,
Həzəran bəndə tək bəndə bu həzrətdə gəda gördüm.

İlk beyt
Yüzün günündən, ey qəmər, ənvarə düşmüşəm,
"Anəstünarən" olmuşam, ol narə düşmüşəm.
Son beyt
Gördü Nəsimi mə'şuqinin üzünü bu gün,
Həqqi bilən bilir ki, nə didarə düşmüşəm.

s. 151-152 *İlk beyt*
Sirri-ənəlhəq söylərəm aləmdə, pünhan gəlmişəm,
Mən həq derəm, həq məndədir, həm xətmi-insan gəlmişəm.
Son beyt
Gəlmiş cəhana şərh edər şimdi Nəsimi həq sözün,
Anı kim idrak eyləsin, mən sirri-pünhan gəlmişəm.

s. 152-153 *İlk beyt*
Gəlmişəm həqdən "ənəlhəq", gör nə Mənsur olmuşam,
Ruhi-qüdsün nitqiyəm, sərtaqədəm nur olmuşam.
Son beyt
Ey Nəsimi, cənnətü hur ol nigarın vəslidir,
Çün mən ol məhbubi buldum, cənnətü hur olmuşam.

s. 153-154 *İlk beyt*
Həq ta ki, yar oldu mənə, sərtaqədəm yar olmuşam,
Ta görmüşəm didarını, müştaqi-didar olmuşam.
Son beyt
Buldu Nəsimi ta səni zatında, şəksiz-şübhəsiz,
Olmuş cəmiyyətdən bəri, yə'ni ki, bizar olmuşam.

s. 155-156 *İlk beyt*
Daim "ənəlhəq" söylərəm, həqdən çu Mənsur olmuşam,
Kimdir məni bərdar edən, bu şəhrə məşhur olmuşam.
Son beyt
Çün mən Nəsimi, gövhərəm, gəncim sizə faş eylərəm,
Mən bu yıxılmış dünyada, gör kim, nə mə'mur olmuşam.

s. 157 *İlk beyt*
Ta kim üzünü görmüşəm, hüsnünə heyran olmuşam,
Düşdüm saçın zəncirinə, gör nə pərişan olmuşam.
Son beyt
Adım Nəsimidir bu gün oldum kəlami-natiq uş,
Həm ayətəm, həm nuri-həq, həm Fəzli-Yezdan olmuşam.

s. 159-160 *İlk beyt*
Çox salam olsun sənə, ey padişahi-nazənin,
Şahi-mərdansən, əlində fəth olubdur rahi-din.
Son beyt
Ey Nəsimi, canü dildən söylə mədhi-heydəri,
Ta sənə rəhm eyləyə, ol şahi-xeyrül-rahimin.

s. 160-161 *İlk beyt*
Kimdir ol kim, pak olmuşdur, yolunda rahi-din,
Razi-dari-Mustafa, həm şahi cümlə mö'münin.
Son beyt
Ey Nəsimi, sən təvəlla qıl şahin övladına,
Kim, Əlidir məzhəri taifi-rəbbülaləmin.

s. 161 *İlk beyt*
Ay cəmalın cilvəgahi rövzeyi-xüldi-bərin,
Hüsnünün məşşatəsi "min indəhü" elmül-yəqin.
Son beyt
Ey Nəsimi, sənə bu mö'cüz kəlamın nəzmini,
Xatiri-tə'limi-İsa etdivü ya ruhül-əmin.

s. 172-173 *İlk beyt*
Tərk eyləməz can eşqini min gəz gər anı yaxasan,
Hicrində layiq görmə kim, hər dəm bu canı yaxasan.
Son beyt
Çaxdı Nəsiminin dili allahi-nurin sirrinə,
Ey nari-qüdsi, qandasan, ta ol zəbanı yaxasan.

s. 175-176 *İlk beyt*
Ey bərgüzidə surət, cansan, vəli nə cansan,
Həm ism ilə müsəmma, həm cism ilə rəvansan.
Son beyt
Həqdən gələn kəlamın mö'cüzdür, ey Nəsimi,
Sən sirri "küntü kənz"in əsrarinə bəyansan.

s. 177 *İlk beyt*
Allah, allah, nə can, nə dilbərsən?!
Allah, allah, nə bəhri-gövhərsən?!

Son beyt
Ey Nəsimi, cahanı tutdu sözün,
Ovnəkallah ki, şahi-kişvərsən.

s. 181-182 *İlk beyt*
Qibleyi-iman göründü sən büti-əyyarədən,
Afərin olsun, səni kim, xub yaratmış yarədən.
Son beyt
Ruhi-qüds oldu Nəsiminin həqiqət sözləri,
Varlığın tərh eylədi, çün kəndi çıxdı arədən.

s. 182-183 *İlk beyt*
Ey məni nahəq deyənlər, qandadır bəs yarədən?
Gəl, gətir isbatini, kimdir bu şeyni yarədən?
Son beyt
Ey Nəsimi, on səkkiz min aləmin mövcudusan,
Kim bu sirrə irmədi, sür anı, çıxsın arədən.

s. 183 *İlk beyt*
Nuri-hikmət zahir oldu sən büti-əyyarədən,
Şö'lə düşdü aləmə şol peykəri-məhparədən.
Son beyt
Çün Nəsimi abi-heyvan Xızr, zində istədi,
Sən dəxi nuş eyləgil, şol lə'li-şəkkərparədən.

s. 183-184 *İlk beyt*
Dönmüşəm qəmdən hilalə şol məhi-taban üçün,
Qılmışam qurban bu canı şol şəhi-xuban üçün.
Son beyt
Ey Nəsimi, Fəzli-həqdən çün qənisən, fariq ol,
Gör bu dövranı, qayırma gərdişi-dövran üçün.

s. 185 *İlk beyt*
Qanı şol günlər ki, keçdi ol büti-əyyar ilən,
Dilbəri kafirnihadü gözləri xunxar ilən.
Son beyt
Ey Nəsimi, sən fələkin gərdişindən qəm yemə,
Şadlıq ənduhilən var, həm qızıl gül xar ilən.

s. 186-187 *İlk beyt*
Heç doymadım bu dünyadən, ey nəfsi-şum zalımun,
Tanımadun kəndi yüzün, sənsən bəğayət cahilun.
Son beyt
Səndən dilərəm, ya ilah, ey padişahi-ləmyəzəl,
Qılgil Nəsimi həşrini, ya abidun əs-salehun.

s. 189-190 *İlk beyt*
Yey yenə sığındım ol sübhanə mən,
“Lam”, “Əlif lam” demədim, ol xanə mən.
Son beyt
Der Nəsimi sənə əqlin var isə,
Gündüzini yazdım ol fərmanə mən.

s. 200 *İlk beyt*
Düşürmüş ənbərin zülfün hümayun kölgəsin ayə
Təaləllah, zəhi sünbül, təaləllah, zəhi sayə.
Son beyt
Nəsimi çün səni buldu, dü aləmdən vəhid oldu,
Kəsildi ma' mənlikdən, ulaşdı zati-yektayə.

s. 200 *İlk beyt*
Bənəfşə zülfünü salmış gül üzrə ənbərin sayə,
Könül heyranü zar oldu bu reyhani-səmənsayə.
Son beyt
Nə şirin şərhini eylər Nəsimi ləblərin, yarəb,
Ki, məst olur hələvətdən bu tutiyi-şəkərxayə.

s. 200-201 *İlk beyt*
Ey dövri-hüsn içində sultani-bərguzidə,
Dər kişvəri-məlahət, misli to kəs nədidə.
Son beyt
Cismi-Nəsimi candır sərtaqədəm anınçün,
Əz fəzli həq biruşod ruhül-qüds dəmidə.

s. 202-203 *İlk beyt*
Bu nə bərgüzidə candır ki, gəzər bu can içində?
Bu nə qiyməti gühərdir ki, yatar bu kan içində?
Son beyt
Bu dərin mə'aniyi gör ki, bəyan edər Nəsimi,
Fələgin dili tutuldu, bir ulu bəyan içində.

s. 203 *İlk beyt*
Aşiq bəla yolunda gərək kim, həmul ola,
Mə'şuqədən ana nə gəlirsə qəbul ola.
Son beyt
Me'racə çıxdı ruhi-Nəsimi Buraq ilən,
Ol laşədən nə faidə kim, lazəlul ola.

s. 205 *İlk beyt*
Bir saqiyi-baqi ki, vəfa qıldı vüsalə,

Lütf ilə mənə qıldı nəzər sondu piyalə.
Son beyt
Səyyid, dəxi əbsəm ki, əzəldə şəhə təqdir,
Hər kim isə öz qədri ilən oldu nəvalə.

s. 208 *İlk beyt*
Çarə yoxdur yarə, əbsəm, ey könül, yar istəmə!
Yari-dildar çün bulunmaz, dərdə bimar istəmə!
Son beyt
Çünki həqdən vahid oldun cavidani yar ilən,
Ey Nəsimi, çün irişdin nurinə, nar istəmə!

s. 208-209 *İlk beyt*
Dərdə müştaq olmayan kimdir ki, dərman istəyə,
Qəlbli-mövti bilməyən, sən sanma kim, can istəyə.
Son beyt
Zülfünün küfrin əgərçi əhli-fəzl iman bilir,
Ey Nəsimi, sanma sən kim, kafir iman istəyə.

s. 210-211 *İlk beyt*
Kim ki, aldandı cahanın ağulu ləzzatına,
Düşdü şol mənsubəsi, çox dünyanın şəhmatına.
Son beyt
Çün cəmalindən Nəsimi əbcədin qıldı tamam,
"Eyn"ü "mim"in "əmmə"sindən irdi vəssafatına.

s. 211-212 *İlk beyt*
Saqiya, bir cür'ə son əhli-səfanın eşqinə,
Saqiyi-gövsər, Əli əl-mürtəzanın eşqinə.
Son beyt
Ey Nəsimi, səng ilə öldür yezidi-müşriki,
Ər degildir kim ki, çalmaz tiği cananın eşqinə.

s. 217 *İlk beyt*
Susadı könlüm nigarın lə'li-rüxəfzasına,
Daldı şövqün şol həbibin surəti zibasına.
Son beyt
Ruhi-qüds oldu, Nəsimi cismini tərh eylədi,
Gövhəri-fərd oldu, düşdü vəhdətin dəryasına.

s. 218-219 *İlk beyt*
Ey nazı çox dilbər, məni yandırma eşqin narinə,
Çün yanaram pərvanə tək şəm'i-rüxün ənvarinə.
Son beyt
Gər vasil olmaq yar ilə istərsən, ey aşiq, bu gün,

Gəl ur Nəsimi tək qəfa kövnü məkanın varinə.

s. 220 *İlk beyt*
Yoxdur vəfası dünyanın, aldanma anın alına,
Rəngindən oldu münfəil kim ki, boyandı alına.
Son beyt
Ol bimisalın eşqinə verdi Nəsimi canını,
Dünya nola ya axirət kim qala mülkü malına.

İlk beyt
Bəhri-mühit imiş könül, yoxdur anın kənarəsi,
Lə'l ilə səlsəbil imiş, ab ilə səngxarəsi.
Son beyt
Qaşlarının rümuzinə əql irəməz, Nəsimiyə,
Gör nə qədər dəqiq imiş qaşlarının işarəsi.

s. 235 *İlk beyt*
Üzün vəhi bizə bürhan irişdi,
Üzündən tə'vili-fürqan irişdi.
Son beyt
İtirmə Misrini, sən ey Nəsimi,
Bu Misrə Yusifi-Kən'an irişdi.

s. 235-236 *İlk beyt*
Səba zülfün nəsimindən cahanı cümlə can etdi,
Dəmindən gör səba zülfün ki, nə canlar rəvan etdi.
Son beyt
Məkanü kanə çün sığmaz qədimin zati-bimisli,
Nəsimi "kaf"ü "nun" oldu, məkanı laməkan etdi.

s. 236 *İlk beyt*
Narı cəhimə tə'n edər eşq odunun hərarəti,
Arifisən gəl, ey könül, bil bu dəqiq işarəti.
Son beyt
Verdi Nəsimiyə bu gün həqqülilah böyla əta,
Qıldı anı o şəha qul zəhi-fəzli-bəşarəti.

İZAHLAR

Azərbaycan xalqının dahi şairi İmadəddin Nəsiminin özünəməxsus-poetik və fəlsəfi fikir dünyası vardır. O hər şeydən əvvəl, hürufiliyə məxsus fəlsəfi fikirlərin ən böyük tərənnümçüsü və təbliğatçısı olmuşdur. Ayrı-ayrı dinlərin müqəddəs kitabları sayılan "Tovrat", "İncil", "Zəbur" və "Qur'an"ın "Hədisi-Qüdsi" islam dininin

tarixini, dini-əsatir, rəvayət və əfsanələri mükəmməl bilən Nəsimi hürufilik ideyalarının tərənnümü ilə əlaqədar olaraq həmin qaynaqlardan bacarıqla istifadə edib öz əsərlərində dərin rəmzlər, maraqlı təlmihlər, incə eyhamlar və iqtibaslar işlətmişdir.

Bundan əlavə, o, Fəzlüllah Nəiminin hürufilik təriqətinin nəzəri əsaslarını özündə əks etdirən "Cavidannamə", "Məhəbbətnamə", "Novinamə" və s. kimi əsərlərindən, həmçinin özünə qədər mövcud olan sufizmin müxtəlif qollarından alınmış terminləri yeni çalarda öz əsərlərində işlətmişdir. Bu baxımdan Nəsimi şe'rləri öz dövründə də zahiri mə'nasından əlavə, həmçinin dərin iç mə'naya da malik olmuşdur. Bu iç mə'na hürufilik təriqətinə mənsub olanlara tamamilə, lakin dövrün ziyalılarına, şəhər sənətkarlarına isə qismən aydın olmuşdur.

Müasir dövrümüzdə Nəsimi əsərlərini hətta hər hansı ən mükəmməl ərəb-fars dilləri lüğəti ilə başa düşmək olmur. Çünki Nəsimi əsərlərində işlənən "nigar", "gözəl", "üz", "saç", "kiprik", "qaş", ("hacib"), "zülf" ("cə'd"), "ağız" ("dəhan"), "dodaq" ("ləb") və s. kimi ən adi sözlər belə zahiri mə'nalarından əlavə, çox keniş və dərin fəlsəfi, siyasi-ictimai mə'naya da malikdir.

Nəsimi şe'rləri özünün hürufilik təriqətinin, zəmanəsinin siyasi-ictimai fikirlərinin poetik salnaməsidir. Dahi şair, böyük söz ustadı Nəsimi hələ vaxtı ilə bu poetik salnaməsinin özünəməxsusluğunu səciyyələndirərək, çox haqlı olaraq deyib ki, ancaq, mə'na əhli Nəsiminin sözlərini dərk edə bilər. Əks təqdirdə heç bir lüğətlə onun mə'na yolunu (təriqi-mə'niyi) tapıb, fikir dünyasına daxil ola bilməz.

Kitabın həcmindən irəli gələrək biz burada ancaq bə'zi misra və beytlərin şərhini veririk.

Adəmin surəti.

Adəmin surətinə səcdə qılanlar ki, səni
Gördülər surəti-rəhman dedilər, gerçək imiş.

Nəsimi burada bir tərəfdən insanın allah surətində yaranmasını fəlsəfi-poetik dillə hürufilərin qənaəti ilə təsbit edir. Başqa bir qəzəlində: "Surətin əşkaldır "innafətəhna", ey nigar, //Kim, bu nəqşin ayətindən həqqə uş bürhan gəlir" fikrini bir daha təsdiqləyir.

Şair göstərir ki, insan öz nəqqaşını öz nəqşində görmədən, onun bəsirət gözü yoxdur, həyatda başsız bir bədən gəzdirir: "Surətin nəqşində hər kim görmədi nəqqaşini, //Vahibi-surət onun gözsüz yaratmış başını".

Nəsimi poetik dillə təsbit edir ki, ey insan, sənin surətinə səcdə edənlər haqlıdırlar. Çünki sənin özündə allah surəti var. Sən müqəddəs bir varlıqsan.

Ayati-möhkəmat. Heç bir ziddiyyət (təşkil) olmadan təfsir edilən Qur'an ayələri.

Qur'anın bir çox surələrində, o cümlədən də 200 ayədən ibarət olan "Əl İmran" surəsinin 7-ci ayəsində deyilir: "Odur, o kəs ki, sənə nazil etdi Qur'anı, onun bə'zisi ayati-möhkəmatdır (hamısı hökmdür) "...Onlardır kitabın anası...".
Nəsimi yazır:

Mö'cüzatından yanağın, möhkəmatından saçın,
Xarü xaşaki cəhanın vərdü reyhan oldu, gəl.

Şair insanın üzünü ziddiyyəti olmayan, allahı əks etdirən "Möhkəmat" ayələri kimi təqdim edir. Qur'anın 7-ci ayəsindəki bu xəbəri də səbəbsiz hesab etmir. Axı insanın da üzündə 7 müqəddəs xətt vardır. Həmin xətlər də məhz bunu təsbit edir.

Ayə. (Ayat) əlamət, nişan; Qur'an surələrindəki cümlələrin hər biri. (Qur'anda 6204 (6236) ayə vardır).

Nəsimi Qur'an ayələrini, onların mə'nalarını və saylarını hürufilik baxımından tə'vil edir. O özünü hər şeydən əvvəl "Rəhman" (lirik qəhrəman, "Mən" baxımından) və ayə adlandırır:

Ayəti-"inni-ənəllah"əm, bu narin nuriyəm,
Həm münnacatü təcəlli, həm Kəlimin Turiyəm.

İnsan üzündəki 7 ayəni bu cəhətdən yüksək qiymətləidirir:

Üzündəki həft ayət kim, fatihədir adı,
Tə'vili-kəlammüllah açıldı kitabindən.

Bu kitabın (insan üzünün, insan varlığının-M. Ə.) tə'vili, şərhi insanın allah surətində olmasını təsdiqləyir. Nəsimi belə bir fikri poetik dillə dönə-dönə təsbit edir:

Sirri-tənzili ilahi dilbərin vəchindədir,
Sahibi-tə'vil edər surəti-allahdır kim.

Nəsimi həmçinin: "Məndən uludur ayətim, ayətə, şanə sığmazam"- deyərək, öz şe'rlərinin Qur'an ayələri səviyyəsinə qalxdığını poetik dillə iqrar edir:

Həq gördüvü həq dedi, Nəsimi na desin kim,
Həm şe'rimi mən ayəti-Qur'anə yetirdim.

Şair bunu belə əsaslandırır ki, o (lirik qəhrəman) həm cəm'i-Qur'andır, həm ayəti-rəhman. Məhz bu cəhətdən onun şe'rləri Qur'an ayələri səviyyəsində (hürufilik baxımından) dura bilir:

Həm Lövhü Tovratü Zəbur, İncilü Qur'anü Sühəf,
Həm mən kəlami-natiqəm, həm cəm'i-Qur'an gəlmişəm.
Həm ayəti-rəhman mənəm, həm rəhməti-rəhman mənəm,
Həm vəhyi-mütləq mənəm, həm nuri-yezdan gəlmişəm.

Ayəti-təbbət. "Sınsın..." ayəti.

..Ayəti-"təbbət" əli ilə nə də'vi eylədin,

Uş həuuz oldu ən'əlhəq dasitani qəndədir...

Qur'andan alınmış "Təbbət yəda..." ifadəsi (111,5) Məhəmmədi bir peyğəmbər kimi inkar və daşqalaq edən əmisi Əbi Ləhəb haqqındakı məşhur kiçik surədən alınmışdır. Orada deyilir ki, sınsın Əbi Ləhəbin iki əli (əlləri). Surədə həmçinin Məhəmməd peyğəmbərin hər gün keçdiyi yola (yolu üstünə) tikanlı odun və daş parçaları tökən Ləhəbin arvadı Ümm Cəmil də lə'nətlənir. Bu surə Məhəmmədin bir peyğəmbər kimi öz düşmənlərinə qələbə çaldığı dövrə aiddir.

Nəsimi yuxarıdakı beytdə həmin surə və ayələri (ayəni) xatırladaraq deyir ki, sən özün də beləcə hürufiliyin düşmənləri tərəfindən hücumlara çox mə'ruz qaldınsa, lakin həmin ənəlhəq (mənəm allah) ideyası qələbə çalmaqdadır. Dünyanın günəşi (Fəzlüllah-M. Ə.) ilə sən dost olandan sonra, ondan ayrılan deyilsən. Çünki onun "Cavidaniamə" kitabı səni bu müdrik adamın özü ilə, onun ideyaları ilə çox möhkəm bağlamışdır: "Ta Nəsimi aləmin şəmsilə oldu aşina, (Ayru olmaz ol günəş, çün "Cavidanı səndədir".

Musa mənəm kim, həqq ilə daim münacat eylərəm,
Könlün təcəlli nuridir, onun üçün Tur olmuşam və s.

Amənna və saddəqna – "inandıq" (təsdiq etdik), "iman gətirdik" deməkdir:

Dü əqlü helmü xu Məhəmməd şə'ninə gəldi,
Pəs "Amənnavü" "Səddəqnə"anın alinə övladır (ouladır)...

Qur'anın "Qəsəs", "Ənkubət" və s. surə və ayələrində işlənmiş bu sözlərlə oradakı ayələrin təsdiq olunması irəli sürülür. Həmin surələrdə belə deyilir ki, ey Məhəmməd, Qur'anı sənə nazil etdik (göndərdik). Kafirlərdən başqa hamı Qur'ana iman gətirər və inkar etməzlər (29,46). "Səddəqna" sözləri ilə (39,73) ikinci "dünyanın" - "cənnətin" doğruluğunu da təsdiq edirik: "...bizə dünyada etdiyi cənnət və'dəsini doğru elədi... Nə yaxşı ki, yaxşı əməl etdik, yaxşı işlər ilə məşğul olduq" (orada).

Nəsimi "Səddəqna", "Amənna" sözləri ilə Fəzlüllahın üzündəki mə'nəvi nurun muqəddəsliyini poetik dillə təsbit edirdi:

Nuri-imandır cəmalın kim ki, "Səddəqna" deməz,
Kafirü müşrikdir, ana div əgər-dersən, nola!

Beləliklə, şair insanı, onun müqəddəsliyini və gözəlliyini, ululuq keyfiyyətlərinə malik olduğunu Qur'andan alınmış "Amənna" və "Səddəqna" sözləri ilə təsdiq edirdi.

Anəstunarən – "mən od görürəm" (həqiqətən, mən uzaqda od görürəm).

Nəsimn Qur'andan götürülmüş bu sözləri təlmih sənəti üsulu ilə hürufilərə xas olan timsali, rəmzi, simvolik yolla öz şe'rlərində dönə-dönə işlətmişdir.

Bu sözün arxasında dini-əfsanəvi bir əhvalat gizlənmişdir. Həmin söz Qur'anın

“Taha”, “Nəməl” surələrindən alınmışdır. Bu dini-əfsanəvi əhvalat isə əsasən surə və müvafiq surələrin ayələrində öz əksini tapmışdır:

...Musa Şüeybin yanından çıxıb gedəndə, yolda ona od lazım olur (20,11). Birdən uzaqda görünən od onun nəzər-diqqətini özünə cəlb edir. Ailəsinə deyir ki, həqiqətən, mən od görürəm və bizə od lazımdır. Qoy mən gedim həmin oddan sizə gətirim. Ailənin oda böyük ehtiyacı var idi. Çünki həmin gecədə Musanın arvadı Səfurəni (Səpurəni) doğuş ağrısı tutmuşdu. Musa əlindəki çaxmaq daşı ilə od hasil edə bilməmişdi. Odur ki, od axtarmaqda olan Musa birdən uzaqda od görür. Ailəsinə deyir ki, siz burda durun, mən gedim həmin oddan sizə gətirim.

Musa oda yaxınlaşanda görür ki, yanan yaşıl bir ağaçdır. Amma od ağaca heç bir ziyan toxundurmur. Bu od ildırım işığına (oduna) bənzəyir. Bu, onun heyrətlənməsinə və təccüblənməsinə səbəb olur. Birdən ağac dilə gəlir: “Ey Musa, başmaqlarını çıxart. Buraya gəl. Bil ki, mən səni peyğəmbərliyə ixtiyar etmişəm. Məndən başqa allah yoxdur. Mənə ibadət edin! Namazı vaxtında qılın! Bir zaman gələcək qiyamət olacaqdır. Vaxtını isə mən sizə xəbər verərəm”. Sonra onların arasında belə bir danışıq olur:

- Əlindəki ağac nə olan şeydir?

- O mənim əsamdır. Yol gedəndə buna təkyə edirəm (söykənirəm).

Ona əmr olunur ki, əlindəki əsanı yerə atsın. Musa əməl edir. Əsa ilana çevrilib hərəkətə başlayır. Bunu görən Musa qorxuya düşüb qaçmağa üz qoyur.
Yenidən səs gəlir:

- Ya Musa, qorxma, həmin ağacı əlinə al. Biz onu yenidən əsaya döndərərik.

Musa deyilənə əməl edir. İlan ağaca dönür (çevrilir).

Bir müddətdən sonra Musa peyğəmbərlik etməyə başlayır...

Nəsimi Fəzlüllaha xitabən yazdığı: “həbibim, izzətim, canım, cəhanım” misrası ilə başlanan şe'rində (qəzəlində) belə deyir:

Nəsimi çəkdi qəm “anəstunarən”,
Özü dedi, nə qılsın bu filanım.

Şair burada göstərir ki, Musa öz allahını görmək istədiyi kimi, mən də Fəzlüllahı görmək həsrətində qalmışam:

Canımı “anəstunarən” şövqünə yandırma kim,
Olmuşam Musa kimi müştaqi-didar, iştə gör.

Fəzlüllah Nəimi həsrəti ilə yaşayan şair özünü allahı görmək arzusu ilə yaşayan Musaya oxşadır. “Yarımı ayırdı məndən çərxi-qəddar, iştə gör” misrası ilə başlanan qəzəldə Nəsimi Nəiminin ayrılıq əzabından çəkdiyi qəmini, qüssəsini və onun yolunda fədakarlığını tərənnüm edir:

“Anəstünarən” sirrini Musa nə bilsin ya şəcər,
Onu mənə sorsun ki, mən ol nur, ol nar olmuşam.

Nəsimi burda əfsanəvi yanan ağac və Musanı bir növ inkar edir. Özünü

(Nəimini, hürufi təriqətinə malik olub, kamilləşənləri) həm allah, həm də onun təzahürü hesab edir:

Bavücudəm vəhdəti kəsrətdə isbat eyləyib,
Musayəm, "anəstunara", nur ilə Tur olmuşam.

Bavü lam-hürufilər hər şeyin əsasını 28 ərəb və 32 fars rəqəmlərindən, həmin rəqəmlərin rəmzi mə'nalarından və mahiyyətindən ibarət hesab edirdilər. Onların fikrincə, dünyanın yaranmasını, insanın "xəlq olunması" və xilqəti, sirlərin aşkarlanması və s. məhz bu hərf və rəqəmlərlə bağlıdır:

Bistü həştü sivü düdür ayəti-nitqi-xuda,
Görmüşəm eyni-əyani, məndədir həqq aşina.

Mə'lumdur ki, nitqdə dil və dodaqlar nitq orqanı kimi fəal iştirak edir. Bu baxımdan Nəsimi ləb (dodaqlar) sözünü həm dodaq, həm də "bey", "lam", "bavü lam", yə'ni "l", "b" hərflərinin adlarını tez-tez rəmzi mə'nada çox işlədir. "Bavü lam" birlikdə ərəb əlifbasında "ləb" oxunur.

Nəsimi sübuta yetirir ki, hurufiliyin əsası 28 (32) hərfdən ibarət olub, dodaqlarla (ləblərlə) tələffüz olunur. Dodaqların öz hikməti, rəmzi mə'naları vardır. Əbcəd hesabı ilə "b" (ba'un, bey)-2, "l" (lam, lamun) isə 30 deməkdir:

Saqi, ləbindən doğmuşuz, yə'ni ki, "bey"dən "lam" ilə,
Fitrət günündən ta əbəd şol dayədəndir şirimiz.

Şair insanın xilqətini, dünyanın yaranması məhz ləblərdən tələffüz olunan hərflərlə, sözlərlə bağlayır. İnsanın əzəliyyəti də (fitrət günü) və əbədiyyəti də (ta əbəd) məhz 32 (28) hərflə bağlı olduğunu təsbit edir:

Çün yazıldı vəchin üzrə "bavü lam",
Adəmi-xaki durar kövneynə cam.
Sivü dü nitqi-ilahidir kəlam,
Kim ki, bildi nitq, həqq oldu təmam.

və yaxud:

Vəchinə yazdı otuz iki hüruf,
Hikmət ilə münşiyi-ərkanımız.
Bənzədirlər dodağın xəttini reyhanə, vəli
Şol zümürrüd gühərin qiymətini əf'a nə bilir.

Nəsimi bu beytdə belə bir fikir ifadə edir ki, sənin dodağının xəttini reyhanə bənzədirlər. Lakin bu sirri, gizli mə'nanı, belə bir zümrüd gövhərin qədrini hər zəhərli ilan bilə bilməz.

Əf'i ilan zümrüdə baxanda gözləri kor olan kimi, naşı adamlar da dodağının

xəttini kor olduqlarından dərk edə bilmirlər (oxuya bilmirlər). Belələri hürufiliyin mahiyyətini dərk etməkdən çox uzaqdırlar.

Bərat-təhvil kağızı-islam dininə görə, Məhəmmədə peyğəmbərlik xəbərinin verilməsi; Məhəmmədin qızı Fatimənin toy gecəsi; şiələrin on ikinci imamı Mehdinin anadan olduğu gün və s.

Bu hadisə qəməri ilinin səkkizinci ayı sayılan şə'banın on beşində olmuşdur. Nəsiminin şe'rlərində olan on beş rəqəmi həmçinin "bərat" sözünə buradakı dini-əfsanəvi mə'nalar baxımından deyil, hürufilik baxımından yanaşılmalıdır.

Nəsimi "O günəşin şüasına (Fəzlüllahın hürufilik nəzəriyyəsi və tə'liminə-M. Ə.) hər kim ki, yol tapdı, həmin adamın hər günü bayram, axşamı, bərat axşamı olur" - dedikdə, məhz bu cəhəti nəzərə alır:

Şol günəşin şüainə, zərrəcə kim ki, buldu yol,
Hər günü eyd gecəsi, qədri-şəbi-bərat olur.

Ərəb dilində "bərat"ın lüğəti mə'nası rütbə, nişan və ya bir imtiyaz verildiyini təsdiq edən fərman deməkdir. Şair göstərir ki, hürufilik özünün mə'nəvi rütbəsi, nişanı və özünəməxsus imtiyazları ilə hər bir insanı şərəfləndirir.

Bəhri-bəhreyn -bəhr-dəniz; bəhreyn-iki dəniz.

Dişlərin əksi Nəsiminin gözünə düşəli,
Bəhri-bəhreyn olduvü lö'löi-şəhvar andadır.

Nəsimi "dişlər" dedikdə 32 sayı, rəqəmi, başqa sözlə ərəb əlifbasındakı 28 hərfi və sonradan farsların həmin əlifbaya əlavə etdikləri 4 hərfi, yə'ni ərəb əlifbasının 32 hərfini, bu əlifbanın 32 sayını nəzərdə tutur.

Beytin mə'nası belədir:

Nəsimi, sənin bu iki dənizə oxşar gözlərinə Nəimi dişlərinin əksi düşəli (Nəsiminin gözləri sənin təlqin etdiyin hərfləri görəli və o bunları dərk edəli), o elm okeanına bilik, mə'lumat ümmanına çevrildi. Böyük okeanlarda mirvari olduğu kimi, indi onun Okeanı xatırladan bədənində, varlığında şahlara layiq, ən qiymətli, ən misilsiz, iri, saf və gözəl mirvarilər vardır. Yə'ni o, artıq hürufiliyin təlqin etdiyi 28 (32) hərfin əsaslarına yiyələnib.

Bəhr midad, ağac qələm, tasi-fələk dəvat olur...

Nəsimi deyir ki, fikr edirəm (qərara gəlirəm) ki, eşqin sirrini zərrə qədər (çox çüz'i hissəsini) yazım, dəniz mürəkkəb, ağac qələm, fələk tası (göy qübbasi) mürəkkəbqabına çevrilir. Məgər belə bir eşqin mahiyyətini şərh etmək mümkündurmü?!

Şair bu beytində Qur'anın 31-ci "Loqman" surəsinin 27-ci ayəsinə işarə etmişdir. Orada deyilir ki, əgər yer üzündə olan ağaclar qələm olsaydı və böyük dənizlər (ümmanlar) mürəkkəb, əlavə olaraq yeddi dəniz o biri dəryayə kömək

etsəydi, qələmlər və dənizlərin suyu tükənər, amma allahın kəlmələri tamam olmazdı. Doğrudan da, allah qalib və hakimdir.

Nəsimi belə bir müqayisə ilə (bənzətmə ilə) özünün hürufilik təriqətini, "Cavidannamə" kitabındakı tə'limi xarakter daşıyan fikir və mülahizələri, oradakı eşqin sirrinin başqa ilahi sirlərdən daha böyük olduğunu poetik dillə təsbit edir:

"...Bəhrəvü kanə sığmazam..." - Dəniz və mə'dənə sığmaram.

Bu poetik ifadənin zahiri və səthi mə'nasıdır. Əslində isə şair burada özünün fəlsəfi, vəhdət-vücud, hürufilik qənaətini poetik dillə ifadə edir.

...İnsan əzəliyyətdə tələtümə gələn (şiddətlə dalğalanan) dəryayi-mühitin (əzəliyyətin böyük okeanı) mə'nəvi bir damlası olduğu üçün mahiyyət e'tibarı ilə də "dəryayi-mühit" olaraq qalır. İnsan dəryayi-mühitdir,-əzəli varlıqdır, allahdır. Əzəliyyətin sirri insanla aşkarlanıb. Nəqqaş (allah) özünü Bədəxşdə (Bədəxşanda), məcazi mə'nada dünyada zahirə çıxardığı lə'l ilə (insanla) tanıdıb aşkarlaşmışdır. Şair deyir ki, mən' də həmin böyük okeanın bir damlası, nəqqaşın bir naxışıyam. Deməli, mənim varlığım onun varlığından qopmuş damla, hissəcik, qəlpədir. Mən özümü dərk edib kamillik dərəcəsinə, allah mərtəbəsinə çatdırmaqla, allah ola bilərəm. Səcdə edən (bəndə, müti, məxluq, qul) dərəcəsindən səcdə olunan (sacid) zirvəsinə yüksələ bilərəm. Məntiqi nəticə isə budur ki, hazırda həmin zirvədə dayanmışam. Buna səbəb mənim kamillik dərəcəsinə yüksəlməyim olub:

Dəryayi-mühit cuşə gəldi,
Kövn ilə məkan xüruşə gəldi.
Sirri-əzəl oldu aşikara...
Nəqqaş bilindi nəqş içində,
Lə'l oldu əyan Bəxəş içində...
Məscid ilə sacid oldu vahid.

Məhz bunun nəticəsində "mən" (hürufilik təriqətinin əsasları ilə kamilləşmiş insan.

Allah mərtəbəsində dayanan insan) heç bir dənizə və mə'dənə (dünyaya, kainata, aləmə) sığa bilmərəm.

Bismillahir-rəhmanir-rəhim- Allahın adı ilə başlayıram. Allah-rəhimlərin (şəfqətlilərin) rəhimlisidir (acıyanıdır, rəhm edənidir).

Qur'anda 114 ayədən 113-ü yuxarıdakı sözlərlə başlanır. Qur'anın ilk surəsi "həmd" (fatihə, səb'ülməsani, ümmülkitab və s.) də həmin sözlə başlanır.

Hürufilərin fikrincə, bu surə rəmzlərdən ibarətdir və insanın böyüklüyü, müqəddəsliyi, allah mərtəbəsində olması (kamillik dərəcəsinə çatmaqla) haqqında bir sübutdur. Qur'anın başqa ayələrindən fərqli olaraq "həmd" surəsi iki dəfə göndərilmişdir (nazil olmuşdur).

Qur'an "həmd" ("fatihə") surəsi ilə açılır ki, hürufilikdə əsas olan 28 rəqəmi burada da öz əksini tapmışdır: fatihə 28 kəlmədən (sözdən) ibarətdir. İnsanın üzündə 14 (7 + 7 = 14) (bax. "üz"), 28 (32) və s. hərf və rəqəmlər nəqş olunmuşdur. Qur'anın müqəddiməsi 28 kəlmədən ibarət olduğu halda, hürufilikdə də hər şeyin rəmzi və açılışı məhz 28 rəqəmlə, hərflə bağlıdır. 28 hərfin əbcəd hesabı hər şeyin açarıdır. Onların fikrincə, 28 (32) hərfi özündə təcəssüm etdirən insan məhz allah surətində yaranmışdır:

Surəti-rəhmanı buldum, surəti-rəhman mənəm!
Ruhi-mütləq həq kəlamı Qafü vəl-Qur'an mənəm!

Və yaxud:

Yüzündə surəti-rəhmanı gördüm.
Qaşında Qafü vəl-Qur'anı gördüm.
Oxudum dərsi-hüsnün ayətini,
Yedi müshəf kimi Fürqanı gördüm...

Məhz bunun nəticəsi olaraq insan və onun camalı (üzü) hər şeydən uca, gözəl, dərin mə'nalı, sirli və ilahidir.

Nəsimi Fəzlüllah Nəimini allah qədər qüdrətli, əzəli bir varlıq hesab edir. Onu "həqqi-mütləq..." adlandırır. Hürufilərin, kamil insanların allahı kimi tərənnüm edir:

Fəzli bismillahir-rəhmandır rəhim,
Surətin lövhündə yazmışdır qədim.
Həqqi-mütləq sənsən, ey Fəzli-qədim...

Və yaxud:

Surətin lövhündə həq oldu müqim...
Bir əcayib şahə düşdü könlümüz...
Məzhəri-allahə düşdü könlümüz...
Surətin kim məzhəri-xəllaq imiş...
Xilqətin tə'vili Fəzlüllah imiş...

Beləliklə, Nəsimi Fəzlüllahın (Fəzlin, kamil insanın) üzündə də hələ "lövhü məhfuzda" 28 (32) hərfin yazıldığını poetik dillə təsbit edir.

Bürc - ulduzlu göyün hissəsidir. Göy qübbəsində 88 bürc vardır ki, klassik ədəbiyyatımızda, o cümlədən də Nəsimi şe'rlərində əksər hallarda əsasən 12 bürcün adı çəkilir: Həməl (Quzu), Sur (Öküz), Cövza (Əkizlər), Sərətan (Xərçəng), Əsəd (Şir), Sünbülə, Mizan (Tərəzi), Əqrəb, Qövs, Cədy (Oğlaq), Dəlv (Sətil), Hut (Balıq). Klassik poeziyamızda nücum elminə (astrologiyaya) əsasən hər bürc müəyyən xususiyyəti ilə təsvir və tərənnüm edilmişdir. Bütün klassiklərdən fərqli olaraq ilk dəfə Nəsimi tərəfindən bürclər hürufilik baxımından işıqlandırılmışdır. Nəsimi insanın bədən üzvlərini bə'zi hallarda həmin bürclərə oxşadır: Mizan-göbək; Cövza-qol; Əsəd-köks: Sünbülə-bağırsaq... Şair deyir: "On iki bürc ilə yeddi kəvakib,//Olub başdan ayaq bu yeddi sanım" və s. Şair insan bədənini, onun varlığını asiman qədər dərin hesab edir və onun öyrənilməsini irəli sürürdü. Bunların əsas üzvlərini isə hürufilik baxımından qiymətləndirir və yazırdı: "On iki bürcün kəvakib cayi, mə'vası nədir?" Bədən üzvlərini 7, 14, 21, 32, 41 və s. rəqəm və sayları əsasında poetik dillə təsvir edir. O göstərir ki, insan bədəninə nəzər salmaq, nəfsi bilmək və özünü dərk etmək lazımdır. Burada hürufilik özünün əksini tapmışdır: "Gəzdim vücudim şəhrini,

(dolu-dolu gördüm onu, (hər qanda çün sənsən əyan,) adın nədən bica imiş”...
Vahibüssurət şəkilləri (surətləri) bəxş edən (allah) deməkdir.

Dövri-qəmər məlahətin hüsnünə ixtidam edər,
Yüzünə vahibüssüvər xubluğu müstədam edər.

“Vəzzüha”- Qur'anın 11 ayədən ibarət olan “Züha” surəsinin birinci ayəsi “Vəzzüha”dır ki, Nəsiminin şe'rlərində hürufilik baxımından tez-tez işlənir.

“Vəzzüha, Vəlleyl”-həmin surədən alınmış və birinci ayə ikinci ayədən alınmış sözdür. Mə'nası: and olsun gündüzə və gecəyə.

Cəmalın vəzzüha, vəlleyl zülfün,
Sənin vəsfindədir ayat mütləq.

Beytin zahiri mə'nası belədir ki, Qur'anda and içilən səhər (Günəş) və gecə (Ay) sənin cəmalın və qara saçlarındır (ey insan!).

Beytin iç mə'nası isə daha dərindir: ey insan, sən özün dünyanı öz nuru ilə işıqlandıran allah mərtəbəsindəsən və onun sifətləri (onun haqqında deyilmiş mə'nəvi sifətlər) səndədir. “Ey pərtövi-diyari-rüxün nuri-kainat...” “Ey dürri-bəhri-zat”. Qur'anın, “İxlas” adlanan 112-ci surəsində 4-cü ayə-allahın şə'ninə deyilmiş, allahın mə'nəvi sifətlərini müəyyənləşdirən 4-cü ayə: “ləm yəlid və ləm yuləd”-yə'ni: doğmayıbdır, doğulmayıbdır (vücudi əzəlidir, cism deyildir, ata-anası yoxdur...) Nəsimi həmin sözləri insana şamil edir:

...Ləmyəlid hüsünün, vələmyuləd camal,
Hüsnünə sübhanəhü cəllə-cəlal.

Sən allah kimi and içilən “vəzzüha”, “vəlleyl” vəsf olunan: “ləm yəlid və ləmyuləd” mərtəbəsində dayanmısan. İnsan, sən allahsan!..

“Vəlleyl iza yəğşa” -Bu, Qur'andakı “Leyl” surəsinin birinci, “Şəms” surəsinin isə dördüncü ayəsidir. Mə'nası: and olsun gecəyə elə ki, örtər (günü öz zülməti ilə). Şair Qur'anın “Leyl” (gecə mə'nası verən) surəsini və onun birinci ayəsini gözəlin ağ üzünə tökülən qara saçına oxşadır. Hürufilərin tə'vilinə əsasən nəqş olunmuş hərflərdən ibarət olan insanın üzü (camalı), insanın varlığını daha əzəli və müqəddəs hesab edir və Qur'andakı bu ayələrin məhz onun hörmət, şərəf və şə'ninə gəldiyini-nazil olduğunu poetik dillə təsdiqləyir.

Şair “Vəlleyl iza yəğşa” ayəsinin əhəmiyyətini bir də onda görür ki, həmin ayə Qur'anda bir-birinin ardınca gələn “Şəms” və “Leyl” surələrinin birinci və ikinci ayələrini təşkil edir.

Gör insan nə mərtəbədə dayanmış müqəddəs və əşrəfidir ki, Qur'anın “Leyl” və “Şəms” (bax: “Vəzzüha”, “Vahibüssüvər”) surələrində də onun camalı bir-birinin ardınca iki dəfə təqdir olunub.

“Təşbihi-izmar” (gizli təşbih) isə ondan ibarətdir ki, insan vəsfinə gələn həmin surələrin biri “Leyl”-21, “Züha” isə 11 ayədən (ikisi birlikdə 32 ayədən) ibarətdir. Şairin burada “Vəchinə yazdı otuz iki hüruf...”, “Vəzzühanın afitabıdır üzün...”,

“Surəti-həqdən kinayətdir üzün”, “Çün üzündən cümlə əşya oldu faş...”, “Ey üzün ayati-ənvari-sifat” misralarını da xatırlamaq lazım gəlir.

Vənnəcm-and olsun ulduza...

Közünə vənnəcm yazdı, qaşına vənnaziat,
Alınına nəsrün minallah görünür eynülyəqin.
Sidreyi-Tuba boyundur, sərvü həqqinə,
Üzünə vəsşəms gəldi, saçına həblülmətin.

Nəsimi “Surətin nəqşini yazdı dedi rəbbül-aləmin”, “Dün gecə bir dilbər ilə eyşimiz məmur idi” və s. şe'rlərində özünün rəhbəri Fəzlüllah Nəimi ilə görüş dəqiqələrini, mürşidinin hürufilik baxımından; poetik portretini təsvir və tərənnüm edir. Belə ki, məcazi ifadələr, təşbihlər, “quş dili”ndəki işarələr Nəsiminin əksər qəzəllərində bol-bol işlənmişdir. Bu onun bütün şe'rlərinə aid olduğu üçün şərhin nisbətən geniş verilməsi lüzumu meydana çıxır.

Buradakı “Sidreyi-Tuba boyundur”, “...Tuba boyundur” sözlərindəki bənzətmələr (təşbihlər) hürufilik baxımından şərh olunur. Burada zahirən Tuba adlanan əfsanəvi ağacdan söhbət gedir. Qur'anın 13-cü surəsinin 28-ci ayəsində deyilir ki, o kəslər ki, allaha iman gətirdilər və imandan sonra saleh əməllər etdilər, onların xoş halına, həmin şəxslərə müzd və əcr (mükafat) olaraq Tuba ağacı vardır...”. Təfsirçilərin yazdıqlarına görə, Tuba ağacı behiştdə Məhəmməd peyğəmbərin qəsrində, budaqları isə behişt əhlinin üstündədir.

Nəsimi isə Fəzlüllah Nəiminin öz real Tubasının boy-buxununu həmin əfsanəvi Tubaya qarşı qoyaraq göstərir ki, onun Tubası (rəhbəri, mürşidi) 28 (32) hərfin köməkliyi ilə “öz kölgəsini hürufilərin üstünə salmışdır”, onlara rəhbərlik edir. Qur'anın 28-ci ayəsində deyilən bu sözlər hürufilərin 28 hərfinə və sayına da işarədir. Tubanın kölgəsi isə Fəzlüllahın mə'nəvi kölgəsinə, rəhbərliyinə eyham olunmuşdur. Məntiqi nəticə: hürufilər onun sayəsində (kölgəsində, köməkliyi ilə) əsl həqiqətə çatacaqlar.

Qaşına vənnaziat dedikdə hürufilərdə rəmzi rəqəm 46 ayədən ibarət olan 54-cü “Vənnaziat” surəsini nəzərə alır. Bu rəqəmlərin cəmi 100-ə bərabərdir. Köhnə e'tiqad mə'nasında təsbih çevirəndə 100 dənəli təsbihin 34 dənəsini çevirib “allah böyükdür”; 33 dənəsini çevirib “allaha şükr olsun”, son 33 dənəsini çevirib “allaha eşq olsun!” sözlərini ərəbcə söyləyənlərə “səbhəşümar”, yə'ni 100 dənə sayan-“dua ilə məşğul olan” deyirlər. Nəsimi belə bir rəqəmi insanın qaşlarında axtarıb tapır.

Bundan əlavə, “vənnaziat” olan qaşların (qaş, ərəb dilində “hacibdir” əbcədlə 14 rəqəmini təmsil edir) zülf ilə (zülf isə ərəb dilində “cə'd” deməkdir. 14 rəqəmi təmsil edir) gizli və möhkəm ittifaqları vardır. Hər şeyə qələbə çalmaqdadırlar.

Taki zülfü qaşlarından gözləri çəkdi cəri,
Oldu kövn ilə məkanın varlığı taraşınız.

Beytin gizli mə'nası tə'vil edilmədən, hətta zahiri və poetik mə'nası da bir qədər anlaşılmaz qalır. Şair Nəimiyə xitabən deyir ki, ey cəmalı göylərin allahı (ərşi rəhmanı olan) olan Nəimi! Əhsəni-surətdə sən gözəl bir çöhrəsən. Sənin üzünlə qaşın

28 hərfi və rəqəmi təmsil edən, mə'nası bilinməyən bədr və hilaldır. Sənin zülf (14) və qaşın (14) çəri (qoşun) çəkən kimi, yə'ni yayılmağa başlayandan bəri kövn ilə məkanı (bütün dünyanı) biz hürufilər ələ almışıq.

Nəzərə almaq lazımdır ki, Nəsimi bə'zi ifadələrində (məsələn, "...adə gəlrucün qaşın..." Qur'an ayəsinə (ifadəsinə) əsasən sübuta çalışır ki, Ay 28 kün ərzində fələyi seyr etdiyi kimi, hər bir insan 28 hərfin köməkliyi ilə kamillik dərəcəsinə çatdıqda, "dünyanı seyr edib öyrənə bilir" Çünki bütun sirlər 28 (32) hərfdədir, həmin hərflər isə "sirlər dünyası"nın qızıl açarıdır.

Lakin bir başqa şe'rində "qaş" iki rəqəmi təmsil edir:

Səkkizdir (səkkizdir-M. Ə.) qapusi cənnati-ədnin,
Qaşınla kiprigin zülfün müənbər.

Mə'lumdur ki, "qaş"ın ərəb dilində qarşılığı "h a c i b"dir. Əbcəd hesabı ilə 14 rəqəmi ifadə edən "zülf" sözünün qarşılığı "cəd" (bax) 14 rəqəmi ifadə etdiyi kimi, eləcə də "qaş"ın qarşılığı olan "hacib" 14 rəqəmi ifadə edir: "h" (ha'un, haye-hayi-hütti, hayi-mühmələ)=8; "a" (əlif)=1; "C" (cim, cimun)-=3; "b" (ba'un, bey)=2; Cəmi =14 (bax "Qabü qövseyn").

Deməli, "q a ş" ("hacib") və "zülf" ("cə'd") sözlərinin əbcədi 28 hərfi ifadə edir. İnsan kamil olmaq istəyirsə, bu 28 rəqəmi (hərfi) dərindən dərk etməlidir. Çünki bunlar təfəkkürün zirvə nöqtələridir, qaranlıqlarda qalan rəmzlərin, sirlərin birər zirvə nöqtələridir, iki zirvə nöqtəsidir.

Vəssəfat (vəs'saffati-səffən/səffa/2) fəzzacirati-zəcrən (vəcra/3/fəttaliyati-zikrən/zikra)

Nəsimi Qur'andan alınmış (37, 1, 2, 3) həmin ifadəni şe'rlərində işlətmiş və bu bir kəlmədə üç ayənin məzmunundan rəmzi mə'nada istifadə etmişdir. Həmin ayələrdə deyilir: 1) and olsun səf-səf duranlara. 2) and olsun özlərini incidənlərə. 3) and olsun allahın zikrini (ya da kitablarını oxuyanlara).

"Vəssaf fatiyi-səffən, kipriglərin səfidir,
"Vəzzacirat" zi "zəcrən" can hicrinin qəmidir.
"Fəttaliyati zikrən" əlqabi-qaşın, ey can,
Adəm degildir ol kim, bu mə'nidən bəridir.

Çox geniş məzmun və mə'nanı əhatə edən bu beytlərin mə'nalarından biri də budur ki, and olsun qarşımızda duran 4 müqəddəs kitaba (Tovrat, İncil, Zəbur və Qur'ana), and olsun həmin kitabları həqiqət baxımından şərh edənlərə, özlərini incidənlərə (hürufilərə).

Şair öz lirik qəhrəmanının dilindən deyir ki, çox geniş rəmzi mənaları olan, səf-səf görünən 4 cərgə kirpiyin mənə mövcud hər 4 müqəddəs kitabdan daha müqəddəsdir. Mən özümü sənin yolunda incidənlərdənəm. Ey can (ey Fəzlüllah), sən mənə hamıdan daha yaxınsan (qabü qövseyn" qədər) Səndən (sənin hürufilik təriqətindən) uzaq olan, onu dərk etməyən adam arif deyildir. Nəsimi sənin (ey can!..) hürufilik təriqətinin (yolunun, məsləkinin) qurbanı olmuşdur, fədakarıdır. Bu, "ən'əlhəq"in ("Mənəm allah"ın) ən yüksək mərtəbəsinə çatmış Fəzlüllahın mənə

(hürufilərə) ehsanıdır (hədiyyəsidir):

Oldu Nəsimi qurban dər rahi-eşqi-canan,
Aşiqlərə bu ehsan öz fəzli-davəridir.

Vəhdət - Birlik, allahın birliyinə inanma, vahidlik, vəhdəti-vücud (panteizm, təbiəti ilahiləşdirmə). Bu söz Nəsimi poeziyasında hürufilik - baxımından mə'nalandırılır.

Biz ki, vəhdət aləmindən çünki döndük kəsrəyə,
Qafil olma gördügün ol oldur əbsar, iştə gör!

Nəsimi bu qəzəlində göstərir ki, insanın üzündə ilahi bir nur var. Bunu əğyar (hürufiliyi dərk etməyənlər) görə bilməz. Bu nur hələ vaxtı ilə yaşadığımız vəhdət aləmində varlığımızda mövcud idi. Kəsrəyə - bu dünyaya gəldikdə həmin nur ilə gəlmişik. Kamil insandakı həmin nur onun "ən'əlhəq" söyləməsi üçün zəmin yaradır. Musanın gördüyü həmin od da (bax "Anəstunarən") vəhdət aləmindəki bu odun təzahürüdür. Bunu görmək və dərk etmək üçün bəsirətə, "üçüncü gözə", mə'nəvi gözə malik olmaq lazımdır.

Qabü qövseyn - İki qövs (yay, kaman; çevrənin bir hissəsi).
Qur'anın 53 - cü "Ənnəcm" surəsinin 9-cu ayəsindən alınmış ifadədir. Bu surədə ulduza and içilir, Məhəmmədin xətalara yol vermədiyi haqqında, me'raca getməsindən danışılır və elə ki, "Məhəmməd dünyadan uca yerdə idi", allaha "yaxın oldu". "Onların yaxın olmağı iki yay qədəri, ya ondan da az idi". Məhəmməd yalan demədi, o şeyi ki, öz gözü ilə gördü..."

Qabü tövseynin rümuzin sanma kim, fəhm eyləyə,
Kim ki, zahir görmədi şol mahi-bədrin qaşını.

Zahiri mə'na e'tibarilə Nəsimi deyir ki, o, oi dörd gecəlik ayın qaşını görməyən adam "qabu qövseyi" ifadəsinin sirrini başa düşə bilməz. İlk baxışda, demək olar ki, Nəsimi burada ancaq kamil insanı nəzərdə tutur.

Lakin bu zahiri mə'nadan başqa burada beytin ideya şərhi və rümuzatı üçün əhəmiyyətli olan müəmma da vardır. "Qaş" sözünün "zülf" sözü kimi özünün qarşılığı vardır. "Hacib"in mə'nası qaş deməkdir. "Hacib"in Əbcəd hesabı ilə "h" (ha'yın, hayi-məhmilə)=8; "L" (əlif=1; "C" (cim)=3; "B" (bey)=2; cəmi=14. Beləliklə, Nəsimi insanın üzü ilə qaşını vəhdətdə götürüb təvil edir. Şair göstərir ki, insan kamilləşmək naminə 14 gecəlik Ayın insan üzünün (camalının) qaşını (hacib=14) görmədən, 28 hərfin (rəqəmin) mə'nasını (rümuzunu) dərk etmədən "Qabü qövseyn"in mə'nasını və bunların rəmzlərini dərk edə bilməz.

Bəs buradakı "rümuzat" nədir? Şair deyir ki, "Surətin nəqşində hər kim görmədi nəqqaşını, Vahibüssurət (surət şəkli bəxş edən, allah) onun gözsüz yaratmış başını".
Məhəmməd me'raca gedən zamam iki qövs məsafəsi, bəlkə, ondan da az məsafədə

allah ilə me'rac vaxtı görüşdüyü kimi, hürufi də 28 hərfi təmsil edən insan camalı (mahi-bədri) və onun qaşını görüb rəmzi mə'nasını dərk etmədən kamil insan kimi me'rac edə bilməz:

Ey cəmalın ərşi-rəhman, qabü qövseyn qaşınız,
Nəqşi-maövha yazıbdır hüsnünə nəqqaşımız.
...Ey üzü cənnət, xəti reyhan, dodağı səlsəbil,
Laməkan bədrü hilalidir üzünlə qaşınız.
"Qalü bəla"nin əhdini unutmazam, unutma kim,
İmanı tövhid əhlinin şol əhdü şol iqrar imiş.

Nəsimi həmin ifadəni Qur'anın 7-ci surə 17-ci ayəsində işlənmiş tərkibdən iqtibas etmişdir. (7 və 17 rəqəmlərinin hürüfilikdəki geniş rəmzi mə'naları şərh boyu aydınlaşdırılır). Şair həmin ifadəni burada da işlədərkən, hər şeydən əvvəl, həmin rəmzi rəqəmləri nəzərdə tutur.

Bundan əlavə, "Ə' l ə s t u b i r r ə b b i k u m Q a l u B ə l a"-"Sizin tanrınız mən deyiləmmi? Bəli, dedilər." ayəsindəki sözlər klassik poeziyamızda dini-əfsanəvi bir poetik təlmihdir.

...Guya dünya yaranmamışdan qabaq arif adamların ruhu mövcud imiş. Bu ariflərin ilk yığıncağında (bu yığıncaq klassik poeziyamızda və Nəsimi şe'rlərində "məclisi-bəzmi-əzəl" adlanır.) Guya Allah onlardan xəbər alır ki, "Mən sizin tanrınız deyiləmmi? Onlar bir səslə cavab verirlər ki, bəli. Sonra bu arif adamlara əzəli mey, ilahi mey içirdilmişdir. Bu adamlar sonradan dünyaya iqrar ilə-iman hissi ilə qayıtmışlar:

"Qaludən" əgər aləmə iqrar ilə gəldin,
Tərk eyləmə iqrarını, inkara yapışma!

Guya bu arif adamlar dünyaya gələn gündən özlərini dərk edib kamilləşdikcə, bu məhəbbət atəşi və nuru ilə, bu ilk meyin sərməstliyi ilə həyatı daha dərindən qavramağa başlayır. Bu mey ariflərin idrak mənbəyidir:

Qalü bəladə can sana qılmışdı iqrar, ey sənəm,
İndi aramızda bizim şol əhdü şol peyman gərək.
"Qalü bəladə" guya xərabat idi yerim,
Şol mə'nidən mücaviri-meyxanəyəm yenə.

Nəsimi Fəzlüllaha xitabən deyir ki, hürufilərin bu ilk yığıncağında o da belə bir mey içmişdir. O, hürufiliyə sədaqətlə xidmət edəcəkdir. Çünki, hürufiliyin meyi onun can cövhəridir:

Eşqinə "qalu bəla"çün demişəm sidq ilə,
Əhdini sındırmazam durmuşam iqrarinə.

və yaxud:

“Qalü bəla”nin əhdini unutmazam, unutma kim,
İmanı tovhid əhlinin şol əhdü şol iqrar imiş

Qarun-Mal və dövlətinin çoxluğu və acgözlüyü, xəsisliyi ilə tanınmış əfsanəvi bir şəxs olmuşdur. Musa peyğəmbərin müasiri hesab olunur. Klassik poeziyamızda var-dövlət və acgözlük, xəsislik rəmzidir. Rəvayətə körə Musanın qarqışı ilə məhv olmuş, var-dövləti ilə yerə batmışdır.
Nəsimidə hürufilərin rəmzi mə'nada işlətdikləri tük (qıl) ən qiymətli sərvət kimi Qarun xəzinəsi ilə bərabər tutulur.

Qaf -Nəsiminin çox işlətdiyi bu söz əbcəd hesabı ilə 100 rəqəmini bildirir. Şair “Qaf” sözünü həm böyük, həm də kiçik əbcədlə işlətmişdir.

“Qaf” həmçinin əfsanələrdə Ənqa (Simurq) adlı mövhum quşun yaşadığı Qafqaz sıra dağlarından birinin- Elbrusun qədim adıdır.

“Qaf” sözündə həmçinin Qafqaz dağları nəzərdə tutulub.

“Qaf” bütün dünyanı əhatə edən, dünyanın bir başından digər başına qədər uzanan əfsanəvi dağın adıdır. “Qaf”dan “Qaf”a qədər, yə'ni dünyanın bu başından o başına qədər. Şair yazır:

Eşq ilə sən, ey Nəsimi, seyr edərkən guhi-Qaf,
Sənsən ol ali-məqamda şəhpəri-Ənqayi-əşq.

“Q”- “Qaf”, həmçinin Qur'anın 50-ci surəsidir. Bu surə 45 ayə, 357 kəlmə 1494 hərfdən ibarətdir. Qur'an təfsirçiləri “Qaf” sözünü “and olsun Qaf dağına”, “and olsun şanı böyük Qur'ana” şəklində də şərh edirlər. Nəsimi hürufilik baxımından “Qaf” sözünü belə tə'vil edir.

Qaf-qövseyn oldu qaşın aşiqə mehrablər,
Səcdəgah oldu anınçün şahi-cümlə ənbiya.

və yaxud:

Qaf-qaşın ilə gözün, zülfü dəhanın həvəsi,
Bizə nə izzəti hörmət qodu, nə elmü vüqar.

və yaxud:

Qaf-qüvvət qalmadı artıq tənimdə təqatim,
Kaf-kafir gözlərin kim, Rüstəmi-dastan olur.

Qaf vəl Qur'ani-“and olsun Qaf və Qur'ana”.

Ey üzün səbül'məsani nəzzəl əl-fürqan budur,
Vəhyi-mütləq, həq kəlami qafü vəlqur'an budur.

Qur'anın şərhçiləri "Qaf" sözünü müxtəlif şəkildə şərh edirlər. Əksəri göstərir ki, bu dağ yer kürəsini əhatə etmiş və sinəsi qiymətli daşlarla doludur.

Nəsimi isə göstərir ki, "and olsun Qaf və Qur'ana" sözləri insan şərəfini, gözəlliyini və müqəddəsliyini təqdir edir. Qur'anın "Qaf" surəsinin başlanğıcında yazılmış bu sözlər insanın üzündəki on dörd xətti (7+7 = 14) təqdir edir.

Qaş, kiprik- Göstərdik ki, qaş müxtəlif rəmzi rəqəmləri təmsil edir. Əksər yerdə qaş və kiprik altı sayının hürufilik dili ilə və rəmzi mə'nası ilə göstərir (qaş = 2; kiprik = 4; cəmi 6). Nəsimi yazır:

Qaşınla kipriyin çün seyd eylədi cahani,
Səyyad olana, ayruq tirü kəman gərəksiz.

Nəsimi göstərir KI, ey insan, dünyanın altı tərəfini (Şimal, Cənub, Şərq, Qərb, Yuxarı, Aşağı) sənin qaşınla kipriyin öz qüdrəti ilə ovlamışdır. Başqa sözlə qaşınla kipriyin sənin gözəlliyinin ən yüksək zirvəsidir.

Qədr-leylətül-qədr (leylət-əl-qədr)-"qədr", "qədr gecəsi"; "taleyin həll edilməsi gecəsi; qüdrət gecəsi" deməkdir.

Qur'anda çox işlənən və ona tez-tez işarə olunan sözlərdir. Bu adda əlavə olaraq 5 ayədən ibarət xüsusi surə də vardır. Həmin gecəni məsciddə-keçirmək, Qur'an oxumaq, ibadətlə məşğul olmaq islam aləmində bir adət halını almışdır. Qur'anda "qədr gecəsi"nin ramazan ayında olması göstərilir və həmin ay müqəddəs ay hesab olunur. 23 il müddətində yaranan Qur'anın ilk ayəsinin "vəhyi", "qədr gecəsi" ilə əlaqələndirilir. Qur'anda yazılır: "Biz nazil etdik Qur'anı qədr gecəsində, "Qədr gecəsi" min aydan yaxşıdır. Mələklər və Cəbrayıl həmin gecə allahın əmri ilə yerə endirildiyindən, "qədr gecəsi" min aydan yaxşıdır.

İlahiyyatçılar sübuta çalışırlar ki, həmin gecənin allahın yanında qədr VƏ qiyməti çox olduğundan "qədr gecəsi" ("leylətülqədr") adlandırılmışdır.

Məhz buna görə də "qədr gecəsi" islam dinində əziz və müqəddəs gecələrdən hesab olunur. Qur'anda bu gecədən çox danışılsa da, həmin kecənin ilin hansı ayında olması haqqında mə'lumat verilmir. İlahiyyatçıların əksəri Ramazan ayının 19, 21, 23 və 27-çi gecələrindən birinin "qədr gecəsi" olduğunu yazırlar, həmin gecənin ayın 27-də olmasını göstərənlər daha çoxdur.

Bu gecədəki ibadət ilin bütün gecələrindəki ibadətdən daha şərəfli sayılır. Nəsiminin şe'rlərində həmin rəqəmlərin (19, 21, 23 və 27 əbcəd hesabı ilə) hürufilik ideyaları baxımından müxtəlif yozumları vardır. Hürufilikdə müqəddəs kitabların sayı 5-ə çatdırılır: Tovrat, Zəbur, İncil, Qur'an və Cavidannamə. Onlar "Qədr" surəsindəki 5 ayənin qabaqcadan bu sonuncu kitabın da yaranacağına rəmzi işarə hesab edirlər. Fəzlüllahı Günəşə bənzədən Nəsimi deyir KI, hər kəs onun ideyalarına zərrəcə yol tapdısa, belə bir adamın hər günü bayram, gecəsi isə "qədr gecəsi"nə çevrilir.

Şol günəşin şüasinə zərrəcə kim ki, buldu yol,
Hər günü eyd, gecəsi qədri-şəbi-bərat olur.

Nəsimi göstərir ki, Fəzlüllah, o cümlədən hər bir kamillik dərəcəsinə can atan,

xüsusilə, belə bir dərəcəyə çatan şəxs elə mə'nəvi günəşdir. Onun üzündəki 7 (7X2=14) xətt onun əsl daxili mə'nasını (“surəti-mə'ni”sini, təriqət ədəbiyyatında çox işlənən terminlərdəndir) açıb göstərir və insan şərafətinin ucalığını təsbit edir:

Sureyi-səb'ülməsanidir cəmalın, ey günəş,
Surəti-mə'ni mənə səb'ülməsani göstərir...
Hüsnünə heyran olubdur mahü xurşidi-səma,
Mahü xurşidin cəmalı bu bəyani göstərir.

Şair insanı bütün dünyanı işıqlandıran Günəş VƏ Aydan üstun tutur. Deyir ki, Günəşdən və Aydan daha qiymətli və nurlu bir varlıq vardır ki, o da insandır. Günəş də, Ay da öz mə'nəvi nurunu insandan, onun 14 mə'nəvi nəqşindən alır:

Ey yanağından münəvvər aftab,
Düşdü hüsnün pərtövündən ayə tab.

Kipriyin, zülfün, qaşın ümmülkitab (4+1+2=2X2=14) Qiblə-İslam dininə görə müsəlmanlar mütləq dua və ibadətlə məşğul olmalıdırlar ki, bu, namaz (səlat) adlanır. Müsəlmanlar gündə 5 dəfə namaz qılmalıdırlar. Dində namaz mö'minlərin me'racı adlanır. Namaz 17 rük'ətdən ibarətdir. Müsəlmanlar namaz qılarkən, üzlərini mütləq qibləyə tərəf tutmalıdırlar. Məscidlərdə qibləni göstərən xüsusi oyuq olur ki, bu da mehrab adlanır.

Nəsimi öz şe'rlərində qiblə, namaz, “5”, “17” və s. söz və rəqəmlərini hürufilik baxımından tə'vil edir və göstərir ki, əsl qiblə insanın üzüdür, insandan müqəddəs və ali varlıq yoxdur. Onun üzu “əhsəni-təqvim” yaranmışdır. Müsəlmanlar üzlərini Kə'bəyə çevirib namaz qılmaqdansa bilməlidirlər ki, kamil insan (yəni lirik qəhrəman-“mən”) həm Kə'bə, həm də namazdır.

Lövhi-məhfuzəm, hürufəm, əbcədəm mən, həm heca.
Həm Xəlilə Kə'bə oldum, həm mənəm sövmü səlat.

Şair Fəzlin üzünü Kə'bə, zülf və üzünü “qiblə ilə iman” adlandırıb, “əhsəni-təqvim”ində allahı görürdü. Fəzlin, kamil insanın gözəlliyinə səcdə etməyənləri lə'nətə gəlmiş cin və şeytan adlandırırdı.

Kə'bə yüzündür bizə, ey fəzli-həq,
Zülfü rüxün qiblәvü imanımız.

Fuad Köprülüzadə yazır ki, hürufilər ərəb hərflərini və müvafiq rəqəmləri insan üzündə axtarır və müəyyən xətlərin görünməsinə me'rac deyirlər. Hürufi insan üzündəki xətləri kamil insan səviyyəsində görə bilirsə, bu onun me'racı deməkdir. Qur'anın “Bəni-israil” surəsində də namaz (səlat) qılmaq zəruriyyətindən danışılır. Həmin surənin birinci ayəsi “sübha-nəlləzi”, “əsra biəbdihi”... sözləri ilə başlanır ki, mə'nası-pak və münəzzəhdir bütün eyblərdən o allah ki, gecə vaxtı seyr etdirdi öz bəndəsi və seçilmişini (Məhəmmədi)... məscidülhəramdan uzaq məscidədək... və

(Beytülmə'murdən və ya Beytülmüqəddəsdən)...

Me'racdan bəhs edən yuxarıdakı ayədə 17 hərf vardır. Kiçik Namazda da (səlatda) 17 rük'ət var. Nəsimi deyir ki, bu 17 rəqəm (hərf) insanın zülfündədir. Zülfün qarşılığı olan "cə'd"-qıvrım saç kiçik əbcədlə (əbcədi-səğirlə) 17 deməkdir. (c=3; ayn=10; d=4; cəmi=17). Deməli, insanın saçı (zülfü) hürufi rümuzatı ilə 17-dir.

Kamil insan bunları dərk etməlidir. Onun namazı və səcdəsi insan olmalıdır. Bu surənin 61-ci ayəsində deyilir ki, biz mələklərə dedik ki, insana səcdə edin, onlar da səcdə etdilər. Şeytan isə imtina etdi. Dedi ki, palçıqdan yaradılmış (xəlq olunmuş) insana səcdə etmərəm. Surənin 78-ci ayəsində isə deyilir ki, sübhdən gecəyə qədər namaz qıl.

Nəsimi bu ayələri hürufilik baxımından tə'vil edərək göstərir ki, 17 rük'ətdən ibarət olan, mö'minin me'racı adlandırılan (hesab edilən) namaz insanın üzündəki (zülfündəki) 17 xətti görmək və ona müqəddəs varlıq kimi səcdə etmək deməkdir. Unudulmamalıdır ki, bu surənin özü və ilk ayəsi də məhz insan şərəfinə söylənilmişdir. İnsan səcdəyə layiqdir:

Kim ki, sücud eyləmədi hüsnünə,
Divi-lə'in olduvü şeytanımız.

Qiran-birləşmə, yaxınlaşma deməkdir.

Cəmalın görəli mən ol pərinin
Könül məcmui-aləmdəm bəridir
Uş ol məhbub ilə həmdəm olan gün,
Əcəb qirani-mahü Müştəridir.

Nücum elminin qənaəti və köhnə təsəvvürə görə, guya insanların hər birinin taleyi müvafiq ulduzların və bürclərin hər hansı biri ilə bağlıdır. Bunların Aya və yaxud hər hansı bürcə yaxınlaşması nəticəsində həmin insanın, hətta dünyada baş verə biləcək hadisələrə müsbət və yaxud mənfi tə'siri olur. Başqa sözlə bunların bir-biri ilə yaxınlaşması həm uğurlu və həm də uğursuz nəticələr verə bilir.

Nəsimi burada göstərir ki, Fəzlüllahın üzünü görəndən bəri könlüm bütün aləmdən, aləmin gözəlliklərindən uzaqlaşmışdır. Onun mə'nəvi gözəlliyi mənə gözəllik zirvəsinə çevrilmişdir. Mən onunla həmdəm olan gündən Ay Müştəri ulduzuna yaxınlaşır. Müştəri (Yupiter) Aya yaxınlaşanda, uğurluluq, xoşbəxtlik nəticələri hasil olur. Fəzlüllah və onun hürufilik ideyaları mənim və bəşəriyyətin həyatında xoşbəxtlik rəmzidir.

Qur'an- müsəlmanların müqəddəs kitabı, Məhəmməd peyğəmbərə nazil olan "ilahi vəhylərin" məcmusudur. "Qur'an" sözünün mə'nası oxumaq, tələffüz etmək (yə'ni Məhəmmədə deyilənlərin və onun təkrar etdiklərinin oxunması) deməkdir. Onu həmçinin "müshəf kitab" adlandırırlar, mətnin özündə isə "zikr" (xəbərdarlıq, xatırlatma) adına da rast gəlirik.

Qur'an, "surə" adlanan 114 fəslə bölünür...

Nəsimi Qur'anın adını çəkdikdə, məhz müsəlmanların və özünün müqəddəs kitabı kimi deyil, onun əsasında hürufilik ideyalarını, insanın əşrafim-əxluq olmasını,

insanın özünü dərk etməklə allah mərtəbəsini kəsb etməsini, “ənəlhəq”-“mənəm həq”, “mənəm allah” deməyə qadir olmasını poetik və fəlsəfi müddəalarla təsdiqləyirdi.

Nəsimi Qur'anı və onun başlanğıcı olan “Fatihə”ni (müshəf, səb'ülməsani, həmd, ümmülkitab) insanın üzündə, varlığında axtarırdı. Onun Qur'an haqqındakı müddəaları zəmanəsinin və ümumiyyətlə islam aləminin qayda-qanunları ilə tamamilə ziddiyyət təşkil etmişdir. Xaqani, Nizami, Xətai, Füzuli və başqa klassiklərimiz də Qur'anın adını öz şe'rlərində işlətmiş, müvafiq surə və ayələrin iqtibas etmişlər. Lakin bunların heç biri Nəsimi qədər Qur'anın adını çəkməmiş və onun qədər Qur'ana zidd mövqe tutan şair olmamışdır.

Nəsimi Qur'anı “müqəddəs kitab” kimi deyil, hürufiliyin yeni təriqəti və yeni ideyası kimi təsbit olunmasını əsaslandırmaq üçün, onun müxtəlif surə və ayələrini tez-tez xatırlamışdır:

Cameyi-cümlə xəlayiq nüsxeyi-ümmülkitab,
Olduğiyçün, bu bəşər şəklində Qur'an göstərir...
....Sureyi-səb'ülməsanidir cəmalın, ey günəş,
Surəti-ma'na mənə sab'ülməsani göstərir.
...Üzü müshəf, xətti bismillah, xalı nöqtədir,
Sözü rəhmanir-rəhim, məcmui-Qur'an göstərir.
...Pərdə üzündən götur, ey surətin,
Ərşi-ilahi ilə Qur'anımız...
...Surəti-rəhmanı buldum, surəti-rəhman mənəm!
Ruhi-mütləq, həq kəlamı “qaf-vəlqur”an mənəm və s.

beytlərin hamısı göstərir ki, Nəsimi “Qur'an” sözünü, onun surə və ayələrini islam dininin qənaətləri, qayda və qanunlarının təsdiqi naminə işlətməmişdir.

Quş dili-klassik ədəbiyyatımızda çox işlənən, Yaxın Şərq ədəbiyyatında, bu iki kəlmə söz anlaşılmaz dil, çətin anlaşılan eyham, dolğun mə'nalı, üstüörtülü, eyhamlı söz-söhbət mə'nalarında işlənmişdir. Nizaminin “Süleyman və qoca əkinçinin hekayəsi”ndə ...kəndçinin səpdiyi dənələrin sirri Süleymanın quşlar (anlayan) dilini açaraq, ona (kəndçiyə) deyir ki: “...mənim kimi adamla quş dilində danışma...”.
Nəsimi də hürufilik ideyaları, islam dini əleyhinə olan müvafiq fikirləri yeri gəldikcə üstuörtülü, ba'zi hallarda isə daha gizli təşbihlərlə və eyhamlarla (onun öz dili ilə desək), “quş dili ilə” ifadə edir. Şair göstərir ki, şe'rimda olan mə'nadan əlavə “özgə bir lisanla” (dillə) ifadə olunan fikirlər da vardır:

Sən bu Nəsiminin dilini anla, bil sözün
Kim, var bu dildən özgə bizim bir lisanımız.

Belə fəlsəfi, poetik dili isə „quş dili“ adlandıran şair deyir:

Heç kimsə Nəsimi sözünü kəşf edə bilməz,
Bu quş dilidir, bunu Süleyman bilir ancaq.

Şair gizli təşbih və rəmzi ifadələrlə söylədiyi fikirlərin „zəbanə“ (dilə-M. Ə.) sığmaz olduğunu söyləyir:

Narə yanan şəcər mənəm, çərxə çıxan həcər mənəm,
Gör bu odun zəbanəsin, mən bu zəbanə sığmazam.

Nəsimi göstərir ki, Ənqa quşu Qaf dağlarındadır ki, quş dilini bilən yalnız Süleyman olduğu halda, hər adam o zirvəyə çıxa bilməz. Bizim elə bir dilimiz var ki, daha gizli təşbih və eyhamlarla ifadə olunduğundan çövkan oyunu kimi nə oyundan çıxsan, zülf (zülf-cə'd) sözünün hətta rəmzi mə'nasını belə hərtərəfli dərk edə bilməzsən. Bu, quş dilini bilən Süleyman kimi peyğəmbər üçün də çox çətindir.

Ey badi-səba, var xəbəri yarə ilət kim,
Hüdhud dilidir, bunu Süleyman dəxi bilməz,
Zülfünə başın top edibən qoydu Nəsimi,
Zülfün sözünü dünyada çövkan dəxi bilməz.

Nəsimi hürufiliyin ən gizli sirlərini, hətta quş dili bilən Süleymanın belə başa düşməməsini yaxşı hal hesab edirdi. Bu dilin „tərcümə“ olunmaması, „sirlərin faş olmaması“nı müsbət hal hesab edirdi.
Şair belə hesab edirdi ki, bu „quş dili“ ancaq „bilənə“ çatdırılmalı, bilməyən üçün „müşkülat“ qalmalıdır. Bu keyfiyyəti hürufilərin məziyyəti hesab edirdi:

Nəsimiyəm ki, hər şeyy külli-mühit oldum,
Həm bilənə həll oldum, bilməzə müşkilatəm.

Quş dilini isə yalnız „dərs almaqla“, hürufilərə məxsus rümuzatı dərk etməklə başa düşmək mümkündür:

Əmri-həqdir, çün bular, ey əmri-həq,
Gəl buların dəftərindən al səbəq.
Oxu bulardan, bəri gəl, quş dilin,
Həll edəsən ta ki, nəfsin müşkilin.
Bunlara derlər, şəha, ümmülkitab,
Fe'lü əşyaya bulardır fəthi-bab.

Şair göstərir ki, ancaq quş dili ilə Fəzli başa düşmək, „fəthi-bab“ etmək mümkündür.
Nəsiminin aşağıdakı beyti Süleymanın dili ilə hürufilərin „quş dili“ arasındakı fərqi aydın göstərir:

Tovratü İncilü Fürqan qamu hüsnün sifəti,
Adəmin şərhidürür, ayəti şeytan nə bilür?
İnsü cinnin dilini gərçi Süleyman bildi,

Sən bilən dili bu gün jəni Süleyman nə bilür?
(“Nəsimi”, 1973, səh. 450).

Nəsimi hürufilərin arif və bilicilərinə müraciət edərək deyirdi ki, Süleyman da “quş dili”ni bilirdi, sən də. Onun bildiyi dil ilə sənin bildiyin “quş dili” tamamilə bir-birindən fərqlənir.

Nəsimi Əttarın “Məntiqüt-teyr” (“quşların dili”) əsərindəki təfsir, izah və şərholunmaz “quş dili”nin xüsusiyyətinə işarə edərək belə yazır:

Xəttü xalın “Məntiqüt-teyr” oldu əhli-vəhdətin,
Quş dilin sən tərcüman etmək dilərsən, etməgil.

Bu dilin elə anlaşılması çətin olan tərəfləri vardır ki, hətta bütün quşların dilini, o cümlədən də şanapipiyin (hophop, hudhud) dilişə çox yaxşı bilən Süleyman peyğəmbərin özü belə bir dildən baş açа bilməz, ona “tərcüman” olunması isə məsləhət deyil, rəmzlərdən ibarət olan hürufilik dili, ümumiyyətlə, “quş dili”dir. Mə'lumdur ki, hürufilər öz məram və fikirlərini böyük müəllim və rəhbərləri olan Fəzlüllahdan öyrəndiklərini fəxrlə təsdiqləyir və bunları “quş dili” ilə ifadə etdiklərini söyləyirdilər.

“Qül kəfa…”-Qur'andan alınmış ifadənin mə'nası “kifayət edər” deməkdir. Həmin ayədə deyilir: “Ey pəyğəmbər, söylə ki, Sizinlə mənim aramda göydəkiləri və yerdəkiləri bilən allahın şahidi olması kifayət edər. O şəxslər ki, batilə (“puç olma”, “heçə çıxmaya” dini mə'nada) inanırlar, onlar ziyan edənlərdir.
Şair həmin ayəni belə tə'vil edir ki, burada insan camalının, onun müqəddəsliyinin, gözəlliyinin, “ənəlhəq” mərtəbəsinin və s. keyfiyyətlərinin şanına olan sözlərdir, hökmlərdir.

Zilli-sanidir saçın “inna ileyhi-raciun”,
“Qül kəfa”nın aftabi xoş mə'ani göstərir.

Ey insan, səndəki bütün gözəllik, müqəddəslik və s. keyfiyyətlərini təmsil edən, 17 sayını təcəssüm etdirən saçın sənin ikinci himayəçindir. Səni, sənin rümuzatının (rəmzlərini) dərk etməyənlərə, qula çevrilib, ancaq ziyan edənlərdir. Adın üç hərfdən ibarətdir, bab (qapı) da üç hərfdir. Hürufiliyi ancaq bu mə'nəvi qapıdan girməklə dərk etmək olar, əks təqdirdə Qur'anda deyildiyi kimi (77, 30) bu üç hərf, üç şaxəsi olan kölgəyə çevriləcək, sağdan, soldan və yuxarıdan sizi əhatə edəcək: “gedin o kölgəyə tərəf ki, üç şaxəsi var” hökmunü verəcəkdir. Siz ziyana, zəlalətə və məhrumiyyətə düşəcək, “biz allahın quluyuq” (2, 156) qənaəti ilə itaətkar vəziyyətinə düşəcəksiniz.
Ey insan, sən özünü dərk et və tanı! Sən bir həqsən, bu həqdən örtüyü götür və əsl mahiyyətinlə görün. “Qul kəfa” allahla əlaqədar deyildir, bu sözlərdə sənin varlığın və gözəlliyin təsbit olunmuşdur:

Ey üzün minindəhü elmülkitab,
“Qul kəfa” gəldi cəmalından xitab.

Surətin həqdir, götür həqdən niqab,
Həq budur, vəllahi-aləm-bissəvab.

Şair deyir ki, məhz buna görə də, "qül kəfa" Qur'andakı mə'naları deyil, onun işığı (aftabı, günəşi, şair "günəş" dedikdə Fəzlüllahın üzünü, insanların sifətini, camalını nəzərdə tuturdu) xoş mə'naları, məani elmini özündə təcəssüm etdirir: "Vəhdətin şəmsi üzündür, laməkanı göstərir". "Yə'ni sənin üzün də məhz laməkanı" (məkansız, allahın epitetlərindən biridir) göstərir.

Dəhanın rümuzu-ağızın rəmzləri. Bu ifadə Nəsimi şe'rlərində çox işlənir:

Kəşf eylədi Nəsimi dəhanın rümuzunu,
Miftahi-qeybə gör ki, nə dəndanəyəm yenə.

Nəsimi sənin daxili sirlərini, rəmzlərini kəşf eylədi. Səni, ey hürufiliyin rəhbəri, dərk etdi.

"Dəhan" və "ləb" rəmzi mə'naları ifadə edir. Ağızda olan sirlər dodaqlar vasitəsilə tələffüz olunur. Ləb Əbcəd hesabı ilə: "l"=30; "b"=2; yəni 32.
Şair deyir ki, Fəzlüllahın 32 hərflə çatdırmaq istədiyi rəmzləri, (gizli) sirləri, ancaq 32 dişin içində qalmış ən məxfi sirləri açmağa, onları dərk etməyə nail oldum. "Nə diş bilsin, nə dodaq" tapşırığına əməl etməklə, qeyblərin (ən gizli sirlərin) açarı oldum, "miftahi-qeyb" oldum. İndi mənə bax, gör ki, necə dişlərəm (dəndanəyəm). Yə'ni 32 dişin arasında gizlənmiş sirlərin daşıyıcısı və şərh edəniyəm.

Doqquz-doqquz nücum elmində 9 fələyi təmsil edir: Birincisi-Ay fələki (fələkül-Qəmər). İkincisi-Merkuri fələki (fələki-Ütarid). Üçüncüsü Venera fələki (fələki-Zöhrə). Dördüncüsü-Günəş fələki (fələküş-Şəms) Beşincisi-Mars fələgi (fələkül-Mərrix). Altıncısı-Yupiter fələki (fələkül-Müştəri). Yeddincisi-Saturn fələki (fələküz-Zühəl). Səkkizincisi-Bürclər fələki (fələkül-büruc). Doqquzuncusu-Ətləs fələki (fələkül-ətləs).

Ətləs fələki başqa fələklərin əksinə olaraq Şərqdən Qərbə gündəlik dairəvi hərəkətdədir. Bu fələklərin hər birinin özünə xas olan surətli və yaxud aram hərəkəti vardır.

M. Füzulinin yuxarıdakı şəkildə təsvirini verdiyi bu doqquz fələk anlayışında klassik poeziyamızda ciddi bir fərq yoxdur. Lakin hürufilər bu doqquz hərfin özündə çox dərin rəmzi mə'nalar axtarırdılar.

Doqquz ata, yeddi ana, dörd dayədən ver xəbər,
Dü cəharü pəncü şeşin saqü binası nədir?

Şərqdə ədəbi və fəlsəfi əsərlərdə, xüsusilə, hürufilərin əsərlərində "Aba" ("atalar" sözü ilə yeddi səyyarə nəzərdə tutulmuşdur. ("aba-səb'ə"— (yeddi ata) "aba'i-ülvi" göylərdəki ata) nəzərdə tutulmuşdur. Hürufilərin fikrincə, bütun bu yüksəkliklərin fövqündə 32 hərf dayanır:

Doqquz ata, yeddi ana=7, dörd dayə=4, Dü=2, cəharü=4, pənc=5, Şəş=6. Yə'ni, bütün varlığı təşkil və şərh edən 28 (32) hərfdir. Bu 32 hərf (28 hərf) bütün sirlərin rümuzunu açır. Öz üstünlüyü ilə 9 ata, hətta 7 ananı da özündə təcəssüm etdirir. 7 ana

da 9 ataya daxildir.

Doğdu məğribdən günəş... doğdu məşriqdən günəş.

Axı, təbiətin qanununa görə, Günəş Şərqdən doğur, Qərbdə batır. Lakin Nəsimi "Doğdu Məğribdən Günəş...", "Çıxdı Məğribdən Günəş..." yazır. Bu, məntiqsizlik deyilmi? Savadsız xəttatlar, o cümlədən də İraq divanının üzünü köçürən xəttat bu ifadəni "Doğdu Məşriqdən Günəş" şəklində köçürmuşdür. Bu, Nəsimi şe'rlərindəki "quş dili"ni başa düşməməkdən irəli gəlmişdir.

Nəsimi "Doğdu Məğribdən Günəş..." dedikdə nəyi nəzərdə tutmuşdur? Şair burada nəyə eyham etmişdir?

Nəsimi çoxlu beytində öz rəhbərini (Fəzlüllahı) şiələrin 12-ci imamı Mehdiyi-sahibəzzəmanə oxşadır. Şiələrə görə, guya qiyamətdən qabaq bir də qiyamətlər qiyaməti olacaq. Qeyb olmuş imam Qərbdən (Məğribdən) zühur edəcəkdir. Adamları düz yola də'vət edəcəkdir. Məğribdən zühur edəcək Mehdi qiyamətdən qabaq qiyamətlərin qiyamətini qoparacaqdır. Şair bir çox şe'r və və qəzəllərində olduğu kimi aşağıdakı rübaisində də həmin fikri belə ifadə edir:

Doğdu Məğribdən Günəş, endi Məsih,
Burğu çalındıvü həşr oldu səhih...

Şiələrin dini-əfsanəvi əqidəsindən doğan belə bir rəvayət də vardır ki, bundan əlavə Qərbdən (Məğribdən) Mehdinin zühuri ilə əlaqədar bir söz, səs də eşidiləcəkdir. Bu söz və səs adamları həqiqi yola də'vət edəcəkdir.

Əhli-fəna olsa fəna iqlimi-həftin varına.
Bil kim, həqiqət sözüdür kim, Mehdiyi-dövran gəlir.
(Nəsimi, Əsərləri, Tənqidi mətn. I cild)

Nəsimi "Çaxdı Məğribdən Günəş...", "Doğdu Məğribdən Günəş.." ifadələri ilə göstərir ki, Məğribdən gələcəyi gözlənilən Mehdi məhz Fəzlüllah, onun gəlişi ilə eşidiləcək səs, söz isə hürifilikdir... Hürufilikdən və onun əsasını təşkil edən hərf, rəqəm, söz, rəmzlər və s. yüksək heç nə yoxdur. Böyük hərflə söz hər şeyin əsasını təşkil edir və ən ali mərtəbədə dayanır:

+1+1 +1+1=4
Əqli-gül, ərşü kürsi lövhü qələm,
4+ 1
Çar ənasirlə asimandəır söz! = 5
cəmi: 9

Nəsimi bu beytdə hürufilik baxımından sözün ucalığını poetik dillə 9 fələyin adı və ali mərtəbəsi ilə bağlamışdır. 1) Ay fələyi; 2) Ütarid fələyi; 3) Zöhrə (Venera) fələyi; 4) Günəş fələyi; 5) Mərrix fələyi (Mars); 6) Müştəri (Yupiter) fələyi; 7) Zühəl (Saturn) fələyi; 8) Bürclər fələyi; 9) Ətləs fələyi. Şairin fikrincə, sözdən (hərf, söz, rəqəm, rəmz və s.) dərin mə'naya malik olan heç bir şey yoxdur. Hürufilərin isə bu sözünü heç bir lüğət açа bilməz:

Ol müvəhhid kim, həqi yüzündə gördü bigüman,

Əbcədin hərfin ana bürhan degildir, bəs nədir.

Əbcəd 28 hərfdən ibarətdir. Hər hərf müəyyən rəqəmləri ifadə edir.
Şair ritorik sualla cavab verir ki, üzündə gördüyüm sübut (dəlil, bürhan) kifayətdir. Nəsimi əbcəd adını çəkir, ayın üzünü xatırladır. Lakin bu, yayındırmadır. Əslində isə o, "üz" sözündə onun sinonimini nəzərdə tutub "vəch" sözünü işlədir və həmin sözdə olan 14 rəqəmini əsas götürür: "V"=6; ("Ə" yazılmır); "C"=3; "h"=5. Cəmi: 14.

"Əzmi-rəmim"-Qur'anın "Yasin" surəsindən alınmış bir ifadədir (36,78).

Mə'nası-çürümuş, pozuq (sümük) deməkdir.
Dini rəvayətə görə, gözüaçıq ərəblər əllərinə çürümüş ölü sümüklərini götürüb, "ikinci həyatı" və'd edən Məhəmməd peyğəmbərin yanına gəlirlər. Ondan xəbər alırlar ki, gələcəkdə bu sümükləri kim dirildəcək? O cavabında deyir ki, onlara ilk dəfə həyat verən allah onları yenidən dirildəcək. (36, 78, 79 və s.)

Abi-həyatə irişən buldu həyati-cavidan,
Zülmət içində qalanı "əzmi-rəmim" içindədir.

deyən şair göstərir ki, hər kəs dirilik suyuna çatdı, əbədi həyat tapdı. Burada ikinci bir fikri sözaltı mə'na ilə ifadə edərək deyir ki, "Cavidan" onun üçün belə bir həyat oldu. Ortadan örtük, pərdə qalxdıqda, elm gözü əvəz etdikdə, bu zaman kimin qəlbinin doğru, eyibsiz və nöqsansız olduğu bilinər. Əks təqdirdə elmdən uzaq olan, zülmət içində qalanlar "əzmi-rəmim" qorxusu içində yaşayacaqlar.

"Əlləzi-yüvəsvis" ifadəsi Qur'andan alınmışdır (114,5). Mə'nası-elə (xənnas, şeytan) ki, şübhə, tərəddüd (vəsvəsə) edər xalqın sinəsində (qəlbində)...

Ey "əlləzi-yüvəsvis", taətlərin həbadır,
Əgri yolun zəlalət, çürük sözün xətadır.

Nəsimi deyir ki, ey bu sözlərdən boş yerə təşvişə düşən insan, sənin bütün boyun əymələrin, itaətkarlığın, qul vəziyyətinə düşməyin əbəsdir, bihudədir. Bunlar sənin üçun əyri yoldur; düz yolu azmaqdır...
Beləliklə, Nəsimi həmin qəzəlində şeytanın qorxusundan insanların allaha ibadət etməsini lüzumsuz hesab edir...

Musiyi-İmran-Nəsimi şe'rlərində çox işlənən əfsanəvi adlardan biri. Bu ad onun şe'rlərində hürufilik baxımından simvolik xarakter daşıyır:

Cəmalın nuri, ey dilbər, nə məzhərdir ki, aləmdə
Ki, sənsən Musayi-İmran, vücudun Turi-Sinadır.

Nəsiminin Fəzlüllaha xitabən yazılmış bu qəzəlində onun üzü Musayi-İmrana, bədəni Turi-Sinaya bənzədilir.

Musayi-İmran (Al İmran) Musa peyğəmbərin adı əvəzində işlənir. Çünki Musa peyğəmbərin nəslini Al Imran, Məhəmməd peyğəmbərin nəslini isə İbrahim peyğəmbərin nəsli ilə bağlayırlar.

Nəsimi göstərir ki, Fəzlüllahın varlığı allahın təzahürü, şəxsiyyəti Musa

peyğəmbər, bədəni isə Sinadakı Tur dağıdır. Fəzlullah öz şərafəti ilə Musa peyğəmbərdən də ucada dayanır. Əgər Musa peyğəmbər Tövratı xalqa çatdırmışdısa, Fəzlüllah da "Cavidannamə"ni xalqa çatdırmağa nail olmuşdur. Fəzlüllahın Musadan üstünlüyü bir də ondadır ki, o həm allah, həm Sinadakı mö'cüzəli Tur dağı, həm də Musanın özüdür. Fəzlüllahın üzündəki nur Sinanın Tur dağındakı yanan ağacın, görünən odun, işığın özüdür. Belə bir işıq məhz Fəzlüllahın üzündə özünü təzahür etdirmişdir.
Fəzlüllah bir müqəddəs varlıq kimi hətta Məhəmməd peyğəmbərin nəslindən də qədimdir. Onun "Cavidannamə"si isə ilk "müqəddəs" kitab olan: Tövratdan da qədimdir.

Ənvar-Nur.

Qismət etdi çün Nəsimi bir neçə mə'na ilə,
Ol səbəbdən hasil oldu nuri-ənvar iştə gör.

Nəsimi hürufiliklə əlaqədar fikirlərini öz sələflərinin fikir və mülahizələri, müqəddəs kitabların tə'vili ilə əlaqədar şərh edir,

Təriqət ədəbiyyatında "ənvar"ın lüğəvi mə'nası nurlar, işıqlar deməkdir. Rəmzi mə'nada isə hər hansı təriqətdə izlədiyi yolla həqqə çatmaq istədiyi əbədi, müqəddəs və ilahi nurdur. Ayrı-ayrı təriqətlərə mənsub olanlar (saliklər) bu nuru müxtəlif baxımdan izah edirlər.

Ənqa-əsatirə görə Qaf (Elbrus) dağında yaşamış əfsanəvi və çox iri bir quşun adıdır. Həmin quşa simruq da deyilir. Klassiklər, o cümlədən Nəsimi həmin quşun adını çox işlədir:

...Eşq ilə hərdəm, Nəsimi, seyr edərsən Kuhi-Qaf,
Sənsən ol ali-məqamda şəhpəri-ənqayi-eşq.

Nəsimi əksər şairlərdən fərqli olaraq tərki-dünyalıqdan deyil, əksinə burada yeni fikir uğrunda, hürufilik təriqətinin insanı şərəfləndirən amalı uğrunda apardığı mübarizəsindən, Kuhi-Qaf kim bir zirvədə dayanmasından, eşq ənqasının qanadlarına çevrilməsindən söhbət açır.

Əscüda (əmri-əscüda)-səcdə etmə; bu söz Qur'anın "Nəməl" və "Bəqərə" surələrindən alınmışdır.
Nəsimi "Əscüda" sözünü iqtibas edərək şe'rində belə işlətmişdir:

Xilqətin şanında münzil oldu əmri-əscüda,
Bilmədi şeytan bu rəmzi, şükrünü qıldı qəyur.

Yaradılışın şanına səcdə etmək əmri gəldi. Şeytan bu rəmzi, bu əmrin mahiyyətini dərk etmədi. Ey insan, səcdə zamanı qəlbini bütün şübhələrdən təmizlə, səcdə edən ol: bütün varlığınla (hər şeyi unudaraq, ancaq allahı düşünməklə) namaz qıl, "hüzur"un olmasa, qəlbin "hüzurdan məhrum olsa", sənin namazın qəbul olunmaz.

Nəsimi “Nəməl” surəsindəki ayənin məzmununu hürufiliklə aşağıdakı şəkildə əlaqələndirir və deyir ki, o, xətti (üzü müqəddəs olan insanıFəzlüllahı) gözəl, dodaqları təmiz, saf, şəffaf su kimi olan, camalının (üzünün) işığı bütün aləmə yayılmış olan bir şəxsin (yarın) vüsalına çatdığından, indi Fəzlüllah onun üçün hər iki dünya deməkdir:

Eynimə gəlməz cahanın zülməti bir şəmməcə,
Çün iki aləmdə sənsən mərdümi-eynimdə nur.
Həmdilillah kim, Nəsimi buldu yarın vəslini,
Fariğülbal öz qəmi-dünyavü min həşrən nüşur.

Nəsimi özünün belə qənaətini irəli sürür ki, o, şeytana (hurufiliyə xor baxanlara) qulaq asıb, “ənəlhəq” (“mənəm allah”) kamil insan mərtəbəsində olan Fəzlüllaha səcdə etməyə bilməz, onun pərəstişkarı olmaya bilməz. Onunla Nəsimi həm bu dünyanın, həm də axirət dünyasının bütün qəmlərindən azad olmuşdur. Məntiqi nəticə: hürufiliyin nikbinlik fəlsəfəsi onu nikbin təbiətli insana çevirmişdir. Bu söz (ifadə) “Nəməl” surəsindən (27,25) alınmışdır. Ayədə deyilir: şeytan onları yoldan çıxararaq, özünün narın və gizlin yağışını göy tərəfindən göndərən, yerdə ələfləri (quru ot, samanı) göylərdən və sizin gizli saxladığınız və aşkar etdiyiniz bütun şeyləri (sirləri) bilən allaha səcdə etməyə sövqləndirir.
Nəsimi bu ayədən istifadə edərək belə yazır:

Çün “əscədu” buyurdu Adəm, həqqi nahaqdan,
Həqqin xitabına uy, qıl səcdə, olma şeytan.
Əbd olma, ey Nəsimi, fani cahanda çünki,
İmanü din içində sənsən əmirü sultan.

Səni kafir hesab edirlərsə, iman və din içində əmir və sultan məhz sənsən.
Xilqətin şanında (insanın şərəfinə) “əscuda” əmri gəlmişdir:

Xilqətin şanında münzəl oldu əmri-əscuda,
Bilmədi şeytan bu rəmzi, şükrünü qıldı qəyur.

İnsana səcdə etməmək-şeytan üçün öz şükrünü bildirmək oldu. Çünki insan ən ali mərtəbədə dayanan bir varlıqdır.

Əhsəni-təqvim-bu iki söz Qur'anın “Tin” surəsindən alınmışdır. Surənin 4-cü ayəsində deyilir: “Ləqəd xələğna insanə fi əhsəni-təqvim”. Yə'ni: “Biz kamil qüdrətimizlə insanı qəddü qamət və gözəl surətdə xəlq edib elm, kamal, fəhm və şüurla yaratdıq. Və insanı son dərəcə gözəl yaratdıq”.

Nəsimi də şe'rlərində bu sözləri işlətmişdir:

Endirmədi baş əhsəni-təqvimə əzazil,
Ani buraxan lə'nətə, anın cədəlidir.

Qur'anın “Bəqərə” surəsinin 34-cü ayəsində deyilir ki, allah mələklərə adəmə səcdə

etməyi əmr edir. Təkəbbürlük edən iblisdən (şeytan, əzrayıl (əzazil), şəxsi-lə'in (lə'nətə gəlmiş şəxs və s.) başqa bütün mələklər onun əmrini yerinə yetirirlər. Qur'anın səkkiz ayədən ibarət olan 95-ci "Tin" surəsində isə deyilir: "And olsun Turi-Sina dağına (Tur-Ərəbistan yarımadası ilə Misir arasında yerləşən Sina yarımadasında bir dağın adıdır. Bax, "Anəs-tünarən" işlənmiş beytin şərhinə) "And olsun bu Məkkə şəhərinə ki, iman yeridir. Həqiqətən, biz insanların surətlərin ən gözəli kimi ("əhsəni-təqvim" 4-cü ayə) yaratdıq. İblisin belə bir varlığa baş əyməməsi, ona səcdə etməməsi, onun lə'nətlənməsinə səbəb olmuşdur.

Nəsimi Qur'andakı bu kimi surə və ayələrdən, dini rəvayət və əfsanələrdən belə bir məntiqi nəticə çıxarır ki, insan ən Müqəddəs məxluqdur, onun heysiyyat və şərəfini uca tutmaq lazımdır. Müasirlərindən hər kimsə insana alçaq nəzərlə baxarsa, onun şərəf və ləyaqətinn qiymətləndirməzsə, iblis kimi lə'nətə layiqdir:

Yusif kimi əzizəm Misrin içində daim,
Həqqi bilən həmişə aləmdə müqtədadır.

Yusif Tövrat, Qur'an və s. dini kitablarda dini rəvayətlərin, "Yusif və Züleyxa" mövzularında yazılmış poemaların və müxtəlif bədii əsərlərin isə insani məhəbbəti təmsil edən romantik qəhrəmanı kimi təsvir və tərənnum olunmuşdur. Qardaşlarının xəyanətinə mə'ruz qalan, Misirdə qul kimi satılan Yusif sonradan burada ən hörmətli və əziz bir adama çevrilir, hətta Misir padşahı olur. Nəsimi də özünün müqtədalığını-öndə dayanmasını, urfan əhlinin təqdidinə səbəb olmasını bu baxımdan əsaslandırır.
"Zərrə mənəm, günəş mənəm, çar ilə pəncü şeş mənəm" misrasında Nəsimi özünü "zərrə" adlandırır. Lüğəvi mə'nası hissəcikdir. Zərrə Qur'anda çox işlənmiş sözlərdəndir. Orada deyilir ki, zərrədən kiçik və böyük nə varsa hamısı kitabda səbt olunubdur (kitab sözündə Qur'an "lövhi-məhfuz" nəzərdə tutulur).

"Zərrə mənəm" ifadəsini şair şərh edərək göstərir ki, əzəliyyətdə olan yazılar (kiçik və böyük məsələləri əhatə edən nə varsa) və sonradan Qur'anda əksini tapmış digər yazılarda ən mühüm məsələlər mənim simamda özünün təcəssümünü tapmışdır. Çar (cahar) mənəm, yə'ni təbiət hadisələrinin əsasını təşkil edən və tərkib hissələrinə ayrılmayan torpaq, su od və hava (dörd ünsür). Mən dörd "müqəddəs" kitabın-Tovrat, İncil, Zəbur və Qur'anın da təzahürüyəm. Çünki məndə 28 (32) hərfin təcəssümü var. "Dörd kitabın mə'nisi, şərhi bu bistü həştdir" deyən şair aşağıdakı beytdə həmin fikri bir daha təsbit edir:

Lövhi-məhfuzəm münəqqəş gəlmişəm,
Çarü pəncü həft ilə şeş gəlmişəm.

Nəsimi insanın üzündə 4 asimanı, göylərə şamil edilən, göylərdən yerə endirildiyi zənn edilən 4 kitabın (Tovrat, İncil, Zəbur, Qur'an) təcəssümünü "fatihə" surəsi ilə də vəhdətdə götürürdü:

Ayəti-səb'ülməsanidir üzün,
Dörd kitabı-asimanidir üzün.

Şair “pənc mənəm” deyəndə bu “beş” sözündə bir neçə mə'nanı vəhdət götürür:
a) 5 müqəddəs hesab olunan kitab: Tovrat, İncil, Zəbur, Qur'an və hürufilər üçün həmin kitabların səviyyəsində duran “Cavidannamə”.
b) 5 dəfə qılınan, müsəlmanlar üçün vacib olan, dinin rükni, mö'minin me'racı adlandırılan namaz (səlat). Bu namazın 5 dəfəsi vacib sayılır: sübh; (günorta zamanı); günortadan sonra (əsr); Günəşin batdığı vaxt (məğrib namazı); axşam keçmiş (eşa, əşa namazı).
v) “5” rəqəmində həmçinin islam dininin rüknü hesab edilən şəhadət; namaz; oruc; zakat və həccə getmək nəzardə tutulur. (həmçinin tovhid-allahın təkliyi, allahın ədalətinə inam, peyğəmbərin həqiqiliyinə inanmaq, on iki imama inanmaq, axirat dünyasına inanmaq).
q) Klassik ədəbiyyatımızda “5” raqəmi ilə əksər hallarda pənci-ali-əba - islam dininə görə, Məhəmməd peyğəmbərin özü ilə bərabər ocağına mənsub olan beş nəfər.
Nəsimi bu “5”ləri hürufilik baxımından tə'vil edir, bunların hamısını özündə (lirik qəhrəmanda) və insanlarda, hürufilərdə axtarırdı. Çünki: “...Taəti, zikri, namazı-məkrü fəndir zahidin” “Arif ol, aldanma billah zahidin tamatına”.
“Şeş mənəm” sözlərində isə:
a) Nəsimi dini əfsanəyə körə dünyanın 6 gündə yaranmasını tə'vil edərək, deyirdi ki, dünya mən özüməm. Hətta, dünyadan da geniş və böyük varlığam.
Yuxarıdakı tə'villərdən əlavə burada daha gizli rümuzat da vardır: Zərrə mənəm//günəş mənəm//çar ilə//pəncü//şeş mənəm.
1+1+4+5+6=17
Deməli bu misrada Nəsiminin tərənnüm etdiyi 17 rəqəmi də sənətkarlıqla özünün əksini tapmışdır. (Bax, “zülf”, “cə'd” və s.)

Zəmzəm. Kə'bə yaxınlığında müqəddəs çeşmədir.

Dəm keçərmi kim, Nəsimi, ol fərağı-dərd ilə,
Naləsi göglərə çıxmaz, göz yaşı Zəmzəm degil.

Məkkədə bu çeşməni ilk dəfə körpə İsmayıl və onun anası Hacər, ikinci dəfə Məhəmmədin babası Əbdül Mütəllib kəşf etmişdir. Ziyarətçilər onun suyunu əzmzəmiyyə adlanan xüsusi qablarda şəfaverici bir su kimi vətənlərinə aparırlar.
Yuxarıdakı qəzəl başdan-başa “dəmə” (vaxta) həsr olunmuşdur. Şair göstərir ki, göz yaşı ayrılıq dərdi ilə keçməlidir. Göz yaşı zəmzəm olduğu üçün, onda şəfaverici bir keyfiyyət olduğundan, səni mütləq şəfaya çatdıracaqdır.

“İki cahan”-klassik ədəbiyyatımızda (poetik anlayışı) çox işlənmiş ifadədir. Hələ Nizamidə də biz bu ifadəyə rast gəlirik:

Yarı görmək iki dünyayə bərabər kimidir,
Bunu duydum, duyuram oylə ki, hicran görünür.

“İki cahan” anlayışında bu maddi dünya və “axirət dünyası”, “dari-fəna”, “dari-üqba” və s. nəzərdə tutulur. Nəsimi deyir:

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri-ləməkan möənəm, kövnü məkanə sığmazam.

beytində daha dərin fəlsəfi mə'na hürufilik ideyasının poetik ifadəsi öz əksini tapmışdır. Nəsimi həmin şe'rində deyir ki, Allah mərtəbəsinə çatmış hürufi-kamil insanın özü də "gövhəri-ləməkan"dır. Yə'ni onun da allah kimi yeri və məqamı mə'lum deyildir. Bir halda ki, allahdan başqa heç bir şey yox imiş, "kün" (ol!) sözü ilə dünya yaranmışdır, deməli, məntiqi nəticə budur ki, hər iki dünya allahın varlığından kənardır. Allah isə bu dünyaya sığan deyil, hətta ikinci dünya da onun varlığını özündə yerləşdirə bilməz. Bundan əlavə, dinə görə allahın xüsusi məkanı yoxdur, o hər yerdə mövcuddur.

Beləliklə, Nəsimi bədii məntiqi nəticə ilə deyir ki, mən "gövhəri-ləməkanəm", məkanı bilinməyən allah mənəm və onun kimi əzəmətliyəm. O bu dünya ilə o biri "dünya"ya sığmadığı kimi, mən də "iki cahana" məhz allah kimi sığmıram. Nəsiminin bu beytdə, həqiqətən, "iki cahan" sözlərini işlətdiyini yəqin etmək üçün başqa beytlərini xatırlayaq:

Mişkin saçın hər tarəsin "iki cahana" verməzəm...
"İki aləmin" vücudu ayağın tozuna dəgməz...
...Gəl, ey dilbər, "iki aləmdə" cansan... və s.

Nəsimi burada zəmanəsindəki "aləmi-ərvah" (o birn dünya, ruhlar aləmi) və "aləmi-ünsür" (bu dünya) və s. mövcud anlayışları məhz iki dünya mə'nasında işlətmişdir.
Nəsimi zəmanəsinin ümumi xəlqi danışıq ifadələrini də iki çahan, iki aləm, iki dünya ilə əlaqədar işlətmişdir:

Dua ilən nə diləyim sənincin həqdən kim,
"İki cahan" sana həqdən müyəssər olmuşdur.

"İnna ileyhi raciun"-Qur'anın "Bəqərə" adlanan 2-ci surəsinin 156-cı ayəsindən alınmış və 21, 23-cü surələrində işlənən bu ifadənin qısa mə'nası: "doğrudan da, biz onun (allahın) tərəfinə qayıdacağıq". "və müjdə ver səbr edənlərə, elə səbr edənlərə ki, onlara müsibət, bəla yetişən vaxt (belə)) dedilər (deyirlər), biz allahın quluyuq (onun əmri ilə gəlmişik) və biz allah tərəfinə qayıdanlarıq". Nəsimi "biz allahın quluyuq" ifadəsini qəbul etmir və deyirdi:

Zahida, sən məni bəşər sanma,
Adəmi surətində rəhmanəm...
Dəftərimdə əlifdurür Qur'an,
Nöqtə şəklində gör nə divanəm...

Nəsimi öz fikrini əsaslandırıb deyirdi ki, sonsuz mə'nəvi əzəli ümman coşub, əzəl sirri aşkar olanda, dünya yaranmışdır. İlk varlıq Günəş idisə, insanlar onun zərrəsi kimi zahirə çıxdı. İlk varlıq nəqqaş, insan isə hərf və rəqəmləri özündə

təcəssüm etdirən ən gözəl nəqş (gözəllik təcəssümü) oldu.

Əzəli mə'nəvi dənizdən qətrə şəklində ayrılan insanların özlərini dərk etməsi nəticəsində nəhəng ümmana, okeana (mühiti-ə'zəmə) çevrildilər. İkilik (ilahi varlıq və insan) aradan qalxdı. Sən də ərşdə yerləşmiş allah məqamında olan bir varlıqsan. Sən həmin istivadan keçmədən, əsarətdən özünu qurtara bilməzsən:

Çün sən keçəsən bu istivadən,
Azad olasan qamu bəladən.

Bunu isə ancaq Fəzlüllah kimi "özünü gizli xəzinə kimi aşkarlayan" imam (rəhbər, başçı, hürufilik təriqətinə rəhbərlik edən şəxs, kamil insan) sənə kömək edə bilər:

Gəldi Fəzlüllah imami qeybdən,
Küntə kənzin sirrini qıldı əyan.

Və yaxud:

Taki Fəzlüllaha verdim könlümü,
Bigüman allaha verdim könlümü.

Şair burada insana müraciətlə deyir ki, sən özünü dünyanın ağası hesab et, ey insan! "Adəmi fəzli xuda bil, adəmi", "Kainata kandxuda bil adəmi". "Sahibi-ərzü sama bil adəmi". "Ərşlə fərşü kafü nun məndə bulundu cümlə çün". "Məndən uludur ayətim!.."

Şair belə hesab edirdi ki, bütün bu keyfiyyətlərini dərk edən insan ilk mə'nəvi ümmandan ayrılmış bir damla şəklində qalmamalı, qula çevrilməməli, məhv olmamaq, qurumamaq üçün həmin ümmana tərəf qayıtmalıdır. Qur'andakı "allaha tərəf qayıdaq", fikri də insanın öz uca mə'nəvi varlığına, özünü dərk etməsi məqamına çatmasına işarədir.

"İnna fətəhna"-bir neçə şe'rində işlədən Nəsimi onu hürufilik baxımından izah etmişdir. Nəsimi belə əsaslandırır ki, həmin ifadə 10 hərfdən ibarətdir. Bu ifadənin dörd yerində (məqamında), bir yerində iki, başqa üç yerində bir nöqtə işlənmişdir. Bunların cəmi 14 olur. Şair dedikdə ki, "yüzün inna fətəhna"dır, elə bir nəticəni ifadə edir ki, insanın üzündə hürufilər üçün müqəddəs olan 14 nişan toplanmışdır.

Yüzün "İnna fətəhna"dır, "təbarək" şə'ninə münzəl,
Bu vəchi "Əhsəni-surət" bilənlər əhli-ürfandır.

Bu sözlər Qur'anın "Fəth" adlanan 48-ci surəsinin 1-ci ayəsindən alınmışdır. Şərhçilər bu surənin həmin ayəsini Məhəmmədin ayrı-ayrı şəhərləri (Məkkə, Bədr və s.) gələcəkdə fəth edəcəyi, vuruşlarda qələba çalacağı münasibətilə "göndərildiyini" sübuta yetirirlər. Bə'ziləri da bu ayəni belə şərh edirlər ki, guya allah Məhəmmədə yalnız Məkkə şəhərini deyil, bütün ürəkləri fəth edəcəyini qabaqcadan xəbər verib,

onu təbrik etmişdir.

Nəsimi bir tərəfdən hürufiliyin qələbəsini əsaslandırır; ikinca tərəfdən göstərir ki, insanın üzündə "fatihə" surəsinin 14 rəmzi rəqəmi (bax. "fatihə") toplanmışdır. Üzün ərəb dilində qarşılığı "vəch"dir (əbcəd hesabı ilə "v"=6, "c"=3; "h"=5. Cəmi=14). Deməli, yuxarıdakı iki ifadə ilə vəchin əbcəd hesabının cəmi 28 olur. İnsan üzündəki bu 28 rəqəm isə həm insanın müqəddəsliyini, həm də hürufiliyin gələcəkdəki qələbəsini rəmzi mə'nada ifadə edir.

Nəsimi həmçinin göstərir ki, ey insan, sən o qədər gözəl yaradıldın ki, sənin şanına "təbarəkəllah" (təbarək) deyildi; yə'ni "allah səni uğurlu eləsin"...

İsmi-əzəm-lüğəvi mə'nası ən böyük, ən görkəmli, çox böyük ad deməkdir. İsmi-ə'zəm həm də allahın adlarından biridir.

Kirpiklərinlə qaşun olmuşdur ismi-ə'zəm,
Divdən dəxi nə qorxu, çün kim, pənahım oldur

deyən Nəsimi burada həmçinin əbcəd hesabı ilə "6" rəqəmini nəzərdə tutur. "6" rəqəmi 6 tərəfli (cəhətli) dünya...
Şair deyir ki, ey qüdrətli insan, sən hərflərin nəqş olunduğu "6" rəqəmin (ədədin) kiprik=4, qaş=2; Cəmi=6) timsalında bütün altı cəhətin ən ali, ilahi, ülviyyət məqamlı varlığısan. Heç bir divdən, sənin qorxun yoxdur. Çünki sən ismi-ə'zəmi təmsil edirsən. Div isə ismi-ə'zəmə yaxınlaşa bilməz!..
İcma'i-ənbiya-Nəsimi burada dini əfsanəyə işarə edir. Guya qiyamət günündə ölülər dirilən zaman "hər millətin peyğəmbəri" gələcək, hər adamın dünyadakı əməlinə, onu ya cənnətə, yaxud da cəhənnəmə göndərəcək. Nəsimi sözaltı mə'na ilə belə bir əfsanəni rədd edir:

Ol gündədir hesabın, həm rahətü əzabın,
Ol gündə həq qatında icma'i-ənbiyadır.

"Ya hu", "ya mənhu"-əsasən çağırış mə'nasını ifadə edir. Bə'zən allah mə'nasında da işlənir:

"Ya hu...", "ya mən hu!.." deyib hər dəm təmənna eylərəm,
Rəhmətindən umaram, rəhmanı gözlər gözlərim.

"Hü", "Ya mənhu", "Mənhu" sözləri və xitabı müxtəlif təriqətlərdə mərasim, ayinlərində icra olunan hərəkətlərdə "Ya hu!", "Mən hu!" "Ya mən hu!" şəkillərində işlənib və işlənməkdədir.

Ya Hu-ya allah, ey allah, ey mənim allahım mə'nalarındadır.
Bundan başqa dərvişlərin işlətdikləri "Ya hu"-ey sən, baxsana, mənə baxsana, buraya gəl, buraya gəlsənə mə'nalarını da ifadə edir.

Yovmülhesab- "Yovm" ərəbcə gün; gecə və gündüz deməkdir. Yovmülhesab (Yovmülqiyam Yovmüddin)-qiyamət günü; ölülərin dirilməsi günü. Nəsimi şe'rlərində bu sözə tez-tez rast gəlirik:

Və'deyi-yovmülqiyamət endi həqdən arifə...
...Qiyamət qopdu hüsnündən məgər yovmülhesab oldu.
Bəlalərdən iraq olsun, bu nə qəddü nə bəladır!

kimi misralarda "qiyamət günü" məfhumunu hürufilik ideyaları baxımından, əksər hallarda poetik mə'nalarda işlətmişdir. Şair cənnət və cəhənnəm anlayışlarına açıq gözlə baxmış, cənnəti məhz bu dunyada görmüşdür:

Firdövsə məni də'vət edən zahidə söylə,
Ol dikənə göz dikmə ki, gülzarımı buldum.

Künt kənz-Nəsiminin çox işlətdiyi bu ifadə "hədisi-qüdsi"dən alınmışdır. Orada deyilir: "Mən bir gizli xəzinə idim və istədim ki, məni tanısınlar (mənim haqqımda nə varsa bilsinlər); buna görə məxluqatı (bütün yaranmışdarı) xəlq etdim". Qur'anın "Zariyyət" surəsinin 56-cı ayəsində deyilir: "İnsanları bircə səbəbə görə yaratdım ki, onlar mənə ibadət etsinlər".

Nəsimi insan şərafətini yüksək tutaraq deyir ki, yuxarıdakı sözlər məhz Fəzlüllah və kamil insanlar haqqında deyilmişdir. Allah "ənəlhəq" ("mənəm allah") deməyə layiq olan insanların mə'nəviyyatındadır.

Nəsimi yazır: "Ol küntə kənzi der isən, aləmdə rövşən gün kimi". "Ol gövhərə rövşən mənəm, bil ki, mən onun kaniyəm"; "Könlüm içində surətin can kimi qılmışam yerin", "Gövhəri-Küntü kənzi gör kim, nə xərab içindədir". Deməli, insanın yaranması əslində gizli xəzinənin yaranması deməkdir. İnsan həmin gizli xəzinənin aşkarlanmasıdır. Lakin insanın ilk yaranışı dövrü "hələ xarab içində olur". Kamilləşməsi mərhələsi isə onun saflaşması, əsl gizli xəzinənin aşkarlanmasına çevrilir. Bunun üçün insan özündə özünü dərk etməli, tapmalıdır.

Mən məndə həqqi buldum, həqqülyəqin həq oldum,
Uyxuda qaldı münkir, nəqşü xəyal içində...
Nöqteyi-mövhummudur, ya gövhəri-fərd ol ağız,
Mənbəi-ma'i-müin, ya çeşmeyi-heyvanmıdır?

Ma'i-muin - Nəsimi bu qəzəlində ağzı qönçeyi-xəndana (açılmış gülə, gülər dodaqlara, mərcan qutusuna (mürcüsünə), Süleymanın möhürünə bənzədəndən sonra, yuxarıdakı beyt ilə qəzəlini davam etdirir. Beytin mə'nası: sənin ağzın xəyalı bir nöqtədirmi yoxsa bir gövhərdir? Ağzın köməkçi, kömək edən, müdafiə edən ilahi suyun mənbə'i, ya da dirilik suyudur?
Şair başqa bir qəzəlində də deyir:

Yazü güzündür suyumuz, mai-müindir meyimiz,
Sən nə bilirsən bu meyi, çünki xumarın yox imiş...

Beytin iç mə'nası budur ki, (Ey Fəzlüllah), sənin ağzından çıxan, ən nadir inciləri xatırladan sözlər (hərflər) əsl məalı dərk etməyə sövqləndirdi. Bu belə bir məntiqi nəticə verdi ki, "ənəlhəq" ("mənəm allah") deməli oldum. Başqa cür ola

bilməzdi.

Mai-təhur-Qur'anın müxtəlif surə və ayələrində təkrar-təkrar işlənmiş ifadədir.
Nəsiminin şe'rində də bunu aydın görürük:

Mai-təhuri bil kim, həqdən bu gün nidadır,
Yovmül-məzidi gör kim, məscidi-pürsəfadır.

Biz qiyamət günündə də bütün ölüləri torpaq altından çıxaracağıq. Məntiqi nəticə budur ki, qüdrət sahibi olan allah ölmüş bədəni diriltməyə qadirdir; axirət dünyasına inanın...

Nəsimi allah tərəfindən nida (çağırma, səslənmə) kimi təlqin olunan belə bir fikri sözaltı mə'na ilə rədd edir:

Təaləllah, nə zibasan, sifatin zati-yektadır,
Qamu əşya sifatindən sənin ismin müsəmmadır.

Mənsur (hüseyn ibn Mənsur həllac) İranın Beyzə şəhərindən olub, X əsrdə yaşamış sufi şairlərindən biridir. Şe'rlərində vəhdəti-vücud təriqətinin ideyalarını tərənnüm etmişdir. Bu şe'rlərdə "ənəlhəq" ("mənəm allah") ideyası əsas yer tutub. Lakin o, "mənəm allah" dedikdə, heç də dinsiz bir şəxs olmamışdır. Onun ideyasının əsası "allah insanın üzündə, özündə təcəssüm etmişdir..." olduğundan islam ehkamı ilə ziddiyyətə çevrilib, həmçinin şair dini xürafatı və mövhumatı kəskin tənqid etdiyindən, xəlifə Müqtədir Billahın əmri ilə hicri 306-cı ildə (miladi 922-ci ildə) Bağdadda dara çəkilmişdir.

Mənsurun adı mərdlik, cəsarət və yenilik rəmzi kimi bir çox xalqların poeziyasında mərkəzi yer tutmuşdur. Nəsimi də özunü ona bənzədib deyir ki, hürufilikdə də ""ənəlhəq" ("mənəm allah") əsas yer tutur və mən də Mənsur kimi həmin sözləri təkrarlasam, qorxum yoxdur. Axı bu yolda neçə-neçə Mənsurun başı dardan asılıb...
Nəfs-lüğəvi mə'nası ruh, can, həyat; adam, insan; övlad, nəsil; heyvani hiss, şəhvət; bel suyu; şəxs, zat; maya, cövhər və s. deməkdir. Təriqət və hürufilik poeziyasında özünəməxsus mə'na və çalarda işlənir... əgər bədən nəfsə üstün gələrək onu öz xidmətçisinə çevirir, öz xeyrinə işlədir və yaramaz işlərinə şərik edirsə onunla birlikdə ən alçaq yerlərə (yə'ni cəhənnəmə) enər...
Belə geniş mə'naya malik olan nəfs sözünü Nəsimi çox işlədir:

Hər kimsə ki, nəfsin tanıdı, rəbbini bildi,
İnkarına bel bağlama kim, qövli Əlidir.

Burada Nəsimi xəlifə Əlinin kəlamına işarə edir: "Təəccüb edirəm ki, bir şəxs özünün nəfsini dərk etmirsə (tanımırsa), o halda öz allahını necə tanıya bilər? Nəsimi nəfs ilə əlaqədar mə'naları, fəlsəfi mülahizələri və Əlinin həmin kəlamını hürufilik baxımından mə'nalandırır və nəfsin hər bir şəxs tərəfindən dərk olunmasını müsbət xüsusiyyət və keyfiyyət kimi qiymətləndirir. Nəsimi nəfsi nəcib və ruhani bir cövhər

kimi qorumağı, nəcib əməllərə doğru yönəltməyi və s. insan üçün şərəf hesab edir. Şair göstərir ki, ancaq öz nəfsini tanıya bilən insan "ənəlhəq" zirvəsinə ucala bilər, peyğəmbərlik keyfiyyətlərini kəsb edər.

Əvvəl bu nəfsini bil, ardınca rəbbini bil.
Kim, kəndi gəldi həqdən, mənbərdə Mustafadır.

Pərdə-Nəsiminnn müxtəlif mə'nalarda nşlətdiyi sözlərdəndir. Pərdənin lüğəvi mə'nası aşağıdakılardır: qapı-pəncərəyə asılan örtük; bir yeri ayırmaq və görünməsinə mane olmaq üçün çəkilən örtük; pərdə; keçmişlərdə üzə asılan örtük, niqab; iki yeri bir-birindən ayıran; bə'zi simli musiqi alətlərinin qoluna bağlanan bölmə; muğam ahəngi və s.

Nəsimi pərdə, musiqi alətlərinin adı, muğamların adları və terminləri ilə özünün hürufilik ideyalarını, vəhdəti-vücud haqqındakı qənaət' lərini obrazlı şəkildə ifadə etmişdir:

Bahar olduvü açıldı üzündən pərdə gülzarın,
İrişdi qönçənin dövrü, zamanı qalmadı xarın...

Şair "həsrət yaşı hər ləhzə qılır bənzimizi saz" misrası ilə başlanan qəzəlində "pərdədən" əlavə bir sıra musiqi terminləri işlədir:
1) "Üşşaq"-mə'nası aşiqlər olan bu muğam Yaxın Şərq xalqları musiqisinin 12 əsas muğamından birincisidir. Nəsimi də muğamları səciyyələndirərkən, məhz "Üşşaq"la başlayır. Bu muğam eyni zamanda "Novruzi-bozorg" (böyük novruz) adlanır.
2) "Novruz" - novruz-bayatı, novruz büzürg, novruz əcəm, novruz ərəb, novruz kiçik, novruz rəvəndə, novruz səba, novruz xara.
3) "Rast"ın hərfi mə'nası düz, düzgün və müstəqim olandır. Bu muğam "muğamların anası" adlandırılır.
4) "hüseyni"-12 əsas muğamın 2-cisidir, "Rast", "Mahuri-hindi" arasında ifa olunan parça.
5) "Cahargah"-dörd yer, dörd mövqe, məkan, vəziyyət; Dinləyicidə coşğunluq və ehtiras hissi (Ü. Hacıbəyov) oyadan muğam.
6) "Büzürg"-lüğəvi mə'nası böyük, şan-şöhrətli olan bu muğam Yaxın Şərq xalqlarının klassik musiqisinin 12 muğamdan səkkizincisidir.
7) "Kuçik"-balaca, kiçik; Yaxın Şərq musiqisində kiçik bir ton.
8) "Tənnaz"-zarafatçı, məsxərəçi, istehzaçı; burada "Dilbəri-tənnaz"-çalğıçı, müğənni mə'nasındadır.
9) "Zəngulə"-Yaxın Şərq xalqlarının klassik musiqisinin əsasını təşkil edən 12 muğamdan doqquzuncusu. Vokal musiqisində bəzək priyomlarından biri.
10) "Segah"-məkan, vəziyyət, mövqe. Yaxın və Orta şərq xalqlarının muğamlarından biri.
11) "Hicaz"-əsas muğamlardan on ikincisi.
12) "Sifahan"-klassik musiqinin əsasını təşkil edən 12 muğamdan altıncısı.
13) "Əraq" (İraq)-klassik musiqinin əsasını təşkil edən muğamdan beşincisi.
14) "Rəhavi"-klassik musiqinin əsasını təşkil edən 12 muğamdan onuncusu.

15) “Hisar” (hasar)-“Cahargah”, “Zabul segah” dəstgahlarında parça, guşə.
16) “Mübarğə” (Mübərriğə-üzü duvaq ilə örtülü qız) “Zabul və “Rəhab” dəstgahlarında şö'bə.
17) “Müxalif”-“Cahargah” dəstgahında şö'bə.
18) “Şəhnaz”-muğam adı.
19) “Şur”-əsas muğamlardan biri.

Burada Nəsiminin 17 muğam və guşənin adını çəkməsi heç də təsadüfi deyildir. Hürufilik tə'vilində musiqi (muğam) və onun ədvarı tə'vil olunurdu:

Müshəfi-natiqəm, kəlam oldum,
Bəndeyi-favü Zadü Lam oldum...
Çərxin ağaxın anladır bu sözüm,
Saz, ədvar ilə məğam (muğam-M. Ə.) oldum.

Nəsimi “Eşqi-həqi” mütrib ilə sazın vəhdətində, özünün Davudun nəğməsi ilə gəlməsini (yaranmasını) “zülf”ün zülmətindən (17 rəqəmin ahəndarlığını, mə'nasını, bir-biri ilə vəhdət təşkil etməsini, bunları özünə aydınlaşdıra bilməsini) xilas olmasında görürdü:

Zülfünün zülmətində qalmış ikən,
Doğdu hüsnü, göründü şəmsü züha.

Şair göstərir ki, həmin dövrdən “pərdə içində bir saz çalınır” (xəlvətlərdə sirlər dolaşır, söhbətlər gedir). Nəsimi bu fikrini də musiqi (muğam) terminləri ilə şərh edir:

Pərdə içində çalınır bir saz,
Ki, edər eşq nəvasın ağaz.
Kim nəvayi qılır çü bu “Üşşaq”
“Büzrügün” nəğməsin dutar “Şəhnaz”.

Arif anlar bu nəğmənin rəmzin,
Aşina olmayana verrmədi raz.
Gör bilirsən bu rəmzi, ey talib,
Mən bu pünhanı qılmazam ibraz.

Nəsimi özünün və hürufilərin “nəğməxanlığını” öz qəlbində gizlətdiyinə, arasıra ancaq quş dili ilə başqalarına çatdırdığına işarə edir:

Sədhəzaran qəfəsdə bu bülbül,
Tən cahanında nəğməxan oldu.

Nəsimi göstərir ki, ancaq ariflər bu nəğmənin rəmzini dərk edə bilərlər.
Rəhman surəsi-lüğəvi mə'nası rəhmli, şəfqətli olan bu söz allahın

epitetlərindəndir. Həmin sözü Nəsimi hurufilik baxımından tez-tez işlədir. O, insan üzünü (camalını) surəti-rəhman adlandırır. İnsanın varlığın bütun əşyaların canı, ağlını hüdudsuz xəzinə hesab edir:

Camalın surəti-rəhman, vüsalın rövzeyi-rizvan,
Kamalın gənci-bipayan, vücudun cani-əşyadır.

Şair insanı "iki dünyanın" ən mərhəmətlisi və ağası, sahibi kimi təqdir edir. Qur'anda allahın adı əsasən rəhman çəkildiyi kimi, Nəsimi də insanı allah mərtəbəsinə qaldırıb, əksər hallarda rəhmanla insanın, insanla rəhman adını yanaşı çəkir:

Surəti-rəhmanı buldum, surəti-rəhman mənəm.
Ruhi-mütləq həq kəlamı kafi-vəl Qur'an mənəm.

Təbarək-lüğəvi mə'nası mübarək olsun, mübarəkdir. Müsəlmanlarda dua tə'biridir. Əsasən "Təbərəkəllah" şəklində işlanir. Allah mübarək etsin, maşallah. Qur'anda 6 dəfə işlənmiş həmin söz "Təbarək", "Rəhman" surəsinin sonuncu ayəsində belə deyilir. "Ucadır sənin allahının adı ki, cəlal və kərəm sahibidir" (55, 78).
Nəsimi şe'rinə müraciət edək:

Laməkanidir vücudun, qıl təbarək, ey həbib,
Gəl məkanı gör, məkansız "kün-fəkan"ı göstərir.

Yə'ni ey həbib (dost, insan, hürufilik təriqətinə mənsub olan şəxs, ey Fəzlüllah), sənin vücudun (varlığın) şəxsiyyətin özü də allah kimi, onun səviyyəsində, mərtəbəsində məkansızdır.

Gəl onun məkanını, varlığını dərk elə. İnsanı lazımi səviyyədə qiymətləndir. İnsanın varlığı (vücudu) məhz "kün-fəkan"ı, yə'ni allahın özünü təzahür etdirir. Üzün dərk olunandan bəri, günəş öz pərdəsindən çıxıb. İnsanın əşrəfi varlığı aşkara çıxıb. Beytin bədii məntiqi və fəlsəfi məzmunu belədir: "Qur'anın ayələrində deyilmiş ucadır sənin o allahın ki..." (1, 10)

Tə'vil (tə'vilat)-ərəb dilində izah, təfsir və şərh etmək deməkdir. Zahiri mə'nada əlavə mə'na və mə'nalarla təfsir etmə deməkdir. Sufizm, vəhdəti-vücud, xüsusilə, hürufilikdə tə'vildən geniş istifadə ediblər.
Tə'vil yolu ilə şe'rlər yazan Nəsimi deyir:

Sən bu Nəsiminin dilini anla, bil sözün,
Kim, var bu dildən özgə bizim bir lisanımız.

Nəsiminin şe'rlərində zahiri mə'nadan başqa əlavə rəmzlər, gizli fikirlər, dərin mə'nalar, təlmihlər, gizli təşbehlər, bədii təsvir vasitələri çox işlənmişdir. Bu mə'nada da şair "heç kimsə Nəsimi sözünü kəşf edə bilməz"-demişdir. Nəsimi şe'rlərində ifadə olunmuş gizli mə naları məhz tə'vil yolu ilə kəşf etmək, açmaq, şərh etmək mkündür.

Bu tə'villər isə müxtəlif formalar və üsullarla öz əksini tapmışdır. Məsələn, o dövrdə qüvvətli nüfuza malik olan Qur'anın müxtəlif surə və ayələrini hürufilik əqidəsi ilə tə'vil edən Nəsimi islam dininə qarşı çıxır, hürufiliyi daha qədim hesab edir. Qur'an surələri və ayələri ilə Fəzlüllahi-allah və kamillik mərtəbəsinə qalxan insanı ilahi varlıq səviyyəsində tərənnüm edir. O, Qur'andan "Fatihə"nin ("həmd", "Səbbülməsani" və s.) adını çəkən kimi 14 rəqəmi "aba-səb"ə (yeddi ata) dedikdə müvafiq səyyarələri: Günəş, Ay, Merkuri, Mars, Venera və s. nəzərdə tutur.

Təyəmmüm-su olmayan yerdə, yaxud da su ilə yuyulması mümkün olmayan yerdə meyiti torpaqla paklaşdırmaq təyəmmüm adlanır. Bundan əlavə, bu, su tapılmadıqda təmiz torpağa və yaxud toza əllərini sürtüb namaz qılmaqdan qabaq dəstəmaz almaqdan ibarət dini ayindir:

Gözüm dilər ki, xaki-rəhi tozuni yuya,
Bilməz ki, su içində təyəmmüm rəva degil.
Kirpiyin zülfün qaşın "Ümmülkitab".

Guya Qur'anın bu ilk surəsi çox yüksək qiymətə və əhəmiyyətə malik olduğundan allah tərəfindən peyğəmbərə və insanlara 7 ayə 2 dəfə çatdırılmış və 14 rəqəmi alınmışdır. İnsan isə təbiətin ən kamil əsəri, ən əşrəfi varlıq olduğundan onun üzündə həmin 14 naxış, cizgilər, toplanmışdır, özünü təzahür etdirmişdir. Bundan əlavə, insanın üzündə 17, 28, 32 və s. saylarını (rəqəmlərini) də axtarıb tapmaq olar. Bunları bəsirət gözü ilə (qəlb, mə'nəvi gözlə) görməklə, insanın allah mərtəbəsində ("ənəlhəq"-"mənəm allah") durduğunu dərk etmək olar. "Fatihə"nin bütün ayələri məhz bunun təsdiqi üçündür.

Beş vaxt namazın hər birində bu surənin iki dəfə (5+2=7x2=14) oxunmasının özü də insana, onun "ənəlhəq" kimi ülvi mərtəbəsinin təsdiqi üçündür. Şairin "Lövh ilə Qur'an üzündür, vəssalam", "Ayəti-səbülməsanidir üzün", "Vəchinə (üzünə) əhli-sücud (səcdə əhli) eylər təvaf", "Çün üzündən cümlə əşya oldu faş", "Hüsnünə xurşidü mah eylər sücud", "Dörd kitabi-asimanidir yüzün" və s. kimi misra və beytləri həm yuxarıdakı şərhləri təsdiq edir, həm də Nəsiminin insan üzünü, şəxsiyyətini nə dərəcədə qiymətləndirməsini poetik dillə təsbit edir:
Nəsimi bu qəzəldə gözəlin cəfasından, lakin həmin cəfanın səfa qədər ona xoş olmasından, ləzzət verməsindən danışır. Yarın qapısına səcdəsini öz canına minnət qoymaq hesab edir. Gözəllik ilahəsinin qarşısında səcdədən qabaq paklaşmağı vacib bilən aşiq (şair, lirik qəhrəman) öz gözlərinin çox məşhur bir ayindən xəbərsizliyinə irad tutur. Axı aşiqin həsrət dolu gözləri onsuz da həsrət yaşları axıdır. Su olan yerdə belə təyəmmümə nə ehtiyac varmış...

Yüzün hərfində, ey müshəf, bəyani-"küntü kənz" olmuş,
Təaləllah, zəhi dəftər, bu dəftər qanğı dəftərdir?

Gövhəri-"küntü kənzi" gör kim, nə xərab içindədir.
...Könlüm içində surətin can kimi qılmışam yerin,

Belə bir hədis (peyğəmbərin, imamların kəlamı) vardır: "Mən gizli xəzinə

idim. İstədim ki, özümü tanıdım, özümü tanıtmaq üçün xalqı, insanları yaratdım". Bu "gizli xəzinə" sözü allaha şamil edilir. Nəsimi isə bunu "Lövhi-məhfuz"da yazılmış, insanın dünya yaranmamışdan qabaq mövcud olmasını, bir ruh kimi yaşamağını təsdiq etmək üçün təlmih şəklində işlədir. Bu "Küntü kənzin" sirrini isə həmin qeybdən, yoxluq aləmindən gələn hər hansı peyğəmbər, imam deyil, məhz Fəzlüllah açmışdır:

Gəldi Fəzlü'llah imami qeybdən,
"Küntə kənz"in sirrini qıldı əyan.

Həcci-əkbər - Məkkəyə getmə, Məkkə ziyarəti.
Nəsiminin şe'rlərində "həcci-əkbər"ə tez-tez tasadüf edirik:

Adinə həcci-əkbər hüccacə həqdən endi,
Ol bibəsər nə bilsin bu sirri kim ə'madır.

Məkkəni ziyarət etmək müsəlman üçün başlıca vəzifədir. Guya belə bir əmr cümə günü (adinə) allah tərəfindən göndərilmişdir. Bu ziyarət Kə'bənin ətrafında 7 dəfə dövrə vurmaqdan başlanır. Bir sıra ayinlərdən sonra kütləvi surətdə namaz qılırlar. Mina vadisində iblisi yad edərək, ziyarətçilər 3 dəfə 7 daş atırlar.
Nəsimi deyir ki, bu, işin zahiri cəhətidir. Mə'nəvi, qəlb gözü olmayan, iki gözdən də kor olan (ə'ma) kimsə bu ayinlərin, ziyarətin sirrini bilə bilməz. Ziyarətin özü insan şərəfinədir.

Şə'n-lüğəvi mə'nası şan-şöhrət; əzəmət, mərtəbə, rütbə.
Bu söz Qur'andan alınıb(55, 29). Nəsimi şe'rlərində çox işlənmişdir;

Təaləllah şə'n hüsnün sifati kim müəlladır...

deyən şair hürufiliyi, onun rəhbəri Fəzlüllahın şəxsiyyətini tərənnüm etmişdir.
Bu surə "Rəhməni-izzü cəll"-izzət, hörmət və cəlal sahibi allah adlanır. Bə'zi nüsxələrdə "Rəhman" surəsi adlanır. Bunun mə'nası isə "mehriban allah"-deməkdir. Nəsimi həmin sifətləri Fəzlüllahda axtarır və ona şamil edir.
Bu surənin 17-ci ayəsində deyilir ki, allah iki məşriqin və iki məğribin (iki şərqin və iki qərbin) allahıdır. Şair bu sifəti də öz mürşidinə (rəhbərinə) aid edir və onun əzəmətini, rütbəsini və şöhrətini təqdir edir.

Bu surənin 26-cı ayəsində deyilir ki, "hər gün allah bir şə'ndədir". Şair göstərir ki, hürufilik gündən-günə yayılır, onun cəmiyyəti artır, Fəzlüllah hər gün yeni-yeni şöhrət qazanır. Qur'andakı bu ayədə onun bugünkü və gələcək şöhrətindən xəbər verilmişdr.

Nəsiminin fikrincə, Qur'anın "Rəhmən" surəsi mehriban Fəzlüllahın şə'ninə deyilmiş sözlərdir. Hər bir kamil hürufi belə bir mərtəbəyə çatə bilər. Dünyada insandan əşrəfi məxluq yoxdur.

LÜĞƏT

İxtisarlar:

(Az.)-azərbaycanca
(ə)- ərəbcə
(t)- türkcə
(f)- farsca
(ə-f)- ərəbcə farsca
(f-ə)- farsca ərəbcə

A

Ab (f) - su
Abdal (t.) - abdal; yurdsuz-yuvasız dərviş; Əfqanıstanda xalq (qəbilələr); Anadoluda yaşayan köçəri qəbilələr; küt (adam); elmsiz, tərbiyəsiz, avara.
Abid (ə) - ibadətlə məşğul olan.
Abi kövsər - dini əfsanəyə görə guya behiştdə olan bir çayın suyu; məc. şərab, içki.
Abi-həyat - dirilik suyu.
Ağu (ağı) - zəhər; məc. çox açı şey.
Aydırmaq (Az.) - demək, başa salmaq.
Ayət (ə) - əlamət, simvol, mö'cüzə, nişanə; qur'an surələrindəki ayrı-ayrı cümlələr. Ayəti-kərim-qur'an.
Ayruq (ayrıq) (Az.) - başqa, xüsusi, ayrıca.
Al (Az.) - parlaq, qırmızı rəng.
Al (ə) - nəsil ailə, övlad, oğul-uşaq; hiylə; məkr.
Altun (t) - qızıl.
Arzuməmd (Arizuməmd) (f) - arzulayan, istəyən.
Ari (Az.) - təmiz, saf, büllur.
Ariz (ə) - üz, yanaq; təbii və əsli olmayan, sonradan əmələ gələn.
Am (*Amm*) - ümumi; kütlə; xalq, kütləvi, avam, qara camaat; Məhəmmədin nəslindən olmayan.
Asar (ə) - əsərlər.
Asi - itaət etməyən; üsyançı, günahkar; özündən çıxan, coşan.
Afaq (ə) - üfüqlər; aləm, dünya; görüş, bilik dairəsi; məc. mənzərə, görünüş.
Aftab (f) - günəş.
Aşüftə (f) - dağınıq, qarmaqarışıq, həyəcanlı; məc. dəlicəsinə aşiq, vurğun.
Axər (ə) - başqa, özgə; nəhayət, son, axır.
Axirüzzəman (*Axırzaman*) (ə) - dünyanın sonu, qiyamət günü (dini) şiələrin 12-ci imamı Mehdinin ləqəblərindən biri.

B

Bab (ə) - qapı, kitab və ya hər hansı əsərin bölünmüş olduğu hissələr, fəsil, məsələ, mövzu və s.
Bad (f) - külək, yel; boş yer; yox olma, məhv olma, Badi səba - sabah yeli, meh.

Bazu (f) - qolun çiyindən dirsəyə qədər hissəsi; məç. qüdrət, qüvvə, əzəmət.
Bandırmaq (t) - sulu şeyin içinə buraxaraq isladıb yumşaltmaq, batırmaq, salmaq.
Batin (ə) - iç, iç tərəf; gizli.
Bahir (ə) - gözəl, üstün; açıq, aşkar.
Başəd (f) - ola bilər, olsun ki, ehtimal və s.
Beyt (ə) - ev, iki misradan ibarət şe'r.
Beytül-Müəzzəm (ə) - əzəmətli ev (Kə'bəyə verilən ad).
Beytül-həram (ə) - Məkkədə müqəddəs ad, Kə'bəyə verilən ad, müqəddəs mə'bəd.
Besyar (bisyar) (f) - çox, çoxlu, bol.
Bəqa (ə) - daimlik, əbədilik; davam etmə; varlıq (fəlsəfədə).
Bəqəm (ə) - kampeşağa. Mərkəzi və Cənubi Amerikada bitən ağac.
Bəğayət (f) - olduqca, son dərəcə, çox.
Bə'd (f) - sonra.
Bədgu (f) - tökmək, yamanlayan, dalca danışıq, qeybətçi, qeybət, dedi-qodu.
Bədr (ə) - on dörd gecəlik ay, bütöv ay, məc. gözəl üz, sima.
Bəid (ə) - uzaq; yad; qəribə.
Bədri-müəmməm (ə) - əmmaməli; on dörd gecəlik pisliyə danışan, hər kəs haqqında pis sözlər söyləyən.
Bəzl (ə) - bol-bol sərf etmə; əsirgəməmə; bağışlama.
Bəzm (f) - məclis, yığıncaq, kef məclisi.
Bəyan (ə) - anlatma, söyləmə; nağıl etmə (təhkiyə); gözəl.
Bəg (*bəy*) (t) - boyun, varlı; irəli gələn adam, hakim, əmir vali.
Bəlakeş (ə-f) - bəla çəkən, başıbəlalı.
Bən (t) - xal.
Bərq (ə) - ildırım; parıltı, parlama.
Bərdar (f) - dara çəkilmiş, dar ağacından asılmış; bar verən, meyvə verən, xeyir verən, mənfəət verən.
Bəriyyə (a) - çal, səhra, biyaban.
Bərkəmal (f-ə) - tamamilə, büsbütün; tam mükəmməl; nöqsansız, qüsursuz.
Bərk (f) - yarpaq; bərki nəsrin-nəstərən çiçəyinin yarpağı; itburnu.
Bəlaş (f) - alim, elmi, şəhər və hökmdar adı.
Bəsir (ə) -yaxşı görən, mə'nəvi gözlə (qəlb gözü ilə) görə bilən; gözü-açıq, fərasətli.
Bəstə (f) - bağlı. Bəstehi-neş cəhət (ə-f) dünyaya bağlı (şəxs).
Bəhr (ə) - dəniz, böyük çay, göl, Bəhri - mühit-okean. Bəhri-fəna-sufizmdə mə'nəvi təkamülün yeddinci mərtəbəsinin vüs'ətli və dərin aləmi.
Bəşarət (ə) - şad xəbər, gözaydınlığı, muştuluq.
Bibədəl (f-ə) - əvəzsiz, misilsiz, məc.- son dərəcə gözəl.
Bibər (f) - meyvəsiz, barsız.
Bidad (f) - ədalətsizlik, zülm.
Bidayət (ə) - başlanğıclar.
Bidar (f) - oynaq; ayıq, sayıq; məc. xəbərdar (adam)
Bilxatimə (ə) - axırda, sonda; nəticədə.
Bimar (f) - xəstə.
Bina (ə) - tikili, təməl, əsas niyyət, başlama, ilk mərhələ.
Bina (f) - görən, məc. gözüaçıq, ayıq-sayıq.

Bistü həşt (f) - iyirmi səkkiz və otuz iki. Ərəblərin 28, farsların 32 hərfi.
Bihəmta (f) - tayı və bərabəri, bənzəri olmayan.
Bica (f) - yersiz, nahaq yerə, əbəs, yaramaz; məc. boş, mə'nasız.
Bişümar (f) - saysız, hesabsız.
Büka (ə) - ağlama.
BüləND (f) - uca, ali.
Büləcəb (ə) - təəccüblü, qəribə.
Bünyad (f) - təməl, özül.
Bürqə (ə) - üz örtüyü, rübənd, niqab.
Büryan (f) - yanmış.
Bürhan (ə) - sübut, dəlil, isbat.
Büti-əyyar (ə) - hiyləgər gözəl.

C

Ca (f) - yer, məkan, məhəl.
Cavidan (f) - əbədi, daimi.
Cadu (f) - sehr, sehrbazlıq; məc. göz.
Cam (f) - şüşə, qədəh, piyalə, kasa, cami-Cəm, Cəmşidin camı (əfsanəyə görə İran şahı Cəmşidin dünyadakı bütün şey və hadisələri göstərən qədəhi).
Canfəza (f) - ləzzət verən, zövqləndirən.
Cahandar (f) - hökmdar.
Cə'd (ə) - qıvrım saç, qıvırcıq saç.
Cə'l (ə) - saxta, düzəltmə.
Cəlis (ə) - birlikdə oturan, yoldaş.
Cim (ə) - ərəb əlifbasında "c" hərfinin adı, məc. camal, gözəllik; zülf.
Cəng (f) - vuruş, döyüş, dava. Cəngi-məğlubə - böyük müharibə, qanlı döyüş.
Cəngi (f) - bir neçə adam tərəfindən çox iti şəkildə oynanılan Azərbaycan xalq oyun havası, əsgər, döyüşçü, hərbi, döyüşə zidd olan.
Cərəs (ə) - zəng, zınqırov.
Cəhim (ə) - cəhənnəm.
Cinan (ə) - cənnətlər, behiştlər.
Cifə (ə) - leş, qoxumuş cəmdək; məc. sərvət, var-dövlət; cifeyi-murdar - murdar, qoxumuş, cəmdək, dünya.
Cud (ə) - comərd, əliaçıqlıq.
Cuş (f) - qaynama, coşma.
Cüda (f) - ayrı, ayrılmış, uzaq düşmüş.
Cüz' (ə) - qisim, parça, hissə, Qur'anın otuzda bir hissəsi.
Güllab (ə) - gülab, gül suyu, işlətmə dərmanı.
Cürm (ə) - günah, təqsir, qəbahət, yazıq, fağır; planet.

Ç

Çun (f) - necə ki, elə ki.
Çü - indi ki, kimi, tək, təki.
Çakər (f) - nökər, qulluqçu, kölə.
Çapuk (f-Az.) - cəld, iti, yeyin.

Çeşm (f) - göz; məc. ən sevimli; çeşmi-giryan - ağlar göz.
Çəndan (f) - nə qədər, o dərəcədə.
Çəri (t) - qoşun.
Çərəs (ə) - zəng, zınqırov.

D
Dam (f) - tər, tələ, cələ, həbsxana, məc. hiylə, kələk. Dami-bəla - bəla toru.
Dar (ə) - böyük ev, yer, məkan.
Darüssəlam (ə) - dinclik evi (şiələrin Nəcəf şəhərinə verdikləri ad, vaxtı ilə Bağdada verilən ad, dindarlara görə cənnət.)
Deyr - monastr, kilsə, məc. şərab satılan yer.
Dəğa (f) - hiylə, xəbislik, hiyləgər, xəbis.
Dəvazdeh - on iki.
Dəvat (ə) - mürəkkəbqabı.
Də'vi (dəva) (ə) - dava, tələb, iddia.
Dəm (f) - nəfəs, nəfəs çəkmə, zaman, an, ləhzə;
Dəm (ə) - söhbət; göz yaşı.
Dəmidə - böyümüş, yetişmiş (nəbatət haqqında).
Dəmsaz (f) - uyuşma, uydurma, yoldaş.
Dəndan (f) - diş.
Dər (f) - qapı.
Dərban (f) - qapıçı.
Dərbədər (f) - avara, sərsəri, sərgərdan.
Dərdmənd (f) - dərdli, dərd çəkən, dərd sahibi, məc. aşiq, vurğun.
Dərgah (f) - qapı önü, qapı, saray.
Dəstar (f) - köməkçi, yardımçı.
Dəhan (f) - ağız.
Dəhr (ə) - zaman, dövr, dünya, aləm, təbiət, məc. tale, fələk.
Dəhri-fəna (ə) - puç, fani, dünya (dini).
Dəccal (ə) - islamiyyətdə qiyamət günü, eşşəyə tərsinə minərək zühur edəcək əfsanəvi şəxs, 12-ci imam Mehdinin əvəzində zühur edən yalançı Mehdi; məc. yalançı, fırıldaqçı.
Divan (f) - böyük məclis, rəsmi məclis.
Didə (f) - göz.
Dideyi-giryan (f) - ağlar göz, ağlayan göz.
Dilbər (f) -"Ürək aparan", məc. gözəl, sevgili.
Dilkeş (f) - ürək çəkən, könül cəlb edən.
Dilpəzir (f) - ürək istəyən, könül tutan, ürəyəyatan, istəkli, sevimli.
Dildar (f) - könül alan gözəl, sevgili, ürəkli, cəsur.
Dindar (ə) - ərəb xəlifələrində köhnə qızıl pul, sonralar qəpiyə bərabər pul vahidinin ən kiçik hissəsi.
Dirmğ (f) - əsirgəmə, qıymama, əfsus, heyf.
Dud (f) - tüstü. Dudi-dil "ürək tüstüsü", məc. kədər, dərin kədər, ah-nalə.
Duz (f) - yandırma, yandırıcı.
Duzəx (f) - cəhənnəm.

Dun (ə) - alçaq, razil, aşağı.
Duş (f) - dünən gecə, keçən gecə.
Dürc (ə) - kiçik qutu, sandıqça.
Düca (ə) - qaranlıq.
Düşvar (f) - çətin.
Dürr (ə) - inci. Dürri-nasüftə. "deşilməmiş dürr"; məc. kilsə tərəfdən söylənməmiş söz; dürri-yetim - bir sədəf içərisində tək bir dənə çox iri mirvari; dürri şahvar - iri mirvari.
Dürri-şahvar — iri mirvari.
Dürd (f) - qədəh, və ya piyalənin dibində qalan şərab, torta, xırt.

Ə

Əbd (ə) - qul, kö'lə.
Əbir - xoş qoxu, xoş iy.
Əbkəm (ə) - dilsiz, lal.
Əbr (f) - bulud, Əbri-neysan - neysan buludu, əbri-tirə, əbri-siyah - qara bulud.
Ərdu (f) - qaş.
Əbsar (ə) - gözlər.
Əbsəm (ə) - dilsiz, lal.
Əbhər (ə) - nərgiz çiçəyi, məc. göz, gözəl göz, gözəl adam.
Əbcəd (ə) - qədim ərəb əlifbasında ilk dörd hərf, əlifba, müəyyən bir tarixi və ya rəqəmi ərəb hərfləri vasitəsilə ifadə etmək üsulu, məc. ibtidai bilik, az savad.
Əqiq (ə) - qiymətli qırmızı daş.
Əğyar (ə) - yadlar, özgələr (Azərbaycan dilində tək kimi də işlədilir), yad, özgə, tanış olmayan.
Ədvar (ə) - dövrlər (dövrün cəmi).
Ədəm (ə) - yoxluq, ölüm.
Ədn (ə) - məc. cənnət, behişt.
Ədu (ə) - düşmən.
Ə'zəm (d) - ən böyük, ən görkəmli.
Əzim (ə) - böyük, ulu, ali, yüksək; əhəmiyyətli, çox mühüm.
Əzimət (ə) - yola düşmə, məram, niyyət, əzm.
Əzrəq (ə) - göy rəngi, mavi.
Əzhar (ə) - çiçəklər, güllər.
Əyyam (ə) - günlər, zaman, zəmanə, dövr.
Əyyar (ə) - hiyləgər, hiyləbaz, kələkbaz, dolandırıcı, avara.
Ələm (ə) - ağrı, acı sancı, kədər, qəm, qüssə, dərd; əlamət, nişan, işarə, bayraq.
Əlif (ə) - ülfət edən, aşna, dost; ərəb əlifbasında işarəsi ilə yazılan hərfin adı, məc. düz bədən, qədd-qamət.
Ələst - guya allahın insanları yaratdığı gün "ələst buyurduğu zaman, bəşərin ilk yaranışı", "ələst günü", "ruzi-ələst".
Əlfaz (ə) - sözlər, ləfzlər, ifadə.
Ə'ma (ə) - kor, nadan, məc. korluq, məc. nadanlıq.
Əmin (ə) - qorxusuz, qorxmaz, şubhə etməyən, xatircəm olan, təhlükəsiz (yer), əmanət saxlayan, inanılmış, sakit, nadinc olmayan (uşaq).

Ən'am (ə) - bir işə görə hədiyyə vermə, bəxşiş vermə, bəxşiş, hədiyyə.
Ənasir (ə) - ünsürlər, (çar ənasir). Ənasiri-ərbə'ə - torpaq, su, od, hava.
Ənbər (ə) - kaşalot adlı dəniz heyvanının ifrazatından hasil edilən gözəl ətir. Ənbəri-sara - təmiz, xalis, saf ənbər. Ənbərsa. Ənbərəfşan - ənbər saçan, ənbər ətrini səpən. *Ənbərbu* - ənbər ətri.
Ənvar (ə) - nurlar, işıqlar.
Ənvər (ə) - çox işıqlı, çox parlaq, ənvəri-ləmyəzəl - əbədi nur.
Ənqa (ə) - Qaf dağında yaşayan əfsanəvi bir quş, məc. adı olub, özü olmayan şey.
Ənbiya (ə) - nəbilər, peyğəmbərlər.
Əndək (f) - az, bir az.
Əndəlib (ə) - bülbül.
Əndişə (f) - düşüncə, fikir, dərd, maraq. Əndişeyi-xam - xali fikir
Ənduh (f) - qəm, qüssə, qayğı.
Ənsar (ə) - köməkçi, tərəfdar, islam dininin tə'sis və intişafına xidmət etmiş Mədinə əhlinə verilən ümumi ad, məc. yaxın adam.
Ənsə (t) - boyun ardı, arxa.
Ənis (f) - yaxın adam, yoldaş, həmdəm.
Ənfas (ə) - nəfəslər.
Əncüm (ə) - ulduzlar.
Ə'rab (ə) - çöldə yaşayan ərəblər, ərəblər.
Ərbədəcu (ərbədəci) (ə-f) - qovğa və gurultu axtaran, dava salmağı sevən, qovğaçı, davakar.
Ərvah (ə) - ("ruhun" cəmi), ruhlar.
Ərğəvan (f) - qırmızı rəngində gözəl gül adı; məc. qırmızı.
Ərəs (Az.) - ərəsvar - Araz çayı kimi.
Ərs (ə) - yer, torpaq, ölkə, diyar.
Ər'ər (ə) - ardıc, ardıc kolu; sərv, sərv ağacı.
Ərrə (f) - mişar, bıçaq.
Ərkan (ə) - ruknlər, böyüklər, ayinlər, qaydalar.
Ərsə (ə) - boş yer, meydan, geniş düzən.
Ərş (ə) - qübbə, taxt-tac, köhnə hey'ət elmində 9-cu və ən uca göy, göy səma. Ərşi-ə'la - çox uca göy; Ərşi-fələk - fələk, yüksək fələk.
Əsbab (ə) - səbəblər, alətlər.
Əsdaf (ə) - sədəflər.
Əsma (ə) - adlar ("İsmin" cəmi).
Əsrar (ə) - sirlər, hind kəndiri deyilən və tütün kimi çəkilib insanı kefləndirən bir bitkinin adı.
Əsrük (Az.) - sərxoş, əsrəmək - sərxoş olmaq.
Əsfəl (ə) - aşağı, alçaq, ən aşağı hissə (hər hansı şeyin).
Əsfələssafilin (ə) - ən aşağı, alçaq, cəhənnəm, cəhənnəmin yeddinci təbəqəsi.
Əscüda - bax şərhə.
Əta (ə) - vermə, bağışlama, hədiyyə.
Əttar (ə) - ətir satan.
Əfai (ə) - əfa'nın cəmi, əfalar, zəhərli ilanlar.
Əfqan (ə) - nalə, fəryad.

Əflak (ə) - fələklər.
Əfrad (ə) - fərdlər.
Əfşan (f) - saçan, səpən, səpələyən.
Əxtər (f) - ulduz, bəxt, tale. Səidəxtər - xoşbəxt.
Əhbab (ə) - dostlar, sevimli, istəkli.
Əhya (ə) - dirilmə, yeniləşmə.
Əşcar (ə) - (şəcər'in cəmi) ağaclar.

F
Fazil (ə) - fəzilət sahibi, fəzilətli, gözəl əxlaqa malik olan, üstün, yüksək, artıq, çox.
Fasiq (ə) - günahkar, pis işlər görən, fisqü fücur sahibi.
Faş (f) - açıq, aşkar, faş olunmuş, meydana çıxmış, ifşa olunmuş.
Fəqiy (ə) - fəqih, fiqh alimi, ilahiyyət elmi ilə məşğul olan alim,
Fərağat (ə) - vaz keçmə, əl çəkmə, istirahət, boş vaxt; fərağat mülkü - vaz keçiləsi dünya.
Fərda (f) - sabah, ertəsi gün; məc. gələcək zaman.
Fərdiyyət (ə) - təklik, təkbaşınalıq, xüsusilik, yalnızlıq.
Fərzənd (f) - oğul, övlad, uşaq.
Fəriştə (f) - mələk, mələikə, məc. çox gözəl və mülayim təbiətli; məc, mə'sum.
Fərxəndəhal (ə) - xoşbəxt, uğurlu.
Fərş (ə) - döşənəcək, ayaq altına salınacaq şey, döşəmə, yer üzu.
Fəsih (ə) - fəsahətlə danışan.
Fətə (ə) - cavan, gənc.
Fəttan (ə) - fitnəkar, araqarışdıran; məc. könül açar, cazibəli, məftunedici.
Fəth (ə) - açma, başlama, şüru etmə, zəbt etmə, istila etmə, alma, (bir-ölkəni, bir şəhəri) qalibiyyət, zəfər.
Fiqh (ə) - şəriət elminin ayrı-ayrı məsələlərindən bəhs edən elm, şəriət qanun-qaydalarını şərh edən xüsusi elm.
Filməsəl (ə) - məsələn, misal olaraq, xalq arasında məşhur olan.
Filhal (ə) - bu saat, tez, indi, hazırda.
Firdövs (f) - bağça, cənnət, behişt.
Firişta (fərişta) (f) - mələk, mələikə; məc. mə'sum, günahkar, çox: gözəl və mülayim təbiətli: firiştə-xu - mələk xasiyyətli, gözəl.
Fövt (ə) - əldən qaçırma, əldən çıxarma, ölüm.
Fürqan (ə) - Qur'anın ikinci adı, ayrılma, ayırd etmə, dərk etmək, tanıma, xeyir ilə şər, haq ilə nahaq arasındakı fərqi göstərən, ayırd edən.

G
Gərdiş (f) - əldən-ələ gəzmə, gəzinti, seyr, dolanma.
Gərdişi-devran (f-ə) - zəmanə.
Gərdişi-çərxi-fələk (f-z) - fələyin (göy sferasının) haldan-hala, vəziyyətdən-vəziyyətə düşməsi.
Gənc (f) - xəzinə, dəfinə.
Gənci-nihan (f) - gizli xəzinə.
Giriban (f) - yaxa.

Giriftar (f) - tutulmuş, dustaq, əsir, düşkün, mübtəla, düçar; məc. aşiq, vurğun.
Giryan (f) - ağlayan, ağlaya-ağlaya, ağlayaraq, ağlar.
Gövhər (gühər) (f) - inci, cavahir, daş-qaş, bir şeyin əsli, mayası.
Gövhəri-şahvar (f) - çox iri dənəli inci, şaha layiq inci.
Gövhər şikən//gühərşikan - gövhər deşən, nadir söz deyən.
Göftar (f) - söhbət, söz, danışıq.
Guş (f) - qulaq, diqqət.
Güvah (f) - şahid.
Gülbərk (f) - gülyarpağı, qızılgül yarpağı; gülbərki-tər - təzə gül yarpağı.
Güli-ariz (f-ə) - gülüzlü.
Günbəd (günbəz) (f) - qübbə, yarımdairə şəklində tavan, göy qübbəsi.
Günbədi-dəvvar (f-ə) - dolanan günbəz, göy, səma.
Gülrüx (f) - gülüzlü, gülyanaqlı.
Gülüstan (f) - güllük, çiçəklik.

Ğ
Ğəbğəb (f) - buxaq.
Ğəni (ə) - varlı, dövlətli.
Ğərib (ə) - yaxın

H
Hadi (ə) - doğru yol göstərən, düz yola çağıran, izçi, bələdçi; hadiyi-gümrah - yolunu azmış bələdçi, azqın yol göstərən.
Hasid (ə) - paxıl, həsəd aparan.
Hafiz (ə) - saxlayan, qoruyan, Qur'anı əzbər bilən adam.
Haşimi (ə) - Məhəmməd peyğəmbərin ata tərəfindən mənsub olduğu nəsil, haşimilər sülaləsi.
Heyvan (ə) - dirilik, sağlıq, həyat, abi-heyvan - dirilik suyu.
Heydər (ə) - aslan, şir; məc. igid, cəsur.
Həba (ə) - narın toz; məc. bihudə, əbəs.
Həbib (ə) - sevilən, sevgili, dost.
Həbl (ə) - ip, kəndir.
Həqqülyəqin (ə) - yəqinlik dərəcəsinə çatmış həqiqət, inkaredilməz həqiqət.
Hədis (ə) - yeni, təzə, sonradan zühur etmiş, sonradan vücuda gəlmiş, rəvayət, hadisə, xəbər, peyğəmbərin, imamların kəlamı (dini).
Həzar (f) - bülbül; min.
Həzər (ə) - saqınma, çəkinmə, ehtiyat etmə.
Həkim (ə) - mütəfəkkir, filosof, bütün fənlərə və elmlərə vaqif adam, alim, təbib, doktor.
Həlavət (ə) - şirinlik, dad, ləzzət, zövq.
Həlqəbkuş (ə-f) - qulağı halqalı (qul).
Həmra (ə) - qırmızı, qızıl; laleyi-həmrə - qırmızı lalə.
Həmsan (f) - oxşar, kimi bənzər.
Həmta (f) - bənzər, oxşar, tay, tay-tuş, cur.
Həmul (ə) - dözümlü.

Hənnanə (ə) - başqa kişiyə meyl göstərən ərli qadın.
Hənuz (f) - hələ, hələ ki, indi, indicə, bu saat.
Həram (ə) - yasaq olunmuş, qadağan edilmiş, toxunmaz, müqəddəs.
Hərami (ə) - haram mala əl uzadan, yolkasən, soyğunçu.
Hərif (ə) - sənət yoldaşı, həmməsləк, kef, oyun yoldaşı, kücdə, birlikdə və s.-də bərabər olan, düşmən, rəqib.
Həsud (ə) - həsəd aparan.
Həft (f) - yeddi.
Həcər (ə) - daş.
Həşəmət (ə) - əzəmət, dəbdəbə.
Həşr (ə) - toplama, bir yerə yığma, qiyamət günü, qiyamət (dini).
Hidayət (ə) - gətirmə, qoyma, doğru yola çağırma, rəhbərlik, rəhbərlik etmə.
Hilal (ə) - bir neçə gecəlik təzə ay, aypara; məc. klassik şe'rdə gözəlin qaşı mə'nasında.
Himmət (ə) - çalışma, çabalama, cə'y, cəhd, comardlik, qəsd, yüksək fikirlər, düşüncələr.
Hindu (ə) - hində məxsus, hind dili, hind əhalisindən olan hindli, hindu, keçmişdə hərəmxanalarda gözətçi; qara; məc. xal (üzdə).
Hindusifət (f-ə) - hindli kimi qara.
Hirman (ə) - məhrum olma, əli üzülmə, qovulma, xaric olma.
Hicab (ə) - pərdə, örtük, utanma, utancaqlıq.
Hicr (ə) - ayrılıq, ayrılma.
Həccət - rəsmi vərəqə, vəsiqə, sənəd, dəlil, sübut, mübahisə; höccətü-bürhan - mübahisəli məsələni həll edən, qət edən.
Huri (ə) - dini əfsanələrə görə cənnət əhlinə və'd edilən gözəl qızlar; məc. ümumiyətlə gözəl qız.
Huşyar (ə) - ayıq-sayıq, ağıllı, fərasətli, diqqətli, dəqiq.
Hübbülvətən (ə) - vətən sevgisi.
Hüveyda (f) - bəlli, aşkar, zahir.
Hümay (ə) - cənnət quşu, dövlət quşu (xəyali bir quş); məc. uğurluluq, xoşbəxtlik, səadət mə'nasında.
Hücrə (ə) - otaq, kiçik otaq.
Hüccan (ə) - hacılar, Məkkə ziyarətinə gedənlər.

X

Xazin (ə) - xəzinədar, xəzinəçi, anbardar.
Xak (f) - torpaq.
Xalid (f) - ölməz, əbədi, daimi.
Xar (f) - tikan.
Xatəm (ə) - möhür, damğa, üzük, sonuncu, axırıncı, son, axır, müstəsna.
Xasir (ə) - yoldan azan, uğursuz, uduzmuş, baxtalamış.
Xacə (f) -hörmətli, möhtərəm, ağa, sahib, başçı, varlı adam, ticarətçi, tacir, müəllim, şanlı, hörmətli qoca, müdrik şəxs; xoceyi-dəhr - zəmanənin ağası, müdrik şəxsi və s.
Xaşak (f) - çör-çöp, zir-zibil, xırım-xırda.
Xeyrülbəşər (ə) - insanların ən yaxşısı (müsəlmanlarda Məhəmməd peyzğəmbərin

ləqəblərindən biri).
Xeyrül-ən'am - bax: ən'am.
Xeymə (ə) - çadır.
Xəbir (ə) - xəbəri olan, mə'lumatı olan, bilən, başı çıxan bilikli, səriştəli.
Xədəng (f) - ağcaqovaq; ox.
Xəlvət (ə) - təkliyə çəkilmək, yalnız qalma, boş məhəl, ibadət, zikr və rəyazət ilə məşğul olmaq üçun tənha hücrəyə çəkilmək; xəlvətiərbəin—təriqətdə, sufizmdə 40 gün xəlvətə çəkilib zikr ilə məşğul olmaq; xəlvətnəşin - həmin mə'nada.
Xəlvətsəra (xəlvətxanə) (ə-f) - xəlvət ev, hücrə.
Xəluq (ə) - gözəl xasiyyətli, xoşrəftar.
Xəmr (ə) - şərab, badə; xəmri-müsəffa - saf şərab.
Xəndə (f) - gülüş.
Xətib (ə) - məsciddə xütbə oxuyan, gözəl danışan, natiq, nişanlı, inşanlanmış.
Xəfi (ə) - gizli, məxfi.
Xirqə (ə) - bez və ya qumaş parçası, dərvişlərin geydikləri üst paltar, cübbənin altından və gecəköynəyinin üstündən geyilən pambıqlı paltar.
Xişur - (qədim fars dilində) peyğəmbər, rəsul.
Xovf (ə) - qorxu, təhlükə.
Xosrov (f) - hökmdar, padşah; Xosrovi-xuban - gözəllər padşahı, gözəllər gözəli.
Xocəstə (f) - xoşbəxt, uğurlu, mübarək; xocəstəliqa - gözəl üzlü.
Xoşgüvar (f) - ləzzətli, dadlı, asan həzm olunan yeməli və içməli şey.
Xu (f) - xasiyyət.
Xub (f) - yaxşı, qəribə, əcayib, gözəl, göyçək; xuban - gözəllər.
Xun (f) - qan.
Xunab (f) - qanlı su, su ilə qan qarışıq, qanlı göz yaşı.
Xunxar (f) - qaniçən, zalım, qəddar.
Xülq (ə) - xasiyyət, təbiət.
Xüld (ə) - həmişəlik, əbədilik, cənət, behişt; xüldi-bərincənnət, behişt.
Xüllər - Şiraz yaxınlığında özünün yüksək keyfiyyətli al şərabı 'ilə məşhur olan bir yerdir, yüksək keyfiyyətli şərab.
Xümar (ə) - içkidən sonra süstləşmə, ertəsi günün başağrısı, xumarlanan, xumar (göz), kefli, sərxoş, məst.
Xürrəm (f) - şad, sevinc, şən; xürrəmru - üzükülər.
Xüsran (ə) - ziyan, zərər, yanılma, səhv.
Xütur (ə) — xatirə gəlmə, (xatırlama).
Xüşk (f) — quru.

İ

İqrar (ə) - qərarlaşdırma, yerləşdirmə, dil ilə söyləmə, ifadə etmə, söyləmə, boynuna alma, e'tiraf etmə, təsdiq, e'tiraf.
İzz (ə) - izzət, əzəmət, şan, ləyaqət.
İzza (ə) - əziyyət vermə, incitmə.
İzzət (ə) - qiymət, qədr, e'tibar, şərəf, qüdrət, qüvvə, cəlal, hörmət.
İyman (ə) - inanma, inam, e'tiqad.

İkrah (ə) - iyrənmə, nifrət etmə.
İlət (Az.) - çatdır, yetir, göndər.
İlla (ə) - "...dən başqa... dən savayı, yalnız, ancaq" mə'nalarında istisna bildirən ədat.
İltimas (ə) - xahiş, rica.
İmamət (ə) - imamlığ, məzhəb işlərinə rəhbərlik etmə.
İmruz (f) - bu gün.
İnab (ə) - tünd qırmızı rəngində olan iydə növündən meyvə.
İnayət (ə) - qayğı, kömək, hüsn-rəğbət, yaxşılıq.
İrəm (ə) - Şərq əsatirində-Yəməndə olduğu rəvayət edilən əfsanəvi bir bağ; məc. behişt, cənnət.
İrişmək (Az.) - yetişmək, çatmaq.
İsma (ə) - eşitdirmə, dinləmə.
İstiva (ə) - taraz olma, müvazinətdə olma, tarazlaşma, müvazinətləşmə, bərabərləşmə.
İstifham (ə) - soruşub anlama, sual, sorğu.
İtab (ə) - məzəmmət etmə, üzünü danlama.
İttisal (ə) - bitişmə, yapışma, kip olma, möhkəm olma, yaxınlıq.
İşvə (ə) - şivə, naz, qəmzə.

J
Jalə (f) - şeh

K
Kamran (f) - arzusuna çatan, xoşbəxt, kam alan, qüdrətli.
Kan (f) - mə'dən, mə'dən quyusu, bir şeyin bol olan yeri, mənbə.
Kafirkiş (ə-f) - kafir, islam dinində olmayan.
Kaşanə (f) - saray, imarət.
Kəvakib (ə) - ulduzlar.
Kəlb (ə) - it (cəmi: gəlab).
Kəlim (ə) - söhbət edən, müsahib.
Kəlimmüllah (ə) - Musa peyğəmbərin ləqəbi.
Kəmtər (f) - azacıq, lap az, məc. e'tibarsız.
Kəndi (t) - özü.
Kənz (t) - xəzinə, dəfinə.
Kəs (ə) - kasa; qəd. piyalə.
Kəsb (ə) - qazanma, qazanc, ələ keçirmə, sənət, məşğuliyyət.
Kəsrət (ə) - çoxluq, bolluq, həddən ziyadəlik.
Kaffarət (ə) - bağışlanma, günahını yuma, günahın bağışlanması üçün dini cəza.
Kisvət (ə) - paltar, geyim, üst-baş, zahiri görkəm, qiyafə.
Kişvər (f) - ölkə.
Kişvəri-məlahət (f-ə) - gözəllik ölkəsi.
Kövkab (ə) - ulduz, göy cisimlərinin hər biri.
Kövsər (ə) - dini əfsanəyə görə cənnətdə bir bulaq adı.
Külah (f) - papaq.

Küfr (z) - kafirlik, dinsizlik, söyüş.

Q

Qaim (f) - mətanətli.
Qaimməqam (ə) - birinin yerinə keçən, yerini tutan, butün bir qəzanı idarə edən inzibati mə'mur.
Qayət (ə) - son, nəhayət, axır; nəticə, məqsəd; hədd, dərəcə; çox, çoxlu.
Qalubəla (ə) - çoxdan, lap əvvəldən; dini təsəvvürə görə əzəliyyətdən, ata-baba dövründən qalma.
Qansı (Az.) - hansı.
Qasid (ə) - məktub aparıb gətirən adam; yola çıxan, yola düşmüş düşmən; cəhd edən, çalışan, əlçi, qısa (yol); qəsd və niyyət edən.
Qasir (ə) - qısa, gödək; naqis, nöqsanlı; həddi-buluqa çatmamış: gücsüz, zəif, aciz, tə'sirsiz.
Qate' (ə) - kəsən, qıran, üzən, dayandıran, qət edən, iti, kəskin, qəti, möhkəm (adam), çəpər.
Qeyb - hazır olmayan, gözü önündə olmayan, bəlli olmayan şeylər, namə'lum şeylər, gözlə görünməyən aləmi-ruhani (dini), gizli, məxfi.
Qeyb - bağlama, bənd, bağlayacaq şey, bağ, əhəmiyyət vermə, qayğı, fikir, dərd.
Qəbl (ə) - əvvəl, qabaq.
Qədd (ə) - boy, qamət.
Qəddar (ə) - zalım, mərhəmətsiz, amansız, qatı, vəfasız, namərd, xəyanətkar, əhdini pozan.
Qədr (ə) - dəyər, qiymət, e'tibar, hörmət, rütbə, dərəcə, miqdar, kəmiyyət; sözünün üstündə durmama, vəfasızlıq, xəyanət, zülm, rəhmsizlik, zalımlıq.
Qəza (ə) - bədbəxt hadisə, insanın başına gələn hadisə.
Qəyur (Ğəyur) (ə) - qeyrət çəkən, qeyrətkeş, çox çalışan (adam)
Qəllaş (ə) - avara, dərbədər, ədəbsiz, hiyləgər, fırıldaqçı.
Qələndər (f) - dünyadan əl çəkib sərsəri həyat keçirən adam, dərbədər, dərviş, dünyadan əlaqəsnni kəsib həqiqət axtaran filosof.
Qəltan (ə) - diyirlənən, yuvarlanan, yumru, girdə, dəyirmi, bulanan.
Qəmər (ə) - ay.
Qəni (ğəni) (ə) - varlı, dövlətli, malik, zəngin.
Qəncəri (Az.) - necə.
Qətl (ə) - öldürmə, qırğın. Qətli-am - ümumi qırğın, ucdantutma qılıncdan keçirmə; qətli-nəfs - qırğın, adam öldürmə.
Qəfa (ə) - arxa, qoşun arxası, başın pey'ən hissasi, baş.
Qəhr (ə) - qəzəb, hirs, hiddət, məcbur etmə, tabs etmə.
Qissə (ə) - hekayət, nağıl, təhkiyə, tarix. Qisseyi-fərda.
Qissəxan (ə) - nağıl, danışan, naqqal.
Qövl (ə) - söz, danışıq, danışmaq, söz vermə, və'd etmə.
Qövlən (ə) - sözlə, sözdə.
Qövm (ə) - qohum-əqrəba; tayfa, bir nəsildən olan.
Qövsi-quzeh (ə) - göy qurşağı, qarı nənə örkəni.
Qutlu (Az.) - xoşbəxt.

Qubar (ə) - toz; narın torpaq; məc. kədər, qüssə, qəm.
Qürs (ə) - dairəvi şey; otaqın havasını təmizləmək üçün odla yandırılan ud ağacı, ənbər və s; girdə və yastı dərman, həb.

L
Lazəlul (ə) - ram olmayan, inadında davam edən, inadlı, tərs.
Layə'qəl (ə) - ağlı başında olmayan, ağılsız, dəli, divanə
Layəzal (ə) - əbədi, həmişəlik.
Layəmut (ə) - ölməz, əbədi.
Laməkansız (ə) - məkanı olmayan, yeri bilinməyən (allah), yurdsuz, yuvasız.
Lat (ə) - islamiyyətdən qabaq ərəblərin ibadət etdikləri bütlərdən birinin adı.
Laübali (ə) - səhlənkar, qeydsiz, təklifsiz, çəkinmədən; özünə zəhmət verməyən.
Lacərəm (ə) - şübhəsiz, əlbəttə, nəhayət, xülasə, lazımdır, gərəkdir.
Laşe (f) - dəyərsiz, heç bir dəyəri olmayan (şey), əhəmiyyətsiz bir şey, mə'nasız şey, boş şey.
Laşərik (ə) - ortağı olmayan, şəriki olmayan.
Leyk (leykən) (f) - lakin.
Leyl (ə) - gecə.
Leylü nəhar (ə) - gecə və gündüz.
Lisan (ə) - dil.
Lövh (ə) - taxta, yazı taxtası, lövhə, səhifə.
Lövhi-məhfuz (ə) - allahın bütün göstərişləri yazılmış lövhə, kitab.
Ləzzat (ə) - „ləzzət"in cəmi, ləzzətlilər, xoşa gələnlər.
Lə'in (ə) - məl'un, lə'nətlənmiş.
Lə'l (ə) - yaqut növündən al rəngli qırmızı daş, həmin daş rəngində olan, al qırmızı (dodaq, şərab). Lə'li-Bədəxşan - Bədəxşanda hasil edilən lə'l; lə'li şəkərbar - çox şirin, ləzzətli lə'l (şərab, dodaq və s.)
Ləm'ə (ə) - parıltı.
Ləmyəzəl (ə) - həmişəlik, əbədi, daimi, ölməz.
Ləfz (ə) - söz, gəlmə, deyilmiş, tələffüz.
Ləh (ə) - birinin xeyrinə, yaxşılığına, həmçinin „onun üçün" mə'nasında da işlənir.
Ləhv (ə) - oyun, əyləncə, faydasız iş, şərab düşkünü kimi gün keçirmə.
Ləhvü ləəb (ə) - oyun-oyuncaq.
Ləvhə (ə) - bir baxış, bir nəzər, bir kərə göz qırpan.
Ləhzəbələhzə - anbaan, hər an.
Ləşgər (f) - qoşun, ordu.

M
Ma (ə) - su. ma (y)i-zülal-saf, duru su; ma (y)i-təhur - pivə, şirə; ma'i-mə'ni - mə'na suyu, bir şeyin iç mahiyyəti.
Malamal (ə) - dopdolu, lap dolu.
Mar (f) - ilan.
Masi vəllah (ə) - allahdan başqa, allahdan savayı. Mah - kalendar ayı.
Mahi-siyam (f-ə) - orucluq ayı; Mahi-bədr, mahi-tamam - dolğun ay.

Me'rac (ə) - çıxılacaq yer, nərdivan, göyə çıxma (dini rəvayətə görə, Məhəmməd peyğəmbərin göyə çıxıb səyahət etməsi).
Mehr (ə) - günəş.
Mehri-münəvvər (ə) - parlaq, işıqlı, nurlu günəş.
Mehrab (ə) - məscidlərdə qiblə cəhətdəki divarda qayrılmış oyuq, məc. üz çevriləcək yer, ədəb. Sevgilinin qaşına işarə, qaşın təşbihi.
Meşkat (ə) - divarda oyuq, taxça, camaxatan, lampa üstündə divarda oyuq.
Məad (ə) - qayıdılacaq yer; məc, axirət, o dünya.
Məani (ə) - („mə'na"nın cəmi), mə'nalar, stilistika, ritorika.
Məbada (f) - olmaya, saqın, çəkin.
Məbud (ə) - allah, ibadət olunan, bütpərəstlərin ibadət etdikləri büt, ulduz, günəş, ay və s.
Mə'va (ə) - məskən, yurd, mənzil.
Məqal (ə) - söyləmə, söz, mövzu; atalar sözü, məsəli; zərbülməsəl.
Məqsud (ə) - niyyət olunan, arzu edilən, niyyət edilmiş, arzu edilmiş, məqsəd.
Məğrib (ə) - günbatan, qərb; günəşin batdığı vaxt, axşam, qərb cəhətindəki ölkələr, Afrikanın (Misirdən başqa) şimal sahili boyundakı ölkələr.
Məğfur (ə) - haqsızlığa uğramış, haqqında haqsızlıq edilmiş, aldadılmış, xəyanət qurbanı olmuş, xəyanət nəticəsində ələ verilmiş.
Məzid (ə) - artma, çoxalma, artmış, çoxalmış, böyümüş.
Məzhər (ə) - bir şeyin zahir olduğu yer, təzahür, yetişmə, nail olma.
Məzhəri-zülməlal (ə) - (allahın) zahir olduğu yer.
Məkkar (ə) - hiyləgər, aldadan, bic.
Məkr (ə) - biclik, hiylə, aldatma.
Məgəs (f) - milçək.
Məcəsvar (f) - milçək kimi.
Məlal (ə) - usanma, sıxılma, təngə gəlmə, hüzn, kədər, qəm.
Məlamət (ə) - məzəmmət, qınama, danlaq, qaxınc.
Mə'lul (ə) - əlil, şikəst; bir şeyin nəticəsi olan.
Məlul (ə) - kədərli, kədərlənmiş, qüssəli, usanmış, bezmiş.
Mə'mur (ə) - əmr alan, bir işə tə'yin olunan.
Mə'mur (ə) - tikintili, abad, əhalisi olan, camaatı çox olan yer; məc. aləm, kainat.
Mənzur (ə) - baxılan, nəzər salınan, nəzərdə tutulan, məc. məqsəd, niyyət.
Mə'ni (mə'na) (ə) - məzmun, mövzu, məsələ, məc. səbəb.
Məs'ud (ə) - xoşbəxt.
Məscud (ə) - səcdə olunan (allah, büt və s.)
Məşi (ə) - yeriş, hərəkət, rəftar.
Mənzər (ə) - görünən yer, görünüş, surət.
Məlәkmənzər - mələk kimi gözəl, misilsiz gözəl.
Mənnanə (ə) - mərhəmətli, səxavətli (qadın) öz ərinin boynuna minnət qoyan dövlətli (qadın).
Mənşur (ə) - yayılmış, aşkara çıxmış, nizamnamə.
Mərdüm (f) - insan, adam, bəşər.
Mərdüm (f) - göz bəbəyi.
Mərcə' (ə) - qayıdılan yer, müraciət olunan yer, adam.

Mətlə (ə) - günəşin və ya başqa ulduzun çıxması, tülu, günəşin və ya başqa ulduzun doğduğu yer, qəzəlin ilk beyti.
Mətlub (ə) - istənilən, tələb edilən, arzu olunan, alacaq, borcludan istənilən (pul).
Mətlub (ə) - istənilən, arzu olunan.
Məf'ul (ə) - olunmuş, edilmiş, ərəb qrammatikasında tə'sirlik, yönlük, çıxışlıq və yerlik halları.
Məxzən (ə) - anbar, xəzinə.
Məhal (ə) - mümkün ola bilməyən, çətin, qeyri-mümkün.
Məhbit (ə) - müdşəcək yer, eniləcək yer.
Məhbub (ə) - sevgili, sezilmiş, dost.
Məhək (ə) - gümüş və qızılın əyarını yoxlamaq üçün xüsusi daş; məc. bir şeyin cinsini və ya dəyərini göstərən şey, me'yar, məc. həyatın sınağı, həyat təcrübəsi.
Məhr (ə) - kəbin, kəbin zamanı ər tərafindən arvadı üçün tə'yin olunan pul və s. nigahlıq.
Məhrəm (ə) - yaxın dost, qohum. Məhrəmi-raz - sirdaş.
Məhruz (ə) - saxlanılmış, mühafizə edilmiş, qorunmuş, gözlənilmiş, hafizədə, yaddaşda saxlanılan, əzbər edilən, əzbər edilmiş.
Məcmər (ə) - manqal.
Məcruh (ə) - yaralı, yaralanmış, biabır edilmiş, e'timada, e'tibara layiq görülməyən.
Məşkuk (ə) - şübhəli, şəkk törədən, şübhə doğuran.
Məşrəb (ə) - içilən yer, içki qabı, xasiyyət, həvəs, meyl.
Məşriq (ə) - şərq, günəşin doğduğu yer və ya tərəf.
Məşrut (ə) - şərtli, bir şərtlə bağlı olan, şərtlənmiş, şərt edilmiş, şərtə görə tələb olunan.
Məşşatə (ə) - gəlin və qızları bəzəndirən qadın, bəzəkçi.
Miad (ə) - qayıtma, qayıdış yeri.
Mir'at (ə) - güzgü, ayna.
Misbah (ə) - çıraq, fənər, lampa.
Miştah (ə) - açar.
Mövla (ə) - sahib, yiyə, cavab, ağa, hami, havadar.
Mövt (ə) - ölüm.
Mövc (ə) - dalğa, ləpə.
Mö'min (ə) - dindar, qatı dindar.
Mö'tədil (ə) - orta, mülayim; aza qane olan; mütənasib.
Möhtəməl (ə) - ehtimal olunan, mümkün olan, dözülən, təhəmül olunan.
Möhtəmil (ə) - ehtimal edən, dözən.
Möhtəcib (ə) - gizlənən, örtülmüş, bürünmüş.
Mö'ciz (ə) - mö'cüzə, xariqə, xariqüladə, ancaq xəyalda mümkün ola bilən.
Müayinə (ə) - baxış, müşahidə, təftiş, yoxlama.
Mübah (ə) - izin verilmiş, mümkün ola bilən, şəraitcə haram və ya məkruh olmayan şey.
Mübəddəl (ə) - dəyişdirilmiş, əvəz edilmiş, çevrilmiş, döndərilmiş, başqa şəklə və hala salınmış.
Mübəssir (ə) - baxıcı, nəzarətçi.
Müvəhhəd (ə) - bir, tək, yeganə, ərəb əlifbasında bir nöqtəli hərf.

Müvəhhid (ə) - allahın birliyinə inanan.
Müqəddəm (ə) - qabaqda olan, irəlidə olan, qabaqkı, qabaq, əvvəl, irəli sürülən, qabağa qoyulan, başçı, rəis, rəhbər, sələf.
Müqəyyəd (ə) - bağlı, maraqlanan, asılı, sərbəst olmayan, qayğısına qalan, düşünən, maraqlanan.
Müqim (ə) - oturan, duran, yaşayan, sakin, daimi, həmişəlik.
Müqtəda (ə) - təqlid edilən adam, dalınca gedilən adam, rəhbər, başçı.
Müəlla (ə) - yüksək, uca.
Müddəi (ə) - iddiaçı, iddia edən adam, haqsız yerə bir şey tələb edən, məc. rəqib.
Müdəvvər (ə) - girdə, kürə şəklində olan, dairə şəklində olan, dəyirmi.
Müənbər (ə) - ənbərli, ənbər ətirli, ənbərlə ətirlənmiş, ənbər qoxulu.
Müəttər (ə) - ətirli, ətirlənmiş.
Müjgan (f) - kirpiklər (“müjə”nin cəmi)
Müzəffər (ə) - fəth və zəfərə nail olan, talib, bir işə müvəffəq olan.
Müin (ə) - köməkçi, yardım edən, kömək, arxa.
Müyəssər (ə) - asanlıqla əmələ gələn, əmələ gəlməsi mümkün olan, mümkün, uğurlu olan, müvəffəqiyyətli, uğurlu.
Mükərrəm (ə) - möhtərəm, hörmətli, səxavətli, əliaçıq, comərd.
Mümtəni' (ə) - mümküi olmayan, əlçatmaz, mümtəneyi-cövhər, - əlçatmaz cövhər.
Münəvvər (ə) - nurlandırılmış, işıqlandırılmış, işıqlı, nurlu, parlaq.
Münəzzəh (ə) - günahdan və cinayətdən təmiz, uzaq olan, günahsız, xətasız, təqsirsiz, təmiz, namuslu, qüsursuz (adam); məc. alicənab.
Münzəl (ə) - endirilən, aşağı düşürülən.
Münzil (ə) - endirən, aşağı düşürən.
Münkir (ə) - inkar edən, danan, inanmayan, inamsız.
Müntəhi (ə) - çatan, bitən, tamamlanan.
Münfəil (ə) - bir şeydən tə'sirlənmiş, həyəcanlanmış, utanan, utançaq, xəcalətli, xəcaləti olan.
Mürğ (f) - quş.
Mürsəl (ə) - göndərilmiş, yollanmış, elçi, peyğəmbər.
Mürşid (ə) - yol göstərən, rəhbər, nəsihətçi, bələdçi, müridlərə rəhbərlik edən təriqət başçısı.
Müsəvvər (ə) - rəsmlər və şəkillər ilə bəzədilmiş, rəsmi çəkilmiş, təsvir edilən, rəsm edilmiş, təsvir olunan; düşünülən, müəyyən bir şəklə malik olan.
Müsəlsəl (ə) - silsiləli, silsilə şəklində olan, zəncir kimi bir-birilə bağlı olan, bitişik, arasıkəsilməz.
Müsəmma (ə) - adlandırılmış, adlanan.
Müsəffa (ə) - saflaşdırılmış, saf hala gətirilmiş.
Müstəğni (ə) - ehtiyacı olmayan, varlı, qəni.
Müstəmənd (ə) - yazıq, biçarə, zavallı, dərdli.
Müstəcab (ə) - istəyi yerinə yetirilən, xahişi qəbula keçən.
Müshəf (ə) - lülə halında bükülmüş yazılı kağız, kitab, Qur'an.
Müttəle' (ə) - bir işdən xəbərdar, mə'lumatı olan.
Mütrib (ə) - çalğıçı, sazanda, xanəndə, rəqs edə-edə mahnı oxuyan.
Mütəhhər (ə) - təmiz, pak, pakizə.

Müfərrəh (ə) - fərəhlənən, şadlanan, sevinən. Müfərrəhi-dil - ürək sevinci.
Müxalif (ə) - zidd, əks, uyğun olmayan, məqsədə uyğun, klassik muğamlardan birinin adı.
Müxəmmər (ə) - mayalanmış, turşuyub qabarmış (xəmir).
Müxlis (ə) - səmimi olan, səmimi, xalis olan, xalis.
Müxtəre' (ə) - ixtira edən, icad edən, yaradan. Müxtəreyi-vücud - vücudun nəqşlərini icad edən, allah.
Mühavir (ə) - söhbət, danışıq, müsahibə.
Mühəqqəq (ə) - təhqiq olunmuş, doğruluğu müəyyən edilmiş, doğru, gerçək, yəqin.
Mühib (ə) - sevən, məhəbbət bəsləyən, dost.
Mühit (ə) - əhatə edən, bir şeyin ətrafını alan, çevrə, okean.
Müşk (mişk) (f) - ətirli maddə.
Müşrik (ə) - bütpərəst, islam dinində olmayan.

N
Nab (f) - xalis, saf, təmiz.
Navək (f) - ox.
Nay (f) - ney, qamış, qarğı, qamışdan qayrılmış tütək.
Nalan (f) - nalə edən, inləyən, ağlayan.
Nagəhan (f) - qəflətən, gözlanilmədən, birdən-birə.
Nam (f) - ad, şöhrət, san, ünvan.
Nar (ə) - od, atəş, cəhənnəm; məc. dərd, qəm.
Nafe (ə) - faydalı, mənfəətli, xeyirli.
Nafə (f) - xüsusi cinsdən olan ahunun göbəyindəki müşk kisəsi.
Naseh (ə) - nəsihət verən, öyüd verən nəsihətçi.
Naci (ə) - qurtulan, nicat tapan.
Nəvalə (ə) - bəxşiş, ehsan, pay, hissə.
Nədamət (ə) - peşmanlıq, peşmançılıq.
Nədidə (f) - görünməmiş.
Nəimə (ə) - ne'mət, bolluq, rifah içində yaşama.
Nəməd (f) - keçə.
Nəng (f) - eyib, ar, bədnamlıq. Namü nəng (nam-nəng) şöhrət və ya biabırçılığa səbəb olan iş, hərəkət.
Nəsrin (ə) - ağ rəngli bir çiçək, nəstərən çiçəyi, itburnu.
Nəfxə (ə) - üfürmə, şişirtmə, şitmə; nəfxi (nəfxeym) İsa - Isa peyğəmbərin ölüləri dirildən nəfəsi (dini); nəfxi (nəfxeyi-sur) - İsrafilin qiyamət günü sur çalması.
Nəcat (ə) - qurtulma, xilas olma, nicat.
Nəcəs (nəcasət) (ə) - murdarlıq, pislik, nəcislik.
Nəşat (ə) - sevinc, şadlıq, kef.
Nizar (f) - arıq, zəif, xar.
Nikk (*Niku*) (f) - yaxşı, xoş; xuyi niku - xoş, yaxşı xasiyyətli, təbiətli.
Nisar (ə) - saçma, səpmə, dağıtma, toyda şabaş verilən pul, qurban.
Nisyan (ə) - unutma, yaddan çıxarma.
Nihad (ə) - yaradılmış, zat, təbiət. Kafirnihad (ə-f) kafir təbiətli.
Nihal (f) - cavan ağac, fidan.

Nihan (ə) - gizli saxlanmış, gizli, məxfi, qaib.
Noh (f) - doqquz, qədim astranomlara görə, göyün doqquz qatı (fələyin sferası).
Nun (ə) - ərəb əlifbasında hərfin adı; məc. əyilmiş bel, qaşın təşbihi.
Nüquş (ə) - naxışlar.
Nüktə (ə) - incə mə'na, bir söz və ya ibarədən çıxarılan dərin mə'na.
Nükteyi-əsrar (ə) - sirlərin incə mə'nası.
Nüsxə (ə) - yazılı bir şeydən çıxarılan surətlərdən hər biri, yazılı bir şeyin müxtəlif əlyazmaları, həkimin yazdığı dərman kağızı, resept, tilsim duası (dini).

O
Ovla (ə) - birinci, ilk, daha yaxşı, ən münasib, ən əlverişli, hamıdan artıq, bəyənilən, başqalarından üstün tutulan.
Ovi (ə) - kömək, yardım, köməkçi, yardımçı.
Ovnəkallah (ə) — allah köməyin olsun!

Ö
Övliya (ə) - ata və ananın uşaqları, nəsil, "və'li"nin cəmi.

P
Payan (f) - son axır, nəhayət, uc, kənar.
Payəndə (f) - daimi, həmişəlik; sürəkli; uzun zaman davam edən.
Payi-bəst (f) - ayağı bağlı.
Paymal //Pamal (f) - ayaq altında qalan, təpikaltı, ayaqaltı; məc. məhv olan.
Peyvəstə (f) - həmişə, daimi, birləşmiş, birləşdirilmiş, bitişik, bir-birinə geydirilmiş, çatma (qaş).
Peyğam (f) - xəbər, sifariş.
Peykər (f) - bədən, cüssə, əndam, surət, cöhrə, üz, rəsm edilmiş, nəqş edilmiş.
Peykəri-məhparə (f) - ay parçası kimi gözəl çöhrəli, gözəl üzlü, simalı.
Peymanə (f) - əhd, iqrar, söz vermə, ölçü qabı, şərab piyaləsi, qədəh; məc. qafa tası.
Pəyam (peyam) (f) - xəbər, mə'lumat, müraciət, xitab.
Pənd (f) - öyüd, nəsihət.
Pənc (f) - beş, beş duyğu (görmə, eşitmə, iybilmə, dadma, toxunma).
Pərva (f) - qorxu, xətər, rəğbət, meyl, taqət, səbr, ehtiyat.
Pərgar (f) - dairə çəkmək üçün işlənən alət, sirkul, yığıncaq, cəmiyyət, bacarıqlı; məc. kainat, dünya.
Pərçin (f) - taxtalardan düzəldilmiş barı, hasar.
Pəs (f) - indi, bu halda, buna görə; arxa, geri, ard.
Pəsəndidə (f) - bəyənilmiş, qəbula keçən, xoşa gələn.
Pəşminəpuş (f) - yun parçadan paltar geyən zahid, sufi.
Pişva (f) - rəis, başçı, rəhbər.
Pust (f) - dəri, qabıq, cild.
Pül (f) - körpü, püli-sirat - sirat körpüsü (dini əfsanəyə görə, guya qiyamətdə imtahan gunü hamının keçəcəyi qıl körpü).
Pür (f) - dolu, dolğun, çox.
Pürcəfa (f) - çox əziyyət verən, çox zülmkar, çox incidən.

Pürsəfa (f-ə) - çox səfalı.
Püstə (f) - püstə (meyvə);
Püsteyi-xəndan - yetişmiş püstə, gülər, dodaqlar, təbəssümlü dodaqlar.
Pürxun (f) - qanla dolu, yaralama, yaralı; məc. çox kədərli, iztirablı.
Pürşər (f-ə) - şərli, şər ilə dolu, fitnə-fəsadlı.
Pürşur (ə) - çox coşğun, həyəcanlı.
Püşt (f) - arxa, dal, bel.

R

Raz (f) - sirr, gizli şey; razi-dar - evin sirri. Ev sirri, razi-muğan - muğların, arif adamların, burada hürufilərin sirri, rahi-həq - allah yolu, Həqiqət yolu, burada Fəzlüllahın təriqəti, hürufilərin məsləki.
Rayigan (f) - müftə, havayı.
Rah (f) - yol, məslək, üsul, hava, mahnı, rahi-din - din yolu; rahi-həqq - allah yolu.
Rahib (ə) - monastrda yaşayan tərki-dünya.
Rəbb (ə) - allah, yiyə, sahib; rəbbülaləmin - hər iki dünyanın yaradıcısı, allah.
Rəqq (ə) - qədimdə üzərində yazı yazılan incə dəri, bağa, tısbağa.
Rəmim (ə) - çürük, çürümüş.
Rənc (f) - zəhmət, əziyyət, narahatlıq.
Rəxt (f) - qoşqu ləvazimatı, ev avadanlığı (yataq, döşənəcək və s), səfər ləvazimatı, paltar.
Rəhiq (ə) - çox saxlanılmış şərab.
Riqq (ə) - qul, qulluq.
Rizvan (ə) - islam əsatirinə görə, cənnətin gözətçisi və qapıçısı olan mələyin adı; məc. behişt, cənnət.
Riya (ə) - ikiüzlülük.
Riyah (ə) - ("rih"in cəmi) yellər.
Rind (ə) - hiyləgər, zirək, qorxusuz, heç şeydən çəkinməyən, hər şeyi danan, qeydsiz və laübalı adam, rindi-xərabati - (xərabi) xərabata mənsub olan xərabati.
Rövzə (rövzə) (ə) - bağça, axar suyu və çəməni olan bağça; məc. behişt, cənnət; rovzeyi-rizvan - cənnət gözətçisi və qapıçısı olan mələikə; rovzeyi-xüld - cənnət bağı, behişt,
Rövşən (Rovşan) (f) - işıqlı, aşkar, aşkar; rövşən qılmaq - aydınlaşdırmaq, çatdırmaq.
Rö'yət (ə) - görmə, görüş, yetirmə, nəzarət, bir işə baxma, müzakirə edib həll etmə.
Ru (*rux*) (f) - üz, çöhrə, səth; məc. abır-həya.
Ruz (f) - gün, gündüz, ruzi-şənbə - şənbə günü; ruzi-həşr - qiyamət
Ruhəfza (*ruhfəza*) (ə-f) - ruhlandıran, canlandıran, könül açan.
Rükn (ə) - bir şeyin ən möhkəm və ən sağlam tərəfi, özül, dirək, söykənəcək, sütun, istinadgah; məc. bir cəmiyyətin, təriqətin və s. ən e'tibarlı dayağı olan görkəmli şəxs.
Rümuz (ə) - rəmzlər ("rəmz"in cəmi).
Rüxsar (f) - üz-çöhrə.

S

Saqi (z) - su verən, su paylayan və satan, içki məclisində içki paylayan; saqiyi-dövran - zəmanənin saqisi, zəmanə; saqiyi-vəhdət - vəhdət, vücud, birlik təriqətinin başçısı.
Sağər (ə) - şərab piyaləsi, qədəh.
Sail (ə) - soruşan, sual edən, dilənən, dilənçi.
Sayə (f) - kölgə; məc. himayə, vasitə.
Sayru (Az. arx.) - xəstə.
Saleh (ə) - yaxşı, yararlı, səlahiyyəti olan, ixtiyarı olan, dinin əmrlərinə uyğun hərəkət edən.
Same' (ə) - eşidən, qulaq asan, dinləyən.
Sane' (ə) - düzəldən, qayıran, sənətkar, usta; məc. allah.
Sara (f) - xalis, saf.
Sahibnəzər (ə) - fərasətli, zəkalı, mə'rifətli, düşüncəli.
Səcid (ə) - səcdə edən.
Seylab (ə) - sel suyu, sel halında şiddətlə axar su.
Seyf (ə) - qılınc.
Səbqət (ə) - keçmə, irəliləmə, önə keçmə.
Səb'əxan (ə-f) - Qur'anın yeddi hissəyə bölünmüş hissələrindən birini oxuyan.
Səbukbar (f) - yüngül yüklü, çox yükü olmayan; məc. yüngül (adam).
Səvad (savad) (ə) - ölkə, vilayət; səvadi-ə'zəm - ən böyük ölkə, ən böyük vilayət.
Səqim (ə) - xəstə, naxoş, düzgün olmayan, qəlp (qəlb), saxta.
Səd (f) - yüz.
Sə'd (ə) - bəxtiyarlıq, xoşbəxtlik, uğurluluq, astrologiyaya görə, uğurlu, xoşbəxtlik ulduzu.
Sədy (ə) - əmcək, məmə, döş.
Səyyar (ə) - gəzən, dolaşan, seyr edən, hərəkət edən, bir yerdən başqa yerə köçürülə bilən, daşına bilən.
Səlat (ə) - namaz, dua, dəfn günü vəfat edənin evinin üstündə uca səslə oxunan minacat.
Səlah (ə) - yaxşılıq, bir şeyin bəyəniləcək bir surətdə olması, sülh və asayiş.
Sələf (ə) - 1. bir işdə o birindən qabaq olmuş adam, köhnə adam, ata-baba: 2. öyünmə, özünü tə'rifləmə.
Səlib (ə) - xaç.
Səlib (ə) - sağlam, eyibsiz, nöqsansız, doğru, dürüst.
Səlsəbil (ə) - yüngül və ləzzətli su (guya cənnətdə olan əfsanəvi bir çeşmənin adı).
Səmən (f) - yasəmən ağacı və gülü.
Səmənbər (f) - sinəsi yasəmən kimi ağ.
Səmənsa (f) - yasəmən kimi ətirli və gözəl.
Səng (f) - daş.
Səngxarə (f) - çaxmaqdaşı.
Sənubər (ə) - şam ağacı, küknar ağacı; məc. gözəlin bəy qaməti.
Sənc (f) - ölçən, ölçü, miqdar, müqayisə (tutuşdurma).
Sər (f) - baş, kəllə, təpə, zirvə; başçı, rəis; uc, kənar, son, nəhayət, ibtida, əvvəl; məc. həyat, varlıq, can.
Səra (f) - ev, saray, qəsr; sərayi-fani - fani ev, saray (dünya).

Sərab (f) - bulaq, çeşmə və çayın başlanğıcı, sakit və aydın havada çöldə uzaqda su kimi görünən və işığın in'ikasından törəyən optik hadisə, ilğım; məc. xəyal puç ümid.
Sərv (f) - cənubda bitən həmişəyaşıl ağac; sərvi-xuraman - nazlı-nazlı gəzən.
Sərvər (f) - başçı, rəis; məc. ucaboylu, nazlı gözəl.
Sərdəftər (f) - giriş, müqəddimə.
Sərəfraz (f) - başqalarından seçilən, başı uca.
Sərgəştə (ə) - heyran, çaşmış, başını itirmiş.
Sərməst (f) - sərxoş, kefli.
Sərtapa (f) - başdan-ayağa kimi, tamamilə; başdan-başa.
Sərtasər (sərtəsər, sərasər) (f) - başdan-başa, bütünlüklə, tamamilə.
Səfdər (ə) - cəsur, qəhrəman, qorxmaz.
Səham ("səhm"in cəmi) (ə) - ox.
Səfhə (ə) - üz, bir şeyin düz üzü, bir cismin görünən xarici tərəflərindən hər biri, səhifə, incə taxta, lövhə; məc. dövr.
Səhba (ə) - qızıl, şərab, badə, məc. xurmayı saçlı (adam).
Səhi (f) - qədd-qamətli, düz.
Səhl (ə) - asan, yüngül.
Səhm (ə) - qorxu.
Səhi (ə) - həyət, orta, aralıq, meydan, böyük kasa, səhnə.
Siyam (ə) - oruc, oruc tutma, orucluq; mahi-siyam - orucluq ayı.
Sim (f) - gümüş, gümüş pul, tar və s. bu kimi çalğı alətlərinin teli.
Simbər (simtən) (f) - bədəni gümüş kimi ağ, ağbədənli, gözəl.
Simin (f) - gümüşdən qayrılmış, gümüş kimi ağ və saf.
Sümizər (f) - qızıl-gümüş.
Sipər (f) - qalxan, daldalanacaq, sığnaq, günəş və yağışdan qorunmaq üçün pərdə və s. müharibədə oxdan, güllədən qorunmaq üçün sədd.
Sipəh (sipah) (f) - qoşun, ordu.
Sirat (ə) - yol, dini əfsanəyə görə, cəhənnəm üzərində qurulmuş qıl körpü.
Sovgənd (f) - and, and içmə.
Sonmaq (sunmaq) (Az. arx) - içmək.
Soud (ə) - ("sə'd"in cəmi) xoşbəxtlik, uğur, ulduzların uğurlu tə'siri, ulduzların uğurlu düzülüşü (astroloqların əqidəsinə görə) səadət ulduzu.
Suz (f) - alışma, yanma, göynəmə, acıma, acınma; məc. kədər, qüssə; suzi-dərd - dərd yanğısı.
Suzan (f) - yandıran, yaxan, göynəyən, acışan, məc. kədərli, qəmli.
Sur (ə) - böyük buynuzdan qayrılmış boru, şeypur; suri-İsrafil - dini e'tiqada görə, qiyamət günündə İsrafil adlı mələyin çalaçağı şeypur, İsrafilin şeypuru.
Süvar (*səvar*) (f) - at və s.-yə minmiş, minici, atlı.
Süvər ("surət"in cəmi) (ə) - surətlər.
Sürahi (ə) - uzunboğazlı su və ya şərab şüşəsi.
Süxən (f) - söz, nitq.
Süha (ə) - göyün şimal tərəfində görünən kiçik bir ulduz.
Sünud (ə) - namaz və ya ibadət zamanı üzü yerə sürtmə, səcdə etmə.

Ş

Şabaş (f) - afərin! Əhsən!; Toylarda oynayanlara, çalğıçılara, verilən pul.
Şadan (f) - sevincək, məmnun.
Şayəd (f) - ola bilər ki, bəlkə, ehtimal ki.
Şakir (ə) - şükr edən, təşəkkür edən.
Şanə (f) - daraq, çiyin.
Şafi (ə) - şəfa verən, yaxşılaşdıran, qənaətləndirici.
Şahvar (şəhvar) (f) - hökmdara layiq, şaha münasib.
Şeyda (f) - dəlicəsinə vurğun.
Şeş (f) - altı.
Şəb (ə) - gecə.
Şə'ban (f) - ərəb təqvimində səkkizinci ayın adı.
Şəbistan (f) - yataq otağı; şahların hərəmxanası; dərvişlərin ibadətlə məşğul olduqları və yatdıqları yer, hücrə.
Şəbi-hicr (ə-f) - ayrılıq gecəsi.
Şəbrəng (f) - gecə rəngində olan, qara; İran əsatirində Səyavuşun atının adı, odda yanan neft qoxulu qara bir daş.
Şəbxun (f) - gecə basqını.
Şəqaiq (ə) - laləgülü, xoruzgülü.
Şəqq (ə) - yarma, çatlama, yırtma, parçalama, qırma, sındırma, yarıq, çatlaq.
Şəqqülqəmər (ə) - ayın parçalanması (islam əsatirinə görə, guya Məhəmməd peyğəmbərin mö'cüzəsi olaraq ayın iki parçaya bölunüb yerə enməsi); mö'cüzə, xariqə.
Şəddad (ə) - əsatirə görə, Yəmən ölkəsində (Ərəbistanda) yaşamış çox zalım bir hökmdar; məc. zalım, sərt, qaba.
Şəkərdəhan (f) - şirindil, şəkərağızlı.
Şəkəristan (f) - şəkər qamışı tarlası.
Şəkərxa (f) - şəkər çiçəyi; məc. gözəl danışan.
Şəm' (ə) - bal, mum, şam.
Şəmail (ə) - təbiətlər, xasiyyətlər, şəkil, əks, surət.
Şəms (ə) - günəş, gün.
Şəng (f) - gözəl, ədalı gözəl, göyçək; oğru, quldur, mubaliğə etmə.
Şərif (ə) - şərəfli, mübarək, müqəddəs, nəcib, əsil.
Şəhd (ə) - şan balı.
Şəhnə (ə) - keçmişdə şəhərin inzibati işlərinə baxan və xüsusilə gecə zamanı nizam-intizamı qoruyan mə'mur, darğa.
Şəhriyar (f) - hökmdar, padşah.
Şə'bəə (ə) - parlaqlıq, parıldama, dəbdəbə, təmtəraq.
Şivə (f) - tərz, üslub, naz, işvə, əda, ləhcə, tələffüz.
Şikar (f) - ovlama, ov, ovlanan heyvan, qənimət.
Şikən (f) - qıran, sındıran; qıvrım, qırış, bürüşük
Şimdi (Az.) - indi.
Şirk (ə) - şərik olma, əlbir olma, bütpərəstlik, çoxallahlılıq.
Şuridə (f) - qarışıq, dağınıq; aşiq, vurğun.
Şurü şər (fuə) - hay-küy, qışqır-bağır, gurultu-partıltı.

Şum (ə) - uğursuz, bədşüküm.
Şümar (f) - say, hesab; yara.
Şühud (ə) - gözlə görmə, müşahidə, hazır olma, mövcud olma; şahidlər.

T
Tab (f) - qüvvət, güc, taqət, zəhmət, əziyyət, dözmə; işıq, ziya, yanma, işıq saçma; buruq, qıvrım, eşmə, eşilmə (sap, ip, saç və s.).
Taban (f) - parlaq, parıldayan, işıqlı.
Təbəndə (f) - parlayan, işıq verən, işıq saçan.
Tabiş (f) - parlama, parlayış.
Təq (ə) - yarımdairə şəklində qapı, pəncərə və sairənin üstü, qübbə, günbəz, əzilmiş, bükülmüş mə'nasında da işlənir.
Tamat (ə) - çərə-pərən sözlər, cəfəngiyat.
Tamu (t) - cəhənnəm.
Taif (ə) - dönən, dolanan, dövrə vuran.
Tapu (t) - xidmət, qulluq, səcdə (allah qarşısında), sədaqətlə qulluq etmək, hörmət etmək.
Tahir (ə) - təmiz, pak.
Təalallah (ə) - allah yüksəkdir; məc. nə gözəl! Nə yaxşı!
Təbarək, (ə) - mübarək olsun! Mübarəkdir!
Təbarəkəllah (ə) - Nə gözəl! Nə yaxşı! Nə əcəb!
Təvəlla (ə) - ianə edilmiş əmlak üzərində nəzarət, bir adamın dostluğunu qazanmaq üçün təşəbbüs.
Təqvim (ə) - kalendar, cədvəl.
Təqsim (ə) - bölmə, hissələrə ayırma.
Təyyib (ə) - yaxşı, xoş.
Təl'ət (ə) - üz, sifət, sima, görkəm, zahiri görünüş, tülu etmə, çıxma (günəş).
Tənab (ə) - ip, örkən.
Tənbur (f-ə) - saza oxşar üç simli dartımlı musiqi aləti.
Tənzil (ə) - endirmə, aşağı salma (ərəblərdə bu söz qur'ana aid edilir), güzəşt, əksiltmə.
Tərəb (ə) - sevinc, şənlik, şadlıq, fərəh.
Təriq (ə) - yol, məslək, vasitə, səbəb, tərz, üslub.
Tərar (ə) - cibkəsən, oğru, doladırıcı
Tərsa (f) - xristian, xaçpərəst.
Tərəhhüm (ə) - rəhm etmə, yazığı gəlmə, acıma.
Tərcüman (ə) - tərcüməçi, dilmanc.
Təsbeh (ə) - təsbeh, dua.
Təsəlsül (ə) - zəncirləmə, zəncir kimi bir-birina bitişib uzanma, əlaqə, rabitə, arasıkəsilmədən, nəsildən-nəsilə keçib davam etmə.
Tətəbbö' (ə) - ətraflı öyrənmə, tədqiq etmə, araşdırma, mütaliə, ardınca getmə, izləmə
Təfərrüc (ə) - qəm-qüssəni dağıtmamaq, ürəyi açılmaq üçün gəzməyə, seyrə çıxma, gəzmə, gəzinti, seyr.
Təfriqə (ə) - fikir ayrılığı, ikitirəlik, ayrılma, dağınıqlıq, pərakəndəlik, pərişanlıq.

Təfsir (ə) - mə'nasını izah etmə, şərh etmə.
Təhəyyür (ə) - heyran olma, heyrətə düşmə, mat-məəttəl qalma.
Təhəmmül (ə) - qatlaşma, səbr etmə, dözmə.
Təhiyyə (ə) - salam, salam vermə, xeyir-dua vermə.
Təhsin (ə) - bəyənmə, bəyənib əhsən demə, alqışlama, afərin.
Təşəbbüh (təşəbböh) (ə) - bənzətmə, oxşatma, tay olma.
Təşnə (f) - susamış, susuz; məc. çox həvəskar, arzukeş.
Tiq (f) - qılınc, xəncər, ülgüc.
Timar (f) - baxma, qulluq etmə, qayğısına qalma.
Tinət (ə) - maya, əsil, zat, təbiət, xasiyyət.
Tüng (f) - sürahi, qrafin.
Tir (f) - yaydan atılan ox, dirək; Merkuri planeti, göy üzündə bəzən axan kimi grünən od parçası, iti, sur'ətlə gedən; məc. igid, zirək.
Tirkeş (f) - oxqabı, oxdan.
Tovhid (tövhid) (ə) - bir neçə şeyi birləşdirmə, allahın birliyinə inanma (dini).
Türab (ə) - torpaq, toz; məc. qəbir, məzar.
Tüsmək (*tütər*) (Az.) - od tutub yanmaq, tüstülənmək.
Tütün (Az. arx.) - tüstü.
Tüccar (ə) - tacirlər.

U
Ud (ə) - Hindistanda bitən və yandırıldıqda xoş iy verən ağacın adı; simli şərq musiqi aləti.
Ulaşmaq (Az.) - yetişmək, çatmaq.
Ur (ə) - puç, batil, eyib, ar, lüt, çılpaq.
Uçmağ (Az.) - cənnət, behişt.

Ü
Üqba (ə) - axirət, o biri dünya.
Üqd (üqdə) (ə) - düyün; məc. həlli çətin olan iş, müşkül məsələ, insanın son dərəcə arzu edib, nail ola bilmədiyi və qəlbində nisgil və düyün kimi qalan şey.
Üqud ("iqd"in cəmi) (ə) - boyunbağılar.
Üqul ("əql"in cəmi) - ağıllar, ağıl, idrak.
Üzar(ə) - yanaq, üz.
Üluləbsar (ə) - bəsirət, sahibləri, uzaqgörənlər (bax bəsirət).
Ümman (ə) - böyük dəniz, okean.
Ümmət (ə) - xalq, millət, icma, bir peyğəmbərin dininə mənsub olan adamlardan ibarət icma.
Üşşaq (ə) - aşiqlər, muğamatda, şö'bə.

V
Vala (f) - uca, yüksək, ali.
Vali (ə) - vilayətin bütün işlərini dolandıran hökumət mə'muru.
Varid (ə) - yetişən, gələn.
Varmaq (Az.) – getmək, çatmaq, yetişmək.

Vasil (ə) - çatan, yetişən, qovuşan.
Vahib (ə) - bağışlayan, hədiyyə verən.
Vahid (ə) - tək, bir, yalnız.
Vahidiyyət (ə) - təklik, vahidlik, birlik.
Vey (f) - o (şəxs əvəzliyi); görə, dəfə; "və ey"in qısaldılmış forması.
Vəbal (ə) - günah, təqsir, xəta, yaramaz hərəkət, cavabdehlik; ağırlıq, əzab.
Vəli (ə) - lakin, amma.
Vəli (ə) - hami, himayəçi; yaxın dost; qəyyum; ağa.
Vərd (ə) - qızılgül. Vərdi-həmra qırmızı qızılgül.
Vərtə (ə) - uçurum, su burulğanı; qorxunc yer, təhlükəli yer.
Vəsm (ə) - damğa, dağ; pişan, əlamət; heyvanı dağlama.
Vəh (f) - bəh! bəh-bəh! əcəb! pah!
Vəhdət (ə) - birlik, allahın birliyinə inanma; yalqızlıq, təklik, vahidlik.
Vəhid (ə) - yalnız, tək; misilsiz.
Vəhy (ə) - bir fikir və hökmün allah tərəfindən peyğəmbərə xəbər verilməsi (dini).
Vəhm (ə) - əsassız və əsli olmayan fikir, xəyal; şübhə; yersiz qorxu.
Vəch (d) - üz, sima, surət; üst, səth; ön, alın; üsul, tərz; səbəb, vasitə; pul, vəsait; yol, vasitə; ad, şöhrət; imtiyaz, üstünlük; qiymət, dəyər.
Vəchüllah (ə) - allahın siması, təzahürü.
Vürüd (ə) - gəlmə, yetişmə, çatma.
Vüslət (ə) - aşiqin sevgilisinə qovuşması, vüsalı.

Y

Yavuz (Az.) - çox gözəl, ə'la, lap yaxşı, şiddətli, çox sərt və tünd, yaman
Yarğu (Az.) - hökm vermək, davanı kəsmək, mübahisəli bir məsələni həll etmək; bədnəzər, yaman göz.
Yarın (t) - sabah, gələcək.
Yasin (ə) - qur'anda bir surənin adı.
Yezdan (f) - qədim zərdüştilərin e'tiqadınca xeyir allahı.
Yekdanə (f) - tayı olmayan, misilsiz, çox az, nadir.
Yekrəng (f) - bir rəngli, bir qayda üzrə olan; məc. razı.
Yeksən (f) - başdan-başa, bütün tamamilə, birdən, bir dəfədə.
Yekta (f) - tək, yalnız, nadir, tayı və bərabəri olmayan, misilsiz.
Yekcəhət (f) - birtərəfli, birüzlü, ardıcıl, əlbir.
Yegrək (t) - daha yaxşı, başqasından daha yaxşı bəyənilən.
Yelək (Az.) - donun baş tərəfinin enli hissəsi, qolsuz, gödək paltar.
Yəğma (f) - çalıb-çapma, qarət etmək, birinin malını zorla əlindən almaq.
Yələk (t) - Quş qanadının böyük tükü, bir növ qolsuz önü açıq qədim paltar növü.
Yüküş (öküş) (Az.) - çox.

Z

Zağ (f) - qarğa.
Zail (ə) - daimi olmayan, müvəqqəti, fani, keçib gedən, keçici, batan (ay və günəş haqqında).
Zar (f) - ağlayan, nalan, inləyən, dərmansız, çarəsiz, çıxılmayan vəziyyət.

Zat (ə) -sahib, yiyə.
Zat (ə) - mahiyyət, əsl cövhər, şəxs. Zati-kibriya - allah adlarından biri.
Zahid (ə) - ibadətlə məşğul olan, pəhrizkar, asket, həyat, varlıq, yaşayış.
Zey - həyat, varlıq, yaşayış.
Zəbər (f) - üst, üstdə, üstdə.
Zəval (ə) - tələf olma, məhv olma, key cisimlərinim batması.
Zəlal (ə) - doğru yoldan azma, yolu itirmə, azma.
Zəmir (ə) - iç, hər şeyin iç üzü, batin, ürək, bir şeyin daxili.
Zəngi (f) - qara adam, zənci, zənci dili.
Zəmin (d) - zaman; yer, parçanın (qumaşın yerliyi), anlayış, məfhum.
Zinhar (f) - ay aman, saqın, ehtiyatlı ol! Aman, pənah, təhlükəsizlik, himayə.
Zir (f) - alt, altda, alta, ziri-dəst - əlaltı.
Zill (ə) - kölgə, himayəçi, hami; Zilli hümay - dövlət quşunun kölgəsi, uğurluluq, xoşbəxtlik, səadət mə'nasında.
Zövrəq (ə) - qayıq.
Ziba (f) - bəzəkli, zinətli, yaraşıqlı, gözəl.
Zində (f) - diri, yaşayan, ruhlu, canlı, diribaş, sağlam.
Zindədil (f) - dindar, mö'min, zahid, gümrah.
Zöhid (ə) - pəhrizkarlıq, dinin qadağan etdiyi şeylərdən çəkinmə, saqınma, vaxtını ibadətə sərf etmə, tərki-dünyalıq.
Zübdə (ə) - ən bəyənilmiş, seçilmiş hissə.
Zülal (ə) - sərin, duru və şirin su, yumurtağı maddəsi.
Zülmat (ə) - zülmətlər, qaranlıqlar, əfsanəvi dirilik suyunun olduğu qaranlıq dünya.
Züm (ür)rüd (ə) - yaşıl rəngli, qiymətli daş (zəlalət).
Zülfüqar (ə) - ikiağızlı qılınc, şiələrin birinci imamı Əlinin ləqəbi.
Zünun (ə) - zənnlər, düşüncələr, fikirlər.
Zünnar (ə) - xristanların riyazət əlaməti olmaq üzrə altdan bədənlərinə sarıdıqları sərt qurşaq.

Turkiston Kutubxonasi
Turkistan Library
Туркестанская Библиотека

www.turklib.ru
www.turklib.uz
www.turklib.com